# Çingiz Abdullayev-NAMƏRDİN ÜSLUBU

eKitabxana

Çingiz Abdullayev

# NAMƏRDİN ÜSLUBU

*O, mübarizəsiz təslim olanlardan deyil...*
*Qəlbən yeni bir mərhələnin yaxınlaşdığını, yeni mübarizənin başlandığını hiss edirdi. Bu yeni mübarizə üsulu isə əvvəllər apardıqlarına bənzəmirdi və bəlkə də elə bu səbəbdən daha çətin olacaqdı.*

***Corci Amadu***

***«Qabriela, darçın və mixək»***

**eKitabxana** – Android & İOS mobil tətbiqi

# *BAŞLANĞIC*

Evə çox gec qayıdırdı. Adətən, qonaq getməyi sevmirdi. Amma bu dəfə onu telefonla uzun illər dostluq etdiyi köhnə tanışı çağırmışdı. Dəvəti rədd etmək mümkün deyildi, bir də ki, niyə rədd etməliydi? Bəzən belə görüşlər onun sürprizlərlə dolu həyatına bir növ stabilliyə oxşar bir rəng qatır.

... Moskvanın qaranlıq küçələrində gəzintilər təhlükəsiz deyildi. O da qaranlıq dalanların yanından tez ötməyə çalışaraq, evinə tələsirdi. Tələskənliyi küçə xuliqanları ilə üzləşməkdən qorxduğu üçün deyildi. Ucaboylu və enlikürək olması dələduzları ürküdürdü. Lakin belə bir görüşün mümkünlüyü ona xoş deyildi. Bu səbəbdən də belə hallardan qorunmağa çalışırdı. Burada hətta küçə dələduzları belə cüzi qarşıdurma hallarında tərəddüd etmədən üstlərində gəzdirdikləri odlu silahdan sərbəst istifadə etməyə meyilliydilər.

O, üstündə silah gəzdirməməyə çalışırdı. Uzun illik təhqiqat təcrübəsi silahın insana nəinki sahibini mühafizə etmədiyini, əksinə, çox zaman onu düşünülməmiş addımlara vadar etdiyini öyrətmişdi. Məhz buna görə idi ki, o, silahsaxlama və üstündə silah gəzdirmə üçün rəsmi icazəsi olmağına baxmayaraq, imkan daxilində silahdan gen gəzməyə çalışırdı.

Küçə fənərləri evin qabağını əməlli-başlı işıqlandırırdı. Ona görə də binanın qarşısında duran maşın diqqətindən yayınmadı. Maşının içində iki nəfər əyləşmişdi. Əgər onlar buraya gəlib, onu bir-iki qurğuşun gülləyə qonaq etmək niyyətli qatillər olsaydı, heç vaxt həyətin içinə qədər gəlib çıxmazdılar. Eləcə maşını küçədə saxlayıb, onu qapının ağzında gözləyərdilər. Görünür, «Mersedes» ev sakinlərindən birinin yanına gəlmişdi. Lakin o, maşına yetişər-yetişməz, maşının qapısı açılıb örtüldü və onun qarşısında təqribən iyirmi-iyirmi beş yaşlı bir oğlan dayandı.

— Bağışlayın, sizə çatacaq məktub var. Dronqo sizsiniz? — deyə oğlan yırğalana-yırğalana ona yaxınlaşdı.

— Nədən elə düşündünüz ki?

— Mənə sizi təsvir etmişdilər. Sizə bir məktubu çatdırmalıyam.

— Mən heç kimdən məktub-filan gözləmirəm. Yəqin ki, bir yanlışlıq var.

— Məktubda hər şey yazılıb, — gənc oğlan əlindəki zərfi ona uzatdı, sağ olun. Sizə evinizə zəng edəcəklər.

Naməlum oğlan maşına əyləşdi. Lakin maşın çıxıb getmədi, sanki heç getmək fikri yox imiş kimi binanın qarşısında gözləməkdə davam etdi. Dronqo bir qədər dayanıb maşında əyləşən gənc adamlara baxdı. Sonra binaya yaxınlaşıb, tələsmədən blok qapısının qıfılının kodunu avtomatik yığmağa başladı. Bir daha ətrafa göz gəzdirdi – sakitlik idi. Evə girdi. Qapı örtüldü, qıfıl avtomatik çıqqıltı ilə bağlandı. Liftdə ikən zərfə baxdı, lakin hələ açmağa tələsmədi. Evə girəndən sonra açacağını düşündü.

Evə daxil olub tələsmədən üst paltarını soyundu, əl-üzünü yudu, sonra da yazı masasına yaxınlaşdı. Dayanıb xeyli ünvansız və adsız zərfə baxdı, sonra onu açıb, kiçik bir kağız parçasında yazılanları oxudu:

«Hörmətli cənab Dronqo. Sizə adınız və atanızın adı ilə müraciət etmədiyim üçün çox üzr istəyirəm. Nə qədər cəhd etsəm də, onları öyrənə bilmədim. Məsələ burasındadır ki, mənim sizin yardımınıza çox ehtiyacım var. Belə bir məktubun sizi nə qədər təəccübləndirəcəyini təxmin edir və başa düşürəm. Amma yazdıqlarıma da ciddi yanaşmanızı sizdən rica edirəm. Bu, son dərəcə mühüm bir məsələdir və onun öhdəsindən yalnız siz gələ bilərsiniz».

Dronqo bu anonim naməni bir neçə dəfə oxusa da, onu kimin və nə məqsədlə göndərdiyini anlamadı. Zərfin üstündə nə onu göndərənin adı, nə ünvanı, nə də necə bir yardıma ehtiyacı olduğuna dair bir işarə var idi.

Dronqo televizoru qoşub, fikrini qəribə məktubdan yayındırmağa çalışsa da, bunu bacarmadı. Bir neçə dəqiqədən sonra telefon zəng çaldı. O, telefonun avtocavabverənini qoşdu.

— Salam, deyə naməlum kişi səsi eşidildi. Zəng edən təmkinlə avtocavabverəndə qeyd olunan məlumatı dinlədi. Lakin dəstəyin o biri başındakının geri çəkilmək niyyətində olmadığı bəlli idi. — Zəhmət olmasa dəstəyi qaldırın, deyə o, xahiş elədi. — Bir az bundan əvvəl sizə mənim məktubumu çatdırıblar.

— Eşidirəm, — Dronqo telefonu qoşdu.

— Mən Parisdən zəng edirəm. Bu zəngin sizi təəccübləndirdiyini anlayıram. Sizinlə təcili görüşməyimiz lazımdır.

— Başa düşmürəm, nə üçün? — deyə Dronqo narazı halda deyindi. — Mənim telefon nömrəmi sizə kim verib?

— Mühüm deyil, — deyə abunəçi tələsik cavab verdi, — sizi axtarıb tapmağa çox zaman və güc sərf etmişəm. Siz Parisə — mənim yanıma gələ bilərsiniz?

— Mən hələ kiminlə danışdığımı belə bilmirəm.

— Gələndə biləcəksiniz. Sizin tam təhlükəsizlikdə olacağınıza söz verirəm. Əgər hansısa səbəblər üzündən mənim təklifimi qəbul etməsəniz, sizi dərhal geri yola salacaqlar. Sizin üçün artıq birinci dərəcəli təyyarə bileti də sifariş olunub. Uçuş səhər tezdəndir. Razılıq versəniz, qısa müddətdə biletlərlə pulu sizə çatdıracaqlar. Sizin, sadəcə, biletə öz soyadınızı və pasportunuzun nömrəsini yazmanız

tələb olunur. Səhər tezdən sizi Şeremetyevo aeroportuna aparacaqlar, təyyarə Parisə enəndə isə qarşılayıb, mənim yanıma gətirəcəklər.

— Maraqlı təklifdir, — Dronqo bildirdi. — Belə çıxır ki, mən tanımaya-tanımaya durub sizin ayağınıza gəlməliyəm? Mən adətən elə iş görmürəm.

— Bu fövqəladə bir vəziyyətdir. İnanın ki, mənim bunu deməyə səbatlı əsaslarım və sizin yardımınıza çox böyük ehtiyacım var.

— İnanıram. Amma siz də belə minvallı bir zəngin şəkk-şübhədən başqa bir hiss yarada bilməyəcəyilə razılaşın.

— Razıyam. Sizinlə tamamilə razıyam. Mənə tam inanmanız üçün bu saat sizə bileti və avans olaraq əlli min dollar gətirəcəklər. Belə avans sizi qane edir?

— Edir, — Dronqo cavab verdi. — Sizin işqurma tərziniz çox qeyri-adidir. Yaxşı. Mən sabah səhər gələrəm. Mənim Şengen vizamın olduğunu haradan bilirsiniz?

— Mən hətta sizin Fransada yaşama hüququnuzun olduğunu da bilirəm, — naməlum adam tələsik cavab verdi. — İnanın ki, sizinlə əlaqə yaratmaq mənə çox baha başa gəlib. Sizə ehtiyacım var, Dronqo, ona görə də sizi sabah səhər səbirsizliklə gözləyirəm.

— Siz özünüz niyə mənim yanıma gəlmirsiniz?

— Biz sizinlə bu barədə də danışarıq, — zəng edən söz verdi. — Nə deyirsiniz? Razısınız, ya yox?

— Mən Parisə səyahət etməyi sevirəm, — deyə Dronqo fikirli-fikirli dedi.

— Təşəkkür edirəm, — deyə naməlum adam sevindi. — Hələlik.

Düz iki dəqiqədən sonra qapının zəngi çalındı. Maraqlıdır, bunlar binanın giriş qapısının şifrəli qıfılını necə açıblar?! – Dronqo düşündü. Görəsən, kodu bilirlər? Dronqo qapının gözlüyünə baxdı. Gələn ona zərfi verən həmin gənc oğlan idi. Qapını açdı və gənc oğlan ona ikinci – bu dəfə daha qalın və iri həcmli bir zərfi uzatdı.

— Səhər tezdən sizi binanın qarşısında gözləyəcəyik, — oğlan bu ifadəni söyləməyilə paralel sağollaşdı.

Zərfdə beş bağlı təzə yüzdollarlıq kupyur və Parisə birnəfərlik «Eyr-Frans» aviakompaniyasının birinci dərəcəli təyyarə bileti var idi. Dronqo fikirli halda bileti stolun üstünə qoydu. Pulları qatlayıb bir kənara itələdi və yola düşmək üçün şəxsi əşyalarını yığmağa yollandı. Səhərə qədər hər şeyi çatdırmaq lazım idi.

# *BİRİNCİ GÜN*

Parisi həqiqətən də sevirdi. Onu doğulub boya-başa çatdığı dəniz sahilində yerləşən öz doğma şəhəri kimi yaxşı tanıdığını sanırdı. Həyatının böyük hissəsini keçirdiyi — Moskva qədər. Bir müddət ekspert kimi çalışdığı — Nyu-York qədər. Paris onun üçün, sadəcə, sevdiyi bir şəhər və Fransanın paytaxtı deyildi. Onun bu şəhərə olan sevgisi miqyasına görə Heminqueyin Parisə olan sevgisinin ifadəsinə tam mənada cavab verirdi – «səndən heç ayrılmayan bayram».

Tez-tez baş tutan səfərləri zamanı Dronqo həm Avropanın balaca, sanki oyuncaq şəhərciklərində olduğu kimi böyük həyətləri və qədim abidələri ilə tanınan Asiya paytaxtlarının da gözəlliyini, dəbdəbəsini seyr edə bilmişdi. Həmçinin Amerikanın çoxmərtəbəli binalarının konqlomeratlarının[1]

insanı vahiməyə salan ölçülərini, Latın Amerikası meqapolislərindəki üslub və dövrlərin əlvan qarışığını dərk etməyi və dəyərləndirməyi də mənimsəmişdi. O, dünyanın bir çox şəhərlərini sevirdi. Əzəmətli London, gözəl San-Fransisko, heyranedici Buenos-Ayres, eklektik Berlin, qeyri-adi Pekin, dəbdəbəli Sankt-Peterburq – bütün bunlar onun üçün, sadəcə, dünya mədəniyyətinin yox, həm də öz daxili aləminin inciləri idi. Bəşər övladının zəkası sayəsində yaradılmış bu sevimli şəhərlərin hər biri ayrı-ayrılıqda özünəməxsus gözəlliyə və dəbdəbəyə malik idilər. Lakin təxəyyülündə Nyu-York müasir dünya, Moskva isə dərin mənəvi dəyərlər paytaxtı idisə, Parisi birmənalı şəkildə qəlbinin paytaxtı hesab edirdi. Bir az sirli-müəmmalı, bir az nazlı-ədalı, bir az qədim və son dərəcə heyranedici Paris.

Aeroportda onu iki nəfər qarşıladı. Dronqo kiminlə görüşəcəyini bilməyə-bilməyə, ona zəng edən adamı artıq kifayət qədər dəqiq təsəvvür edirdi. Daha doğrusu, zəng edənin psixoloji portretini öz xəyalında canlandırmışdı. Birincisi, avans olaraq əlli min dollar göndərən, birinci dərəcəli təyyarə bileti alan, köməkçiləri Moskvada və Parisdə «Mersedes»də «hərlənən» bir adam, sadəcə, zəngin yox, çox zəngin birisi olmalıydı. Axı o, həm də Dronqonun ünvanını və evinin telefon nömrəsini də əldə edə bilmişdi. Halbuki bu, kifayət qədər çətin bir iş sayılırdı. Çünki kifayət qədər az sayda adam yüksək səviyyəli ekspert Dronqo ilə şəxsən tanışlığına görə öyünə bilərdi. Bunu Dronqonun özü saxta təvazökarlıq etmədən yaxşı anlayırdı.

Bütün sərhəd və gömrük yoxlamalarından kifayət qədər qısa müddətdə keçməklə onu qarşılamağa gələn adamların avtomobilinə əyləşdi. Maşın yüksək sürətlə şəhərin mərkəzinə doğru istiqamət aldı. Yarım saatdan sonra onlar dəbdəbəli aristokratik mənzilli binaları ilə məşhur olan Parisin on altıncı rayonuna çatdılar. Maşın şəxsi evlərin birinin qarşısında saxladı. Gənc adamlar çəkinmədən

qapının zəngini vurdular və qapı qonağın üzünə açıldı. Bir dəqiqədən sonra, görünür, evin eşikağası olan bir yaşlı kişi onu qonaq otağına ötürüb, özü gözdən itdi.

Dronqo ətrafa göz gəzdirdi. Otağı iki təmtəraqlı buxarı, nəhəng büllur çilçıraq, ağır ipək pərdələr bəzəyirdi – ev sahibi qədimi əlamətlər, antik mallar həvəskarı idi.

— Bu mənim evim deyil, — Dronqo kiminsə rus dilində nitqini eşitdi, buranı kirayələyirəm. Oteldə bir neçə nömrə kirayələməkdənsə, bir evi kirayələmək daha sərfəlidir. Həm də rahatdır.

Ev sahibi – gicgahları artıq ağarmağa başlayan ucaboy, gözləri dərin çuxura düşmüş, kiçik donqarlı burnunun formasına görə nazik dodaqları və sifət quruluşunun simmetriyası bir qədər pozulmuş adam salamlaşmaq üçün əlini Dronqoya uzatdı.

— Salam, əyləşin. Özü kiçik masa yanında olan kresloya oturaraq, təmkinlə qonağının da əyləşməsini gözlədi.

— Sizə necə müraciət edim? — bunu da ev sahibi soruşdu. — Səhv etmirəmsə, təxəllüsünüz Dronqo daha çox ürəyinizcədir, deyilmi?

— Bəli, Dronqo müraciəti daha çox ürəyimcədir, — buna alışmışam.

— Mənim adım isə Aleksandr Mixayloviçdir. Sadəcə, Aleksandr da müraciət edə bilərsiniz. Burada, yəni Fransada, əksəriyyət məni məhz bu adla çağırır. Elə özüm də bu müraciətə alışmışam.

— Siz Fransa vətəndaşısınız?

— Hələ ki, yox. Yaşama hüququm var. Əslində, mən də sizin kimi keçmiş sovet vətəndaşıyam. Ölkə dağılanda Rusiya vətəndaşlığı aldım. Sonra isə Fransaya köçməyə qərar verdim. Həm də həyat yoldaşım yarıfransızdır. Fransaya

gəldikdən sonra biz kifayət qədər qısa müddətdə burada yaşamaq hüququ əldə etdik.

— Sizi təbrik edə bilərəm. Göründüyü kimi, heç də pis yerbəyer olmamısınız.

Aleksandr gülümsədi. Qonağının yumor hissi onun xoşuna gəldi. Sonra o, Dronqonun gəlişinin səbəbini xatırlayaraq qaşlarını çatdı.

— İcazə versəniz keçək mətləbə, — ev sahibi qonağını başdan-ayağa süzdü. — Söhbət mənim taleyimdən, faktiki olaraq həyatımdan gedir.

— Ümid edirəm ki, məni özünüzə cangüdən götürmək fikriniz yoxdur?

— Xeyr, elə fikrim yoxdur. Mənə sizin analitik bacarıqlarınız gərəkdir, cənab Dronqo. Mən son dərəcə ümidsiz və yaramaz bir vəziyyətdəyəm.

— Gəlin hər şeyi ardıcıllıqla aydınlaşdıraq. Nə baş verib və sizə nə kimi köməyim dəyə bilər?

— Mənə sizin işə başlamağa razı olub-olmadığınızı bilmək lazımdır.

— Bu şəhərə gəlib çıxmışamsa, yəqin ki, razıyam.

— Bir şərtim var. Bizim sizinlə işbirliyimiz və söhbətimiz barədə heç bir kəsin xəbəri olmamalıdır. Kimliyindən asılı olmayaraq — bu, yalnız ikimizin arasında qalacaq.

— Bunu mənə deməyə də bilərdiniz. Bir də müraciətinizdə təhqiredici bir eyhama yol versəniz, mən dərhal Moskvaya qayıdacağam.

— Bağışlayın, xətrinizə dəymək istəməzdim, — Aleksandr tələsik cavab verdi.

— Söhbət mənim professional qürurumdan gedir. Məni düzgün anlamalısınız. İndi isə təfərrüatı və xırdalıqları ilə izah edin görüm nə baş verib?

— Mən biznes işlərimlə əlaqədar olaraq tez-tez Moskvaya səfər edirdim. Mənim şəhərin mərkəzində çox gözəl evim, Moskva ətrafındasa böyük bağ evim var. Lakin ötən ilki səfərim zamanı Moskvada mehmanxanada dayanmağı qərara aldım. İşlər elə gətirmişdi. Özümün şəhərdə olmağım önəmli idi, mənzilimdə isə təmir işləri aparılırdı. Bağ evinə gedib-gəlmək həm vaxtımı alır, həm də çətinliklər törədirdi. Ona görə də «Metropol» mehmanxanasında apartament kirayələmək qərarına gəldim.

Dronqo həmsöhbətinin sözünü kəsmədən onu diqqətlə dinləyirdi.

— Orada bir neçə gün qaldım. Otelin, şübhəsiz, çox gözəl, yüksək səviyyəli bir otel olduğunu qeyd etməyə bilmərəm. Dünyanın bir çox otellərində dayanmışam və bu barədə tam mütəxəssis kimi fikir söyləmək iqtidarındayam. Lakin otel ətrafında, adətən, müəyyən «xidmət dairəsi» də olur. Bir sözlə, mənə ilk baxışdan çox bəyəndiyim bir xanımı tövsiyə etdilər. Qız mənim o qədər xoşuma gəlmişdi ki, hətta onu «ezamiyyətlər üçün katibə» seçmək niyyətinə də düşmüşdüm. Lakin hər şey tamamilə başqa formada alındı... Aleksandr köks ötürdü, qaşlarını çatdı və birdən-birə soruşdu: “Bir şey içmək istəyirsiniz?”

— Bir azdan. Davam edin, lütfən. Hər şeyi başdan-ayağa olduğu kimi söyləyin.

— Bir neçə günümü onunla keçirdim. Cümə axşamı ayın on ikisində isə Parisə qayıtdım. Səhər o, həmişəki kimi, mənim yanımda idi. Biz onunla səhər yeməyimizi yedik və mən Parisə yola düşdüm. İki gündən sonra mənə xəbər gəldi ki, həmin biz qaldığımız otel nömrəsində qızın meyiti tapılıb. Kimsə onu orada gülləylə qətlə yetirib. Görünür, yazığı mən

gedəndən dərhal sonra öldürüblər. Nömrə isə bu zaman hələ də mənim adımda qalırdı və beləliklə də, əsas şübhəli qismində tanınan kəs mən oldum.

— Birlikdə səhər yeməyi yeyərkən sizi görən olmuşdumu?

— Əlbəttə. Mənim cangüdənlərim və səhər yeməyini gətirən ofisiant görmüşdülər.

— Bəs sonra?

— Sonra mən onu öz nömrəmdə qoyub aeroporta getdim. Nömrənin kirayəsi ayın on dördünə kimi ödənilmişdi. Ona görə də qıza hələ bir sutka da orada qala biləcəyini dedim.

— O, sizi yola salmağa çıxmışdı?

— Xeyr. Mən çıxanda o, duş qəbul edirdi. Onunla sağollaşdım, köməkçilərim çamadanlarımı çıxardılar və biz yola düşdük.

— Deməli, siz nömrədən çıxarkən o qızın sağ olub-olmadığını heç kim görməyib, deyilmi?

— Heç kim. Amma vanna otağında su açıq idi. O, duş qəbul edirdi.

— Suyun qoşulu olması sübut deyil. Orada sizin köməkçilərdən biri də yuyuna bilərdi. Ya da siz özünüz suyu aça bilərdiniz. Belə çıxır ki, siz oteldən çıxarkən onu sağ-salamat görən olmayıb.

— Elə müstəntiqlər də həmin şeyi deyir. Onlar qızı mənim öldürdüyümdən əmindirlər.

— Siz Moskvaya qayıdıb hər şeyi söyləyə bilərsiniz. Ya da oraya öz vəkilinizi yollaya bilərsiniz. Nəticədə, qızı istənilən bir adam güllələyə bilərdi. Xüsusilə də onun otel nömrəsində hələ bir sutka siz gedəndən sonra da qalacağı nəzərə alınarsa.

— Yox, — Aleksandr ah çəkdi, bunu edə bilmərəm. Vəziyyət siz düşündüyünüzdən də ağırdır. Gəlin mənim kabinetimə keçək, mən sizə bir şey göstərəcəm.

Ev sahibi ayağa qalxaraq qonaq otağının dərinliyinə keçib, mürəkkəb divar naxışı ilə bəzədilmiş hündür bir qapıya yaxınlaşdı. Qapını açıb dəhlizlə öz kabinetinə doğru getdi. Dronqo da onun dalınca gedirdi. Ev kifayət qədər böyük idi və Aleksandr öz kabinetinə çatana qədər onlar ən azı əlli addım keçdilər.

— Əyləşin, — o, Dronqoya divanı göstərdi.

Dronqo əyləşdi və Aleksandr siyirmədən pultu götürüb televizoru qoşdu. Ekranda iki nəfər çılpaq adam göründü. Özü və qız. Onlar kameraya məhəl qoymadan eşqbazlıq edirdilər. Gülüşür, bir-birini itələyir və oynaqlaşırdılar-.

— Bizi kameraya çəkirmişlər, — Aleksandr boğuq səslə bildirdi, görünür, qızı mənə elə o məqsədlə yollamışdılar-.

O, lenti irəli fırlamaq üçün pultun düyməsini basdı.

— Nə olsun? — deyə Dronqo soruşdu. — Bu, sizinlə həyat yoldaşınızın arasında olan problemdir. Sizin hansısa bir qızla görüşüb sevişməyiniz onu öldürməyinizə işarə etmir.

— Yazının davamına baxın, — Aleksandr görüntüləri davam etdirdi.

Ekranda Aleksandr göründü. Budur, o, ayağa qalxıb irəli gəldi, görünür, vanna otağına yollanır. Otaq ala-toranlıq idi, solğun bir çıraq yanırdı. Kamera onun gedişini izləyərək bir qədər döndü. Sonra, artıq qız yataqda uzanıb çırağı söndürdüyü vaxt yenidən qoşuldu. Qız ayağa qalxıb pəncərəyə yaxınlaşaraq ağır qardinləri araladı. Günəş şüaları eyvanı və onun az əvvəl uzandığı çarpayını işıqlandırdı. Qız çevrilib gülümsədi və görünməyən həmsöhbətinə nəsə dedi. Elə bu yerdə bir kişinin sağ əlində

üstünə səsboğan taxılmış tapança göründü. Kişinin çılpaq çiyni və qolu görünürdü. Güllə səsi eşidildi. Birinci, ikinci atəş. Güllə qızın bədənini divara çırparaq, divarı al-qanına boyadı. Naməlum adam tapançanı qaldırıb, soyuqqanlılıqla daha bir yoxlama atəşi açdı. Qız dartınaraq yerindəcə can verdi. Aleksandr videolenti dayandırdı.

— Bir baxın, — təsviri göstərərək dedi, qatilin sağ çiynində kiçik bir çapıq var. Görürsünüz?

— Bəli, görürəm.

— Mənim də çiynimdə elə bir çapıq var, — Aleksandr ağır tərzdə bildirdi, görünür, onlar bu qətldə məni suçlamaq üçün kadrı bilərəkdən belə bir rakursda çəkiblər. Hər şey bulanıq da olsa, gerçəkliyə uyğun görünür. Qətl anı plyonkada yazılıb təsbit olunub. Ona qədər kamera elə hey məni çəkirdi. Bu son kadrlarda isə artıq mən yox, mənim oxşarımdır, onun çiynində hətta mənimkinə bənzər çapıq da yaratmağı bacarıblar. Necə bilirsiniz, bu kimi materialları əldə etdikdən sonra müstəntiq mənim günahsız olduğuma inana bilərmi?

— Çətin, — Dronqo səmimi etiraf elədi. — Hər şey nöqsansız və son dərəcə yüksək peşəkarlıqla təşkil olunub. Görünür, siz haqlısınız, kamera doğrudan da əsl qətl anını çəkib. Kadrda «ikinci» çılpaq kişinin olduğunu sübut etmək mümkün deyil. Xüsusilə də çiynində sizinki kimi çapıq olduğu bir adamın.

— Mən o çapığı uşaq ikən, Volqada çimdəndə qazanmışam. Yarğandan daşların üstünə yıxılmışam, — Aleksandr izah elədi. — İndi mənim nə üçün məhz sizə müraciəti etmək qərarına gəldiyimi başa düşürsünüz?

— Bu videolent sizdə hardandır?

— Bəli, nəhayət, bu məsələnin ən xoşagəlməz tərəfidir. Mənə bir nəfər tanımadığım adam zəng edib, bu videolentə

baxmağımı təklif etdi. Təbii ki, əvvəlcə onun təklifini rədd elədim. O isə videolenti evimə yolladı. Əvvəlcə mən bu adamların məndən pul qoparmaq istəyən bəsit şantajçılar olduğunu düşündüm və onlarla söhbət edib dil tapmaq qərarına gəldim. Amma yanılmışam. Bu çəkilişi göndərən adam mən düşündüyümdən daha artığını istəyir. On gündən sonra Moskvada nəhəng bir Rusiya kompaniyasının səhmlərinin satışının hərracı başlayır. Hamı da bizim qrupun hərracda iştirak etməyə hazırlaşdığını bilir. Hərrac başlamazdan üç gün əvvəl mən qrupumuzun hərracda iştirakdan imtina etməsini rəsmi şəkildə imzalayıb təsdiqləməliyəm. Mənim ehtiyatda cəmisi yeddi günüm var. Əks halda bu lent onsuz da çoxdan Moskvaya gəlib ifadə verməyimi tələb edən müstəntiqə ötürüləcəkdir.

Hələlik əlimdə bu çəkilişin dərhal müstəntiqə ötürülməyəcəyinə və mənim elə aeroportdaca həbsə alınmayacağıma dair bir zəmanət və ya təsdiq yoxdur. Əgər mən bir həftədən sonra Moskvaya getməsəm, qərb partnyorlarımı işlərimin qaydasında olduğuna inandıra bilməyəcəm. Onlar nə üçün Moskvaya getmək istəmədiyimi anlamayacaq və nəticə etibarilə, bizim layihəni maliyyələşdirməkdən imtina edəcəklər.

Mən heç hər şeyə tüpürüb özümü xəstəliyə də vura bilmərəm. Əgər bizim kompaniyamız rəsmi surətdə hərracda iştirakdan imtina etməzsə, videoçəkiliş müstəntiqlərə göndəriləcək. Təbii ki, onlar da dərhal rəsmi Fransadan məni tələb edəcəklər. Bunun nə ilə nəticələnə biləcəyini təsəvvür edirsiniz? Yerli mətbuat durmadan rus mafiyasından bəhs edir. Biz hamımız onların gözündə naməlum yollarla milyonlara sahiblənmiş mafiya təmsilçiləriyik. Mən Fransada yaşama hüququmu itirərək dərhal Rusiyaya deportasiya olunacam. Daha sonra nələrin olacağını deyimmi, yoxsa özünüz təsəvvür edə bilirsiniz?

Dronqo televizor ekranında donmuş əksə baxaraq fikirli halda oturub susurdu.

— Məni qızın qətlində suçlayacaqlar və ən yaxşı halda həbsə alacaqlar. Pis halda isə həbsxana kameralarının birində işim məhkəməyə çatmamış vurub öldürəcəklər... Bu barədə nə düşünürsünüz?

— Deyəsən, indi sizin soyadınızı xatırladım, — deyə Dronqo bildirdi.

— Daha yaxşı, — Aleksandr cavab verdi, — deməli, artıq hər şeyi anlayırsınız. Bu lent, sadəcə, mənim yox, bütün kompaniyamızın gələcəyini darmadağın edəcək bir dinamitdir. Əgər hərrac onların qoyduğu qayda-qanunla baş tutarsa, hər şey bərbad olacaq. Nəticədə onlar kompaniyanın nəzarət zərfinə sahiblənəcəklər. Bu, artıq nə iqtisadiyyat, nə də heç kriminalistika deyil. Bu, böyük siyasətdir.

— Yeddi gün, — Dronqo fikirli-fikirli dedi, cəmisi yeddi gün.

— Bəli, — Aleksandr təsdiqlədi, cəmisi yeddi gün. Əgər bu həftə ərzində siz mənim günahsızlığımı sübuta yetirə bilməsəniz, mən kompaniyamızın hərracda iştirakdan imtina etməsini rəsmi surətdə təsdiqləmək məcburiyyətində qalacağam. Gələn bazar ertəsi də Moskvaya — gedə bilməyəcəm. Hərrac həftənin cümə axşamına təyin olunub. Lakin yazılı müraciətlərin təsdiqinin sonuncu günü çərşənbə axşamı bitir. Mən hətta hərracda iştirakdan imtina etsəm belə, kimsə mənə bir zəmanət verə bilməz. Mənim hərracdan imtinamsa nəinki kompaniyamızın, həm də ümumilikdə bütün Rusiya biznesinin nüfuzunu gözdən salacaq. Özümə gəldikdə isə, bu çəkilişin gələcəkdə mənə qarşı başqa məqsədlərlə şantaj kimi istifadə olunub-olunmayacağıma dair heç bir zəmanət yoxdur.

— Rusiya biznesinin məsələyə nə aidiyyəti var?

— Bilirsinizmi, bizim kompaniyamızın belə böyük miqdarda maliyyəsi yoxdur. Biz iki nəhəng qərb kompaniyası ilə sövdələşmə imzalamışıq. Əgər indiki halda onların ümidlərini doğrultmasaq, hələ uzun illər bundan sonra da kimsə Rusiyaya pul yatırmaq riskinə getməz. Hələ mən bu qətlin bizim kompaniyanın nüfuzuna nə dərəcədə xələl gətirəcəyini demirəm. Bulanıq şayiələr artıq Rusiya mətbuatına sızmaqdadır. İndi müstəntiqlər müxtəlif versiyaları araşdırıb yoxlayırlar ki, bu versiyaların arasında «mənimki» də var. Lakin hələlik bu, sadəcə, bir şübhədir. Əgər mən günahsızlığımı sübut edə bilməsəm, onlar mənə qarşı iddia qaldıracaq. Rəsmi nöqteyi-nəzərdən hər şey düzgündür. Belə də olmalıdır. Mən qızla bir nömrədə yaşamışam. Çıxıb getmişəm, onu isə bir neçə saatdan sonra həmin nömrənin vanna otağında ölü vəziyyətdə aşkar ediblər. Hazırda mənim vəkillərim Moskvada bu işin bütün təfərrüatlarını və xırdalıqlar-ını incədən-incəyə yoxlayıb-araşdırırlar. Amma mənim vaxtım yoxdur.

— Belə bir fitnədə kim maraqlı ola bilər?

— Təbii ki, bizim Moskvadakı rəqiblərimiz. İlk növbədə məhz onlar. Amma videokaset burada — Parisdə kifayət qədər müəmmalı fiqurlardan biri kimi tanınan Uord Hekket adlı şəxsdədir. Əldə etdiyim məlumatlara görə, o, adamaldatma və dələduzluq maddələrilə iki dəfə istintaqa cəlb olunsa da, hər ikisində də məsuliyyətdən boyun qaçıra bilmişdir. Çirkli işlərlə məşğul olan işbazın səciyyəvi bir nümunəsi. Lakin Moskvada, təbii ki, bütün bu prosesi idarə edən və çəkilişə icazə verən ondan daha güclü fiqurlar var. Bu fitnə-fəsad, gördüyünüz kimi, incəliklərinə qədər düşünülərək geniş vüsət alıb. Müəmmalı çəkiliş, sadəcə, bizim biznes sayəsindəki şanslarımızı məhv etmək, ailəmi bağıtmaq, kompaniyamızı nüfuzdan salmaq və dost-tanışlarımızın maraqlarına zərbələr endirmək kimi məqsədlərə qulluq etmir, o, həm də onların bizimlə nə kimi

üsullarla mübarizə etməyə hazır olduqlarını təsdiqləyən açıq-aşkar bir nümunədir.

Siz bu lenti nə vaxt almısız?

— İki gün əvvəl. Hekket mənim zəngimi gözləyir. Ya mən razılaşmalıyam, ya da çəkiliş dərhal müstəntiqə göndəriləcək, o da öz növbəsində, mənim təcili Moskvaya qayıtmağımı tələb edəcək və ya rəsmi Parisin məni onlara təhvil verməsi tələbini irəli sürəcək. Daha pis variant — da ola bilər. Çəkiliş televiziya vasitəsilə yayımlana bilər ki, bu da tam iflas demək olacaq. Ondan sonra mən dəfələrlə bəraət qazana bilsəm də, mənim adımın üstündən əbədi bir xaç çəkiləcək.

— Lentdəki kişi həqiqətən də sizsiniz?

— Bəli, təəssüf ki, mənəm və çoxları da məni tanıyacaq.

— Amma atəş açan siz deyilsiniz, elədirmi?

— Əlbəttə ki, mən deyiləm. Yazıq qızı öldürmək mənim nəyimə gərəkdir? Nə səbəbə görə? Onunla gözəl vaxt keçirdiyim üçün? Bu, cəfəngiyatdır!

— Həyat yoldaşınızın bunlardan xəbəri varmı?

— Xeyr. Xoşbəxtlikdən, bizim ailədə heç kim hələlik bu çəkiliş oyunu barədə bir şey bilmir. Nə qızlarım, nə də arvadım.

— Mənim tərəfimdən mümkün yardımı necə təsvir edirsiniz? Mən nə etməliyəm? Məndən nə kimi yardım gözləyirsiniz? Axı siz özünüz də bu görüntülərin həqiqətə uyğun olduğunu deyirsiniz. Son epizoddakı adamın siz olmadığı ilə razıyam. Lakin digər epizodlarda çəkilən axı məhz sizsiniz. Bu videoyazını mən necə təkzib edim?

— Mən sizdən nəyisə təkzib etmənizi istəmirəm, — Aleksandr ah çəkdi, — sadəcə olaraq, həqiqi

qatili tapmanızı xahiş edirəm. Bu cinayəti araşdırmanızı, Moskvaya qayıdıb qatili tapmanızı istəyirəm. Yeddi gündən sonra Moskvaya gedə bilməyim üçün. Mənim Moskvaya getməyim isə yalnız bu ağlasığmaz günahın — mənim üzərimə qoyulmayacağına əmin olduğumda mümkündür.

— Yeddi gün ərzində? — Dronqo soruşdu. — Siz mənim cəmisi yeddi günə qatili tapmağımı istəyirsiniz?

Görünür, biznesmenin yerində büzüşməsinə səbəb onun səsində sezilən istehza oldu. O, gözlərini yumub, boğuq səslə dedi:

— Bəlkə də haqlısınız. Yəqin ki, doğrudan da müqavimət göstərmək mənasızdır. Amma mən cəhd etmək istədim... Elə bilirdim ki, siz bacararsınız... Mənə sizin bəzən möcüzələr yaratdığınızı demişdilər. Ona görə də sizdən daha bir “möcüzə göstərməyinizi” xahiş edirəm.

Dronqo susurdu.

— İstədiyiniz qonorarı deyin! — Aleksandr xüsusi ifadə ilə elan etdi. — Mən sizə istədiyiniz məbləği ödəməyə hazıram.

— Söhbət puldan getmir. Əsas sizin mənim qarşımda qoyduğunuz məsələnin çətinliyidir. Yeddi gün — Dronqo fikirli halda təkrarladı. — Mənə indiyədək belə qısa müddət verilməmişdir. Bəlkə də cəhd etməyə dəyər?! Möcüzə yaratmağa cəhd edək. Hərçənd şəxsən mən özüm möcüzələrə inanmıram. Əvəzində bu Hekket barədə çox eşitmişəm. Mənə sizə yaxın olan ən etibarlı adamlar arasından iki nəfər köməkçi lazım olacaq. Bir də başlanğıc üçün Uord Hekketin Paris ünvanı və ya telefon nömrəsi. İndi isə hər şeyi mənə yenidən və təfərrüatı ilə danışın. Həm də lap əvvəldən başlayın.

# *BİRİNCİ GÜN*

Onlar «La tur d’Arcant» restoranında görüşməyə sözləşdilər. Restoranın adının hərfi tərcüməsi «Gümüş qüllə» idi. Buradan Notr-Damın gözəl mənzərəsini seyr etmək olurdu. Bu restoran yüz illiklər boyunca fransız mətbəxinin müvəffəqiyyət rəmzi sayılırdı. Ən məşhur siyasət xadimləri, estrada ulduzları, biznesmenlər buranın daimi müştəriləriydilər. Restoranın ən məşhur və sevilən yeməkləri ördək ətindən hazırlanmış yeməklər sayılırdı ki, onların hər biri süfrəyə altı yüz illik sıralanma boyunca müəyyən nömrələr altında verilirdi.

«La tur d’Arcant» Parisin ən yaxşı restoranlarından biriydi və Dronqo həmsöhbətinin onun etibarlı və hörmətli olduğuna inanması üçün məxsusi olaraq görüşü məhz bu restorana təyin etmişdi. Yanılmadı da. Uord Hekket problemi anladığını bildirərək «cənab Aleksandrın nümayəndəsi» ilə görüşə razılıq verdi. Əvvəlcə Hekket onun adı ilə maraqlandı və Dronqo bir vaxtlar çalışdığı zaman götürdüyü unudulmuş Anri Lecivr adını çəkdi.

Zala ortaboylu, davranışında sutenyor tərzi sezilən kişi daxil olanda, Dronqo stolların birinin arxasında əyləşmişdi. Ətli yanaqları, buxağı, sıx qaşları olan bu kişi zahiri görkəmdən cahanşümul əhəmiyyətli adı və böyük təcrübəsi olan şantaccıdan daha çox kənd fermerlərinə bənzəyirdi. Lakin hiyləgər səsi və hətta kişiyə yaraşmayan incə hərəkətləri onun kim olduğunu büruzə verirdi. Mülayim təbəssüm üzündən çəkilmirdi. Yüngül əl hərəkətləri isə aktyora da, istənilən anda gizlədilmiş tuzu ortaya atmağa amadə olan qumarbaza da xas ola bilərdi. Dronqo onun dəbli qalstukunu və tünd rəngli kostyumunu dəyərləndirdi.

Hekket stola yaxınlaşıb diqqətlə onu gözləyən Dronqoya baxaraq əyləşdi. Gülümsəyərək fransız- ca dedi: —

— Axşamınız xeyir. Siz görüşü son dərəcə gözəl bir yerdə təyin etmisiniz. Bu, Parisin ən yaxşı və ünlü restoranlarından biridir.

— Mən fransızca danışmıram, — Dronqo onun sözünü kəsdi, mümkünsə, ingilis dilinə keçək.

— Təbii ki. Sizin fransız soyadınız məni bir qədər çaşdırdı, cənab Lecivr. Hərçənd, bunun elə də böyük əhəmiyyəti yoxdur. Yeməkləri sifariş etmisiniz?

— Xeyr. Seçim hüququnu sizə həvalə etmək qərarına gəldim. Görünür, siz bu kimi restoranlarda tez-tez olursunuz, peşənizin ağırlığı özünü göstərir.

Hekket bir qaşını qaldırıb Dronqonun istehzasını dəyərləndirdi. Sonra menyunu əlinə alıb oxumağa başladı və ofisiantın təqdim etdiyi uzun siyahıya məhəl qoymadan kifayət qədər qısa zamanda sifarişini etdi. Bu davranışından onun ağzının dadını bilən birisi olmadığı aydınlaşırdı. Hər ikisinin razılığı ilə süfrəyə qırmızı şərab gətirildi. Onlar söhbətə yalnız masalarına xidmət edən ofisiantlar qulluqlarını bitirib mətbəxə ayrıldıqdan sonra başladılar.

— Yəqin ki, siz müştərinizi təmsil edəcəksiniz, deyilmi? — deyə Hekket gülümsəyərək soruşdu.

— Çalışacağam, — Dronqo cavabında gülümsədi. — Müştərimin sizin göndərdiyiniz videoçəkilişdən xoşhal olmadığını bilmənizi istərdim. Lakin o videoyazını hazırlayan mütəxəssislərin işini dəyərləndirməmək də qəbahət olardı. Axırıncı kadrlar nəzərə alınmasa, çox yüksək səviyyəli bir çəkilişdir.

— Niyə? — deyə Hekket daha da füsunkarcasına gülümsədi. — Biz plyonkanı vahid bir yazı kimi

dəyərləndiririk. Yoxsa siz bizim axırıncı kadrları oradan kəsməyimizi istəyirsiniz?

— Xeyr, əsla. Axırıncı kadrlar onların vida səhnəsini o qədər orijinal şəkildə tamamlayır ki, məndən olsa, onları hansısa bir Hollivud trillerinə əlavə edərdim, təbii ki, bu qurmanın rejissoru ilə operatoru öz məhsullarından istifadə hüquqlarını mənə verməyə razı olarsa.

— Siz qiymətlə maraqlanırsınız?

— Hər halda bizdə sizin şərtlərin miqyasından az da olsa bir məlumat olmalıdır.

— Sizin müştərinizin mənim şərtlərimdən xəbəri var. Burada pul söhbəti yoxdur. Biz etimadla çalışırıq. Bizə lazım olan, sadəcə, cənab Aleksandrın Moskvada keçirilməsi nəzərdə tutulan hərracda iştirakdan imtinasını isbatlayan bir məktubdur. Qoy Parisdə qalsın, axı bura çox gözəl şəhərdir. Vəssalam. Bizim yeganə istədiyimiz budur. O, rahatca öz Paris evində yatar, biz isə rahatca belə bir videolentin olduğunu unudarıq.

— Sizin o məktubu aldıqdan sonra videolenti unudacağınıza dair heç bir zəmanət yoxdur.

— Yoxdur, — Hekket təsdiqlədi, lakin əgər biz məktubu əldə etməsək, film dərhal Moskvada bu qətlin istintaqını araşdıran müstəntiqə göndəriləcək. Yəqin ki, müştəriniz bunun nələrə yol açacağını anlayır, deyilmi? Bundan əlavə, məni bütün Avropa tanıyır. Mən sizin müştəriyə təsir göstərmək üçün bir videoçəkilişdən iki dəfə istifadəyə yol verən adamlardan deyiləm.

— Bütün Avropa, — Dronqo qədəhindəki şərabın dadından zövq alaraq dodaqaltı deyindi. Qədəhin boşalmaq üzrə olduğunu görən ofisiant dərhal özünü onların stoluna tərəf atıb qədəhi doldurdu. — Sizi doğrudan da bütün Avropa tanıyır, — deyə Dronqo təsdiqlədi. — Siz Madriddən tutmuş

Varşavaya qədər ən tanınmış şantajçısınız. Xatirinizə dəymək istəməzdim, sadəcə, olanı deyirəm. Belə olan halda sizə inanacağımızı gözləyirsiniz?

— Çox sağ olun, — Hekket gülümsəyərək cavab verdi. Onu ovqatdan və mövqeyindən uzaqlaşdırmaq çətin idi. — Amma sizin başqa çıxış yolunuz yoxdur. Mənə inanmaq məcburiyyətindəsiniz. Bəli, mən mələk deyiləm, lakin heç vaxt alçaqlıq xatirinə alçaqlığa yol vermirəm. Mənim vəzifəm nəyin bahasına olursa olsun, cənab Aleksandrla onun qərb dostlarını hərracdan kənarlaşdırıb neytrallaşdırmaqdır. Mənim missiyam bununla bitir. Mən işimdə heç bir zaman şəxsi rəğbət və ya nifrətlərin təsirinə düşmürəm. Əgər cənab Aleksandr hərracda iştirakdan imtina edərsə hər şey unudulacaq, videoçəkiliş də əbədi gömüləcək. Təbii ki, əgər gələcəkdə ortaya onu yaxşı qiymətə almağa hazır olan bir müştəri çıxmasa, — Hekket həmsöhbətinə göz vuraraq əlavə etdi.

— Mən sizin daxili mərdliyinizə şübhə etmirdim, — Dronqo istehza ilə bildirdi.

— Müstəntiqin əlində cənab Aleksandrın otelin həmin nömrəsində qaldığından savayı heç bir fakt yoxdur. Lakin bu, heç də onun günahının sübutu deyil. Çəkilişsə vəziyyəti kökündən dəyişir. Siz ona baxmısız?

— Bu zövqü yaşamaq mənə də nəsib olub.

— Gördüyünüz kimi, vəziyyət son dərəcə aşkardır. Ya cənab Aleksandr hərracda iştirakdan imtina məktubu göndərərək Moskvaya getmir, ya da Moskvaya gedir və səhərisi gün bütün mətbu orqanlardan özünün bədbəxt qızın qətlində ən əsas şübhəli olduğunu öyrənir. İkisindən biri. Başqa heç bir variant yoxdur. Hər şey incədən-incəyə düşünülüb. Bu, mənim üslubumdur, cənab Lecivr, firma üslubum. Əgər mənə bir iş tapşırılırsa, mən ona sonra çatdıraram, özü də yüksək səviyyədə.

— Siz belə bir cinayətin və Rusiya qəzetlərində artıq sezilməyə başlayan müxtəlif şayiələrin mənim müştərimin nüfuzunu sarsıtdığını unudursunuz.

— Mən o fikirdə deyiləm. Konkret sübutlara əsaslanmayan ümumi şübhələr heç bir əhəmiyyətə malik deyil. Onun vəkilləri otel nömrəsindən onunla birgə çıxan çoxlu sayda şahid tapa bilərlər. Şahid qismində, məsələn, yükünü aparmağa gələn köməkçiləri, otel xidmətçiləri və yaxud digər adamlar da çıxış edə bilər. Bütün bu adamlar onun qız vanna qəbul etdiyi vaxtda oteldən ayrıldığını təsdiqləyə bilər. Hələlik bunu təkzib edən bir dəlil yoxdur. Hələlik… qətlin özünə gəldikdə isə, belə bir ünlü biznesmenin küçə fahişəsinin öldürülməsilə əlaqəsinin olduğuna kim inanar axı? Maddi dəlil-sübutsuz — heç kim. Ona görə də müştərinizin çox şey itirəcəyini zənn etməyə ehtiyac yoxdur. Fahişəxanadasa bakirə olmur. Bu, hamıya məlumdur.

Süfrəyə üzüm yarpaqlarına bükülərək hazırlanmış göyərçin əti verildi. Ağ şərabdan hazırlanmış sousda bişən və qovrulmuş fındıq əlavə edilən bu yemək xüsusilə nəfis idi. Dronqo ehtiyatla bir tikə götürüb dadına baxdı. Çox ləziz idi.

— Cənab Hekket, Dronqo qədəhini qaldıraraq dedi, — sizdən hazırladığınız bu əməliyyatın təqdirəlayiq olduğunu gizlətmək istəməzdim. Hər şey sizə xas olan şıqla düşünülərək hazırlanıb. Belə bir «tədbiri» sifariş edən adamların sizin xüsusi istedada malik olduğunuzu bildiklərinə şübhə etmirəm. Əslinə baxılsa, siz mənim müştərimə başqa heç bir çıxış yolu qoymadan, onu sözün əsl mənasında məngənəyə salmısınız.

— Təriflərinizlə məni utandırırsınız, — Hekket hırıldadı.

— Və müştərimin sizin məngənədən çıxmaq üçün heç bir şansının olmadığını zənn edirsiniz, deyilmi?

— Bəli, — Hekket qalibkarcasına qədəhini qaldırdı. Şərabdan üç qurtum içib qədəhini stola qoydu və süni utancaqlıqla əlavə etdi: hətta sizin kimi bir professionalın yardımı ilə də olsa, Dronqo.

— Sizin məni tanıyacağınıza şübhə etmirdim, — Dronqo rəvan səslə cavab verdi.

— Biz ikimiz də işimizdə ustadıq, — Hekket hiyləgərcəsinə dedi, siz intriqaların dolaşığını açmaq üzrə ustadsınız, mən isə onları dolaşdırmağı bacaranam. Sizin kimi cahanşümul bir analitik haqqında məlumatımın olması, yəqin ki, sizi çox təəccübləndirmədi.

— Məndə də sizin barənizdə müəyyən məlumat var.

— Çox gözəl, — Hekket vəcdə gəldi, — sizinlə görüşməyi çoxdan arzulayırdım. Deməli, yaxın yeddi gün ərzində biz sizinlə nəinki həmkar, bu ağır işdə həm də şərik olacağıq. Məni həyəcana gətirən hisslərin bütün qammasını sizə olduğu kimi izah etməkdə acizəm.

Kənardan bu həmsöhbətlərin iki nəfər çoxdankı dost olduğunu düşünmək olardı. Onlar tez gülümsəyir və həmsöhbətinin dediklərini təsdiqləyərək bir-birinə baş təzimləri edirdilər.

— Siz nahaq yerə bu işə əl qoydunuz, — Hekket davam edirdi, — hər şey incədən-incəyə düşünülüb-daşınılıb. Gəlişiniz çox yubanıb, cənab Dronqo. Bəlkə də ilk mərhələdə sizin hansısa bir şansınız ola bilərdi. Lakin yeddicə, pardon, altıca gün qaldığı bir vaxtda, artıq heç bir şansınız yoxdur. Bu işə əl qoymaqla yalnız professional nüfuzunuzu sarsıtmış olacaqsınız. Mənim üslubum hər kəsə məlumdur: əməliyyatı xırdalıqlarına kimi düşünüb-daşınmaq və həmişə, məni eşidirsiniz, Dronqo, həmişə lazımi nəticələrə nail olmaqdır. Ona görə də mənim sizə yeganə məsləhətim — evinizə qayıdın. Artıq gecikmisiniz.

— Mən o fikirdə deyiləm. Altı günə çox şey dəyişilə bilər. Sizin xəbərdarlıqlarınıza rəğmən mənim bu işi öhdəmə götürmək fikrim qətidir. Sizin nöqsansız qurulmuş bu sisteminizdə səhv tapmaq mənim özüm üçün də maraqlı olar.

— Buyurun, — Hekket cavab verdi.

Ondan sərt karamel ətri gəlirdi. Dronqo gülümsədi:

— Sizin bu qədər dəb tərəfdarı olduğunuzu düşünməzdim. «Tyerri Müqler»i sevirsiniz?

— Bəli. Bu mənim son zamanlar ən sevdiyim ətirdir. Siz isə, məlum olduğu kimi, uzun illərdir yalnız «Farengeyt»dən istifadə edirsiniz. Deyilənə görə, sizi hətta ətrinizlə də axtarıb tapmaq olar.

— Təşəkkür edirəm. Mənim barəmdə başqa nələr deyirlər?

— Siz köhnəlik tərəfdarısınız, Dronqo, bu isə sizin müəyyən dəyərlər tərəfdarı olduğunuz deməkdir. Bütün Avropa sizin sırf «Balli» firmasının ayaqqabılarına və «Valentin» firmasının kostyumlarına üstünlük verdiyinizi bilir. Kəskin və ciddi zövqə maliksiniz, cənab Dronqo.

— Sizə komplimentlə cavab verə bilməyəcəm. Sizin «Kenzo» firmasından olan son dərəcə gözəl qalstukunuz heç cür kostyumunuza uyğunlaşmır. Kostyumunuz hansı firmanındır?

— «Balansiaqa» firmasının. Mən kostyumları Beşinci Georq avenyusundakı firma dükanından əldə edirəm.

— O mağazanı çox yaxşı tanıyıram. Səhv etmirəmsə, dükan sahibi hindudur, deyilmi? Ya da pakistanlı. «Balansiaqa» dükanı «Civanşi» dükanı ilə üzbəüz yerləşir, Monten küçəsindən dönəndə sağ tərəfdə.

— Görürəm Parisi yaxşı tanıyırsınız, — Hekket gülümsədi. — Mənə isə sizin kostyumlarınız üçün qalstuk seçməkdə Avropada hamıdan bacarıqlı olduğunuzu demişdilər. Səhv etmirəmsə, əyninizdəki «Versaçe»dir. Eşitdiyimə görə, o sizin ən sevdiyiniz dizayncı idi. Rəhmətlik meydan oxuyan effektiv üsluba üstünlük verirdi, onun bu xüsusiyyətini mən də bəyənirdim. Lakin ciddi zövqə malik bir adamın belə qalstuklar taxması qəribədir.

— Artıq elə qalstuklar taxmıram. Onları Moskvada bizim «yenilər» taxmağa başlayandan sonra, mən başqa, daha ciddi ustadlara üstünlük verirəm. İndi mən «Civanşi» firmasının eksklüziv qalstuklarını taxıram, onlardan xoşum gəlir. Lakin onların rəng qamması daha çox yay fəsli üçün nəzərdə tutulub. Qışda italyan modelçilərinin hazırladığı ciddi üslublu qalstuklara üstünlük verirəm.

— Siz gözəlliyə qiymət verməyi bacaranlardansınız, — Hekket qeyd etdi. — Bəs köynəklərdən adətən hansılarını bəyənirsiniz? Mənim «Nina Riççi» firmasından olan köynəklərdən xoşum gəlir. Onlar hər zaman dəbdə olur.

— «Monsenyor Kristian Dior» firması, — Dronqo etiraf etdi. — Məsələ burasındadır ki, sizin köynəklərdə yaxalığın dayanaqlığı üçün plastmas haşiyələr olur. Mən isə həmişə onları itirirəm. Ona görə ya «Monsenyor», ya da «Pioner» firmasının köynəklərini geyinirəm ki, haşiyə axtarışında olmayım.

— Alt paltarı, təbii ki, “Jerutti”dəndir, deyilmi?

— «Kelvin Klyayn»dan. Hərçənd mən «uniseks» modellərinin prinsipial əleyhdarıyam, amma onun klassik nümunələri də vardır.

— Bizim sizinlə çox şeydə zövqlərimiz oxşardır, — Hekket bildirdi, — sizinlə çox yaxşı cütlük təşkil edə bilərdik.

— Birlikdə, yəni cütlükdə çalışmağı nəzərdə tutursunuz?

— Biz sizinlə artıq birlikdə, bir iş üzərində əməkdaşlıq edirik.

— Rəqabət aparırıq.

— Elə də demək olar. Hərçənd mənim «əməkdaşlıq edirik» deyimindən daha çox xoşum gəlir.

— Belə olan halda «əməkdaşlığımızın» düz bir həftədən sonra müəyyən nəticələrlə başa çatacağına ümid edirəm.

— Bu gün bazar ertəsidir, — Hekket xatırlatdı. — Gələn bazar ertəsi səhər vaxtı bizim ümumi tanışımız atacağı addımları qəti şəkildə bəyan etməlidir. Ya o müstəntiqlə "mehriban bir görüşün" qaçılmaz olacağı Moskvaya yollanacaq, ya da Parisdə qalıb, maraqlı videofilmdən zövq almağa davam edəcək. Hətta sonuncu kadrları kəsib çıxarsa, o filmin seyrindən də zövq ala bilər. Amma başqa variantları yoxdur. Risk etməyi düşünsə, uduzar. Təəssüf ki, mənim müəyyən öhdəliklərim var. Belə bir situasiyada əlimdən bir şey gəlməz.

— Belə olan halda mənim hətta düşündüyümdən də az zamanım qalıb. Amma mən geriyə çəkilməyə öyrəşməmişəm, cənab Hekket. Düz on bir gündən sonra sizi həmin bu restorana dəvət edirəm. Həftənin cümə günü. Ümid edirəm ki, mənimlə şam yeməyi yeməyə razılıq verərsiniz. Düz on bir gündən sonra, — Dronqo bu sözü bir daha təkrarladı. — Həmin gün biz sizinlə «əməkdaşlığımızın» nəticələrini müzakirə edərik.

— Özünüzə çox güvənirsiniz, — Hekket donquldandı, — əlinizdən bir şey gəlməyəcək. Heç cəhd etmənizə dəyməz.

— Mən yenə də cəhd edəcəm. Nə qədər olmasa, sizin kimi mütəxəssisdən gələn məğlubiyyət belə, Hekket, mənə çox

şeyi öyrədər. Sizin sağlığınız olsun, Hekket, dediyim kimi tezliklə sizi burada görməyə ümid edirəm.

— Mütləq, — Hekket gülümsədi. — Siz nahaq yerə qaraqorxu gəlirsiniz, Dronqo. Artıq çıxış yolu yoxdur. Dostunuzun verəcəyi yeganə düzgün qərar artıq vaxt itirmədən — elə bu gün məktubu yazıb, sizi də perspektivsiz axtarışlara vadar etməməsidir. Nəticədə sizin adınız, etibarınız, nüfuzunuz sarsıla bilər.

— Mən sizinlə eyni fikirdə deyiləm. Məğlubiyyətdən heç kim sığorta olunmur. Xüsusilə də sizin kimi alçaqlıq təşkilatında mütəxəssis olan bir adamdan gələn məğlubiyyətlərdən.

Hekketin üzündəki təbəssüm yox oldu. O, qaşlarını çatıb əsəbi halda dedi:

— Yaxşı. Mənə meydan oxumağa bir cəhd edin. Görək, əlinizdən nə gələcək. Amma nəzərə alın ki, bu andan etibarən mən sizə qarşı aktiv müqavimətə başlayıram. Mən sizə neytrallığıma dair söz verməmişəm.

— Mən «Rits» otelində dayanmışam, — Dronqo bildirdi, — əgər mənim üçün də elə bir gözəlçə göndərmək niyyətinə düşsəniz, qətiyyən etiraz etmərəm. İkisi olsa, daha yaxşı olar, mühüm şahidimin olması üçün.

Hekket əlindəki çəngəli stola qoydu. Başını buladı, lakin yenə də gülümsədi.

— Gözəl taktikadır, amma məni yoldan çıxarmağı bacarmayacaqsınız. Gələn cümə görüşərik, cənab Dronqo.

— Siz desertdən imtina edirsiniz? — deyə Dronqo təəccüblə soruşdu.

— Bəli. Şirniyyat fiquranı korlayır. Sizin də ondan imtina etməniz məsləhətdir.

— Tövsiyələrinizi hökmən nəzərə alacam, cənab Hekket. Ümid edirəm ki, bu tövsiyələrinizdə gizli istehza yoxdur?

— Salamat qalın, — Uord Hekket ayağa qalxdı. Bir anlığa fikrə gedib əlavə etdi: Ehtiyatlı olun, Dronqo. Mən öz qaydalarıma uyğun mübarizə aparıram. Şüarım isə budur: əsas priz uğrunda heç bir qayda-qanuna yer yoxdur. Xudahafiz.

Hekket çıxıb gedəndən sonra Dronqo hələ xeyli müddət orada oturub düşündü. Nəhayət, ofisiant yaxınlaşdı.

— Deserti gətirimmi, ser? — deyə nəzakətlə müştərisinə müraciət edərək soruşdu.

— Xeyr. Mənə pendir və bir az da şərab gətirin. Mənim az əvvəl gedən dostum desertin mənim üçün zərərli olacağını düşünür.

# *BİRİNCİ GÜN*

Gecə yarını ötsə də, onlar hələ də kabinetdə əyləşib söhbət edirdilər. Hekketlə görüşdən sonra Dronqo bəzi detalları aydınlaşdırmaq üçün biznesmenin evinə gəlmişdi.

— Hərrac barədə hər şeyi anladım, — Dronqo söhbətə yekun vurmaq üzrə idi, — qızla restoranda tanış oldunuz, deyilmi?

— Bəli, doğrudur. Qız çox gözəl idi. Mənim bəyəndiyim qadın tipi. Amma o özü mənə yaxınlaşmadı. Yanımdakı stola əyləşib özü üçün yüngül səhər yeməyi sifariş etdi. Ya da amerikalılar demiş — lenç.

— Siz nəyə əsaslanıb onun professional olduğunu deyirsiniz?

— Yataqda onun professional olması dərhal bilinirdi. O, peşəsində, sadəcə, professional yox, mütəxəssis idi. İngiliscə çox səlis danışırdı. Bir sözlə, mən ona nömrəmə qalxmağı təklif elədim, o da razılaşdı. Sonrasını özünüz bilirsiniz.

— Deməli, sizi onunla konkret olaraq kimsə tanış etməmişdi?

— Bəli. Biz özümüz tanış olduq. Amma o, restorana daxil olan kimi mənim diqqətimi cəlb etdi. Həmin vaxt mən vəkilimlə nahar yeyirdik. İkimiz də ona diqqət yetirdik. Çox cəlbediciydi. Restoranda demək olar ki, müştəri yox idi. Adətən mən yuxudan gec oyanıram, gecələr işləməyə çalışıram. Ona görə mehmanxanalarda qərb tərəfi seçirəm ki, bir az artıq yata biləm. Həmin gün biz səhər yeməyimizi nahar çağına yaxın vaxtda yeyirdik. Mənim vəziyyətimi təsəvvür edin — onu görən kimi bütün görüşlərimi təxirə saldım.

— Şübhə etmirəm, — Dronqo dodaqaltı dedi, — qadının sizin zövq və meyillərinizə uyğun seçilməsi sirr deyil. Cənab Hekketin dəst-xətti tanınır. O, hər işi əsaslı şəkildə qurur. Bunun üçün bəlkə də sizin bəyənəcəyiniz qadın tipini müəyyən edə biləcək psixoloq da dəvət etmiş olar.

— Bəli, bəli, mənə də elə gəlir. Çünki qız dərhal razılaşdı, özünü çox sərbəst aparmağa başladı. Onların alver etməyə, qiymət danışmağa, nazlanmağa başlamasını heç sevmirəm. Başqalarına heç bənzəmirdi.

— O, başqalarından heç nə ilə fərqlənmir, — deyə Dronqo etiraz elədi, — amma başqaları ilə müqayisədə, onun haqqı əvvəlcədən ödənilmişdi. Özü də onun bir il fəaliyyəti ərzində qazana biləcəyindən xeyli artıq bir məbləğ ödənilib. Çox olar ki, az olmaz. Hekket belə hallarda simiclik etmir. Onsuz da axırda o öz «sifarişçilərinə» ümumi hesabı təqdim edir.

— Qız çox cəlbediciydi, — Aleksandr köks ötürdü, onun ölüm xəbərini eşidəndə çox sarsıldım.

— Sizin vəkiliniz müstəntiqə ifadə veribmi?

— Bəli, o mənim çıxıb getdiyimi və Moskvaya gələn bazar ertəsindən tez qayıtmayacağımı bildirdi. Müstəntiq gələn həftənin çərşənbə axşamı mənim şahid qismində dindirilməyə gəlməli olduğumu bildirən göndəriş yollayıb.

— Vəkilinizin soyadı nədir?

— Lyubomudrov. Vikenti Alekseyeviç Lyubomudrov. Belə bir qeyri-adi soyadı var. Yaxşı mütəxəssisdir, biz onunla uzun illərdir əməkdaşlıq edirik.

— Sizin ən yaxşısını seçdiyinizə şübhə etmirəm. Mən Moskvada onunla birgə çalışacağam. Başqa kimi tövsiyə edə bilərsiniz? Mənə daha bir köməkçi lazım olacaq.

— Andrey İlyin, sizin evə gələn həmin adam. Mən ona tamamilə etibar edirəm. Onu neçə ildir tanıyıram.

— Əla. İndi mənə sizin bir neçə sualıma tamamilə səmimi cavab verməniz lazımdır. Amma son dərəcə səmimi olmalısınız, əks halda mən sizə gərəkli nəticələri əldə edəcəyimə dair heç bir zəmanət verə bilmərəm.

— Bəli, əlbəttə, — Aleksandr cavab verdi, — sizi dinləyirəm.

— Oteldə videoya çəkildiyinizdən xəbəriniz var idimi?

— Təbii ki, bilmirdim, — Aleksandr çaşıb qaldı, siz o videoçəkilişi mənim təşkil etdiyimi düşünürsünüz?

— Mən heç nə düşünmürəm, sadəcə, dəqiqləşdirirəm.

— Mənim heç nədən xəbərim yox idi. Şübhələnib öyrənsəydim, öz əlimlə kameranı sındırardım. Hətta Vikenti Alekseyeviçdən o nömrənin bütün təhlükəsizlik tədbirlərinə uyğun olub-olmadığını öyrənməsini də xahiş etmişdim. O,

hər şeyi şəxsən özü yoxlamışdı. Görünür, kiçicik kamera divardakı şəklin altında quraşdırılmışdı, çəkiliş də elə oradan aparılırdı.

— Mənə göstərilən lentin ilk epizodlarındakı adamın siz olduğunuz şübhəsizdir. Bəs axırıncı epizodlardakı dəqiq siz deyilsiniz? Mən indi sizin səmimi etirafınızı dinləyən bir növ sizin vəkiliniz, ya da bir keşişəm. Əgər qızı siz öldürmüsünüzsə, bunu mənə indi deyin ki, mən də axtarış vektorumun istiqamətini dəyişə bilim. Elə olan halda mən qatili yox, sizə bəraət qazandıracaq dəlil-sübutları axtaracam. Əgər indi mənə həqiqəti söyləməsəniz, bu mənim qarşıma qoyulan məsələnin tam iflası demək olacaq.

— Görürsünüz, siz də mənə inanmırsınız, — Aleksandr ah çəkdi. — Mən onu öldürməmişəm, — o, qətiyyətlə bildirdi. Atəş də açmamışam, — biznesmen əlavə etdi.

— Yaxşı. İndi axırıncı sual. Sizin o hərracda iştirakınız doğrudanmı son dərəcə önəmlidir? Yoxsa iştirakdan imtina edib Hekketdən videolentin əslini almağa daha çox üstünlük verərdiniz?

— Mən hərracdan imtina edə bilmərəm, — Aleksandr cavab verdi, — məsələ məndə deyil. O hərracda bir çox adamların maraqları cərəyan edir. Çox zəngin adamlar səhmlər paketini almaq üçün mənim kompaniyamdan, sadəcə, bir vasitəçi təşkilat kimi istifadə edəcək. Yox, heç cür hərracdan imtina edə bilmərəm. Bu mənim üçün intihara bərabər bir addım olardı. Elə olan halda mən həqiqətən də bir daha heç vaxt Moskvaya qayıda bilmərəm. Parisdə də qalmaq olmaz. Məni gəbərdərlər. Amansızcasına. Burada çox nüfuzlu adamların maraqlarından söhbət gedir.

— Bəs sizin rəqibləriniz?

— Onlar başqa bir klandırlar. Əslində, hazırda Rusiyada hakimiyyət başında ölkənin bütün siyasətini müəyyən edən

bir neçə klan dayanıb. Əgər mən hərracdan imtina etsəm, mənimlə əlaqəli olan adamların klanını pis vəziyyətdə qoymuş olacam. Qərb partnyorlarının gözündə onları alçaltmış olacam. Digər bir klanın əldə etdiyi səhmlər paketi onların isə Rusiyanın bütün iqtisadiyyatı və siyasətinə təsirlərini gücləndirəcək. Həmçinin ölkədə real vəziyyətə nəzarət məsələsinə də.

— İnandırıcıdır, — Dronqo cavab söylədi. — Mən əvvəlcədən bu məsələdə, sadəcə, iqtisadi maraqların yox, həm də siyasətin də əlaqəsinin olduğundan şübhələnirdim. Uord Hekket həddindən artıq tanınmış bir simadır və onu, sadəcə, sizi pis vəziyyətdə qoymaq üçün işə cəlb etməzdilər. Görünür, onlar öz strategiyalarını ən incə xırdalıqlarına qədər hesablayıb və ən həssas nöqtədə dayanıblar-.

— Bəli, elədir ki var. Rəsmi olaraq sənədləri, bir kompaniya rəhbəri kimi, məhz mən təqdim etməliyəm. Sənəd paketindəki bütün imzaları da mən özüm yazmalıyam. Beləliklə də mən seçim qarşısında qalmışam: ya Moskvaya getməyib çox nüfuzlu adamların ümidlərini boşa çıxardığıma görə öldürülməyimi gözləməli, ya da Moskvaya gedərək özümü qurban verməliyəm. Gedəcəyim halda, təbii ki, səhmləri əldə etmiş olacağıq. Amma məni uzun illik həbs cəzası gözləyəcək. Ya da orada da qətlə yetiriləcəm. Belə çıxır ki, hər iki halda məni eyni aqibət gözləyir.

— Bu qədər əmin olmayın, — Dronqo inkar elədi, — bəzi hallarda üçüncü variant da olur. Göyə atılan qəpik til üstə düşdüyü kimi. Milyondan bir şansdır, amma o, hər zaman var.

— Yaxşı, — Aleksandr özünü gülümsəməyə məcbur etdi, amma bu, süni və aciz bir təbəssüm idi. — Elə hesab edək ki, siz mənim şansımsınız. Dediyiniz şansım. Milyondan bir olan.

— Sabah səhər mən Moskvaya qayıdıram, — Dronqo xəbər verdi, — İlyin dediyiniz adama tapşırın ki, məni qarşılasın. Mümkünsə, qarşılamağa vəkilinizlə birlikdə gəlsin. Vaxtımız onsuz da çox azdır.

Vandom meydanındakı «Rits» otelinə o, gecə saat birə işləmiş qayıtdı. Hollda ona gülərüz xidmətçi yaxınlaşdı.

— Bağışlayın cənab, — o, üzr istəyən kimi tonla dedi, — sizə otelimizin beş yüz iyirmi üçüncü nömrəsindən bir neçə dəfə zəng ediblər. Gələn kimi onların yanına getmənizi xahiş etdilər.

— Kim zəng edib? — deyə Dronqo təəccübləndi.

— Bilmirəm. Amma onların nömrəsinə getmənizi çox xahiş etdilər. Onlar bu gün gəliblər və bizim oteldə yerləşiblər.

Qəribədir, deyə Dronqo düşündü, heç kəs onun «Rits»də dayanacağını bilmirdi. O, otel xidmətçisinə təşəkkürünü bildirərək, beşinci mərtəbəyə qalxmaq üçün liftə girdi.

Giriş qapısının sağ səmtində olan lift qeyri-adi şəkildə quraşdırılmışdı. Qonaqlar liftin kabinəsinə daxil olurdular. Qapı özü onların arxasınca dərhal bağlanırdı. Sonra lift yuxarı qalxır, qonaqlar isə artıq ora-bura dönmədən, liftin giriş qapısı ilə üzbəüz olan ikinci qapıdan çıxırdılar. Dronqo beşinci mərtəbəyə qalxıb xidmətçi dediyi nömrəyə tərəf getdi və qapını döydü.

— Buyurun, — o, qadın səsi eşitdi. Dronqo ehtiyatla qapını açıb kiçik bir dəhlizə daxil oldu. Otaqda iki kresloda çox gözəl görkəmli iki gənc qadın əyləşmişdi. Qadınların biri sarışın, ikincisi isə xurmayı saçlı idi. Adama elə gəlirdi ki, bu gözəlçələr model agentliklərinin reklam plakatlarından eniblər. Qadınların ikisi də anlayışlı bir təbəssümlə qonağa baxırdılar.

Ay səni qurumsaq Hekket!.. Dronqo qızları onun göndərdiyini anladı və güldü. Onun dediyini unutmayıb, iki qızı birdən göndərib. Qadınların gecəyarısına qədər hollda gözləməsinə icazə verilməyəcəyini bilib, hər ehtimala qarşı onlar üçün otaq kirayələmişdi. Yəni özünün istənilən problemləri həll etmək bacarığına malik olduğunu bir daha nümayiş etdirdi.

— Siz məni gözləyirsiniz? — deyə Dronqo soruşdu.

Elə bu vaxt telefon zəng çaldı. Qadınlardan biri əzilə-əzilə dəstəyi qaldırıb Dronqoya uzatdı.

— Sizə xoş istirahətlər, Dronqo, — Hekketin səsini eşitdi, — məncə, qızları bəyənəcəksiniz. Narahat olmaya bilərsiz. «Rist»də mənim gizli kameralarım yoxdur.

— Bunu hələ bilmək olmaz, — Dronqo cavab verdi, — amma istənilən halda hədiyyə üçün təşəkkür edirəm. Minnətdaram. Gecəniz xeyrə qalsın.

O, dəstəyi yerinə qoyub üzünü qadınlara tutdu. Tərəddüd etmək axmaqlıq olardı. Belə qeyri-adi nümunələrə nadir hallarda rast gəlmişdi.

— Cənab Hekketin istəyini rədd edə bilmirəm, — Dronqo gülümsədi, — amma gəlin ona zövq yaşatmayaq. Bu saat mən aşağı enəcəm və onun adamlarının baş çəkmədiyi otaqların birini kirayələyəcəm.

— Nə? — deyə qadınlardan biri təəccüblə soruşdu.

— Heç nə. Sizin gözəlliyinizə valeh olmuşam, — deyə Dronqo nömrədən çıxaraq tələsik cavab verdi.

# *İKİNCİ GÜN*

Səhər onu aeroporta aparmaq üçün otelin qarşısına bir avtomobil gəldi. Bu dəfə, Moskvaya qayıdarkən, adəti üzrə illüminatoru bağladı. Taksidən daha çox təyyarə ilə gedib-gəlirdi, lakin instinktiv qorxu daim onun içində idi. Səfərlərini uzadaraq qatarla gedib-gəlməyə üstünlük verən Dronqo imkan daxilində təyyarə uçuşlarından çəkinməyə çalışırdı.

Şeremetyevo aeroportunda onu iki nəfər qarşıladı – Lyubomudrov və İlyin. Əlində yükü olmadığından, onu qarşılayanların yanına kifayət qədər tez çıxdı. Lyubomudrov pırtlaşıq saçlı ucaboy və arıq bir kişi idi. Gözündəki eynəyin qalın şüşələri onun görmə qabiliyyətini saatlarla işdə soraq kitabçaları və kodekslər foliantlarını oxuyarkən itirdiyi təsəvvürü yaradırdı. İlyin ağır təbiətli bir adama bənzəyirdi. Ucaboy, enlikürək, əynində zamşa gödəkcə olan yaraşıqlı gənc adam idi. Dronqo ilə salamlaşmaq üçün birinci əlini o uzatdı. Təntənəli surətdə özünü təqdim elədi.

Onlar gəldiyi «Audi»ni İlyin idarə edirdi. Bu, Dronqonun xahişi idi. Çünki söhbətdə sürücünün, hətta etibarlı bir adam olsa belə, iştirak etməsini istəmirdi. Onların bu işi barədə nə qədər az sayda adam bilsə, uğur qazanmaq şansları bir o qədər çox olacaq.

— Siz tanışlıq günü rəisinizlə birlikdə səhər yeməyi yeyirdiniz, deyilmi? — deyə Dronqo vəkilə müraciət etdi. — Həmin vaxt restoranda olan xanım barəsində nə deyə bilərsiniz? Bu hekayəni sizin də dilinizdən eşitmək istərdim.

— Yaraşıqlı, gənc bir xanım idi, — Lyubomudrov ehtiyatla sözünə başladı, — dəbli geyinmiş, saçları səliqəli daranmışdı. Bilirsinizmi, mən həmişə «gecə kəpənəklərinin» saçlarına diqqət yetirirəm. Adətən onların saçları çox səliqəsiz və baxımsız olurlar. Bunun nə ilə əlaqədar olduğunu bilmirəm, yəqin ki, onlar, bir növ əmək

alətləri olan üzlərinin daha çox baxımlı olmağına üstünlük verirlər. Bu qız isə çox səliqəli və yaraşıqlı, pal-paltarı da qəşəng idi. Hər halda elə təkcə əl çantası ən azı bir neçə yüz dollar qiymətində olardı.

— Bu işdə əməyi çox yüksək dəyərləndirilən və ödənilən professionallar da var, — Dronqo qeyd etdi.

— Bəli-bəli, bu qız böyük ehtimalla həmin «yüksəkqiymətli» olan kateqoriyadandır. O, masasına yaxınlaşıb, ofisianta nəsə sifariş etdi.

— Necə bilirsiniz, onlar ofisiantla tanış idilərmi?

— Bilmirəm. Onların nə barədə danışdığını eşitmədim.

— Sizin fikrinizcə, qız onunla gülərüz, sanki çoxdankı tanışı kimimi rəftar edirdi, yoxsa sadəcə, salamlaşdımı?

— Məncə, tanımadığı bir adamla rəftar edər kimi müraciət elədi.

— Onlar Aleksandrla necə tanış oldular?

— Adətən ona xas olan üslubda. O, qıza ən bahalı şampan şüşəsi yolladı. Qız başı ilə ona razılığını bildirdi. Sonra Aleksandr ona yaxınlaşdı, onlar bir az söhbət etdilər və birlikdə onun otel nömrəsinə yollandılar. Mən elə bilirdim ki, təqribən bir saatdan sonra qız çıxıb gedər. Amma Aleksandr onunla ciddi maraqlanmışdı, hətta bir neçə mühüm işgüzar görüşməni də təxirə saldı. Sonra isə qız üç gün onun nömrəsində qaldı.

— Onları birlikdə ikən çox adam görmüşdü? — deyə sanki nədənsə narazı olan Dronqo soruşdu.

— Bəli, çoxları görmüşdü. Ona görə də qızın qətli bizim hamımızı şoka saldı. Amma hələlik mən müstəntiqi rəisimin mehmanxanadan qız öldürülməzdən əvvəl çıxıb getdiyinə inandıra bilmişəm. Hələ yaxşı ki, o gedəndə qız nömrədə

qalmışdı, onun meyitini günorta saat dördə işləmiş aşkar ediblər.

— Rəisiniz nə vaxt çıxıb getdi?

— O, oteldən səhər saat onda ayrıldı. Onun təyyarəsi günorta saat ikinin yarısında tərpənirdi. Parisə gedən təyyarə. Biz hələ yolüstü ofisimizə də dönməyi çatdırdıq.

— Ekspertlərin fikrincə, qadın nə vaxt qətlə yetirilib?

— Təqribən elə həmin vaxt. Ekspertlər günorta saat birin yarısı ilə ikinin yarısı arasında olan vaxtı qeyd edirlər. Yəni nəzəri baxımdan Aleksandr qadını öldürüb, — ondan dərhal sonra aeroporta gəlməyi çatdırardı. Təbii ki, bu, yalnız nəzəri baxımdandır, lakin əgər onlar başqa sübutlar da tapa bilsələr... Onu müdafiə etmək çox çətin olacaq.

— Siz videoçəkilişi görmüsünüz?

— Görmüşəm. İki gün əvvəl mən bir neçə saatlığına Parisə gedib-gəldim. Dəhşətli bir videokadr. Amma çox da inandırıcıdır. Videolent olmasa, rəisimin günahsızlığını sübut etmək mümkündür. Lakin o ortaya çıxarsa, müstəntiqlərlə prokuroru Aleksandrın günahsızlığına inandırmaq heç də asan olmayacaq. Hətta bunu bacarsaq da, onlar yenə də bu çəkilişi televiziya ilə yayınlaya bilərlər. Siz onların hansı kanala nəzarət etdiyini bilirsiniz. Əgər görüntülər televiziya ilə yayımlanarsa, bu, istintaqın ittihamından daha böyük qalmaqala yol açacaq. Artıq sonra bəraət qazanmaq mümkün olmayacaq.

— Sizinlə razıyam. Qızın adı nə idi?

— İrina. İrina Maksimenko. Bəzi qəzetlər onun barəsində yazmışdılar. Elə həmin məqalələrdə onun bir nəfər yüksəkçinli adamla əlaqəsinə dair eyhamlar vurulurdu. Amma konkret adlar hələ heç yerdə çəkilmir.

— «Metropol» tərəfə gedirik, — Dronqo İlyinə müraciət elədi.

İlyin bir söz demədən sürəti artırdı.

— Biz də müstəntiqlərlə birlikdə mehmanxanaya getmişdik, — deyə vəkil araya çökən sükutu pozdu. — Ora xüsusi bir oteldir. Oranın şəxsi təhlükəsizlik xidməti, həm də öz daimi müştərilər dairəsi var. Amma maraqlısı odur ki, öldürülən barədə heç bir məlumat yoxdur. Yəqin ki, qız orada çalışmayıb.

— Ya da əksinə, — Dronqo köks ötürdü. — Görünür, siz adi yoxlama sistemindən istifadə etmisiniz. Qeyri-formal yoxlama üsulları da mövcuddur.

— «Metropol»a tez-tez gedib-gəlmək olmaz, — İlyin qeyd etdi. Yəni gedib-gəlib zəhlə tökmək olmaz. Çox böyük arzuolunmaz vəziyyətlə üzləşmək riski var.

— Mən ehtiyatlı olmağa çalışacam, — Dronqo anladığını bildirərək başını tərpətdi. — Axtarışı birmənalı şəkildə oteldən başlamaq gərəkdir. Siz isə, Vikenti Alekseyeviç, prokurorluğa gedib, ölən qadın haqqında mümkün qədər ətraflı məlumat almağa çalışın. Kimdir, nəçidir, əsli haradandır, əgər moskvalı idisə, harada yaşayırdı, qohum-əqrəbası harada yaşayır, harada qeydiyyatda idi və s. Bir sözlə, nə bacarsanız, onu araşdırıb öyrənin.

— Çalışaram, hərçənd, inanmıram ki, müstəntiq bütün bu məlumatları mənə danışmaq məcburiyyətində ola, — Lyubomudrov tərəddüdlə cavab verdi.

— Məsələnin ciddi olduğunu və rəisinin nüfuzuna toxunduğunu ona izah edin. Deyin ki, müstəntiqə həqiqəti öyrənməyə yardımçı olmaq qərarına gəlmisiniz. Mənim fikrimcə, işi başından aşan müstəntiq böyük ehtimalla sizə qarşılıq verəcək. Nəticədə, öldürülən barədə məlumatları gizlətmək nəyə və kimə gərəkdir? Bu ki istintaq sirri deyil.

— Biz qızın harada yaşadığını bilirik, — deyə İlyin söhbətə qarışdı. O, yeni Olimpiya kəndindəki Udaltsov küçəsində yaşayırdı.

— Siz haradan bilirsiniz?

— Bizim sürücülər bir neçə dəfə onu ora aparıb-gətiriblər.

— Gedib-gəlməsi hələ onun orada yaşaması demək deyil, — Dronqo etiraz elədi, — bəlkə də heç orada yaşamır. Kimsə onunla birlikdə onun mənzilinə getmişdi?

— Yox. Adətən maşın onu evin yanında gözləyirdi.

— İstənilən halda biz oraya gedib, hər şeyi yoxlayacağıq, — deyə Dronqo razılaşdı, — amma əvvəlcə «Metropol»a gedək. Yolüstü Vikenti Alekseyeviçi prokurorluğa aparaq.

— Harada görüşəcəyik? — deyə vəkil soruşdu.

— Düz iki saatdan sonra gəlib sizi götürəcəyik. Amma yenə də bacardığınız qədər çox məlumat əldə etməyə çalışın. Ən cüzi detallar, xırdalıqlar belə bu işin açılmasında önəmli ola bilər.

— Başa düşürəm, — Lyubomudrov cavab verdi, — əlimdən gələni etməyə çalışacağam.

«Audi» şəhər prokurorluğunun binası tərəfə döndü. Maşın ehtiyatla saxladı. Vəkil çantasını götürüb maşından endi. Andrey onun binaya yaxınlaşdığını gözlədi, ətrafa boylandı, sonra da sükanı çevirərək həyətdən sürüb çıxdı.

— Mehmanxanada yoxlama aparmısınız?

— Cəhd etmişik, — İlyin köks ötürdü, — qızın əvvəlki ünvanı ilə də yoxlamışıq. Heç bir iz-filan yoxdur. Sanki qız qeybdən gəlmişdi. Heç kim onun harada yaşadığını bilmir.

Müstəntiqlər isə bizə öz məlumatlarını söyləmirlər. Onların da sirləri, gizlədikləri var.

— Qeydiyyat şöbəsində maraqlanmısınız?

— Maraqlanmışıq. Bizə verilən ünvanda qız ümumiyyətlə heç vaxt olmayıb.

— Yüksək səviyyəli işdir, — Dronqo deyindi.

— Yox, — Andrey onun nə demək istədiyini anlamadı, — adi işdir. Görürsünüz, ortada heç bir nəticə yoxdur.

Dronqo sərt şəkildə izah elədi:

— Sizin işinizi demirəm. Rəisinizin rəqiblərini nəzərdə tuturam. Hər şey son dərəcə yüksək səviyyədə təşkil olunub. Adamı nəinki sözügedən hərrac müddətinə, hətta sonrakı həftələrə və aylara da işdən kənarlaşdırıblar. Əgər biz onun suçsuzluğuna dair inandırıcı dəlillər əldə edə bilməsək, onlar hələ uzun müddət onu şantaj edə biləcəklər. Üstəlik, onların hərrac bitəndən sonra da rəisinizə başqa bir saziş təklif etməyəcəklərinə dair heç bir zəmanət yoxdur. Onlar kimi adamlara güzəştə getmək olmaz. Heç vaxt və heç bir işdə. Bircə dəfə güzəşt olunsa, zəif damarı tapıb, insanı bütövlüklə uda bilərlər. Onlara güzəştə getmək olmaz.

Andrey onun dediyini başı ilə təsdiqlədi. Eyni zamanda da yanlarından sürətlə ötüb, onların yolunu kəsəcək «Cip»ə diqqət yetirdi. Hə, Moskva mərkəzində maşın sürmək nəinki problematik, həm də təhlükəli idi. Ya bir neçə saatlıq avtomobil tıxacında ilişib qalmaq, ya maksimal — sürətlə yanından ötüb keçməyə çalışan «qoçaq»lara rast gəlmək, ya da ən pis halda maşınların arasından irəli keçmək istəyərkən, dəlinin birinin əsəbi vaxtına düşüb, güllə-barana tuş gəlmək ehtimalı var.

Onlar ən azı qırx dəqiqəyə «Metropol»a çatdılar. Dronqo təşvişlə saata baxdı.

— Deyəsən mən vaxt məsələsində yanılmışam, — o, söyləndi. — Vikenti Alekseyeviçin mobil telefonu varmı?

— Əlbəttə, var.

— Burada yubana bilərik, gərək ona zəng edib deyək ki, bizi gözləməsin.

Nəhayət, onlar mehmanxanaya yaxın bir yerdə maşını saxladılar.

— Məni burada gözlə, — Dronqo maşından enərək İlyinə dedi.

«Metropol» oteli doxsanıncı illərin əvvəllərində görülmüş uğurlu təmir-bərpa işlərindən sonra yenidən dirçəlmişdi. Daim tarakan və taxtabiti qaynaşan adi Moskva Mehmanxanası indi bütün hətta ən vasvası xarici müştərilərin belə standartlarına cavab verən gözəl, təmtəraqlı bir otelə çevrilmişdi. Buradakı qonaqların yox, adlı-sanlı bir oteldə nömrə kirayələyən, kasıblıqdan əziyyət çəkməyən «yerli sakinlərin» tutduğu apartamentlər Dronqonun xüsusilə xoşuna gəlirdi.

Dronqo otelin holluna daxil oldu. Otelin qeydiyyat xidmətçisinə yaxınlaşdı. Salamlaşıb, ona çatacaq məktubun olub-olmadığı ilə maraqlandı. Özü də ağlına gələn ilk məşhur soyadını çəkdi. Təqribən otuz yaşlarında, yemişşəkilli başı və mənasız gözləri olan qeydiyyat xidmətçisi uzun müddət poçt siyahılarına baxdıqdan sonra, nəhayət, Dronqoya çatacaq məktubun olmadığını elan etdi. Dronqo təşəkkür edib holldan otelin içinə tərəf getdi. Artıq hər şey qaydasında idi. Beləliklə, otel xidmətçilərinin diqqətini cəlb etməyə başlayana qədər təqribən iyirmi dəqiqəyə yaxın vaxtı var idi. Xidmətçilərdə özünəməxsus bir kompleks var idi: «öz müştərimiz» kompleksi. Qeydiyyat

xidmətçisinin piştaxtasına yaxınlaşan istənilən bir adam artıq «özününkü, doğma» kimi dəyərləndirilir və təqribən yarım saata qədər xüsusi şübhə doğurmurdu.

Dronqo liftə yaxınlaşdı. Lakin bir qədər tərəddüd etdikdən sonra bir neçə mərtəbəni pilləkənlərlə qalxmaq qərarına gəldi. Üçüncü mərtəbədə dayandı. Dəhliz boş idi. Burda heç kim gözə dəymirdi. Ətrafa göz gəzdirdikdən sonra taleyüklü o günlərdə biznesmenin kirayələdiyi nömrəyə yaxınlaşdı. Diqqətini cəmlədi. Sakitlik idi. Otaqdan səs-səmir gəlmirdi. İçəri daxil olmaq mənasız idi. Orada böyük ehtimalla hər santimetri incədən-incəyə yoxlamış istintaq briqadası çalışmışdı. Əgər nömrədə kamera var idisə də, onu oradan çoxdan çıxarmış olardılar. Yox, bu variant əl vermir. Məhz bu mərtəbəni silib-yığışdıran qulluqçu qadını tapmaq lazımdır.

Dronqo çevrilib asta addımlarla koridorun o biri ucuna – xidmət otağı ola biləcək tərəfə getdi. Lakin bu cəhdi də boşa çıxdı. Bu mərtəbədə elə bir otaq yox idi. O, geriyə qayıdıb, pilləkənlərlə daha bir mərtəbə yuxarı qalxdı. Burada eyni vaxtda iki qulluqçu qadın çalışırdı. Onların arabaları koridorun müxtəlif uclarında yerləşən otel nömrələrinin açıq qapıları qarşısında durmuşdu. Dronqo arabaların birinə yaxınlaşdı. Nömrənin içində olan qulluqçu qadın çarpayını səliqəyə salırdı.

Dronqo gülümsəyərək səmimi görkəm alıb salamlaşdı:

— Hər vaxtınız xeyir olsun, deyə bilməzsiniz, üçüncü mərtəbədə təmizlik işlərinə kim baxır? Təsadüfən zibil qabına mənə lazım olan bir kağızı atmışam. Vedrə isə dərhal boşaldılmışdır.

— Oraya Zinaida Yakovlevna baxır. O, elə indi də üçüncü mərtəbədədir, — qadın cavab verdi.

— Axı orada heç kim yoxdur.

— Siz binanın o biri cinahına tərəf keçin. Yəqin ki, o, sizin otaqları yığışdırıb indi o tərəfə keçib.

— Çox sağ olun, — Dronqo yalnız bunu deyib aşağı mərtəbəyə tələsdi. Bu dəfə o, binanın sol cinahı tərəfə döndü və həqiqətən də qulluqçu arabası gördü. Arabanın dayandığı yerə yaxınlaşıb yarıaçıq qapını astaca döydü və qadını səslədi:

— Zinaida Yakovlevna.

Qadın səksənib geri çevrildi. Təqribən qırx yaşlarında, ortaboylu, alyanaq, kürəyə oxşar başlı qadın tanımadığı adamı görüb özünü itirdi:

— Sizə nə lazımdır?

— Mən sizinlə söhbət etmək istərdim. — Dronqo otağa daxil oldu.

— Burada olmaz. Yad nömrələrə kənar şəxslərin girməsi qadağandır.

— Bilirəm. Ona görə də içəri girmədim, qapının ağzında dayanmışam. Buradan sizinlə söhbət etmək olarmı?

Qadın qorxa-qorxa soruşdu:

— Nə barədə? Bizə kiminləsə danışmağa icazə vermirlər.

— Yox-yox, narahat olmayın, elə bir şey deyil. Sadəcə, beş dəqiqə vaxtınızı alacam. Qadın meyiti tapılan nömrəni siz yığışdırırdınız?

— Mən heç bir qadın-filan tanımıram, — qulluqçu qadın Dronqonu başından etmək istədi, — çıxın gedin, burada qalmanız qadağandır.

Dronqo cibindən yüz dollarlıq kupyura çıxardı.

— Çıxın gedin, — qadın qətiyyətlə təkrarladı.

Dronqo əlavə iki yüz dollarlıq da çıxardı.

— Bizə icazə vermirlər, — qadın elə hey təkrarlayırdı.

— Cəmisi bir neçə sual verəcəm, — o, daha iki yüz dollarlıq artıraraq pulu başının üstünə qaldırıb dedi: — Burada beş yüz dollar pul var. Mənim bir neçə sualıma cavab verməyə razılıq versəniz, bu pullar sizin olacaq.

Qadın əvvəlcə pula, sonra da Dronqoya baxdı. Sonra yenidən pula baxıb və tərəddüdlə soruşdu:

— Beş yüz dollar?

— Vaxtım azdır, — Dronqo dedi, — bu pulu almaq istəyirsiniz, ya yox?

— Sizə nə lazımdır? — Bu, artıq razılıq demək idi.

Dronqo otağa girdi, pulu televizorun üstünə qoydu və üzünü qadına tutub soruşdu:

— Qadın öldürülən gün otel nömrəsində təmizlik işlərini siz aparmısınız?

— Yox. Mən səhər vaxtı otağı yığışdırmışam, onda qadın hələ ölməmişdi. Biz otaqları səhərlər, günortaya qədər yığışdırırıq.

— Siz onu görmüsünüz?

— Görmüşəm.

— Bəs əvvəllər onu buralarda görmüsünüz? Buranın hökmən özünün qızlar kontingenti olmalıdır, deyilmi?

Qadın qorxdu:

— Burada heç bir kontingent-filan yoxdur. O qızı da mən əvvəllər görməmişəm. Onun gəldiyi qonaqla birlikdə çıxıb gedəcəyini düşünürdüm.

— Bəs otağı sizdən sonra kim yığışdırıb?

— Məndən sonra Sveta yığışdırıb. Qızın meyiti tapılandan sonra axşam Svetanı çağırdılar ki, oranı təmizləsin.

— O Sveta haradadır? Bu gün işdədir?

— Yox.

— Onu necə görə bilərəm?

— Bilmirəm... — Qadın «yaşıllıq» qalağı qoyulmuş televizor tərəfə baxdı. Dollarların onun şüuruna təsir etdiyi bəlli idi:

— Bilmirəm, — dili dolaşaraq təkrarladı.

— Mənə onun ünvanı lazımdır, — yeri gələndə Dronqo inadcıl olmağı bacarırdı.

Nəhayət, qadın bu növbəti cavabı ilə sanki ağır bir yükün altından çıxa bildi:

— Məndə, sadəcə, onun telefon nömrəsi var.

Dronqo onun vəziyyətini anladı.

— Yaxşı, — o gülümsədi, onda onun telefon nömrəsini verin.

Qadın yeddi rəqəm dedi və yenidən pula baxdı.

— O pullar sizindir, — Dronqo söylədi, — ümid edirəm ki, məni aldatmadınız. Əks halda pullarımın dalınca geri qayıtmalı olacam.

— Yox, — qadın qorxdu, — yox-yox. Mən sizi aldatmadım.

— Mənim sizə daha bir neçə sualım var. Birincisi, siz qətl günü onların otağını yığışdıranda, biznesmen çıxıb getmişdi, yoxsa hələ burdaydı?

— Mən bilmirəm. Biz belə şeylərə fikir vermirik. Qız otaqda idi. Bu, dəqiq yadımdadır. Məndən bunu soruşublar.

Müstəntiq hələ onun dostunun yenidən qayıda biləcəyini də demişdi. Amma mən onu sonra heç görməmişəm.

Bu, hələ sübut deyil, – Dronqo ümidsizcəsinə düşündü.

— İkinci sualım, bəlkə həmin gün siz xidmət etdiyiniz mərtəbədə kənar şəxslər görmüş ola bilərsiniz? Ya da əksinə, tanış adamlardan kimisə? Məsələn, sizin təhlükəsizlik xidmətindən kimlərisə?

— Mən heç kəsi görməmişəm. Adi qonaqlar, müştərilər, həmişəki kimi. Ta öldürülmüş qız tapılana qədər belə idi.

— Onu kim tapdı? Siz Svetanın öldürülmüş qız aşkar olunandan sonra çağırıldığını dediniz. Onu kim tapmışdı?

— Bizim Mixail.

— Başa düşmədim. Nə Mixail? O kimdir?

— Mixail Qoquladze. O, mərtəbələrdəki mini-barların yoxlanışına cavabdehlik daşıyır. Nömrəyə girib meyiti aşkar edən o idi.

— Mixaili necə tapmaq olar? Harada olur?

— Aşağıda olur, servis xidmətində. Onu hamı tanıyır ki, — qadın təəccübləndi.

Dronqo dodaqaltı dedi:

— Yəqin çox tanınmış şəxsiyyətdir. Axırıncı sualım qaldı. Siz otaqları yığışdırarkən, divardakı şəkillərin tozunu da alırsınızmı?

— Gündəlik təmizlik işlərində yox. Bunu həftədə bir dəfə edirik. Həftə arasında biz otaqlarda həmişəkindən artıq müddət olanda müştərilər narazılıq edirlər. Bizim adi günlərdəki işimiz ağları, əl-üz dəsmallarını cəld dəyişmək, vanna otağını təmizləyib, nömrədə səliqə yaratmaqdır. Vəssalam. Əgər şəkildə toz görsəm, təbii ki, onu da silirəm.

Amma elə dibdən-kökdən təmizlik işlərini biz adətən həftədə, ya da iki həftədə bir dəfə aparırıq.

Qeyri-ixtiyari şəkildə qadın televizora, yəni pula tərəf irəliləyirdi. Sanki bu tanımadığı adamın onu aldadacağından qorxurdu.

— Təşəkkür edirəm, — Dronqo dedi. — Yəqin ki, bizim bu söhbət barədə heç kimə deməməli olduğunuzu anlayırsınız, deyilmi? Susmanız ilk növbədə sizin özünüz üçün lazımdır.

Dronqo dönüb otaqdan çıxdı. Yenidən pilləkənlərlə aşağı endi və qeydiyyat xidmətçisinə yaxınlaşdı.

— Məktubu gətirib çıxarmadılar? — deyə yenidən maraqlandı.

— Bu saat yoxlayaram, — xidmətçi təlaşa düşdü.

— Eybi yoxdur, — Dronqo cavab verdi, — mən də gedim hələlik nahar yeyim. Hə, bir də servis xidmətinə getmək istərdim. Haradadır?

— Siz oraya öz nömrənizdən də zəng edə bilərsiniz, — xidmətçi bildirdi.

— Eybi yox. Elə mühüm bir məsələ deyil. Sadəcə, bir nəfərlə danışmaq istəyirdim.

İndi xidmətçi artıq ehtiyatla onu başdan-ayağa süzdü. Sonra sakitcə soruşdu:

— Kiminlə?

— Mənim iş ortağım oteldən gedəndə servis xidməti əməkdaşlarından birinə pul çatdırmamı istəmişdi. Elə böyük pul deyil. Üç yüz dollar. Sadəcə, şərikimdir də, xahişi yerinə yetirməsə yaxşı olmaz.

— Üç yüz dollar? — xidmətçi soruşdu. — Onları kimə verməlisiniz ki?

— Söhbət puldan gedəndə istənilən uydurma keçərli olurdu. Hərçənd, dünyanın hər yerində xidmət sahəsindəki vəziyyət bu cür idi. Müştərilərin kredit kartlarının olmasına baxmayaraq, ciblərində xidmətçilərə veriləcək çaypulu üçün nağd pulları da olurdu.

— Mixail. Soyadı yadımda deyil. Gürcü familiyasıdır, — Dronqo sanki Mixailin soyadını xatırlamağa çalışdığını ifadə etdi.

— Qoquladze — xidmətçi sevincək cavab verdi, — bu saat onu çağıraram.

O, tələsik telefonun dəstəyini qaldırıb mikrofona zorla eşidilən bir neçə söz dedi. Piştaxtasının üstündə artıq yüz dollarlıq bir kağız var idi.

— Çox diqqətcilsiniz, — Dronqo iltifatla bildirdi.

Xidmətçinin gözləri böyüdü. O, dodaqlarını yalayıb cəld əlini pula uzatdı.

— Məktubu axtarım? — o, boğuq səslə soruşdu.

— Əlbəttə, — Dronqo gülümsəyərək cavab verdi. — Düşünürəm ki, məktub mütləq gəlib çıxacaq.

Dronqo hollun içəri tərəfinə keçib kresloda əyləşdi. Bir neçə dəqiqədən sonra qeydiyyat xidmətçisi ortaboylu, yekəpər, təqribən otuz beş-qırx yaşlarında bir nəfərlə ona yaxınlaşdı. Gələn adam bir az keçəlləşmiş, şişkin üzlü, iri burunlu və buxaqlı idi. O, çəlimsiz qeydiyyat xidmətçisindən daha çox təsir bağışlayırdı.

— Məni soruşan kim idi? — Qoquladze soruşdu.

Xidmətçi Dronqonu göstərdi.

— Məni soruşan siz idiniz? — deyə Qoquladze o qədər də sezilməyən Qafqaz ləhcəsilə soruşdu.

«Görünür, o, ömrünün böyük qismini Moskvada, ya da Rusiyanın digər bölgəsində keçirib, – Dronqo belə düşündü. – Tiflisdə dünyaya gələn və gürcü dilində danışmağa — başlayan uşaqlar sonrakı həyatlarında heç bir zaman rus dilində danışarkən səciyyəvi ləhcədən qurtula bilmirlər, hətta o dil onlar üçün əsas dilə çevrilsə belə».

Dronqo Mixaillə salamlaşaraq ayağa qalxdı:

— Hər vaxtınız xeyir olsun. Sizinlə bir az söhbət etmək istərdim.

— Sizə nə lazımdır? — yekəpər qaşqabaqla naməlum adama baxaraq soruşdu.

Dronqo sualını təkrarladı:

— Biz sizinlə kənara çəkilib bir az söhbət edə bilərikmi?

— Nə barədə?

— Mənim sizə maraqlı bir təklifim var.

— Mənimlə gəlin, — Mixail qeydiyyat xidmətçisinin arxası tərəfə işarə edərək razılaşdı.

Onlar holldan keçib kiçik bir dəhlizə çıxdılar və Qoquladze bir qapını itələyib, Dronqonu balaca otağa dəvət elədi. Otaq boş idi. Divarın dibində stullar düzülmüşdü. Jurnal stolunun üstündə telefon aparatı var idi.

— Sənin mənimlə nə işin var?

Dronqo cibindən üç yüz dollar çıxararaq yekrəng tonda cavab verdi:

— Mənim dostum sizə üç yüz dollar çatdırmağımı xahiş edib.

— Nəyə görə? — Mixail qısaca soruşdu.

— Sizdən bir neçə məlumat öyrənməyim lazımdır.

Mixail heç pula baxmadı. O, yalnız naməlum adamın üzünə baxırdı. Sonra narazılıqla donquldadı:

— Məni üç dənə «yaşıl kağıza»mı almaq istəyirsən? Mən sənin üçün dilənçiyəm?

— Yox-yox, — Dronqo onu sakitləşdirməyə tələsdi, — xətrinizə dəymək istəməzdim. Bəlkə mənim dostum sizə bundan daha böyük miqdarda pul vəd edib? Siz mənə deyin, mən onun əvəzinə o pulu sizə ödəyərəm. Nə qədər? Beş yüz dollar, ya min dollar?

— Sənin yaman yaxşı dostun var, — Qoquladze indi artıq daha sakit tərzdə dedi, — yaxşı, baxarıq. De görüm, nəyi bilmək istəyirsən? Özün gürcüsən?

— Yox. Amma gürcü dilində bir az başa düşürəm.

— Onda de görüm nə istəyirsən? Sonra mən də qiyməti deyim.

— Mənim sizə çox sadə bir sualım var. Üçüncü mərtəbədə tapılan qadının meyitini ilk görən siz idiniz?

— Hansı qadın meyitindən danışırsan? — Qoquladze qəzəbləndi.

— Üçüncü mərtəbədə öz nömrəsinin vanna otağında meyiti tapılan qadını deyirəm. Onların mini-barına görə cavabdeh siz deyilsiniz bəyəm? — Dronqo bilərəkdən ona «siz deyə» müraciət edirdi, sanki onun Dronqo ilə «sən» deyə danışdığına əhəmiyyət vermirdi.

— Sizə yaxşı yol, — Mixail üzünü başqa tərəfə tutdu, çıx görüm burdan, — deyib, özü də qapıya tərəf getdi.

— Dayanın, — Dronqo onu səslədi, — bəlkə dostum sizə daha çox pul vəd edib?

Qoquladze üzünü ona tərəf tutdu:

— Mənə sənin pulların, ümumiyyətlə, lazım deyil. Başımın salamat qalması mənim üçün puldan önəmlidir. Sənin isə başımın qiymətini ödəməyə pulun çatmaz. Mən sənə bir kəlmə də deməyəcəm. Yaxşısı budur çıx get burdan. Onsuz da məndən heç nə öyrənə bilməyəcəksən.

— Mənə sizin həmin gün dəqiq nə gördüyünüzü bilmək lazımdır-.

— Heç nə görməmişəm, — Qoquladze qəzəblə cavab verdi, — sənə dedim çıx get burdan.

— Bu dəqiqə, — Dronqo qəfildən Mixailin qolundan yapışıb burmağa başladı. Mixail dözülməz ağrıdan zarıdı. Dronqo onu divara dirəyib, dirsəyini xirtdəyinin üstünə basdı. Bədbəxt xırıldamağa başladı. Lakin Dronqo sakitləşməyib daha da möhkəm basmağa davam edirdi.

— Sən öz bayağı hoqqalarını başqalarına nümayiş etdirərsən! — Dronqo dişlərini qıcadı. — Bu saat səni burada dizi üstə süründürərəm.

— Burax, — Mixail xırıldayırdı, — burax dedim sənə.

Yalnız müqavimət dilini anlayan müəyyən tip insanlar da var. Görünür, Mixail də həmin adamlardan idi. Ona pul təklif edib, «siz» deyə müraciət olunanda, özündən çıxıb kobudluq edirdi. Lakin özünü qanacaqsız və bandit kimi qələmə verən Dronqonu görəndən sonra qorxdu. Başının doğrudan da salamat qalmasının vacibliyini anladı.

— Tez elə cavab ver! — Dronqo rola girdikdən sonra qaydalara uyğun hərəkət etməli olduğunu anlayırdı.
— Danış! — deyə o, Qoquladzenin xirtdəyini daha bərk sıxdı.

— Mən heç nə bilmirəm — deyə o, xırıldayırdı, — mənə susmağımı tapşırıblar. Bir kəlmə danışmamalıyam. Mən otağa girəndə o ordaydı... Ölən qız... yerdə uzanmışdı.

Başqa heç nə görməmişəm. Anam canı, heç nə görməmişəm.

— Sənə susmağı kim tapşırıb?

— Müstəntiq. Bir də bizim təhlükəsizlik xidmətimiz. Deyirlər, o otaqda bir biznesmen qalırdı, çox tanınmış bir adam. Onun adını çəkməməyimi tapşırıblar. Ümumiyyətlə, öldürülmüş qız məsələsini də unutmalıyam dedilər.

— Vəssalam? — Dronqo ümidsizliyə qapılaraq soruşdu.

— And içirəm, Mixail xırıldadı, — başqa heç nə bilmirəm. Qadını görən kimi koridora qaçıb camaatı çağırdım. Mən qandan qorxuram...

— Yaxşı, — Dronqo qolunu boşaltdı.

Lənət şeytana! Belə çıxırdı ki, yanlış izə düşmüşdü. O, çevrilib çıxışa tərəf getdi.

— Bəs mən nə edim? — Dronqo arxadan Mixailin ürkək səsini eşitdi.

— Əvvəlki kimi yaşamağa davam et, — Dronqo geriyə dönmədən cavab verib çıxdı.

Hollda qeydiyyat xidmətçisi onu görcək gülümsədi və nəzakətlə bildirdi:

— Məktub hələ gəlməyib.

— Gəlməyəcək də — Dronqo oteldən çıxaraq cavab verdi.

# *İKİNCİ GÜN*

Andrey maşında oturub səbirlə onu gözləyirdi. Dronqo ağır-ağır maşına əyləşdi. Saata baxıb köks ötürdü. Vikenti ilə

sövdələşdikləri vaxt hələ yetişməmişdi. Lakin şəhərin mərkəzindən keçib prokurorluğa çatmaq üçün ən azı otuz-qırx dəqiqə vaxt lazım idi.

— Lyubomudrova zəng elə, de ki, bizi gözləsin, gəlirik, — Dronqo Andreyə müraciət elədi.

Andrey başı ilə razılığını bildirib mobil telefonunu cibindən çıxardı. Lyubomudrovun nömrəsini yığıb telefonu Dronqoya verdi.

— Xəbərlər varmı? — Dronqo soruşdu.

— Xeyr. Müstəntiq heç nə demədi. Axı siz onun istintaq sirrini açıb söyləmək hüququnun olmadığını özünüz də bilirsiniz. Bəzi hamıya məlum faktlar istisna olmaqla. Məsələn, qızın adı, onun harada qeydiyyatda olduğu və s. bunun kimi xırdalıqlar.

— Bir azdan orada olacağıq, bizi gözləyin, — Dronqo xahiş elədi və telefonu söndürdü.

Mobil telefonları dinləməyin nə qədər asan olduğundan xəbəri var idi. Maşın mehmanxananın həyətindən çıxıb yola düşəndə Dronqo Andreydən soruşdu:

— Necə bilirsən, biz öldürülən qızın gedib-gəldiyi ünvana baş vursaq, onun izlərinə rast gələ bilərikmi?

— Bilmirəm, — Andrey səmimi cavab verdi.

— Sən onu Udaltsov küçəsinə aparmısan?

— Əslində mən sürücü deyiləm, — İlyin qeyd etdi, — mənim iş funksiyalarım bir qədər fərqlidir.

— Xətrinə dəymək fikrim yox idi. Sadəcə, onun oraya nə üçün gedib-gəldiyini anlamalıyam. Bunu, sadəcə, sizin hamınızı aldatmaq xətrinə edirdisə, çox uzaq ünvan seçmişdi. Bir az yaxın yer seçə bilərdi. Əgər o ünvanda

doğrudan da onun tanışları yaşayırdısa, deməli, müstəntiqlər onları çoxdan sorğu-sualla dəng etmiş olarlar. Belə olan halda, nə üçün müstəntiq bizə onsuz da səmərəli nəticə verə bilməyəcək bir ünvanı bildirmək istəmir? Biz yenə də sizin sürücülərin bildiyi ünvana getməliyik. Doğrudan, adətən onları həmin ünvana aparıb-gətirən kim idi?

— Bizim sürücümüz. Lyonya. O, birbaşa rəislə çalışır. Ona görə də qızı Udaltsova o aparmışdı. İki dəfə. Bir dəfə də başqa biri aparmışdı. Amma başqa vaxt onu aparanın kim olduğu dəqiq yadımda deyil.

— Dediyiniz o Lyonyanı harada görə bilərəm?

— Bizim kompaniyanın ofisində. İşdədir.

— Vikenti Alekseyeviçi götürək, sonra da gedək sizin ofisə. Lyonyanı tapmaq lazımdır. Yeri gəlmişkən, bir ünvanı da dəqiqləşdirərik. Lyonyanın telefonu məndə var. Zəng edib onun harada olduğunu öyrənərik.

— Aydınlaşdırarıq, — deyə Andrey dedi, — bu ki problem deyil.

Şəhər mərkəzindəki avtomobil tıxacları artıq adi bir hal yox, şəhər hakimiyyətinin heç cür öhdəsindən gələ bilmədiyi bir problem olmuşdu. Paytaxtın hətta geniş prospektləri belə doxsanıncı illərin əvvəlindən etibarən şəhərə axışan avtomobil yüklənmələrinə tab gətirmirdi. Prokurorluğa xeyli müddətdən sonra çatdılar. Zahirən heç də əsəbi görünməyən Vikenti Alekseyeviç binanın qarşısında dayanıb, təmkinlə onları gözləyirdi. Peşəsi vəkili səbirli olmağa alışdırmışdı. O, maşına əyləşib dərindən ah çəkdi.

— Əslində, mən elə də bilirdim, — Lyubomudrov bildirdi, — bir şey alınmır. Müstəntiq bu mövzuda heç danışmaq belə istəmir. Onu da başa düşmək olar. Bir

tərəfdən işi tez bağlaması üçün onu sıxışdırırlar, digər tərəfdən də bizim rəisimizi suçlamasını tələb edirlər. Ona görə də başını itirib, nə etsin?

— Sizcə, bu qədər güclü sıxışdırılır?

— Bunu hiss etmək olur, — vəkil köks ötürdü, — zənnimcə, elə qız da bu məqsədlə göndərilmişdi. Məqsəd taktikidir — kompaniyamızın rəhbərini hərracda iştiraka yaxın qoymamaq. Məqsəd isə, şübhəsiz, stratejidir — bir daha bizim ölkədə görünməməsi üçün onun ciddi şəkildə nüfuzdan salınması və etibarını itirməsi. Həddindən artıq ciddi məsələdir. Əgər biz yaxın bir neçə gün rəisimizin günahsızlığını sübuta yetirə bilməsək, qorxuram ki, o, buraya gəlib müstəntiqin suallarına cavab vermək məcburiyyətində qalacaq. Əks halda, onlar rəsmi müraciət göndərməklə, Fransa hakimiyyətindən onu təslim etməsini tələb edəcəklər.

— Fransızlar da dərhal razılaşacaqlar, — Dronqo pərt olmuş tonda nəticə vurdu.

— Əlbəttə, razılaşacaqlar. Rəisimiz onlar üçün rus mafiyasının səciyyəvi nümayəndəsidir. Onlar bizim biznesmenlər arasında fərq qoymurlar. Rusiyadan çıxmış istənilən zəngin adam onlar üçün ilk növbədə Allah bilir nə yollarla var-dövlət toplamış və Allah bilir hansı yollarla onların ölkəsinə gəlib çıxmış şübhəli şəxsdir. Mən belə faktlarla çox üzləşmişəm. Qərb ölkələri, əsaslandırılmış ittiham olarsa, istənilən keçmiş Rusiya vətəndaşını, məmnuniyyətlə, təslim edirlər. Keçmiş sosialist ölkələri isə, əksinə, heç kəsi təslim etmirlər, hətta ortada tamamilə təsdiqini tapmış, sübutlu-dəlilli bir cinayət olsa belə. Orada da eyni səbəblər qüvvədədir. Amma onlar üçün Rusiya ilk növbədə Sovet İttifaqının varisi və davamçısıdır və Rusiyanın hüquq sisteminə münasibət bildirmək üçün onlar hətta məlum və tanınmış cinayətkarları belə təslim etmirlər.

— Rəisinizin təslim olunmaması üçün Polşaya və ya Çexiyaya köçməsinin məqsədəuyğun olduğunu düşünürsünüz? — Dronqo zarafatla soruşdu, — ya da Baltikyanı ölkələrin biri olsa, lap yaxşı olar, deyilmi?

— Bu alınmaz, — Lyubomudrov etiraz elədi. — O, həddindən artıq məşhur adamdır. Əgər altı gündən sonra biz kompaniyamızın hərracda iştirakını təsdiqləməsək, böyük bir qalmaqal baş verəcək. Qərb partnyorlarımız nəinki bizim kompaniyamızla, hətta bütövlükdə Rusiya ilə bütün iqtisadi əlaqələri kəsəcəklər.

— Siz hər şeyin bu dərəcədə yüksək səviyyədə təşkil olunduğunu sanırsınız?

— Şübhəsiz. Siz ki bizim rəqiblərimizin tərəfdarlarının kim olduğunu bilirsiniz. Onlar qarşı tərəfin hərracda iştirakına yol verməyəcəklərini artıq çoxdan və aşkarcasına bəyan ediblər. İndi də öz imkanlarını nümayiş etdirirlər. Əgər videoçəkilişi televiziya ilə yayımlasalar... — Lyubomudrov bir də köks ötürdü, — bunun nə ilə nəticələnəcəyini təsəvvür edə bilmirəm. Bircə onu bilirəm ki, bizim nəinki hərracda iştiraka, heç kompaniyamızın salamat qalmasına belə şanslarımız olmayacaq. Hər şey həddindən artıq ciddidir.

— Amma bildiyim qədər sizin rəisinizi yüksək səviyyədə dəstəkləyənlər var.

— Elə bütün məsələ də bundan ibarətdir. Bu əməliyyat elə həmin o səviyyəni aşağı salmaq məqsədilə təşkil olunub. Təsəvvür etmirəm ki, bu tələdən necə qurtulacağıq. Axı biz, böyük ehtimalla, ehtiyatımızda olan beş-altı gün ərzində qatili, ya da bu işin arxasında dayananları tapa bilməyəcəyik. Hərracdakı iştirakımızı isə həftənin çərşənbə axşamına kimi təsdiqləməliyik. Bazar ertəsi axşam müraciət ərizələrinin qəbul vaxtı bitir. Kompaniyamızın bütün səhm

paketi uğrunda mübarizə aparmaq niyyətində olduğu hərrac gələn cümə axşamı günü baş tutmalıdır.

— Mən hər şeyi xatırlayıram, — Dronqo fikirli halda cavab verdi, — bu saat biz bir ünvanı öyrənməyə çalışacaq, eyni zamanda da rəisinizin sürücüsündən bir az bizə vaxt ayırmasını xahiş edəcəyik. Yeri gəlmişkən, sizin kompaniyanızın təhlükəsizlik xidməti varmı?

— Əlbəttə, var, — Lyubomudrov dedi. — Ona keçmiş DTK generalı Savva Afanasyeviç Fedoseyev rəhbərlik edir.

— Savva? — Dronqo təkrar soruşdu. — Kifayət qədər nadir bir addır. Sibirdəndir?

— Deyəsən hə. Nədən belə düşündünüz ki?

— Şəhərlərdə elə adlar çoxdandır verilmir. Hərçənd istisnalar da var. Nə üçün sizin rəisiniz bu işin araşdırılmasına təhlükəsizlik xidmətinizin rəhbərini cəlb etməyib? Ona etibarmı etmir, yoxsa bu iş barədə həddindən artıq adamların bilməsinimi istəmir?

— Xeyr. Nə birinci dediyinizdir, nə də ikinci. Keçmiş həmkarlarınızdan sizi haradan və necə tapmağın mümkün olduğunu öyrənərək, namizədliyinizi irəli sürən məhz Fedoseyev olmuşdur. Onun işi onsuz da başından aşır, rəqiblərimizin hərraca nə təklif edəcəklərini öyrənmək, sizcə, çox asandır?

— Necə yəni? — Dronqo anlamadı.

— Bizə onların qiymətini bilmək lazımdır ki, öz təklifimizlə bu qiyməti endirə bilək, — Lyubomudrovun izahı belə oldu.

— Məncə, bu, bir qədər qanuna ziddir, — Dronqo ehtiyatla söylədi.

Vikenti Alekseyeviç onun dediklərini təsdiqləyəcək tərzdə dedi:

— Əlbəttə. Lakin ölkəmizdəki hərracların əksəriyyəti məhz bu şəkildə keçirilir. Dünyanın heç bir yerində təklif olunan qiyməti əvvəlcədən öyrənmək mümkün deyil. Bizdə isə mümkündür. Bizdə çox şey mümkündür. Biz qiyməti əvvəlcədən öyrənirik, eləcə də hərracın davranış qaydaları barədə əvvəlcədən sövdələşirik. Bizdə hətta rəqiblərdən xeyli aşağı qiymət təklif etməklə hərracda qalib gəlmək mümkündür. Bizdə hər şey mümkündür. Məgər siz bunu bilmirsiniz, Dronqo?

— Mənim maraq dairəm bir qədər fərqli olub. Belə işlərə baş qoşmamağa çalışmışam.

— Mən elə bilirdim ki, bunu hamı bilir.

— Təxmin edirdim, — Dronqo etiraf elədi, — amma hər şeyin bu qədər böyük miqyasda olduğunu güman etmirdim.

— Siz düşündüyünüzdən də böyük miqyasdadır, — vəkil bildirdi. — Əgər bizim gələn həftənin cümə axşamından sonra sizinlə görüşmək imkanımız olsa, görüşək, sizə çoxlu sayda maraqlı əhvalatlar danışaram.

— Sizin əhvalatları dinləməyin mənim üçün maraqlı olacağını düşünmürəm. Ondansa, «Hərracların keçirilməsinin qısa məcmusu» kitabını nəşr etdirin. Çox yaxşı bestseller alınar.

Lyubomudrov qəmgin halda dedi:

— Hə, sonra da kəlləmdən bir güllə qazanaram. Belə işlərə baş qoşmamaq daha yaxşıdır. Mən öz işimi görürəm, — bilməli olduğumdan artıq bilməyə də çalışmıram. Amma təəssüf ki, peşəmlə əlaqədar olaraq bəzən həddindən artıq lazımsız şeylər öyrənirəm ki, bu da məni tam vecsiz və hətta arsız edir.

— Səhv etmirəmsə, Balzak demişdir ki, vəkillər, həkimlər və keşişlər həyatda vecsiz və arsız olurlar, zira, onlar insan

qüsurları barədə başqalarından fərqli olaraq həddindən artıq məlumatlıdırlar.

— Bəli, bəli. Maraqlı qeyddir, həm də çox ədalətli. Amma mən o adamların sırasına üstəlik yüksək çinli siyasətçiləri də əlavə edərdim. Çünki onlar bəzən həkimlərdən, keşişlərdən və vəkillərdən də artığını bilirlər. Həm də, müvafiq olaraq, bizim hamımızdan qat-qat artıq yalan danışırlar.

— Siz hərrac qaydalarının iqtisadi maraqlara uyğun müəyyən olunmadığını demək istəyirsiniz?

— Əlbəttə ki, yox. Moskvadakı hər bir iri hərrac, ilk növbədə böyük siyasət deməkdir. Hərrac şərtlərini də hər bir siyasətçi komandası yalnız özününküləri üçün seçir. Ona görə də hərrac, sadəcə, bir rəsmiyyətdir. Kimin qalib gələcəyi həmişə əvvəlcədən məlum olur.

— Hamı da hərracda məhz sizin qalib gələcəyinizi bilirdi?

— Elədir ki var. İstənilən şərtlərdə hərracda məhz bizim kompaniyamız qalib gəlməliydi. Biz rəqiblərimizin təklif etdikləri bütün şərtləri bilirdik. Bu hərracı biz tamamilə özümüzə uyğunlaşdıraraq hazırlamışdıq. Nəticədə isə heç gözləmədiyimiz tərəfdən bizə üstün gəldilər.

Dronqo qaşlarını çatdı:

— Onda sizin rəqiblərinizdən fərqinizi anlaya bilmirəm. Siz hərracı öz qaydalarınıza uyğun keçirirsiniz. Nəyin bahasına olursa olsun, rəqiblərinizə üstün gəlməyi adi hal hesab edirsiniz. Hərrac başlayana qədər onların təyin etdiyi ilkin qiymət tam məxfi qalmalı olduğu halda, onu öyrənirsiniz, sonra da rəqiblərinizin sizə qarşı ədalətsiz davrandığını iddia edirsiniz və nə üçün elə etdiklərinə təəccüblənirsiniz.

Andrey Dronqoya baxdı, amma dediklərinə şərh verməkdən çəkindi. Maşının salonuna bir neçə saniyəlik sükut çökdü.

— Xeyr, — nəhayət, Lyubomudrov cavab verdi, — təəccüblənmirik. Biz rəqiblərimizdən gələ biləcək hər bir aksiyaya hazır idik. Lakin heç kim onların qətlə cəsarət edəcəyini düşünməzdi. Qətlə və belə bir fitnəyə. Nə qədər olmasa, biz, bəzi qaydalar çərçivəsində qalaraq, belə üsullara əl atıb sərhədləri aşmırdıq.

— Fərqi nədir? — Dronqo məntiqlə qeyd etdi. — Hərçənd bu hərracda kimin qalib gələcəyinin mənim üçün heç bir əhəmiyyəti yoxdur. Məni yalnız iki məsələ maraqlandırır: o qadını kimin öldürdüyünü öyrənmək və rəisinizi törətmədiyi cinayətdə ittihamdan xilas etmək.

Avtomobil Moskvada doxsanıncı illərin əvvəlində sanki sehrli çubuğun möcüzəsilə peyda olmuş binalardan birinə yaxınlaşdı. Düz binanın qarşısında dayandı. Görünür, burada Andreyin avtomobilini tanıyırdılar. Çünki binadan qaçaraq çıxan gözətçi İlyinlə salamlaşdı və maşını dayanacağa aparmaq üçün sükan arxasına keçməyə hazırlaşdı.

Kompaniyanın binasına daxil oldular. Liftin yanında onları başqa bir gözətçi gözləyirdi. Altıncı mərtəbədə isə onları başqa bir gözətçi qarşıladı.

— Bura Hərbi Dəniz Bazasıdır, yoxsa kompaniyanın ofisi? — Dronqo təəccüblənərək istehza ilə soruşdu.

— Bizim qoruma sistemimiz bu şəkildə qurulub, — Lyubomudrov izah elədi. — Yeri gəlmişkən, mən sizə İlyinin Fedoseyevin müavini olduğunu deməyi unutmuşdum.

— Çox məmnun oldum, — Dronqo cavab verdi, — sizin təhlükəsizlik xidmətinin rəisini, nəhayət, nə vaxt görə biləcəyik?

— Budur, onun kabineti, — İlyin qapını göstərdi.

Onlar qəbul otağına girdilər. Gülərüz, yaraşıqlı bir qız başını tərpədərək onları səssiz salamladı. Hər üçü kabinetə daxil oldu. Fedoseyev təqribən altımış yaşlarında canıbərk, bir az keçəl, bir az lət, iri ətli burnu və böyük, blin kimi yayılıb, sonra da başına yapışdırılmış yastı qulaqları olan bir adam idi. Qonaqları görcək qaşqabaqlı sifətlə onlarla görüşdü və içəri dəvət elədi.

— Hər vaxtınız xeyir olsun, — qonaqları ahəngdar bas səslə salamladı, — Aleksandr Mixayloviç zəng edib, mənə sizin gələcəyinizi bildirib.

— Salam, — Dronqo masaya yaxınlaşdı. — Lakin söhbətə başlamazdan öncə sizdən indi deyəcəyim telefon nömrəsinin kimə məxsus olduğunu öyrənmənizi xahiş edirəm. Mənə onun adı, soyadı və ünvanı lazımdır. Sürücünüzü də çağırtdırın.

— Nömrəni deyin — Fedoseyev təklif elədi.

Dronqo telefon nömrəsini dedi. Fedoseyev İlyinə işarə elədi. O da kabinetdən çıxdı.

— Sizə başqa nə lazımdır?

— Hələlik heç nə. Öncə, əgər icazə versəniz, ölən qadını evinə aparan sürücünüzlə, Lyonya ilə söhbət edək.

— Biz onunla söhbət etmişik, — Fedoseyevin, görünür, səbri tükənmək üzrə idi. — Nə üçün siz yeni bir məlumat əldə edə biləcəyinizi düşünürsünüz?

— Siz onun ölən qadını apardığı ünvanı yoxlamısınız?

— Əlbəttə, yoxlamışıq. Özü də iki dəfə. Onun qarşısında maşınını saxladığı binanın bütün mənzillərini yoxlamışıq. Heç bir nəticə də əldə etməmişik. Qadın adamlarımızı ələ salırmış. Mənim fikrimcə, onun kamera ilə çəkildiyindən xəbəri olub. Sadəcə, onların Aleksandr Mixayloviçlə münasibətlərinin nə ilə bitəcəyini ona heç kim xəbər

verməyibmiş. Zənn edirəm ki, o, böyük pul qarşılığında bu rola dəvət olunmuş yüksək səviyyəli bir fahişə idi. Sonra da onlar məqsədlərinə çatmaq üçün hətta qətl cinayətindən belə çəkinmədən onu öldürüblər.

— Sürücü qızı apardığı evi dəqiq xatırlayır?

— Əlbəttə ki, xatırlayır. O, bizə hətta qızın girdiyi bloku da göstərdi və biz də binanın bütün mənzillərini yoxladıq. Hamısını, bir-bir. Hər ehtimala qarşı o biri üç blokun da mənzillərini yoxladıq. İrina Maksimenko o mənzillərin heç birində heç vaxt olmayıb. Onu orada heç görən olmayıb.

— Yaxşı, bəs nə üçün qız məhz ora gedib-gəlirdi?

— Mənim fikrimcə, bizi sakitləşdirmək naminə. Bizim təhlükəsizlik xidmətimiz Aleksandr Mixayloviçin görüşdüyü adamların hamısını təqib edib yoxlayırdı. Əgər Maksimenko Aleksandr Mixayloviç və onun işçilərilə ünsiyyətdə olduğu günlər ərzində oteldən heç yerə ayrılmasaydı, biz ondan şübhələnməyə başlayardıq. Amma o, hər şeyi çox məharətlə təşkil etmişdi. Telefonla harasa zəng edirdi, məsələn, guya xalasına, ondan öz paltarlarını hazırlamasını xahiş edirdi. Sonra bizim maşına əyləşib, məlumatınız olduğu ünvana yollanırdı. Görünür, onunla əlbir olan kimsə onu binanın içində, yuxarı mərtəbələrin birində gözləyirdi və pal-paltarı olan çantanı da ona elə oradaca verirdi. Ən azından, sürücünün dediyinə görə, qız guya getdiyi öz mənzilində çox yubanmırdı. Görünür, pilləkənlərdə uzun müddət dayanıb qalmaq istəmirmiş.

— Çox gözəl düşünülüb, — Dronqo onunla razılaşdı, — bəlkə oraya çanta-filan gətirən adamı görən olub?

— Onu da yoxlamışıq. Yox, heç kim əlində çanta olan naməlum adamı xatırlamır. Bəlkə də bir yox, bir neçə adam gəlirmiş. Ola da bilər ki, Maksimenko ilə görüşə gələn adam qadın imiş. İrina əslən Ukraynadandır, biz onun

doğulub boya-başa çatdığı şəhərə adamlarımızı göndərməyi düşünürdük.

— Dəqiq hara, hansı şəhərə?

— Lvova. Orada onun anası ilə bacısı var. İrina isə doğma şəhərindən bir neçə il əvvəl çıxıb və o zamandan bəri bir daha Ukraynaya qayıtmamışdı. Bu faktı biz kifayət qədər dəqiq öyrənməyi bacardıq. Amma buna baxmayaraq, onun barəsində daha ətraflı məlumat toplamaq üçün bizim iki nəfər əməkdaşımız dünən Lvov şəhərinə yola düşüb.

— Bəs oteldə çalışan xidmət personalı barədə bir şey öyrənməmisiniz? Həmin gün səhər vaxtı mərtəbədə təmizlik aparan qulluqçu qadın, yaxud qızın meyiti tapılandan sonra otel nömrəsini yığışdıran qulluqçu, eləcə də ölən qızı aşkar edən otel xidmətçisi haqqında. Siz onları yoxlayıb araşdırma aparmağa cəhd etməmisiniz?

General narazı bir tərzdə deyindi:

— Xeyr, etməmişik. Onlarla prokurorluq əməkdaşları məşğul olurdu. Biz onların funksiyalarını öz üzərimizə götürüb, həddən ziyadə canfəşanlığımızla şübhələrə yol aça bilməzdik. Əgər belə bir fəallıq göstərsək, onsuz da Aleksandr Mixayloviçi dindirməyə bu qədər can atan müstəntiqin şübhələrinə səbəb ola bilərik.

Andrey İlyin qayıtdı. O, üstündə ünvan yazılmış vərəqi Fedoseyevə uzatdı.

— Ünvanı öyrəndik, — o, kağızı verərək bildirdi. — Yeri gəlmişkən, Lyonya qəbul otağında oturub, bizim onu çağıracağımızı gözləyir.

— O sizə hələ də lazımdır? — deyə Fedoseyev qısqanclıqla maraqlandı. Dronqo təkid edəcəyi təqdirdə öz tərəddüdlərilə generalın peşəkarlığından şübhələnərək, onu təhqir etmiş olacağını anladı.

— Yaxşı, — Dronqo ayağa qalxdı, — biz bu ünvanı yoxlamağa gedək. Hələlik isə, mən sizin təhlükəsizlik xidmətinin o qadın barədə toplaya bildiyi bütün materialların hazırlanmasını xahiş edirəm. Hə, deyin görüm, onun şəkilləri də sizdə varmı?

— Biz Aleksandr Mixayloviçin ətrafında olan hamını incədən-incəyə yoxlayırıq, — general təkrarladı.

— Lap yaxşı, — Dronqo cavab verdi, — şəkillər də bizə lazım ola bilər.

— Mən sizinlə gedəcəyəm, — Vikenti Alekseyeviç qətiyyətlə bildirdi.

# *İKİNCİ GÜN*

Onlar Dequnin küçəsinə artıq hava qaralmağa başlayanda yaxınlaşdılar. Andrey əvvəlki kimi sükan arxasında idi. Dronqo ilə Lyubomudrov avtomobildən çıxıb, qətl günü Aleksandr Mixayloviçin otel nömrəsində çalışan Svetlana Koptevanın mənzili olan 3 saylı binaya tərəf tələsdilər.

— Mənim sizinlə bərabər getməyimə icazə verərsinizmi, yoxsa sizi aşağıdamı gözləyim?

— İstəyirsinizsə, bərabər qalxaq, — Dronqo cavab verdi. — Bəlkə mötəbər bir adamı görcək xanım daha üzüyola olacaq.

Onlarla yuxarı pilləkənlərlə qalxırdılar. Təngnəfəslikdən əziyyət çəkən Vikenti Alekseyeviç ağır-ağır nəfəs alırdı. Nəhayət, onlar dördüncü mərtəbədə dayandılar. Dronqo qapının zəngini basdı. Bir az gözlədi. Qapının arxasından səs-səmir gəlmirdi. O, bir də zəng elədi. Nəhayət, addım səsləri eşidildi və qapı açıldı. Qapını idmançı bədəni olan cavan bir oğlan açdı. Yekəpər narazı halda qonaqlara baxırdı.

— Kim lazımdır? — deyə o soruşdu.

— Bura Koptevlərin mənzilidir?

— Hə-ə-ə, sizə Svetka lazımdır, — cavan oğlan anladı və çevrilərək səslədi: Sveta, Sveta, yanına gələn var.

Otaqdan tünd rəngli xalatda bir qadın çıxdı. Zahiri görünüşündən o, qapını açan gəncdən xeyli yaşlı görünürdü. Ən azı qırx yaşı olardı. Keçmiş gözəlliyinin əlamətlərini qoruyub saxlamış şişkin sifəti, parıltısını hələ də itirməyən yaşıl gözləri, yaraşıqlı dodaqları var idi. O, təəccüblə Dronqoya baxırdı.

— Sizə nə lazımdır? — deyə soruşdu.

— Svetlana Koptevva sizsiniz? — Dronqo dəqiqləşdirdi.

— Bəli, mənəm. Bəs siz kimsiniz?

— Bizim sizinlə söhbətimiz var, — Dronqo bildirdi, — çox şəxsi bir söhbətdir.

— Haradan gəlmisiniz? — Kopteva soruşdu. — Axı mən müstəntiqlərin bütün suallarını cavablandırmışam.

— Xidməti vərəqəniz varmı? — deyə daha səriştəli gənc alfons soruşdu.

Lyubomudrov cibindən xidməti vərəqəsini çıxarıb göstərdi.

— Vəkil, — oğlan nifrətlə dedi.

Bu oğlanın da canına hopmuş sarsılmaz sovet mentaliteti duyulurdu. Hakimiyyət nümayəndələri yalnız prokurorlar və milis əməkdaşları hesab olunurdu. Vəkillərə ənənəvi olaraq hörmət olunmurdu. Bəzi hüquq institutlarında isə cinayətkarları müdafiə edən vəkilin partiya üzvü ola bilib-bilmədiyi məsələsi ciddi şəkildə müzakirəyə çıxarılmışdı. Doxsanıncı illərdən sonra vəziyyətin dəyişdiyinə, vəkillərin peşələrinin spesifikası və müvafiq olaraq qonorarları ilə fərqlənərək tədricən hüquq münasibətləri sistemində öz yerini tutmağa başlamalarına baxmayaraq, vəkillərin bütün istintaq və məhkəmə proseslərinin mərkəzi fiqurlarından olduğu qərb sisteminə çatmalarına hələ çox var idi.

— Nə istəyirsiniz? — Kopteva narazı halda soruşdu.

— Biz yenə də sizinlə söhbət etmək istərdik, — Dronqo cavan oğlanı qapıdan astaca kənara itələyib, gülümsəyərək cavab verdi. Sentnerdən yuxarı çəkisi və uca boyu olan Dronqonun, sadəcə, qapını itələməsi oğlanın o yana uçması üçün kifayət edərdi. Amma o, Koptevanın məşuqunu bir azca qapıdan kənara çəkdi.

Alfons səsini ucaldıb əlini qaldırdı:

— Sən hələ əl-qol da atırsan?! Dronqo onun əlini havada tutdu.

O, ciddi tonla dedi:

— Lazım deyil, dava-dalaş salmaq lazım deyil.

Görünür, Dronqonun bu sözləri deyərkən səs tonu və ümumiyyətlə, zəhmli görünüşü öz təsirini göstərdi.

Oğlan əlini aşağı salıb narazı halda söylənərək kənara çəkildi.

— Keçin içəri, — Kopteva boğuq səslə dedi.

Onun ikiotaqlı mənzilində keçmiş dəbdəbənin izləri duyulurdu. Bu qadının ömrü boyu oteldə qulluqçu işləmədiyi bəlli idi. Divardan kifayət qədər yüksək keyfiyyətli iki şəkil asılmışdı. Şəkillərin əksi deyildi, əsərlərin əsli idi.

— Əyləşin, — qadın onlara stolun ətrafına düzülmüş stulları göstərdi. Onun cavan aşnası əyninə köynəyini keçirib divara söykənib dayandı. Onun üz-gözündən narazılıq yağırdı. Svetlana qonaqlarla üzbəüz əyləşdi. Qutudan siqaret çıxarıb yandırdı.

— Biz sizin çox vaxtınızı almaq istəməzdik, — deyə Dronqo sözünə başladı, — sadəcə, bir neçə sualımız var. Oteldə gənc qadın öldürüldüyü gün onların otağında təmizlik işlərini siz aparmısınız?

— Bəli, mən aparmışam — Svetlana təsdiqlədi.

— Siz meyit olan nömrədə şübhəli bir şeyə rast gəlmədinizmi?

— Yox, — qadın sanki gözlərini gizlədərək cavab verdi, — yox, heç nə görmədim.

— Sizi Mixail Qoquladze qadının meyitini tapdıqdan sonra oranı yığışdırmaq üçün çağırmışdılar? Siz həmin mərtəbəyə dərhal qalxdınız?

— Yox, dərhal qalxmadım. Əvvəlcə bizim rəhbərliyi — direktoru, təhlükəsizlik xidmətini çağırdılar. Sonra ora prokurorluqdan gəldilər — müstəntiqlər. Yalnız bütün bunlar bitdikdən və camaat dağıldıqdan sonra nömrədə təmizlik işləri aparmaq üçün məni çağırdılar. Hər yer al-qana boyanmışdı, kovroliti təmizləmək də heç cür mümkün olmurdu. Amma mənə dedilər ki, əgər qan ləkələri getmirsə, çox da əziyyət çəkməyim, iki gündən sonra o otaqdakı kovroliti bütünlüklə dəyişdilər.

— Sizə onu təmizləmək üçün çox da əziyyət çəkməməyi kim məsləhət gördü? — Dronqo dərhal dəqiqləşdirdi.

— Yadıma gəlmir, — qadın tutuldu, — mənim yadıma gəlmir, — inadla təkrarladı.

— Siz adətən həmin mərtəbədə çalışırsınız, — deyə Dronqo israrından dönmürdü, — deməli, bütün nömrələri yaxşı tanıyırsınız. Yəni həmin gün o nömrədə qeyri-adi bir şey görmədiniz?

— Yox, görmədim, — qadın siqaretini söndürərək inadla təkrarladı, — heç nə görmədim. Mən yalnız təmizlik işi aparıram, — deyə o, meydan oxuyurcasına cavab verdi.

— Əvvəllər nə işində çalışmısınız? — Dronqo səs tonunu yumşaltdı.

— Nə? — qadın onun nə demək istədiyini anlamadı. Ya da özünü bilməzliyə vurdu.

— Oteldə xadimə işləməzdən əvvəl harada çalışmısınız?

— Mənim ərim rəssam idi, mən də teatrda çalışmışam, qrimçi vəzifəsində, hətta şöbə müdiri də olmuşam. Sonra — ixtisara düşdüm, ərimsə məni atıb getdi. Ona görə də əlacsızlıqdan gedib oteldə qulluqçu işləməyə başladım. — Kopteva ikinci siqareti çıxarıb yandırdı və soruşdu: Nədir, bəyənmirsən? Qınayırsan?

— Yox, niyə ki? — Dronqo cavab verdi. O, qadının sualındakı dərin mənanı anlayırdı. Bu sual təkcə onun işinə yox, arxasında dayanmış cavan alfonsa da, özünün həyat tərzinə də, ümumiyyətlə, bütün həyatına da aid idi. Dronqo da cavabında onun sualının bütün energetikasının gücü ilə harmonik tərzdə «yox» dedi. Qadın bunu anladı və minnətdarlıqla başını tərpətdi.

— Yenə də, bəlkə yadınıza salasınız, həmin gün nömrədə qeyri-adi bir şey görmədinizmi? — deyə Dronqo bir də soruşdu.

Qadın bir söz demədən başını buladı. Siqaretini möhkəm ciyərlərinə çəkdi, sonra birdən siqaretini söndürüb ayağa qalxaraq soruşdu:

— Başqa suallarınız yoxdur ki?

— Divardakı şəklin altında nə var idi? — sualı eşidərkən qadının səksəndiyi Dronqonun gözündən yayınmadı. Bunu görməmək mümkün deyildi.

— Ş-şəklin altında? — qadın kəkələyərək dedi. Hətta ondan sonra bir söz deməsəydi də, onun bu hərəkəti şübhələrin yaranmasına kifayət edərdi. Dronqo ilə Lyubomudrov bir-birinə baxdılar. Bu anda otağın küncündə dayanmış və unudulduğunu düşünən cavan oğlan hər şeyi korladı.

— Qadın axı sizə heç nə xatırlamadığını dedi. Sizə dedi axı, — söyləyərək bir neçə addım Dronqoya tərəf atdı və sanki zorla evdən çıxarmağa hazırlaşırmış kimi onun əlindən yapışdı.

Dronqo sualının cavabını gözləyərək gözünü Svetlanadan çəkmirdi. Əlinin sıxıldığını hiss etdikdə, qeyri-ixtiyari olaraq yumruğunu sıxıb, sağ əlinin dirsəyi ilə bu cavan ədəbsizi qarnından vurdu. Oğlan çığırıb ağrıdan qıvrılmağa başladı. Lyubomudrov üzünü turşutdu. Dronqo qadının gözlərinin içinə baxmağa davam edirdi. Qadın isə bir kəlmə də cavab vermədi. Sadəcə, başını tərpətdi. Sanki bu hərəkətilə Dronqonun bütün şübhələrinin əsaslı olduğunu demək istədi. Şəklin altında kiçik bir kamera quraşdırılmışdı. Təbii ki, Dronqo kameranın oradan hələ prokurorluq işçiləri oraya gəlməzdən xeyli əvvəl yığışdırıldığını anlayırdı. Amma o, eyni zamanda başqa bir şeyi də yaxşı anlayırdı. Əgər kamera həqiqətən də çarpayı ilə üzbəüz divardakı şəklin altında quraşdırılmışdısa, nömrəni yığışdıran xadimə şəklin altından, hələ də orada qalmışlarsa, kəsilərək sallanan simləri, ya da yüksək ustalıqla gizlədilmiş kameranın dəqiq yerini görməyə bilməzdi. Bəlkə də Svetlanaya susmasını, danışmamasını tapşırıblar və o, heç vaxt bunu ona tapşıranın kimliyini və hər şeyin həqiqətdə necə olduğunu heç kimə deməyəcəkdi. Çünki bu tip etiraflardan sonra onların onu yaşatmayacaqlarını bilirdi. Amma Svetlana Dronqoya sualının cavabını başını tərpədərək bildirdi və bu da qətl zamanı kameranın orada olduğunu anlamaq üçün kifayət edirdi.

Stolun yanında ağrıdan qıvrılmış oğlan hələ də zarıyırdı. Dronqo Svetlanaya yaxınlaşıb soruşdu:

— Kim? Sizə susmanızı kim tapşırıb?

Qadın başını buladı. Onun gözlərində inadkar bir qığılcım göründü.

— Mən heç nə bilmirəm, — qadın artan əsəbiliklə cavab verdi.

Dronqo artıq bu vəziyyətdə sorğu-sualı davam etmənin münasib olmadığını anladı. Qadın bundan artıq heç bir suala cavab verməyəcəkdi.

— Sağ olun, — Dronqo qapıya tərəf gedərək dedi. O, ayağı ilə yerdə zarıldayan alfonsu asanlıqla itələyib çıxışa doğru getdi. Lyubomudrov da onun ardınca çıxdı. O bu mənzildə bir kəlmə də danışmadı. Yalnız evdən çıxanda, açıq-aşkar təqdiretmə tonunda dedi:

— Siz çox gözəl çalışırsınız. Həmsöhbətinizin şəxsiyyətinə diqqət yetirməyi bacarırsınız.

— Təşəkkür edirəm, — Dronqo köks ötürdü.

Onlar binadan çıxdılar. İlyinin oturduğu «Audi» küçənin əks tərəfində dayanmışdı. O, gözlədiyi vaxt maşını hərləyib, şəhər mərkəzinə getmək üçün hazır qoymuşdu. Lyubomudrov binadan birinci çıxdı, Dronqo ona yol verdi. Elə bu anda maşın əyləcinin xoşagəlməz zingiltisi eşidildi.

— Yerə yat! — Dronqo vəkili itələyərək qışqırdı.

Başlarının üstündən uzun avtomat güllələrinin qatarı keçdi. Atəş dərhal hadisə yerindən götürülüb gedən tünd rəngli «Honda»dan açılmışdı. Küçənin qarşı tərəfindən əlində silah tutaraq qaça-qaça Andrey İlyin gəlirdi. «Honda» oradan artıq uzaqlaşmışdı. Dronqo ağır nəfəs alaraq ayağa qalxdı və Vikenti Alekseyeviçin də qalxmasına yardım elədi. O, ayağa qalxmağa cəhd elədi və yanğılı tərzdə səsini ucaldaraq dedi:

— Deyəsən, siz mənim diz qapağımı sındırdınız. Amma yenə də təşəkkür edirəm. Həyatımı xilas etdiniz.

Qonşu bloklardan buraya atəş səslərindən təşvişə düşmüş adamlar qaçışmağa başladı.

— Düşünmürəm, — Dronqo etiraz elədi. — Əgər onlar bizi öldürmək istəsəydilər, bizim küçəni keçməmizi də gözləyə bilərdilər. Çox güman ki, sadəcə, qorxutmaq istədilər.

Adamlar getdikcə artırdı. Lyubomudrov üzünü qırışdıraraq ayağa qalxmağa çalışırdı. Lakin ayağı həddindən artıq möhkəm ağrıyırdı.

— Ona kömək elə, — Dronqo Andrey İlyinə təklif elədi və tələsik binaya qayıtdı. Yenidən Kopteva yaşadığı mərtəbəyə qalxdı və qeyzlə, bütün var-gücü ilə, dayanmadan qapının zəngini çalmağa başladı. Qapı açıldı. Qapıda həmin, lakin bu dəfə qəzəbdən ağzından köpük gələn və əlində mətbəx bıçağı tutan oğlan dayanmışdı.

— Səni öldürəcəm, — deyə sağ əlini qaldıraraq xırıldadı. Dronqo qapının qulpundan tutub qapını özünə tərəf çəkdi və onun əlini qapının arasında qoydu. Oğlan ağrıdan qışqırdı və bıçağı əlindən yerə saldı. Dronqo bıçağı qaldırıb qapını itələdi. Oğlan qapının ağzından otağa tərəf atıldı. Dronqo mənzilə girib mətbəxdə səslər eşitdi və ora tələsdi. Svetlana pəncərənin yanında dayanmışdı. O, küçədə, evinin qarşısında baş verənləri görməliydi.

— Sən ki hər şeyi gördün! — deyə Dronqo qışqırdı. — Adını de! Mənə onun adını de! Səninlə kim söhbət eləmişdi? Ya da sənin iş növbən olduğu gün otaqda kameranı quraşdırmağa cəhd edən kim idi? Mənə onun adını de, sonra da baş götür şəhərdən qaç. Gələn həftənin cümə axşamına kimi. Ondan sonra sənə dəyib-dolaşan olmaz. Mənə onun adını de! Sən o nömrədə kameranı quraşdıran, ya da hadisədən sonra onu oradan çıxaran adamın adını bilirsən? Tez ol, cavab ver, yoxsa gələn dəfə güllələr sənə tuşlanacaq.

— Lısakov, — qadın pəltəkləyərək cavab verdi, — Georgi Lısakov. Milis mayoru. O bizim dairənin milis şöbəsində işləyir. Kamera barədə bir adama da söz açmamağı mənə o

tapşırdı. Şəklin altında heç nə yox idi. Yalnız yeri qalmış simlər var idi. Mən dərhal şəklin yerindən başqa yerə asıldığının fərqinə vardım. Amma Lısakov mənə xəbərdarlıq elədi ki, kimsəyə bir kəlmə deməyim. Şəklin altında, aşağı hissədə divarda bir yer var idi, orada kiçik bir kamera gizlədilmişdi. Sizcə onlar məni öldürəcəklər?

— Tez evdən qaçın. Sadəcə, gələn həftənin cümə axşamına kimi buralarda görünməyin. Ondan sonra heç kimin — sizinlə işi olmayacaq — Dronqo mətbəxdən çıxaraq bildirdi. — Amma qətiyyən evdə qalmayın, — bu dəfə o, artıq dəhlizdən əlavə elədi.

Mənzildən çıxmadan əl dəsmalı ilə barmaq izləri qalmaması üçün mətbəx bıçağını yaxşıca sildi. Sonra bıçağı yerə atıb çıxdı. Qapını da arxasınca möhkəm çırpdı. Aşağıda maşında onu Andrey İlyinlə arxa oturacaqda uzanıb zarıyan Vikenti Alekseyeviç gözləyirdilər. Onlar xəstəxanaya gedib, xeyli vaxt rentgen müayinəsinin və həkimlərin cavabını gözləməli oldular. Dronqonun dediyi kimi, Lyubomudrovun diz qapağında qırıq-filan yox idi. Lakin Dronqo onu itələyərkən yerə yıxıldıqda ayağını çox möhkəm zədələmişdi. Vikenti Alekseyeviçə bir neçə gün yataq rejimində olmağını tövsiyə edib evə yolladılar. Yalnız ondan sonra onlar atəş açanın kim olduğunu və bunun səbəbini araşdırmaq üçün milisə getdilər. Maraqlısı odur ki, milis əməkdaşlarını ən çox maraqlandıran sual, bunların hansısa birinin nə üçün güllələrə tuş gəlməməsi idi. Belə hallarda qatillər adətən dəqiq hərəkət edib, istəklərinə nail olurlar. Burada isə yalnız Lyubomudrovun yüngülvarı ayağı zədələnmişdi. İlyinin maşınından çıxıb onlara tərəf qaçaraq əlində sıxdığı tapançaya böyük diqqət ayırmaq məsələyə ciddi yanaşma deyildi. Bununla belə, naməlum adamlar Koptevanın evinin yanına gəlib, Dronqo ilə Lyubomudrovun başının üstündə avtomat güllələrinin qatarını buraxıb, sonra da hadisə yerindən qaçdılar. Sanki onların planları məhz belə bir

qəribə hücumu — həyata keçirməkdən ibarət idi. Dronqo ilə İlyini milis şöbəsində səhər saat altıya kimi dəng elədilər, elə bil atəş açanlar zərər çəkmişlərin özü idi.

Nəhayət, səhər açılanda dindirilmə də bitdi. Üçüncü günün səhəri idi. Dronqo yorğun, dilxor və qaşqabaqlı halda maşına tərəf gəldi. Saatına baxdı. Onlar evə çatana qədər İlyin az qala sükan arxasında yuxulayacaqdı.

— Get, bir az yat, — Dronqo ona məsləhət elədi, — və sabah saat on iki üçün gəl. Hələlik.

Andrey də başını tərpədərək vidalaşdı. Doğrudan da yuxusu gəlirdi, başqa bir şey haqda düşünməyə halı yox idi.

# *ÜÇÜNCÜ GÜN*

Andrey öz avtomobili ilə Dronqonun yaşadığı binaya yaxınlaşanda düz günorta saat on iki idi. Dronqo evdən dilxor və qaradinməz vəziyyətdə çıxdı.

— Nə olub? — Dronqo «Audi»yə əyləşəndən sonra soruşdu.

— Sən səhər açılandan bəri üç səhvə yol vermisən — Dronqo narazılıqla deyindi, — bu şəkildə davam etsən, çətin ki, biz bir nəticəyə vara bilək.

— Nə səhvləri? — deyə Andrey başa düşmədi. — Siz nədən bəhs edirsiniz?

— Birincisi, mən yaşadığım binanın düz qarşısına gəlmək lazım deyildi. Yaxınlıqda bir yerdə, ya da qarşı küçədə dayansa, daha yaxşı olardı. İkincisi, maşını, ümumiyyətlə, dəyişmək lazım idi. Böyük ehtimalla sizin avtomobiliniz dünən bizi qorxutmağa çalışanların hamısına məlumdur. Üçüncüsü isə, mən maşına əyləşən kimi maşını işə salmaq çox ehtiyatsız bir davranışdır. Bizim təqib olunmamız heç

də istisna deyil. Ona görə də beş-altı saniyə gözləyib, yalnız ətrafa göz gəzdirdikdən sonra maşını işə salmaq lazımdır.

— Nəzərə alaram, — İlyin dodaqaltı söyləndi. Dronqonun bu qədər irad tutması onu pərt etmişdi.

— Sən əvvəllər harada çalışmısan? — Dronqo soruşdu.

— Qoruma agentliyində, — Andrey cavab verdi. — Əsgərlikdən qayıdandan sonra qoruma agentliyində işə düzəldim. Mən desantçıydım, ona görə dərhal işə qəbul olundum. Sonra Fedoseyevin yanında işləməyə başladım.

— Onun səni öz müavini vəzifəsinə götürməyi qəribədir. Sən ki kompaniyaya gəlməzdən əvvəl onunla birlikdə çalışmamısan, deyilmi?

— Yox, çalışmamışam. Amma o, məncə, əvvəllər tanıdığı keçmiş həmkarlarına o qədər də etibar etmir. Bir dəfə mənə dedi ki, keçmiş zabiti öz dostlarına xəyanət edib. Onları təslim etməyin nə demək olduğunu yaxşı təsəvvür edir. Ona görə də mən onun əvvəllər tanıdığı adamlara bir o qədər də etibar etmədiyini anladım.

— Aydındır. Lısakov barədə bir şey öyrənə bilmisiniz?

— Milis mayorudur. Həqiqətən də yerli polis idarəsində çalışır. Cinayət axtarışının baş inspektorudur. Fəaliyyət xarakteristikası kifayət qədər müsbətdir. Düzdür, bir çoxları onun həddindən artıq dikbaş olduğu fikrindədir. Nəticələr həqiqətən də pis deyil. Görünür, onun geniş agentura şəbəkəsi var. Bir vaxt, yəni üç il bundan əvvəl onu orqanlardan kənarlaşdırmaq istəyirmişlər, amma sonradan o məsələ qapadıldı.

— Nə üstündə işdən çıxarmaq istəyirdilər? — deyə Dronqo maraqlandı.

— Həmkarını döymüşdü. Nəyinsə üstündə dalaşmışdılar. Amma onlar bir-birinə qarşı şikayətçi olmadılar və beləcə iş qapadıldı.

— Həmkarını döymüşdü, — Dronqo fikirli-fikirli təkrarladı. — Onun şübhəlilərlə rəftarını təsəvvür edirəm artıq. Onun «müsbət xarakteristikası» da elə buradan başlayır. Maraqlı detaldır. Başqa nə öyrənmisən?

— Evlidir. Amma uşaqları yoxdur. İdmançıdır. Keçmiş boksçu, idman ustasıdır. Polkovnik-leytenant rütbəsi ala biləcəyinə şübhə etmirlər. Onu nüfuzdan sala biləcək bir məlumat yoxdur.

— Sür gedək milisə. O «gələcək polkovnik-leytenantla» bir mən də söhbət edim, — Dronqo qərar verdi.

— Baş üstə, — İlyin cavab verdi, — amma Lısakov nahardan sona işdə olacaq. Mən idarəyə zəng edib, onun saat neçədə işdə olacağını öyrənmişəm.

— Üç səhvindən birini çıxıram, — Dronqo mehribancasına qeyd etdi, — səhər, hələ biz görüşməzdən əvvəl zəng edib bunları araşdırmısansa, afərin sənə.

— Hara gedək?

— Sizin ofisə. Lvovda olanları öyrənməyə çalışaq. Bəlkə oradan yeni məlumat var.

— Gedək, — İlyin razılaşdı, — həm də maşını dəyişərəm. Bir neçə günlüyünə başqa bir avtomobil istəyərəm. — Sonra bir az susub soruşdu: Necə bilirsiniz, bu məsələdə bizim əlimizdən bir şey gələcəkmi?

— Bilmirəm, — deyə Dronqo səmimi etiraf elədi, — mən sehrbaz deyiləm. Əlbəttə ki, çalışacağıq. Hərçənd vaxtımız çox məhduddur. Amma istənilən halda cəhd etmək lazımdır.

— Mənə elə gəlirdi ki, siz gələn kimi hər şey öz-özünəcə həll olunacaq, — Andrey etiraf elədi.

Dronqo gülümsədi:

— Elə şey olmur. Öz-özünə heç nə həll olunmur. Konkret bir nəticəyə nail olmaq üçün çox çalışmaq lazımdır-.

— Mən sizin haqqınızda o qədər eşitmişəm ki, — İlyin bildirdi, — elə bilirdim siz qatili bir günün içində axtarıb tapacaqsınız.

— Hə, eynilə romanlarda olduğu kimi. Gəldim, mehmanxanada var-gəl elədim və bir dənə siqaret kötüyünün köməyilə qatili tapdım. Həyatda belə olmur. Çoxlu amilləri nəzərə almaq, onları təhlil etmək gərəkdir. Bu cinayəti nə istədiklərini çox yaxşı bilən bir qrup çox təcrübəli adamlar hazırlayıblar.

İlyin anlayışla başını tərpətdi və onlar kompaniyanın ofisinə çatana qədər artıq heç bir sual vermədi. Fedoseyevin qəbuluna düşmək birinci dəfə olduğu kimi çətin idi. Hər tərəfdə qorumalar var idi. Nəhayət, onlar təhlükəsizlik xidməti rəhbərinin kabinetinə gəlib çatdılar. Bu dəfə də ucaboy katibə heç nə soruşmadan onları kabinetə buraxdı.

— Sizin dünənki atışma barədə eşitdim, — qonaqlar kabinetində yerləşdikdən sonra Savva Afanasyeviç dedi, — amma deyilənə görə hər şey sağ-salamat ötüşdü.

— Onlar, sadəcə, bizi qorxutmaq istəyirdilər, — Dronqo bildirdi, — əgər öldürmək fikirləri olsaydı, indi burada oturub sizinlə danışmazdıq. Onlar konkret adamları öldürmək yox, imkanlarını nümayiş etdirmək istədilər. Nə qədər ki biz bir şey bilmirik, tamamilə təhlükəsizik. Yox, əgər konkret faktlar öyrənməyi bacarsaq, onda biz həqiqətən də onlar üçün bir maneəyə çevriləcəyik və o halda onlar daha məharətlə atəş açacaqlar.

— Belə çıxır ki, onlar sizin məhz haraya getdiyinizi bilirmişlər, — general qeyd etdi.

Bu adam məntiqi xətt çəkməyi bacarır və heç də göründüyü kimi sadə bir adam deyil, – Dronqo düşündü.

— Bəli, — deyə o təsdiqlədi, — məlumat sızmasının məhz sizin ofisinizdən çıxdığı istisna deyil.

Fedoseyev tutuldu. Sonra müavininin üzünə baxdı.

— Səndən başqa hara gedəcəyinizi kim bilə bilərdi?

— Heç kim, — İlyin pərt halda cavab verdi.

— Kabinetdə biz dörd nəfərdən başqa heç kim yox idi — Fedoseyev xatırlatdı, — sən, mən, qonağımız və Lyubomudrov. Vikenti Alekseyeviç özünü necə hiss edir?

— Bilmirəm, hələ zəng eləməmişəm, — Andrey günahkar kimi cavab verdi, — amma dünən bizim ekspertin onu çox möhkəm itələdiyi məlum oldu. Lyubomudrovu evə apardılar. Amma qorxulu bir şey olmayıb.

— O, atəş açılmazdan əvvəl özü yıxıldı, yoxsa siz doğrudan da onu itələyib yerə yıxdınız? — deyə ağır nəfəs almağa başlayan Fedoseyev soruşdu.

— Mən itələdim, — Dronqo cavab verdi, — yoxsa doğrudan da atəşə tuş gələ bilərdi.

— Onda sizin Koptevanın evinə gedəcəyinizi kim xəbər verib? — Fedoseyev soruşdu. — Yoxsa siz mənim xadimənin evinin qarşısında gecə-gündüzlü növbənin qurulmasına inanmağımı istəyirsiniz?

— Yox, əlbəttə ki, yox. Onları kimsə xəbərdar edib və onlar bizə xəbərdarlıq dərəcələrini nümayiş etdirmək istədi. — Amma mənim fikrimcə, bu, həm də onların zəifliklərinin nümayişi idi. Əgər onlar bizim bir məlumat

öyrənə bilməyəcəyimizdən əmin olsaydılar, avtomat atəşli hoqqalara əl atmazdılar. Mən bu hadisəni onların açıq-aşkar uğursuzluğunun əlaməti sayıram və əminəm ki, belə bir varianta mahiranə qətlin təşkilatçıları yox, bilavasitə icraçılardan kimsə qərar verib.

Fedoseyev xatırlatdı:

— Amma onlar sizin oraya gedəcəyinizi bilirdilər. Son dərəcə iti hissiyyatlı bir adam idi. Sizin oraya gedəcəyinizi başqa kimlərin bildiyini bir daha yoxlamaq lazımdır. Qəbul otağında nömrəni sən yazırdın? — deyə general Andreydən soruşdu.

— Bəli. Amma mən nömrəni yazanda qəbul otağında kənar adamlar yox idi. Yalnız sizin katibəniz və sürücümüz Lyonya. Başqa heç kim.

— Qəribədir, — Fedoseyev fikirli-fikirli dedi.

— Siz bizim maşınımızı dəyişə bilərsiniz? — deyə araya çökmüş fasilədən istifadə edən Dronqo maraqlandı.

— Təbii ki, bilərik, — general cavab verdi, — amma hər şeyi lazımi səviyyədə rəsmiləşdirmək lazımdır.

— Sizin böyük maşın parkınız var?

— Kifayət qədər böyükdür. Və biz bütün avtomobilləri müntəzəm nəzarətimizdə saxlamağa çalışırıq. Xidməti maşınlardan istənilən istifadə bizdə dəqiq qeyd olunur. Onların yolda olduqları və qayıtdıqları vaxt da qeyd olunur. Biz bu barədə sürücülərə bildirməməyə çalışırıq. Özümüz isə istənilən normadan kənara çıxmaları qeydə alırıq. Əgər sürücü ona ayrılan vaxtdan gec qayıdırsa, biz onu nəzarətə götürüb davranışına diqqət yetiririk. Əslində, dünyanın hər yerində təhlükəsizlik xidmətinin iş tərzi məhz bu cürdür.

— Deməli, siz bizim «Audi»mizi başqa bir maşınla əvəzləyə biləcəksiniz, — Dronqo nəticə çıxardı. — Bəs Lvovdan bir

xəbər-filan varmı? — deyə o, bacardığı qədər soyuqqanlıqla soruşdu.

— Heç bir xəbər yoxdur. Səhər əməkdaşlarımız zəng elədilər. Dünən onlar ölən qızın anası ilə danışıblar. Bədbəxt qadın, deyəsən, heç nə anlamayıb. Təzə bir məlumat verə bilməmişdir. Bir maraqlı detal istisna olunmaqla. Qızı ona zəng edib instituta qəbul olunduğunu xəbər veribmiş. Səhv etmirəmsə, kitabxanaçılıq fakültəsinə. Böyük ehtimalla yalan deyibmiş. Bütün evindən paytaxta qaçan qızlar evlərinə zəng edib, ali məktəbə qəbul olunduqlarını bildirirlər.

— Bəs əgər yalan demirmişsə? Bəlkə bu, bizim şansımızdır?

— Yoxlayaq. Amma bildiyim qədər, milis bunun həyatda tamamilə fərqli bir «peşəyə» sahiblənən qızın yalanından başqa bir şey olmadığını düşünür. Hazırda milis və prokurorluq əməkdaşları Moskva sutenyorları ilə olan versiyaları nəzərdən keçirirlər. Bu yoxlama isə, mənim zənnimcə, onun institutda oxumasına dair ağlasığmaz versiyasının yoxlamasından daha konkret nəticələr verəcək.

— Biz yenə də yoxlayaq, — Dronqo təklif elədi. — Lyubomudrov o qızın kifayət qədər bilikli, məlumatlı olduğu fikrindəydi. Bəlkə o, həqiqətən də instituta qəbul olub, öldürülənə qədər orada oxuyurdu. Bəlkə də biz, ümumiyyətlə, səbəblə istintaqı səhv istiqamətə yönəldirik və qız heç də bizim onu görmək istədiyimiz kimi professional fahişə yox, əyalətdən şəhərə gəlmiş adi bir qız idi?

— Siz filmi görmüsünüz? — deyə Fedoseyev soruşdu. — Mən bəzi kadrları görmüşəm. Qızın özünü həddindən artıq sərbəst aparmasından onun bəsit bir tələbə olduğu nəticəsinə gəlmək olmaz.

— Siz bu versiyanı yoxlamağım üçün mənə adamlarınızdan bir neçəsini ayıra bilərsinizmi? — deyə Dronqo soruşdu.

— Bir neçə nəfər ayıra bilmərəm, — Fedoseyev onun sözünü kəsdi, — iki nəfər olar. Andreylə birgə çalışsınlar. Bizim ehtiyatda hələ bir neçə günümüz var. Hərçənd mənim fikrimcə, boş-boşuna əlləşməkdənsə, hərracdan imtina etmək daha məqsədəuyğun olardı.

— Siz yəni bu qədər bədbin köklənmisiniz? — Dronqo təəccübləndi.

— Realist desək, daha doğru olar. Qalan bir neçə gün ərzində biz heç bir nəticə əldə etməyi çatdırmayacağıq, qətli düşünüb hazırlayan adamlar isə fəal şəkildə bizə maneçilik törədəcəklər. Zənnimcə, bıçaq altında olarkən vurnuxmaq axmaqlıqdır, insan özü-özünə əziyyət — vermiş olur.

— Mən yenə də cəhd edəcəm, — Dronqo inadla dedi, — mənə adam verəcəksiniz, ya yox?

— Verəcəm, — Fedoseyev təsdiqlədi, — görürəm, siz də mənim kimi inadkarsınız.

— Mən, ümumiyyətlə, inadkarlığın nə olduğunu bilmirəm. Əgər bu gün cinayət axtarışının inspektoru ilə söhbət etməyi bacarsam, bu, başqa məsələdir. Amma qorxuram ki, cinayət axtarışının baş inspektoru mənimlə söhbət etmək istəməyə və onda mən də fövqəladə tədbirlər görmək məcburiyyətində qalam. Bu isə, hər zaman olduğu kimi, gözlənilməzliklə dolu və təhlükəsiz bir haldır.

— Ehtiyatlı olun, — general söyləndi, — gələn dəfə onlar daha dəqiq atəş açacaqlar. Əgər karyeranızın vaxtından əvvəl dayandırılmasını istəmirsinizsə, bunu unutmayın, Dronqo.

# *ÜÇÜNCÜ GÜN*

Baş inspektorun kabinetində milis əməkdaşları var idi və Dronqo Lısakov boşalana qədər səbirlə gözləməli oldu. Vaxt itirməmək üçün o, İrina Maksimenkonun izinə düşmək ümidilə Andrey İlyinlə generalın onlara yardım etmələri üçün ayırdığı iki nəfər təhlükəsizlik xidməti əməkdaşlarından şəhərin bütün institutlarında yoxlama aparmağa başlamalarını xahiş elədi. Günorta saat beş idi, Dronqo isə heç bir səbirsizlik əlaməti büruzə vermədən hələ də idarənin dəhlizində oturub Lısakovla görüşməsini gözləyirdi. İnspektorun onu qəbul etməsini gözləyərkən, bu boş vaxdan istifadə edərək qəzetlərdəki son xəbərlərə nəzər salırdı.

Yalnız saat altının yarısında Lısakov boşaldı və vəkil Lyubomudrovun nümayəndəsi olan Dronqoya kabinetinə girməsi üçün izin verdi. Dronqo Vikenti Alekseyeviçd-ən Lısakova zəng edib, köməkçilərindən birinin onunla görüşmək istədiyini bildirməsini xahiş etmişdi. Vəkil Dronqonun xahişini yerinə yetirdi. Ona görə də Lısakov, nəhayət, dəyərli vaxtını ziyarətçiyə ayırmaqla onu şərəfləndirdi.

Lısakov ortaboylu, çevik, möhkəm, enlikürək də olsa, demək olar ki, görünməyən boynu və qüvvətli bədəni olan birisiydi. Onun əvvəlki idmançı karyerası bəlli olurdu. Qırıq burnu onu qaraqabaq göstərirdi, sanki çuxura düşmüş balaca gözləri Dronqo kabinetə girərkən meydanoxurcasına ona dikilmişdi. Mayor otağın küncündə böyük bir seyfin yanında dayanıb, qonaq otağına daxil olanda seyfin qapısını bağlayırdı.

— Əyləşin, — Lısakov heç salamlaşmadan stulu göstərib qısaca dedi, — vaxtım azdır. Ziyarətinizin səbəbini mümkün qədər qısa və cəld deyin.

— Sizinlə söhbət etmək istərdim.

— Nə barədə? — deyə Lısakov masanın arxasındakı yerinə qayıtdı. — Mənimlə nə barədə danışmaq istəyirsiniz?

— Öldürülmüş İrina Maksimenko barədə, — Dronqo diqqətlə inspektorun üzünə baxaraq sözü uzatmadan cavab verdi.

— Nə? — o səksəndi. — Nə dediniz?

— Bir neçə gün bundan əvvəl «Metropol» otelində bir qadın qətlə yetirilmişdir, — Dronqo təmkinlə izah elədi, — bu qətl barədə sizinlə bir az söhbət etmək istərdim.

— Bunun mənə heç bir aidiyyəti yoxdur, — Lısakov tələsik, hətta Dronqonun sözünü bitirməsini gözləmədən həddindən artıq tələsik cavab verdi. Görünür, tələskənliyinin necə təəssürat yarada biləcəyini anlayıb əsəbi halda əlavə elədi: O mənim işim deyil. Bütün qətlləri prokurorluq müstəntiqləri araşdırır. Onlara müraciət edin.

— Ora sizin sahənizdir, axı, — Dronqo xatırlatdı.

— Nə olsun? — deyə Lısakov tamamilə səbrini itirdi, — elə bilirsiniz mən o qədər səfehəm ki, sizin bura nə üçün gəldiyinizi anlamıram? Vikenti Alekseyeviç çalışdığı kompaniyanın prezidentini müdafiə etmək istəyirsiniz? Elə bilirsiniz onun Aleksandr Mixayloviçin vəkili olduğunu heç kim bilmir? İndi də hansısa təfərrüatları öyrənmək üçün durub bura mənim yanıma gəlmisiniz. Lyubomudrov mənim ona yeni məlumat verməyəcəyimi bilirdi. Ona görə də özü gəlməyib, köməkçisini yollayıb. Bir sözlə, mən heç nə bilmirəm, sizinlə söhbəti davam etdirmək fikrim də yoxdur. Vəssalam.

— Siz başa düşmədiniz, — Dronqo gülümsədi, — mən bura nə Lyubomudrovun işi, nə də onun patronu barədə söhbət eləmək üçün gəlmişəm. Mən sizin işiniz barədə danışmaq istəyirəm, mayor Lısakov. Şəxsən sizin işiniz barədə.

Lısakov diqqətli və tikanlı bir baxışla qonağa baxdı. Bir neçə saniyə susduqdan sonra soruşdu:

— Mənim işim barədə?

— Kamera, — Dronqo çox asta səslə izah elədi, — qadın öldürülən otaqda kamera quraşdırılmışdı. Sizin də bundan xəbəriniz var idi.

Araya çökmüş sükut bu dəfə xeyli ağır oldu. Nədənsə Lısakov udqundu, sanki udqunmasa danışa bilməyəcəkdi. Sonra o da çox astaca soruşdu:

— Kamera?..

— Bəli, kamera. Öldürülən qadını və öldürülmə anını lentə alan kamera. — Dronqo baxışını düz ona tuşlanmış iki işıldayan gözə dikmişdi. Adama elə gəlirdi ki, Lısakov baxışları ilə Dronqonu külə döndərmək istəyir.

— Sən kimsən? — nəhayət, mayor soruşdu.

— Vikenti Alekseyeviçə ədalətin bərqərar olunmasında yardım eləyən adam.

— Adın. Sənin adın nədir?

— Mühüm deyil.

— Danışmaq istəmirsən, — Lısakov hırıldadı, — deməli, özünü bu qədər ağıllı hesab edirsən ki, durub mənim qəbuluma gəlib burada səfehlik edə biləcəyini düşünürsən? Bura, mənim yanıma, milisə gəlib çıxmısan. — Onun baxışları ürəkaçan heç nə bildirmirdi. Birdən-birə Dronqo Lısakovun özü ilə söhbət etməyi qərara alarkən səhvə yol

verdiyini düşündü. Bu kimi tövr-tərzi heç cür qəbul etməyən adamlar olur. Onu özünü səlahiyyətli sahibi hiss etdiyi bu binadan kənara çıxarıb söhbət etmək lazım idi. Söhbəti Lısakovun özünü çar və tanrı sandığı bu kabinetdə başlamaq olmazdı. Lakin oyun başlayandan — sonra onu dayandırmaq da olmazdı. Belə hallarda dayanma məğlubiyyətə bərabər sayılır.

— Mənə sizin quraşdırdığınız kamera barədə hər şeyi bilmək lazımdır, — Dronqo Lısakovun diqqətli baxışlarına tab gətirərək qətiyyətli bildirdi.

— Deməli, — mayor sanki fikrə gedərək köynəyinin yaxalığının düyməsini açdı və birdən-birə soruşdu: — Sveta çənəsini boş qoyub, hə? — Sonra da özü öz sualına cavab verdi: Əlbəttə ki, Sveta. O axmağa hələ xəbərdarlıq etmişdim...

O, stolunun siyirməsini açdı və Dronqo heç heybətli yuxuda belə görməsini güman etmədiyi bir halla üzləşdi. Lısakov cəld hərəkətlə siyirməsindən tapança çıxarıb onu düz Dronqoya tuşladı.

— Ayağa qalx! — dişlərini qıcayıb fısıldadı. — Qalx ayağa, üzünü də divara tut.

— Dəli olma, Lısakov, — Dronqo tövsiyə etdi, — mənim indi harada olduğumu hamı bilir. Əgər mən qayıtmasam, Lyubomudrov mənim məhz burada yubandığımı biləcək. Məni tapmayacaqları halda da, səndən soruşulacaq.

— Elə bilirsən mən sənə atəş açacam? — Lısakov soruşdu. — Yox. Bunu görməyəcəksən. Bu saat sən özün mənə hər şeyi bircə-bircə danışacaqsan. Otel nömrəsində olan kamera barədə haradan məlumat aldığını da. Öldürülən qadınla nə səbəbdən bu qədər dərindən maraqlandığını da. Hər şeyi danışacaqsan. Sonra isə mən

səni həbsxanaya yollayacam. Sən milis zabitini şantaja cəhd etmisən. Bu ittihamın həbs müddətindən xəbərin varmı?

— Deməli, dediklərim həqiqətdir, — hələ də üzünü divara çevirməyən Dronqo dedi, — deməli, sənin həqiqətən öldürülən qadının otağındakı kameradan xəbərin var idi.

— Eybi yox, — Lısakov hırıldadı, — bu saat hər şeyi mənə danışacaqsan. Nahaq yerə milisə gəlmisən. Yəqin qəhrəmanlığının burada işə yarayacağına ümid eləmisən, hə? Sən gələn kimi mən də qorxudan titrəməyə başlayacam.

O, daxili telefonun dəstəyini qaldırıb əmr verdi:

— Popov, yanına uşaqlardan birini al, cəld mənim yanıma gəl. Otağımda maraqlı bir tip əyləşib.

— Sən heç öz əlinlə ölüm fərmanına imza atdığını anlayırsan? — Dronqo soruşdu. — Əgər kamera söhbəti açılarsa, sənin həyatının bir qəpiklik dəyəri qalmaz. Səni ya gəbərdəcəklər, ya da it kimi işdən qovacaqlar.

— Bu saat hər şeyi bizə danışarsan, — əlində tapançasını sıxmağa davam edən Lısakov onun nə dediyinin fərqinə varmırdı.

Kabinetə iki nəfər cinayət axtarışının əməkdaşı daxil oldu. Yekəpər, Dronqo hündürlükdə oğlanlar idi. Rəislərinin əlindəki tapançanın işarəsilə zabitlər qonağa tərəf atıldılar. Biri Dronqonun əllərindən yapışdı, ikincisi – daha qüvvətli və enlikürək olanı, görünür, həmin Popov olan əlini qaldırıb Dronqonu nəfəs borusunun altından vurdu. Zərbəsi o qədər güclü idi ki, hətta Dronqo bir anlığına səmtini itirən kimi oldu. İkinci zərbə birincisindən yüngül idi. Dronqo divardan aralanıb onu tutan adamı seyfə sıxmağı bacardı. Zabit ağrıdan bağırıb əllərini boşaltdı. Bu anda Dronqo bütün var-gücü ilə Popovun almacıq sümüyündən bir zərbə endirdi. Popov divara tərəf sıçradı. İkinci hücumçu seyfdən

aralanıb qəzəbli halda yumruqlarını sıxaraq Dronqonun üstünə gəldi. Lakin Dronqo çevrilib ona sağ əlilə güclü bir zərbə endirdi.

— Dayan! — tapançanı əlindən buraxmayan Lısakov bağırdı. — Dayan, yoxsa atəş açacam!

— Aç, — Dronqo ağır nəfəs ala-ala cavab verdi. Popovun ayağa qalxmağını görən Dronqo ayağı ilə ona bir zərbə də endirdi. Popov inildəyərək yerə sərildi.

— Mənim silahım yoxdur, — Dronqo xəbər verdi, — atəş açmaq qərarına gəlsən, səni düzgün başa düşməzlər.

— Dayan! — qəzəbdən sifəti əyilmiş Lısakov bağırdı. Dronqo onun həqiqətən də atəş açmağa hazır olduğunu anladı. Donub yerində qaldı. Bu yerdə qapı açıldı və kabinetə hərbi geyimdə bir adam daxil oldu. Gələn adam polkovnik-leytenant idi. Çox ucaboy, xarici görkəmindən təqribən qırx yaşlarında, sarı saçlı və səliqəli biriydi.

— Burada nə baş verir? — deyə o soruşdu.

— Heç nə, — Lısakov tapançasını siyirməyə yığışdıraraq çaşqın halda cavab verdi. Münaqişə iştirakçıları yerdən qalxdılar və Popov «iki daşın arasında» Dronqonu divara tərəf itələdi, amma dava-dalaşa girişə bilmədi. Onun şəriki özünü fərqli apardı. O, Dronqonun böyrəyinin — üstündən zərbə endirdi. Dronqo ağrıdan ikiqat oldu. Buranın işçiləri maksimal effektlə vurmağı bacarırdılar.

— Həbsə alınmışdır? — deyə polkovnik-leytenant soruşdu.

— Hələ yox, — Lısakov cavab verdi, — biz hələ hər şeyi lazım olduğu kimi qeydiyyata almamışıq. Amma bu adam məni şantaja cəhd edirdi. Bir də bizim zabitlərə hücum elədi.

— Köpək oğlu, — polkovnik-leytenant Dronqoya baxaraq dedi, — ona niyə vaxt sərf edib nazı ilə oynayırsınız? Aparın

onu üçüncü kameraya tullayın, xoşbəxtlikdən orada lazım olan uşaqlar var. Onlar bunun üstündə elə işləyərlər ki, doğma anası tanımaz. Ömrü boyu qan qusacaq.

— Baş üstə, — Lısakov cavab verdi və bu anda Dronqo yalnız möcüzə sayəsində xilas ola biləcəyini anladı.

O, dilxor halda atdığı addımların hamısını düzgün hesablamadığını düşündü. Xaricdə çox olduğundan, doğma milisinin iş üslubunu yadırğamışdı. Milis isə, mahiyyətcə heç dəyişilməmişdi – milislər əvvəlki kimi yırtıcı və qaniçən idilər. Keçmiş İttifaqda heç nə dəyişilməmişdi. Sadəcə, hər bir respublikada rüşvət alan və müxtəlif cinayətlərə göz yuman daha çox rəis və daha çox alçaqlar əmələ gəlmişdi. Moskvadan, vahid imperiyanın hüquq-mühafizə orqanlarının ümumi karkasını üzərində saxlayan qüdrətli və hər yerə əli çatan partiyadan — əvvəlki qorxu yoxa çıxmışdı. İndi, bəzi ölkələrdə artıq adı dəyişilərək polis adlanan keçmiş milislər daha hünərlə rüşvət alır, həbsə alınmışları döyür, inadkarları öldürür və günahsızları şikəst edirlər.

— Aparın bunu, — polkovnik-leytenant üzünü turşutdu. — Adı nədir?

Lısakovla zabitlər bir-birinə baxdılar. Popov əlini uzadıb həbsə aldıqları adamın qoyun cibindən pasportunu çıxartdı və sənəddən gözlərini qaldırıb təəccüblə Lısakova zillədi.

— Diplomatik pasportdur, — o, çaşqın halda mayora baxaraq donquldandı.

Lısakov pasportu Popovun əlindən aldı, diqqətlə oxudu və mayorun xırda gözləri lap kiçildi. Ağzını açmaq istəyəndə polkovnik-leytenant pasportu onun əlindən aldı.

— Diplomatik pasportdur! — deyə o bağırdı. — Ağlınızı itirmisiniz? Ağrımayan başınıza yaylıq axtarırsınız?

— O fırıldaqçıdır, — Lısakov qəzəb içində ağzını əyişdirərək bildirdi, — yəqin saxta pasportdur. Şəkli yapışdırılıb. Bu axmağın diplomatik pasportu hardandır?

— Doğrudan, hardandır? — deyə polkovnik-leytenant da onun dediyini təsdiqlədi.

— Baxın, — Lısakov yenidən pasportu əlinə aldı və Dronqonun şəklini dırnağı ilə qopardıb cırdı, — bu pasport onunku deyil, şəkil düzgün yapışdırılmayıb, — deyə o, şadyanalıqla hırıldadı.

Artıq Dronqonu heç nə xilas edə bilməzdi. Lakin bu yerdə şəhər telefonu zəng çaldı. Lısakov Dronqonun gözünün içinə baxa-baxa dəstəyi qaldırdı.

— Hər vaxtın xeyir olsun, Lısakov, — o, vəkil Lyubomudrovun tanış səsini eşitdi. — Bilmirsiniz, mənim köməkçim hara yoxa çıxıb? Deyirlər o sizin idarəyə girib və indiyə kimi oradan çıxmayıb. Mən elə indi idarə rəisinə zəng etməyə hazırlaşırdım ki, köməkçimi sizin otağınızdan soruşub tapsın. Özü də nəzərə alın ki, onun başından bir tük əskik olsa, oteldəki kamera barədə prokuror da, sizin təhlükəsizlik xidməti də xəbər tutacaq. Maşın idarənin binasının qarşısında dayanıb. Əgər o, beş dəqiqədən sonra binadan çıxmasa, mən prokurora zəng edəcəyəm. Yeri gəlmişkən, onun diplomatik pasportu var və sizin çox böyük problemlərlə üzləşəcəyinizə dair heç şübhəniz olmasın. Uğurlu işlər.

— Dayanın, — Lısakov ağır nəfəs ala-ala dedi, — dayanın, o, polkovnik-leytenanta baxaraq bir də təkrarladı, — mən elə bu saat onunla söhbət edirəm.

— Deməli, cəmi beş dəqiqə vaxtınız var, — Lyubomudrov qətiyyətlə deyib dəstəyi asdı.

Lısakovla polkovnik-leytenant bir-birinə baxdılar. Dronqo gözlənilməz bir şeyin baş verdiyini anladı. Deyəsən, xilas

olmuşdu.

— Pasportu saxta deyil, — Lısakov polkovnik-leytenanta baxıb bildirdi, — Lyubomudrov zəng eləmişdi. O, pasportun həqiqi olduğunu deyir.

— O hardan bilir? — polkovnik-leytenant hirsləndi.

— Bilir, — Lısakov çiyinlərini çəkdi, prokurorla idarə rəisinə zəng edəcəyini dedi.

— Sən daim axmaq-axmaq problemlərinlə bezar eləmisən, — polkovnik-leytenant əsəbi halda dedi və qəfildən dönərək kabinetdən çıxdı. Çıxarkən qapını da möhkəm çırpdı.

— Al pasportunu, — Lısakov pasportu Dronqoya uzatdı. Dronqo əlini uzadıb pasportu götürmək istəyəndə isə, Lısakov onu yerə tulladı. Dronqo əyilib sənədi qaldırmaq istəyəndə Popov onu kürəyindən vurdu. Dronqo yerə yıxıldı. Popov iki dəfə ağır çəkməli ayağı ilə onu qarnından vurdu, sonra da çevrilib kabinetdən çıxdı. Onun dalınca Dronqoya bir təpik də həmkarı endirib kabinetdən çıxdı.

— Özünə gəldin? — deyə Lısakov irişə-irişə soruşdu. — Saxta sənədini götür, cəhənnəm ol burdan.

Dronqo ayağa qalxdı, pasportunu qaldırıb səliqə ilə cibinə qoydu, şalvarının tozunu çırpıb Lısakova müraciətlə soruşdu:

— Yenə də, kamera barədə hardan bildin?

— Rədd ol! — deyə mayor bağırdı. — Cəhənnəm ol burdan! Yoxsa küçük kimi güllələyərəm səni!

— Mən sabah səhər zəng edəcəm, — Dronqo dodağındakı qanın dadını hiss edərək gülümsədi, — ağlın başına gələrsə, sakitcə oturub söhbət edərik. Yoxsa bir gündən sonra gəlim?

— Özünü ölü bil, — Lısakov qətiyyətli dedi, — səni bu gün, ya da sabah gəbərdəcəklər. Sən artıq meyitsən. Hələ də bunu anlamadın?

— Bəs sən sağsan? — deyə Dronqo soruşdu. — Elə bilirsən səhlənkarlığını, səhvini bağışlayacaqlar? Kameranı qətldən dərhal sonra yığışdırdılar. Simləri isə qalmışdı. Sən onları səliqə ilə oradan yığışdırmalıydın. Amma bunu etmədin. Belə olmuşdu, ya yox?

Lısakov özünü güclə ələ alaraq Dronqonun üzünə baxırdı.

— Kamera barədə artıq çox adam bilir, — Dronqo xəbər verdi. — Özün mənə hər şeyi danışsaydın, yaxşı olardı. Mən səninlə xudahafizləşmirəm, mayor.

Dronqo bunları deyib otaqdan çıxdı. Qapını da arxasınca bağladı. Lısakov ağır-ağır stula əyləşdi və dərhal əyləşən kimi telefonun dəstəyini qaldırıb yenidən Popovu yanına çağırtdırdı. Onun mənasız baxışı bir nöqtəyə dikilmişdi. Bu yerdə yenidən telefon zəng çaldı.

# *ÜÇÜNCÜ GÜN*

O, milis idarəsindən çıxan kimi binanın qarşısında dayanmış «BMV»ni, sükan arxasında da İlyini gördü. Dronqo maşına yaxınlaşdı. Sürücünün yanındakı oturacağa əyləşdi və yalnız maşın milis idarəsinin həyətindən çıxandan sonra dedi:

— Afərin, uşaqlar. Yaxşı çalışdınız. Lısakovun yanına səfərimin bu dərəcədə təhlükəli olacağını təxmin etmirdim.

— Mən Vikenti Alekseyeviçə zəng edib sizin hara gedəcəyinizi xəbər verəndə, o çox narahat oldu və məndən dərhal idarəyə qayıtmağımı xahiş elədi. Özü isə Lısakovun

telefon nömrəsini axtarmağa başladı. Onun mayoru kifayət qədər çoxdan tanıdığı məlum oldu. Vikenti Alekseyeviç Lısakovun dil tapılası adam olmadığını hesab edir. Görünür, onun buna dair öz fikri var imiş. Ona görə də mən çıxıb bura gəldim. O isə Lısakova zəng edib, mümkün nəticələr barədə xəbərdarlıq elədi.

— Vaxtında zəng elədi, — Dronqo köks ötürdü, — bir dəqiqə də gec zəng eləsəydi, məni kameraya aparacaqdılar. Oradan isə məni heç daxili işlər naziri çıxartdıra bilməzdi.

— O sizə nəsə dedi? — İlyin soruşdu.

— Heç nə. Heç danışmaq belə istəmədi. O saat hədə-qorxuya keçdi. Əslində, mən belə bir reaksiya gözləyirdim. Amma onun həddindən ziyadə aqressivliyi zəifliyinin və özünə əmin olmamasının əlamətidir. Amma mənə yenə də onunla görüşüb söhbət etmək lazımdır.

— Siz yenə onunla söhbət etməyə idarəyə gedəcəksiniz? O, sizi öldürəcək. Kabinetindəcə güllələyəcək.

— Elə buna görə də bizim onunla gələn görüşümüzü başqa bir yerdə təşkil etmək lazımdır. Narahat olma, Andrey, mənim sinəmi güllə altına tutmaq fikrim yoxdur-. Mən onun kamera barədə haradan bildiyini öyrənməliyəm. Əgər ona o kameranı oradan çıxarmaq əmri verilibsə, bu əmri ona kimin verdiyini öyrənmək lazımdır. Əgər kamera ilə başqa adam məşğul olubsa, Lısakov kamera barədə haradan bilir və nə üçün Koptevaya şəklin altından sallanan simlər barədə heç kimə heç nə deməməsini əmr edib?

— Siz onun danışacağına ümid edirdiniz? — deyə İlyin təəccübləndi.

— Əlbəttə ki, yox. Mən verdiyim suallara onun reaksiyasını görmək istəyirdim. Onun davranışı bir çox məqamların üzərinə işıq sala bilərdi.

— Bəs indi, indi sizə məlum olan nədir? — deyə Andrey güldü. — Yoxsa milislə ünsiyyət təcrübəsi düşüncə həvəsini öldürür?

— Öldürmür, — Dronqo ciddi tərzdə cavab verdi, — baxır hansı milis. Mən fərqli düşüncənin boğulmasını nəzərdə tutan milisi və yaxud dövlət təhlükəsizliyi idarəsini totalitar dövlətin əsəri sanan axmaqlara aid deyiləm. Bütün zamanlarda və bütün dövlətlərdə insanlarla dövlət arasındakı münasibətləri tənzimləyən hüquq-mühafizə orqanlarına ehtiyac olub. Mən banditlərin güllələrinə və bıçaqlarına sinə gərərək, həyatını qurban verən minlərlə vicdanlı zabitlərin əməyini yüksək səviyyədə dəyərləndirirəm, onların bu əməyinə qibtə edirəm. Bəlkə də Lısakov yaxşı bir əməliyyatçıdır. O, kifayət qədər cəld reaksiyaya, vəziyyəti ani şəkildə dəyərləndirmə qabiliyyətinə malikdir. Yəqin agenturası pis işləmir.

— Bunu hər bir əməliyyatçı barədə söyləmək olar, — Andrey ümidsizcəsinə cavab verdi.

— Hər biri barədə bunu deməyin mümkün olmadığını düşünürəm. Amma söhbət bizim məsələdən gedirsə, mən Lısakovun davranışından kifayət qədər dəqiq nəticələrə gəldim. Birincisi, təbii ki, o, fotokameradan xəbərdar idi və Kopteva bizə yalan söyləmədi. Bu, Lısakovun ani reaksiyasından aydın olurdu. İkincisi, onun kamera ilə bilavasitə əlaqəsinin olduğu da bəlli idi. O, kamera barədə məlumatın yayılmaması xatirinə məni elə oradaca güllələməyə, ya da həbsxanaya basmağa hazır idi. Bu, belə bir cinayətə şəxsən aidiyyəti olan istənilən adamın təbii reaksiyasıdır. Əgər o, sadəcə, kameranın mövcudluğunu bilmiş olsaydı, mənim təcili həbsə alınmamı tələb etməzdi. Amma o, hər vəchlə məni dayandırmaq, susdurmaq, həbsə almaq istəyirdi, hətta diplomatik pasportumu belə cırmağa hazır idi. Nəhayət, üçüncü məqam. Düzgün anlamışamsa, Lısakov ona kameranın orada quraşdırılıb, sonra da

çıxarmasını əmr edən adamdan həddindən artıq qorxur. Biz də gələcəkdə Lısakovun bu qorxusundan öz xeyrimizə istifadə edə bilərik.

İlyin geriyə baxıb qaşlarını çatdı və qəfildən maşını sol sıraya tərəf sürüb qabaqda gedən «JEEP»in dalınca getdi. Sonra dedi:

— Deyəsən, gözümə göründü.

— Səncə, bizi təqib edirlər? — Dronqo soruşdu. — Hər halda bunu istisna etmək olmaz. Sən bir az diqqətlə bax. Qabaqda yan tərəfdəki paralel küçəyə dön və bizi kimin təqib etdiyinə diqqət yetir. Böyük ehtimalla «quyruq»dur. Lısakov məni çox tez buraxdı. Yəqin belə bir dəyərli şahidi əldən verməmək qərarına gəlib.

— Bilmək istərdim siz həqiqətənmi hər şeyi dəqiq hesablayıb nəzərə alırsınız, yoxsa məni nöqsansız məntiqinizə inandıraraq başımı tovlayırsınız? — deyə Andrey meydan oxuyurcasına soruşdu.

— Əlbəttə ki, başını tovlayıram, — Dronqo yorğun halda gülümsədi. — Evə gedək, Andrey, çox yorulmuşam. — Etiraf elə ki, bir möcüzə sayəsində həbsxana kamerasından qurtulmuş adam kimi heç də pis deyiləm.

Andrey bir söz demədən sürəti artırdı. Bir neçə saniyədən sonra isə gözünü arxa görünüş güzgüsündən çəkmədən dedi:

— Bizi təqib edirlər.

— Düzdür, — Dronqo köks ötürdü. — O mənim hara gedəcəyimi bilmək istəyir. Ona şahidi təcrid etmək lazımdır. Bizi dəqiq hansı maşın təqib edir?

— 06 modelli ağ «Jiquli», — deyə İlyin dəqiqləşdirdi.

— Başqa maşın tapmayıblar, — Dronqo vəziyyətin nə yerdə olduğunu anladı, — bir də Lısakov sirrinə başqa adamları da şərik etmək riskinə yol verməк istəməz. Onları azdırmağı bacararsan? — o, Andreydən soruşdu.

— Şəhərdən şoseyə çıxsaq, mənim maşınım o «Jiquli»dən asanlıqla ayrılar.

— Şəhərdən çıxandan sonra bizi artıq bir neçə maşın təqib edəcək, — Dronqo bunu məntiqlə bildirdi, — bizim, demək olar ki, vaxtımız yoxdur. Gəl belə edək. Sən cəld qarşıdakı döngələrin birinə dönərsən, mən də tez maşından çıxmağa çalışaram. Sən onların diqqətini özünə çəkməlisən. Amma qətiyyən evinə getmə. Yoxsa özün pis vəziyyətə düşərsən. Onları bir az şəhərin içində hərlə, sonra da ofisinizin kompaniyasına get. Maşını binanın qarşısında qoyarsan ki, onlar sənin hara girdiyini görsünlər. Gecəni orada qalmaq istəsən lap yaxşı olar. Amma qətiyyən binadan təkbaşına çıxma. Məni başa düşdün?

— Başa düşdüm, — Andrey cavab verdi. — Qarşıda prospektə döngə olacaq, elə orada da metroya giriş var. Mən bir az sürəti azaldaram, siz də cəld maşından çıxıb metroya girərsiniz. Əgər metroya gedən yeraltı keçidə girməyi çatdırsanız, onlar sizin maşından çıxdığınızı görməyə bilərlər.

— Lap yaxşı. Amma bu gün kompaniyanın binasından çıxmamalı olduğunu unutma. Səndən çox xahiş edirəm, risk eləmə, — Dronqo yola baxaraq təkrarladı.

Hər şey onlar planlaşdırdığı şəkildə alındı. Prospektə dönərkən İlyin bir az sürəti azaltdı və Dronqo tələsik maşından çıxıb demək olar ki, dərhal yeraltı keçidə atıldı. Sonra da metro stansiyasına tələsdi. Yarım saatdan sonra evinin qarşısındaydı.

Evinə girib, duşda, isti suyun altında zövq ala-ala dayanan Dronqo gözlərini yumub, bu gün başına gələn hadisələri xatırlayırdı. Əgər Lısakov ona bu qədər coşqun reaksiya verirsə, deməli, ondan qorxur. Lakin bu qorxu bəsit bir qorxu deyil. O, Aleksandr Mixayloviç kimi bir adamın otel nömrəsində quraşdırılmış kameranın nə demək olduğunu çox gözəl anlayırdı. Belə nəhəng bir biznesmenə qarşı özbaşına hərəkətlərə yol vermək üçün milis mayoru həddindən artıq xırda bir adamdır. O, şəhərə yayıla biləcək biznesmenin otağında quraşdırılmış kamera şayiələrinin onun üçün nə qədər baha başa gələcəyini anlayan sadə bir icraçı ola bilərdi. Dronqo Lısakovun yerinə olsaydı, bütün qüvvələrini naməlum adamın şəxsiyyətinin və ünvanının müəyyənləşdirilməsinə yönəldəcəyini düşündü.

Dronqonun dayandığı mənzil qeydiyyatda onun adına deyildi. O, kiminsə onun harada yaşadığını öyrənə biləcəyindən ehtiyatlanmırdı. Lakin Lısakov onu tanıyan adamlarla əlaqə yarada bilərdi. Bu qədər maraqlı adamlar qarışdığı bir işdə riskə getmək məqsədəuyğun deyil. Bu mənzili tərk etmək daha yaxşı olar. Ən təhlükəsizi, bəlkə də, general Fedoseyevin kabinetində qalmaqdır. Amma bunu o, hələ bir neçə gündən sonra edəcəkdi. Generalın kabineti ona əlləri çata bilməyəcəkləri axırıncı dayanacaq olacaq.

Dronqo vanna otağından çıxıb qətfəni kabinetdəki kreslonun üstünə atdı. Cəld əynini geyindi. Hə, bütün variantları nəzərə almaq lazımdır, – deyə düşündü. Tapançasını cibinə qoyub, təəssüflə mənzilindən çıxaraq qapını bağladı. Pilləkənlərlə enərkən müntəzəm olaraq çevrilib geriyə baxırdı. İstənilən anda ona hücum ola bilərdi.

«Əgər burunlarını mənim evimə soxsalar, Aleksandr Mixayloviçi kitablarımın və təmirimin haqqını ödəməyə məcbur edəcəm», – deyə o, blokdan çıxaraq qəzəblə

düşündü. Deyəsən, sakitlik idi və Dronqo rahatca metro stansiyasına gedə biləcəyini fikirləşdi. Və yanıldı. Onun arxasınca adam gəlirdi. Dronqo daxilən təhlükəni duyanda artıq gec idi. O, heç geriyə dönməyi belə çatdırmadı, dərhal üzünə kəskin ətirli bir maye sıçradı. Dronqo nəsə deməyə cəhd elədi, amma yavaş-yavaş huşunu itirmək üzrə idi. O, astaca, demək olar ki, səssiz şəkildə səkiyə yıxıldı. Üst-başını axtarmağa başladılar.

# *ÜÇÜNCÜ GÜN*

Dronqo ilə ayrılandan sonra Andrey İlyin hələ bir neçə dəfə təqibçilərinin diqqətindən yayınmağa cəhd elədi. Lakin «Jiquli» inadla onu təqib edir, hərdənbir də bir neçə metrliyinə ondan geri qalırdı. Təqribən on beş dəqiqədən sonra «Jiquli» hətta ona çatıb maşını ilə bərabərləşdi və orada oturan iki nəfər adam təəccüb və gizlədə bilmədikləri təəssüflə maşında İlyinin tək olduğunun fərqinə vardılar. Görünür, onlar İlyinin yanında daha bir adamın olduğuna ümid edirdilər. Məhz ona görə də maşınlar ikinci dəfə dayananda, «Jiquli»nin sərnişinlərindən biri kəskin sürətdə əlini qaldırıb İlyinə dayanmağını əmr etdi.

Lakin İlyin var-gücü ilə sürəti artıraraq irəli götürüldü. Yolayrıcılarının birində onu DYP avtomobili və yanında dayanmış iki nəfər inspektor gözləyirdi. Baş leytenant formasında olanı əlini qaldırıb, Andreyə saxlamasını işarə elədi. Andrey itaətkarcasına sürəti azaldıb maşını yolun kənarına verdi. Təqibçilər hələ görünmürdülər. Yəqin geriyə qalmışdılar. Baş leytenant tələsmədən İlyinin maşınına yaxınlaşdı.

— Sənədlərinizi təqdim edin, zəhmət olmasa, — o, əlini uzadıb dedi.

Yol polisinin nümayəndəsilə maşından çıxmadan danışmaq yalnız Amerikada mümkündür. Moskvada DYP əməkdaşına bu cür münasibət təhqirə bərabər idi. Andrey maşından endi. Təqibçilər hələ də görünmürdü. DYP zabitlərinin gözünə görünməyə hünərləri çatmaz, – deyə düşünərək İlyin sənədlərini inspektora uzatdı. Elə bu anda arxadan İlyinin təqibçiləri olan ağ «Jiquli» əyləcinin iyrənc zingiltisi eşidildi. Onların DYP əməkdaşlarından çəkinməməsi Andreyin təəccübünə səbəb oldu.

Maşından düşən yekəpər, enlikürək kişi onlara tərəf gəlirdi. Andrey bir ona baxdı, bir də DYP zabitinə. Zabit onlara yaxınlaşan kişiyə baxıb gülümsəyirdi. Kişi yaxınlaşanda isə baş leytenant dişlərini daha çox ağardaraq ona rəsm-təzim edib dedi:

— Xoş gördük, yoldaş kapitan!

«Kapitan» müraciətini eşidən Andrey barmağını dişlədi. Ürəyində özünü tənbehlədi ki, axmağın biri axmaq, təqibçilərin məhz Lısakovun əməkdaşları olacağını təxmin etməliydin. Özü də təkcə təxmin etməli yox, anlamalıydı ki, yolda olan ilk DYP postundan onun maşını saxlamalarını istəyənlər də məhz onlar olacaq. Baş leytenant əlini furajkasından aşağı endirəndə Andrey qəfildən onu təqibçinin üstünə itələyib cəld maşınına əyləşdi və ani şəkildə maşınını işə saldı.

Sürücülük vəsiqəsilə maşınının sənədlərinin baş leytenantda qalması belə Andreyi qaçmaqdan çəkindirmədi. Saxlanılacağı təqdirdə, ondan Dronqonun ünvanını tələb etmələri bir yana qalsın, artıq “o sənədlərin ona bir daha lazım olmayacağı”nı belə anlayırdı. İlyin maşını arxaya sürüb orada dayanmış «Jiquli»yə çırpdı və bir anlığına yerində donub qalmış hər iki zabitin yanından ötərək irəli sıçradı. İkinci inspektor əlindəki avtomatı yuxarı qaldırıb

atəş açmağa hazırlaşdı, lakin Andrey DYP postundan uzaqlaşmaq ümidilə yola çıxıb var-gücü ilə sürəti artırdı.

İnspektor atəş açmadı, Andrey isə təhlükəli yerdən mümkün qədər aralanmaq üçün getdikcə sürəti daha da artırırdı. Artıq onların, sadəcə, onun maşınını yox, həm də Dronqonun avtomobilin salonundan hara yoxa çıxdığını öyrənmək üçün məhz onun özünü təqib etdiklərinə dair heç bir şübhə qalmırdı. Andrey daha heç bir işıqfora və DYP postlarına əhəmiyyət vermədən maşını yüksək sürətlə kompaniyanın ofisinə doğru sürürdü. Onun nisbi təhlükəsizlikdə olacağı yer yalnız ora idi.

İlyin mobil telefonunu çıxarıb, tələsik nömrə yığdı. Nömrəni yığan kimi də gecə növbəsində olan qorumaların növbətçi rəisilə əlaqə yaratdı.

— Məni qarşılamağa hazır olun! — Andrey əmr etdi, — məni təqib edirlər və silahlı hücumun ola biləcəyi də istisna deyil. Hamı silahlı olmalıdır.

— Anladım, — qoruma rəisi cavab verdi. — Bu dəqiqə bütün uşaqları ayağa qaldıraram. Bizim meydançaya nə qədər vaxta çatarsan?

— Beş-on dəqiqəyə, — İlyin xəbər verdi. — Binada olan bütün uşaqları topla. «Jiquli»dəki adamların milis əməkdaşları olduqlarını sübut etmək üçün sənəd göstərmələrinə də əhəmiyyət verməyin. Onların sənədləri də saxtadır, — deyə Andrey zor gücünə ələ keçirilə biləcəyini düşündü.

Düz səkkiz dəqiqədən sonra o, maşınının əyləcinə şiddətlə basaraq, darvazadan kompaniya ofisinin binasının qarşısına girdi. Darvazanın qapıları avtomatik bağlanmağa başlayanda, küçədən bütün digər səsləri boğub-itirən milis maşınlarının vıyıltısı gəldi. Lakin darvaza artıq bağlanmışdı

və qoruma xidmətinin əməkdaşlarından biri sükan arxasına əyləşib, maşını bağlı boksların birinə aparırdı.

Andrey qaça-qaça binaya girdi.

— Darvazaları bağlayın, — o, ayaqüstü əmr edirdi, — mənim icazəm olmadan binaya heç kim buraxılmasın. Maşının nömrə lövhəciyini çıxarın, boksdakı işıqları söndürün.

İlyin DYP inspektorları onu saxladığı vaxtda bir neçə anlığına yubanacağı halda başına nə iş gələ biləcəyini təsəvvür belə etmək istəmirdi. O, saata baxıb kabinetinə tələsdi. Dronqonu əndişələrinin doğru olduğuna dair xəbərdar etmək lazım idi.

# *DÖRDÜNCÜ GÜN*

Huşu sanki beynində dərhal işə düşən bir sayğac yerinə gəldi. O, gözlərini açmaq istədi, amma huşunu itirməzdən əvvəlki anı xatırladı və gözüyumulu ikən diqqətini cəmlədi. Eşitdiklərindən onun naməlum istiqamətdə gedən bir avtomobilin içində getdiyi bəlli olurdu. Dronqo gözlərini bir az açdı. Hər iki tərəfində adamlar vardı. Avtomobilin qabaq oturacağında da iki nəfər əyləşmişdi.

Qaçmağa cəhd etmək ağılsızlıq olardı. Bunu dərhal anlamışdı. Onların dəqiq davranmaları nəzərə alınarsa, avtomobildə əyləşənlərin professionallıqları məlum olurdu və əgər onlar onu hələ də öldürməyiblərsə, deməli, maşın onun sağ olmasının tələb olunduğu yerə gedirdi. Amma hara? Əgər bunlar Lısakovun əməkdaşlarıdırsa, ədəb-nəzakətlərinin olması şübhə altına düşərdi. Dronqoya zərər verməmək üçün huşunu itirəcək mayedən istifadə etməzdilər. Əksinə, onun cüzi müqavimət göstərəcəyi

təqdirdə, böyük məmnuniyyətlə güc tətbiq edərdilər. Belə çıxırdı ki, bunlar tamamilə başqa adamlar idi. Bundan da əlavə, milis mayoru, hətta paytaxtın ən ağıllı-zəkalı mayoru olsa belə, Dronqonun özünün ünvanını bu qədər qısa müddətdə öyrənə bilməzdi. Hər şey aydınlaşana qədər gözləməkdən başqa əlac yox idi.

— Deyəsən özünə gəlir, — Dronqonun yanında əyləşənlərdən biri dedi.

Dronqo tərpəndi. Gözlərini daha çox açdı. Şübhə yox idi. «Ford» maşınının geniş kabinəsində beş nəfər idilər. Qaçıb qurtulmağın ağılsızlıq olduğunu anlamaq üçün orada oturanların üzünə baxmaq kifayət idi. Dronqo ağır bir nəfəs alıb ətrafa baxdı.

— Özünə gəldin? — deyə yanında oturan oğlanlardan biri dirsəyilə Dronqonun böyründən vuraraq soruşdu.

— Tam yox — Dronqo cavab verdi, — yolumuz uzaqdır?

— Lap az qalıb, — bu dəfə ikincisi cavab verdi, amma sən ora-bura marıtlama, onsuz da qaranlıqdır, bir şey görünmür.

— Bəlkə gözlərini bağlayaq? — deyə sürücü təklif elədi.

— Lazım deyil, — deyə sağındakı oğlan cavab verdi, — o, onsuz da heç kimə heç nə deməyəcək.

Belə bir başlanğıc ümidverici deyildi. Dronqo bu tipləri qıcıqlandırmamağın önəmli olduğunu anlayaraq susurdu. O, gözlərini yumub yorğun halda oturacağın arxasına söykəndi. Bir neçə dəqiqədən sonra kimsə onu kobudcasına silkələdi.

— Oyan, — «müşayiətçilərdən» biri dedi.

— Özü də hoqqa çıxarma, — ikincisi əlavə elədi.

Onu maşından çıxardılar, nədənsə bir daha əməlli-başlı üst-başını yoxladılar, sonra da geniş bir holla itələdilər. Dronqo ətrafa göz gəzdirməyi çatdırmadı. Təqribən əlli metr uzunluğunda olan növbəti otaq, görünür, qonaq otağı idi. Dərhal ondan sonra bir az əvvəlkindən kiçik otaq gəlirdi. Yəqin ki, ev sahibi qonaqlarını məhz bu otaqda qəbul edirdi. Otaq yarıqaranlıq idi. Musiqi sədaları gəlirdi: Şopen, deyə Dronqo təəccübləndi. Lısakov, ümumiyyətlə, belə bir bəstəkarın olduğunu çətin bilərdi. Getdikcə Dronqonu maraq bürüyürdü. Qorumalar onu böyük, dəri üzlüklü bir kresloya yaxınlaşdırıb otuzdurdular, əllərinə qandal taxdılar, özləri də, sanki təntənəli bir ayin keçirər kimi, iki tərəfində ayaq üstə dayandılar.

Bir nəfər ucaboy kişi sürətlə otağa daxil oldu. O, əvvəl Dronqoya, sonra da onun yanında dayanan qorumalara baxıb əmr elədi:

— Qandallar!

— Qolundadırlar, taxmışıq, — qoruma anlamadı.

— Elə yox, — ucaboy kişi izah elədi, — əllərini kreslonun iki tərəfinə ayırıb, qandalları elə taxın ki, ayağa qalxa bilməsin. Özü də cəld olun!

Qorumalardan biri əyilib qandalları açmağa başladı. Məhz elə bu anda Dronqo ona güclü bir zərbə endirdi. Özü də zərbəsinə təkcə yumruğunun yox, hələ də sağ əlində olan qandalların da gücünü əlavə elədi. Qoruma stol tərəfə uçdu. İkinci qoruma köməyinə sıçrayanda Dronqo ayaqları ilə onu vurub itələdi. Atılmağa hazırlaşmışdı ki, birdən üstünə tuşlanmış silahı gördü.

— Oturun, — ucaboy əmr elədi, — atılıb-düşməyin. Mən onsuz da vaxtımı sizə sərf edib baş ağrıtmaqdan zövq almıram. Əlimdə olsa, bu işi elə buradaca bitirərəm.

Bu əclafla Dronqonun arasındakı məsafə beş metrdən artıq idi. Üstəlik, Dronqonun oturmuş olduğu nəzərə alınarsa, rəqibə çatmaq üçün ona ən azı beş-altı saniyə lazım idi. Rəqibin bütün güllə darağını boşaltmasına da təqribən o qədər vaxt yetərdi. Tabe olmaq daha ağlabatan idi. Ona görə də Dronqo kresloda oturmağa davam elədi. Hər iki qoruma yerindən sıçrayıb, onun sağ əlindən sallanan qandalları kreslonun qoltuğuna bağladılar. Sonra da asanlıqla sol qolunu qandalladılar. Özü də bunu sərt və kobud şəkildə etməyə çalışırdılar. Sanki rəislərinin gözündə bəraət qazanmaq istəyirdilər.

— Rədd olun, — kişi onlara acıqlandı. Qorumalar otaqdan çıxandan sonra o, Dronqoya yaxınlaşdı. — Səfeh olmayın, — deyə tövsiyə elədi, — ev qorunur, ətrafda bir neçə qoruma xətti var. Siz uzaqbaşı birinci qoruma postundan sıyrıla bilərsiniz, ondan uzağa qaçmanız mümkünsüzdür. Mənim burada çoxlu adamlarım var. Buradan qaçmağa cəhd etdiyiniz andaca sizi güllələyəcəklər. Belə bir variant sizi qane edirmi?

— O qədər də yox, — Dronqo etiraf elədi.

— Onda sakit oturun. Əslində, mənə sizin əllərinizdəki qandalları çıxarmaq əmr olunmuşdu. Amma görürəm ki, sizinlə təkbətək qalmaq təhlükəlidir.

— Mən qadınla söhbət edəcəyəm? — Dronqo gülümsədi.

Həmsöhbəti onun zarafatını dəyərləndirib kinayəli bir təbəssümlə cavab verdi:

— Xeyr, qadınla söhbət etməyəcəksiniz. Amma söhbət edəcəyiniz adamın təkliflərindən də adətən imtina edən olmur. Onun təklifləri istənilən bir qadınla söhbətdən qat-qat maraqlı olur. Hətta ən gözəl bir qadın olsa belə.

— Siz məni lap maraqlandırdınız, — Dronqo barışdırıcı tonda dedi, — hərçənd, altımdakı kreslonun çəkisi üç yüz

kilodan az olmaz, odur ki, ayağa qalxıb kreslo ilə birlikdə getməyə heç bir şansım yoxdur. Onun təkliflərini dinləməkdən başqa çarəm yoxdur.

— Deyəsən anlaşdıq, — ucaboy kişi gülümsədi və aram addımlarla kabinetdən çıxdı.

Dronqo diqqətini cəmlədi. Artıq Şopeni Raxmaninov əvəzləmişdi. Ev sahibinin zövqü həqiqətən də gözəl idi. Dronqo gözlərini yumub musiqiyə qulaq verdi. O, royalda kimin çaldığını bilmirdi, amma ifa onu valeh etmişdi. İfa bu ilahi musiqini həqiqi bir sehrə çevirirdi. Dronqo bu sahədə hər şeydən başı çıxan meloman, yəni musiqi aludəçisi deyil, lakin tanıdığı bəstəkarların əsərlərinin ifasını dəyərləndirməyi bacarırdı. Onun Motsartla Ştrausun günəşli melodiyalarından xoşu gəlirdi. Son illərdə Bramsın da əsərlərini sevib qiymətləndirmişdi. Şopen və Raxmaninovla ahəngdə bu, Dronqonun təxəyyülündə ucaltdığı həmin musiqi Olimpiydi.

Müasir musiqidən klassik cazla klassik rok-n-rolla üstünlük verirdi. Bu sahədə bütün növbəti tədqiqatlar o qədər də ürəyincə deyildi. O, Qerşvini onun varis və təqlidçilərindən qat-qat artıq sevirdi.

Qapı açıldı və kabinetə bir adam daxil oldu. Dronqo gözlərini açdı. Onun üzünü görüb səksənmədi. Məhz onu görəcəyini güman edirdi. Aleksandr Mixayloviç Parisdə ona nəzərdə tutulan hərrac barədə bəhs etdiyi andan bəri Dronqo qələbənin real iddiaçılarının nə rəsmi ərizələrdə təqdim olunan kompaniyaların, nə də heç ənənəvi olaraq populyarlıq və siyasi çəkilərilə cəmiyyətdə nüfuz qazanmış kompaniya prezidentlərinin olmayacağını bilirdi. Əslində bu hərracda iki «super ağır çəkilinin» maraqları toqquşmalıydı. Onlardan biri Aleksandr Mixayloviçin kompaniyasını dəstəkləyən hökumətin baş nazirinin birinci müavini, ikincisi isə... İkincisi hazırda Dronqo ilə bir otaqda

idi. O, Dronqo ilə üzbəüz dayanan kresloya yaxınlaşıb oturdu və salamlaşma əlaməti olaraq yavaşca başını tərpətdi. Sanki qarşı-qarşıya qandallanmış bir əsirlə yox, hansısa işgüzar bir müşavirlə əyləşmişdi.

— Axşamınız xeyir, — gələn adam qısaca dedi.

— Gecə desək daha düzgün olar, — Dronqo cavab verdi.

Ev sahibi gülümsədi. O, əsirin iradəsini dəyərləndirdi. Dronqonun ilk cümləsini bəyənmişdi.

— Yəqin ki, məni tanıyırsınız, — o, Dronqoya müraciət elədi.

— Tanıyıram. Sizin şəkliniz qəzet və jurnalların baş səhifələrindən əskik olmur, hələ televiziya bir yana qalsın.

— Lap yaxşı. Deməli, söhbətimiz daha konkret məcrada olacaq. Yəqin ki, sizdən... eee... nə üçün buraya gəlmənizi xahiş etdiyimizi anlayırsınız.

— Xahiş etdiyinizi? — deyə Dronqo istehza ilə təkrarən soruşdu. — Hərçənd, əgər indi buna xahiş deyilirsə, yəqin ki, siz haqlısınız.

— Mənim burada sizinlə uzun-uzadı diskussiya etmək fikrim yoxdur. Əgər siz «xahiş etmək» kəlməsini bəyənmirsinizsə, onu «dəvət etmək» kəlməsilə əvəzləyin. Sözlər məsələnin mahiyyətini dəyişmir. Etiraf edim ki, sizinlə tanış olmağı çoxdan arzulayırdım. Haqqınızda çox eşitmişəm. Deyilənə görə, siz spesifik keyfiyyətli ən mürəkkəb məsələlərin həlli sahəsində bir mütəxəssissiniz.

Dronqo cavab vermədi. Bu kəlmə, demək olar ki, bir komplimentə bərabər idi. Təsdiqləmək təvazökarlıqdan uzaq idi, inkar etmək axmaqlıq idi, ona görə də susdu.

— Mən elə ilk başdan Aleksandr Mixayloviçin bir manevr işlədəcəyini təxmin edirdim. Amma etiraf edim ki, sizin kimi

bir mütəxəssisi axtarıb taparaq dəvət edəcəyini düşünmürdüm. Onun nə edəcəyini əvvəlcədən bilmək mümkün deyil. Siz də işə başlayan kimi yüksək sürət yığdınız. Amma iki məqamı nəzərə almadınız. Birincisi, biz problemin həllinin praktiki olaraq bütün variantlarını nəzərə almışıq. İkincisi isə biz də işə elə bir mütəxəssisi cəlb etmişik ki, ümid edirəm nəinki sizdən geriyə qalan, hətta bəzi məqamlarda sizdən üstün olan birisidir. Ən azından hələlik sizə üstün gəlməyi bacarıb.

— Uord Hekket, — Dronqo dedi, — mən ilk başdan onu satın alıb, bu qədər «spesifik keyfiyyətli» bir məsələnin həlli üçün dəvət edə biləcək adamın yalnız siz ola biləcəyinizi təxmin etməliydim, — o, kinayəsini gizlətmədən həmsöhbətinə cavab verdi.

Kişi gülümsədi. Görünür, o, insanlarda yumor hissinə qiymət verirdi. Xüsusilə də belə bir vəziyyətdə. Dronqo tonu ilə davranışını bu vəziyyət üçün son dərəcə uğurlu təyin etmişdi – özünü təmizə çıxarmağa çalışmamaqla qarşısında əyləşən rəqibinin simpatiyasını qazandı.

— Mənə onun Avropada ən yaxşı mütəxəssis olduğunu demişdilər, — ev sahibi təsdiqlədi, — lakin sizin də fəallığınız nəzərə alınarsa, onunla gücünüzü sınamaq niyyətində olduğunuz bəlli olur. Amma siz onun sizə qarşı mübarizədə tənha olmadığını nəzərə almırsınız. Biz bərabər olduqda isə... Məgər mən sizə qələbəyə heç bir şansınız olmadığınızı təfərrüatı ilə izah etməliyəm? Bir dənə də olsun şansınız yoxdur. Heç ümid də yoxdur.

— Onda nədən bu qədər narahat olursunuz? — Dronqo soruşdu. — Yoxsa sizin bu qandallar dediklərinizin həqiqət olduğunun təsdiqidir? Əgər məni oğurlayıb zorla bura gətirtmisinizsə, zənnimcə, istər-istəməz nədənsə qorxursunuz. Mənim harada yaşadığımı bu qədər qısa müddətdə öyrənib, məni oğurlayaraq buraya gətirənin

yalnız siz ola biləcəyini dərhal anlamışdım. Amma əbəs yerə vaxt itirirsiniz. Gərək məni elə əvvəlcədən öldürəydiniz ki, problemləriniz azalsın.

— Siz məni düzgün anlamadınız, — ev sahibi geniş bir təbəssümlə gülümsədi və ayağa qalxıb qapıya yaxınlaşdı. Görünür, qapının arxasında oğurlama işinə rəhbərlik edən yekəpər dayanmışdı. O, otağa daxil olub Dronqoya yaxınlaşdı və təəccüblə ev sahibinə baxdı.

— Bəli, bəli, — ev sahibi dedi, — çıxarın.

Dronqo bir qədər təəccüblənərək əlindən qandallarının çıxarılması səhnəsini seyr edirdi. Sonra yekəpər bir daha ev sahibinə baxdı. Ev sahibi işarə edən kimi qandalları da özü ilə götürməyi unutmadan çevrilib otaqdan çıxdı. Dronqo keyimiş əllərini ovxaladı.

— Sizin ağıllı və tədbirli bir adam olduğunuza ümid edirəm, — ev sahibi kreslosuna əyləşərək bir daha gülümsədi, — mən, sadəcə, sizə buraya mənimlə söhbət etmək üçün gətirildiyinizi göstərmək istədim. Sırf söhbət etmək üçün. Məsələlərin real vəziyyətini anlamanıza görə bəzi məqamlara aydınlıq gətirmək istəyirdim.

— Sizi tam anlamadım.

— Dediyim kimi, uğura heç bir şansınız yoxdur. Minimal şanslarınız belə. Belə olan halda, bu gərəksiz oyunu davam etməyin bir mənası varmı? Siz hərrac məsələsinin həllinə dair Aleksandr Mixayloviçlə onun havadarına aldadıcı ümidlər verirsiniz. Onda hamını — həmçinin də bizi əsəbiləşdirməyin nə mənası var? Məğlubiyyətinizi etiraf edib, hərracla bağlı öncədən qərara alınmış bir nəticəni dəyişmək cəhdlərindən vaz keçmək daha müvafiq olmazmı? Siz mənim nədən bəhs etdiyimi çox gözəl anlayırsınız. Hərracda istənilən halda bizim kompaniya qalib gələcək. Siz, sadəcə, zaman itirəcək, ağrımayan başınıza problemlər

qazanacaq və məğlubiyyətinizin acı nəticəsini dadacaqsınız. Mən sizin bu əməyinizi bizim kompaniyaya çalışmaq istiqamətinə yönəltmənizi təklif edirəm. Təbii ki, elə bu saat yox. Siz biz tərəfə keçməkdən mənəvi narahatlıq hiss edirsiniz. Bunun üçün zamana ehtiyac var. Lakin gələn həftənin cümə axşamı hərrac keçiriləcək. Təkrar edirəm, nəticələri öncədən qərara alınmış bir hərrac. Ondan sonra siz artıq təmiz vicdanınızla bizim kompaniyada çalışmağa başlaya bilərsiniz. Anladığım qədər, sizin başqa öhdəlikləriniz yoxdur, deyilmi? Siz yaxşı qonorar qarşılığında çalışırsınız. Ona görə də mən sizinlə bu mövzuda ümumi dil tapa biləcəyimizə ümid edirəm. Yoxsa siz məhz Aleksandr Mixayloviçin kompaniyasına xüsusi bir məhəbbət bəsləyirsiniz?

Dronqo qaqqıldayıb güldü. Rəqibin ünsiyyət üslubu onun xoşuna gəlirdi. Ən müşkül məsələlər barədə belə, bu qədər rahatlıqla danışan ev sahibinə qarşı hətta xüsusi rəğbət da hiss edirdi. Deyəsən həmsöhbətlər, yaranmış — ab-havaya baxmayaraq, bir-birinə qarşı böyük sayğıya bənzər hisslər keçirirdilər.

— Mən heç bir kompaniyaya qarşı hiss-filan bəsləmirəm, — Dronqo cavab verdi, — ümumiyyətlə, belə hadisələrə baş qoşmağı sevmirəm. Məsələnin sırf kriminal tərəflərilə məşğul oluram.

— Elə o şəkildə də davam edəydiniz, — ev sahibi gülümsədi. — Nə işiniz var idi bu qarşıdurmada? Axı siz məsələnin sıradan bir qətllə əlaqədar olmadığını anlamısınız. Əlbəttə, heyif qızdan, deyilənə görə, çox gözəl imiş! Lakin bunun məqsədə çatmaq üçün, sadəcə, bir vasitə olduğu ilə də razılaşın. Bu kəlmələr nə qədər abırsız səslənsə də, təəssüf ki, həqiqət belədir. Çox sayda insan nəyin bahasına olursa olsun, Aleksandr Mixayloviçi dayandırmaqda maraqlı idi.

— Mən nə etməliyəm? — Dronqo soruşdu.

— İlk əvvəl istintaqınızı dayandırmalısınız. Onsuz da bu istintaq uğursuzluğa məhkumdur. Gələn həftənin cümə axşamına kimi evinizdə qalıb istirahət edin. Əgər Moskvada darıxırsınızsa, ürəyiniz istəyən yerə gedə bilərsiniz. Seyşel, Baham adalarına, lap Antarktidaya gedə bilərsiniz. Qayıtdıqdan sonra sizinlə daha konkret söhbət edərik. Yeri gəlmişkən onu da deyim ki, istirahət xərcinizi biz ödəyəcəyik. Özü də yüksək səviyyədə.

— Bəli, əlbəttə ki. Müqavilənin hərrac üzrə dəyəri bir neçə milyard dollarla ölçülür axı, — deyə Dronqo xatırlatdı. — Yəqin ki, mən gedib Ayda da istirahət etmək istəsəm, bunun da xərcini ödəməyə hazırsınız.

— Zarafatı buraxın. Mən sizinlə ciddi söhbət edirəm. Aleksandr Mixayloviçin düşərgəsində qalmağa davam etməklə adınıza ciddi xələl gətirə bilərsiniz. Bu isə bir neçə min dollar itkisindən daha böyük miqyaslı bir itkidir.

— Sizin məni bu qədər canfəşanlıqla dilə tutmanızın səbəbini anlaya bilmirəm. Ondansa məni öldürüb məsələlərə son qoymaq daha asan olmazdımı? — Dronqo həmsöhbətinin reaksiyasını diqqətlə seyr edərək soruşdu. — Yoxsa siz inanclı bir altruistsiniz?

— Qətiyyən. İlk öncə ondan başlayaq ki, əgər biz indiki şəraitdə sizi aradan götürsək, Aleksandr Mixayloviç və onun havadarları, — bu sözləri deyərkən onun dodaqları əsəbi şəkildə titrədi, — mənim qorxduğumu zənn edəcəklər. Sizin həqiqətən də uğurlu nəticələr əldə edə biləcəyinizdən ehtiyatlandığım üçün mənim öz qətiyyətli addımlarımla bu fürsətin qarşısını aldığımı düşünəcəklər. Beləliklə də onlarda mən tərəfdən gələn istənilən təhlükənin qarşısını ala biləcəklərinə dair xam xəyallar yaranacaq. Hətta sizin kimi yüksək səviyyəli peşəkar ekspertləri işə cəlb etməklə, Dronqo. Mənim üçün isə onları heç bir şanslarının olmadığı

və ola bilməyəcəyi bir halda məğlubiyyətlərinə inandırmaq şübhəsiz ki, önəmlidir. Özü də çox önəmli. Onlar mənim düşünüb hazırladığım istənilən bir işin qələbəyə istisnasız məhkum olduğunu anlamalı, dərk etməlidirlər. Hətta mənimlə mübarizə aparan sizin kimi bir ekspert olsa belə.

— Axı siz də Uord Hekketdən sizə yardım etməsini xahiş etmisiniz.

— Bunlar fərqli-fərqli şeylərdir. O bizim öz imkanlarımızı son dərəcə inandırıcı şəkildə nümayiş etdirə biləcəyimiz üçün bir plan işləyib hazırlamışdır. Lakin buna baxmayaraq, o da sadəcə, bir icraçıdır. Hətta çox istedadlı bir icraçı olsa da. Siz ki vəkilinizi sırf sizə nöqsansız məsləhətlər verdiyi üçün tam hüquqlu bir şərik hesab etməsziniz.

— Deyəsən sizin niyyətiniz mənə aydın olur. Siz qeyd-şərtsiz bir qələbə istəyirsiniz. Xala hesablanan yox, nokautla ölçülən bir qələbə, deyilmi? Mən haqlıyam?

— Tamamilə haqlısınız. Mənim üslubum budur. Nokautlu qələbə. Rəqibin şəxsi məğlubiyyətinə heç bir şübhə yeri qoymayan qeyd-şərtsiz qələbə.

— Hər kəsin bir üslubu var, — Dronqo cavab verdi, — siz həddindən artıq çox deyilsiniz ki?

— Nə?

— Heç nə.

— Əgər siz qələbəyə tam əminsinizsə, mənim istintaqda iştirakım nə üçün sizi bu qədər əndişələndirir?

— Siz bəzi xam xəyallı ümidlərə şərait yaradırsınız. Xam xəyallar isə həmişə təhlükəli olurlar, çox təhlükəli. Hətta əgər sizi aradan götürsələr belə, xam xəyallar aradan qalxmayacaq, əksinə, daha da möhkəmlənəcəklər. Bizə sizin öz xoşunuzla bu işdə iştirakdan imtina etməniz lazımdır.

Yalnız o halda xəyallar aradan qalxar, mən də halal bir qələbə çalacağımdan əmin olaram.

— Ona görə mənə atəş açdılar?

— Mən başqa adamların səfehliyinə məsuliyyət daşıya bilmərəm. Amma onu da deyim ki, onların sizi öldürmək fikri yox idi.

— Bunu mən onlar atəş açmağa başlayar-başlamaz dərhal anlamışdım. Öldürmək niyyətləri olsaydı, aşağıdan vurardılar.

— Bax belə, görürsünüzmü, hər şey nə qədər bəsitdir?! Deyəsən, hər şeyi aydınlaşdırdıq. Yəqin ki, xəbəriniz yoxdur, cənab Hekket bu gün günorta saatlarında Moskvaya gəlir. O, əsas hadisələrin baş verdiyi yerə şəxsən baş çəkməyi zəruri sayır.

— Mənim onu qonaq dəvət etmək fikrim yoxdur — Dronqo dodaqaltı deyindi.

— Bu sizin işinizdir. Lakin mən hələ də sizin razılığınızı eşitmədim. İndiyə kimi mənə təklifim barədə nə düşündüyünüzü demədiniz.

— Bir neçə gün bundan əvvəl cənab Hekket mənə öz üslubundan bəhs edirdi. Bu gün siz mənə öz üslubunuzdan danışdınız. İcazə verin, mən də öz üslubumda qalmağa davam edim. Mən oyun bitməmiş oyundan çıxmıram.

Otağa sükut çökdü.

— Bu sizin son qərarınızdır? — deyə ev sahibi sakit tonda soruşdu.

— Ən azından bütün bu işlərin nə ilə bitəcəyini görmək mənim üçün maraqlı olardı.

— Deməli, siz məni anlamadınız, — ev sahibi dilxor halda dedi. — Yaxşı, bəlkə də belə olması daha yaxşıdır. Bu gün həftənin cümə axşamıdır. Hərraca düz bir həftə qalır. Müraciət üçün ərizələrin qəbulunun bitəcəyi sonuncu günə — bazar ertəsinə isə dörd gün qalır. Əgər bir iş bacaracağınızı güman edirsinizsə, buyurun, işinizdə olun. Siz, sadəcə, can çəkişməsini uzatmış olacaqsınız. İstənilən halda biz qələbə çalacağıq — nokautla.

Dronqo susurdu. Hələlik bütün kozırlar rəqiblərinin əlindəydi. Etiraz etməyin mənası yox idi.

— Salamat qalın, — ev sahibi ayağa qalxdı, — sizinlə söhbət maraqlı idi. Sizi maşınla evinizə aparacaqlar. Sizinlə bir həftədən sonra söhbət etmək daha maraqlı olacaq. Lakin o vaxt mənim bütün təkliflərim artıq qüvvəsini itirəcək. Heç olmasa bunu anladığınıza ümid edirəm.

Kişi otaqdan çıxandan sonra Dronqo yorğun halda başını kreslonun arxasına söykəyib gözlərini yumdu. Evə gedərkən bütün yolu bir kəlmə belə danışmadı. Bu dəfə onun əlini qandallamadılar. Sadəcə, evinin yanında düşürdülər. Hətta tapançasını da özünə qaytardılar, amma güllələrini boşaltmışdılar. Dronqo evinə qayıdanda səhər saat beşə işləmişdi. O, duş qəbul etdi, əynini dəyişdi, bir neçə əşyasını çamadana yığdı və bir həftədən sonra yenidən buraya qayıtmaq üçün küçəyə çıxdı. Ya da bir daha heç vaxt qayıtmamaq üçün.

# *DÖRDÜNCÜ GÜN*

Kompaniyaya günorta saat ikiyə yaxın gəldi. Bu arada İlyin onu axtararaq bütün telefonları alt-üst eləmişdi. Üç dəfə o, Dronqonun evinə adamlarını göndərmişdi. Lakin hər üç səfərində də onlar nəticəsiz – soraqsız qayıtmışdılar. Andrey

artıq onu tapmağa ümidini itirmişdi. Və yalnız bu zaman o, qaraqabaq və üzülmüş halda kompaniyanın ofisinə gəlib çıxdı.

— Hara yoxa çıxmısınız? — İlyin onun qəfil gəlişindən təəccübləndi. — Sizi axtarmaqdan əldən-dildən düşmüşük.

— Mən gecəni pis yatmışam, — Dronqo dilxor halda cavab verdi, — kabus və qarabasmalar məni təngə gətirmişdi, ona görə də havamı dəyişmək üçün küçəyə çıxdım. İndiyə kimi də küçədə gəzirdim.

— Kabuslar? — Təəccüblənən İlyin bir şey anlamadı.

— Kabuslar, — Dronqo əllərini ona göstərdi. Qandalların izləri hələ də onun qollarından çəkilməmişdi.

— İstintaqdan imtina etməyi düşünürsünüz? — Andrey soruşdu.

— Yox. Hərçənd bu gecə mənə çox inandırıcı bir təklif irəli sürdülər.

— Onların məni daim təqib etdiklərini və hətta az qala ələ keçirəcəklərindən xəbəriniz varmı? — İlyin soruşdu.

— Təsəvvür edirəm. Təbii ki, buraya soxulmağa cəhd etməzlər. Yeri gəlmişkən, bir araşdırın, görün harada boş kabinet var? Mən burada yerləşməyə hazırlaşıram. Hətta üzqırxan alətlər dəstimi də gətirmişəm.

— Araşdıraram, — Andrey gülümsədi, — sizcə, biz ofisimizdə yerləşib yaşamalıyıq?

— Zənnimcə hə. Bu, sağlamlıq üçün hətta faydalı olar. Fedoseyev hardadır?

— Öz kabinetində. Bizim uşaqlar bütün Moskva boyunca yoxlamanı davam etdirirlər. Lakin ölən qızın izlərinə düşmək hələlik mümkün olmayıb.

— İcazə verin mən üzümü qırxım, sonra isə biz sizinlə generalın yanına gedək. İşlərimiz çoxdur. Siz mənə isti suyun haradan gəldiyini göstərin.

Yarım saatdan sonra o, artıq Fedoseyevin kabinetində əyləşmişdi.

— Eşitdiyimə görə ağır bir gecə keçirmisiniz? — general soruşdu.

— Pis yatmışam, — Dronqo qısaca cavab verdi, — amma yuxumu almışam. Səhər oteldə nömrə kirayələyib bir az yatdım. Düzdür, üzümü qırxmağı çatdırmadım. Çünki nömrədə isti su yox idi.

— Hansı oteldəydiniz? — general təəccübləndi.

— Ən sadəsində, — Dronqo cavab verdi, — şübhə yaratmamaq və rahat yatıb yuxumu almaq üçün. Orada mənim sənədlərimi bir o qədər də incədən-incəyə yoxlamadılar-.

— Sizə hədə-qorxu gəldilər?

— Tərifədilər desək daha doğru olar. Hətta çox əlverişli təkliflər belə etdilər.

— Siz də onlardan imtina etdiniz? — general güldü.

— Razılıq verdim, — Dronqo cavab verdi və Fedoseyevin təəccübdən böyüyən gözlərini görüb izah elədi: Onların təklifini bir həftədən sonra qəbul etməyə razılıq verdim. Lakin onlar gələn həftənin cümə axşamı bütün təkliflərinin qüvvədən düşəcəyini bildirdilər. Təəssüf...

— Lənət şeytana! Bu ölən qız olmasaydı... — general deyindi, — biz onların hərraca nə məbləğdə pul təklifi irəli sürməyə hazırlaşdıqlarını da öyrənmişik. Onlardan əlli milyon dollar artıq pul ödəməyə hazırıq. Hər şey bu qədər

uğurlu şəkildə inkişaf etdiyi məqamda bu lənətə gəlmiş videoçəkiliş hər şeyi korlayır.

— Vikenti Alekseyeviçin səhhəti necədir?

— Xeyli yaxşılaşıb. Hərçənd hələ də çətinliklə hərəkət edir. Lakin həkimlər onun bir neçə gündən sonra sərbəst yeriyəcəyini bildirirlər.

— Çox yaxşı. İndi bizim qarşımızdakı problem o mayorun məsələsidir. Mənə generalın da yardımı lazım olacaq. Bir də bir neçə nəfər əməkdaşınızın.

— Milis mayorunu deyirsiniz? — Fedoseyev soruşdu. — Necə bilirsiniz, bəlkə heç o zabitə baş qoşmayaq? O, rəsmi vəzifəli bir şəxsdir.

— Hələlik o bizim yeganə şahidimizdir.

— Siz mənim Daxili İşlər İdarəsinə hücum hazırlamağımı istəyirsiniz?

— Xeyr, istəmirəm. Lakin mənə Lısakovla söhbət etmək lazımdır. Amma onun ərazisində yox. Başqa sözlə desək, onunla öz məkanımızda görüşmək lazımdır.

— Bizim onu bura gətirməmizi istəyirsiniz?

— Dayanın, general, hirslənmənizə ehtiyac yoxdur. Mən hər şeyi çox gözəl anlayıram. Sizin Rusiyanın nəhəngləri sırasında böyük bir kompaniyanızın olduğunu anlayıram. Sizin çox məşhur, tanınmış adam olduğunuzu, yüksək nüfuzunuzu, təmiz adınızı qorumağın zəruriliyini də anlayıram. Lısakovun bir milis mayoru və cinayət-axtarış şöbəsində çalışdığını da anlayıram. Amma siz də məni anlayın. Bu gecə bir neçə saat bağlı qandallar altında oturmuşam. Məni az qala öldürəcəkdilər. Ümumiyyətlə, necə sağ qaldığımı belə hələ də dərk etmirəm. Əgər siz durmadan heç nəyin mümkün olmadığını

təkrarlayacaqsınızsa, biz heç vaxt bir nəticə əldə edə bilmərik.

Dronqo məyusluqla emosiyalarına nəzarət edə bilmədiyinin fərqinə varıb susdu. Gecənin ağırlığı özünü göstərirdi. General da susurdu. Andrey İlyin nəfəs almağa belə risk etmədən onun yanında dayanmışdı. Nəhayət, Fedoseyev soruşdu:

— Nə təklif edirsiniz?

Dronqo yorğun halda dedi:

— Mənə onun ev ünvanı lazımdır. Onun dəqiq harada yaşadığını bilməliyəm. Bu gün axşam o, evinə gedəcək və mən də yolüstü onunla görüşməyə cəhd edəcəm. — Yəqin ki, mənim bir daha onun gözünə görünə biləcəyimə ümid etmir.

General da yorğun halda cavab verdi:

— Yaxşı, bunu sizin üçün öyrənə bilərəm.

— Bir məsələ də var. Amma inciməyin, general. Biz sizinlə ikimiz də peşəkarıq. Mən sizin ofisinizdə məlumat sızması olduğundan şübhələnirəm.

— Deməli belə, — generalın üzünü qırmızı ləkələr basdı, — mənə hazırladığın növbəti məlumat nədir?

— Biz Svetlana Koptevanın evinə yollananda, kimsə bundan artıq xəbərdar idi. Qəribədir ki, elə məhz bizim oraya yollandığımız andaca xəbər tutmuşdu. Ona görə də Koptevanın evindən çıxarkən bizi atəşə tutdular, görünür, ondan daha tez xəbərçilik etməyi çatdırmamışdılar.

— Biz bu barədə artıq söhbət etmişik, — general qaşqabaqlı halda xatırlatdı, — bundan, sadəcə, dörd nəfərin xəbəri var idi. Sizin, mənim və Andrey İlyinin. Vikenti Alekseyeviç evində yatır.

— Bunu məhz indi xatırlamağımın səbəbini sizə izah edəcəm, — deyə Dronqo bildirdi. — Dünən məni evimin qabağından qaçırdılar. Onlar mənim o qədər də asanlıqla öyrənilməsi mümkün olmayan ev ünvanımı dəqiq öyrənmişdilər. Bu bir yana qalsın, üstəlik onlar mənim Aleksandr Mixayloviçə çalışdığımı da öyrəniblər. Bizim münasibətlərin bütün detallarından xəbərdardılar. Və nəhayət, ən əsası — kimsə onları sizin rəisin müəyyən tipli qadınlara meyilli olduğuna dair məlumatlandırıb. Onun yaxın ətrafından olan kimsə onun bəyəndiyi qadınlar, onların xasiyyəti, vərdişləri, özünü aparmaq qaydaları barədə qarşı tərəfi məlumatlandırıb ki, elə bir qızla görüş oteldə dərhal baş tutsun və o, həmin qızla öz nömrəsinə yollansın. Həmin o «kimsə» Aleksandr Mixayloviçin evində başlanan təmir barədə də, onun mehmanxanada yerləşmək niyyəti barədə də xəbər çatdırıb.

Generalla İlyin bir-birinə baxdılar. Dronqonun ortaya atdığı faktlar təsirediciydi.

— Onda nə üçün indiyə kimi susurdunuz? — general soruşdu.

— Mən bunu yalnız bu gecə anladım. Bütün detalları düşünüb-daşındım. Sizin kompaniyadan kimsə qarşı tərəfə çalışır və o «kimsə» Aleksandr Mixayloviçin çox yaxın ətrafından biridir. Artıq siz də çox şeyi bilirsiniz. Sizə, sadəcə, düşünüb həmin adamın adını çəkmək qalır.

— Koptevanın evinə gedəcəyiniz barədə, sadəcə, biz dördümüz bilirdik, — general inadla təkrarladı, — siz məndən də şübhələnirsiniz?

— Yox. Hələlik yox.

— «Hələlik» üçün təşəkkür edirəm. Axı mən bütün bu məlumatları ötürən alçağı necə tapım? Onu necə hesablayıb tapmaq olar?

— Mənə bir vərəq kağız və qələm verin, — Dronqo xahiş elədi.

— Necə qələm?

— Necə olursa olsun. Mənim «Parker» qələmlərindən xoşum gəlir, amma siz mənə adi diyircəkli qələm də verə bilərsiniz.

Andrey cibindən bloknotunu çıxarıb qələmini Dronqoya uzatdı. General bir vərəq kağız uzatdı, İlyinə də bir qələm verdi.

— Əslində mən bunu etməyi sevmirəm, — Dronqo etiraf elədi, — belə bir şey bir növ fikirlərini ucadan ifadə etmək deməkdir, yəni məhrəm bir şeydir, bunu edərkən isə adam bunları sanki bir sirk nömrəsi kimi ortaya qoyur. Amma bu dəfə istisna sayılır. Birinci sual: Aleksandr Mixayloviçin evində təmir başladığını və onun bu səbəbdən oteldə yerləşəcəyini dəqiq kimlər bilirdi?

— Çox adamlar, — general bir qədər düşünüb cavab verdi, — iyirmi-otuz, bəlkə də qırx nəfər adam.

— Onların siyahısını tərtib edin. Çalışın heç kimi nəzərdən qaçırmayasınız. Hərçənd qaçırsanız da, qorxusu yoxdur. Onun adı daim bütün siyahılarda çəkilən olmalıdır. İkinci sual: rəisinizin zövqlərini, daha dəqiq desək, onun müəyyən tip qadınlara meylini, eşqbazlığını və s. kim bilirdi?

— Hamı, — general narazı halda deyindi. — Zənnimcə, sizin metodunuz bir nəticə verməyəcək. Məni bağışlayın Dronqo, amma sizin dedikləriniz sadəlövhcəsinə bir şeydir. Zəmanə o zəmanə deyil.

— Daha sonra, — İlyinin öz bloknotunda diqqətlə qeydlər yazdığını görən Dronqo generalın qeydini qulaqardına — vurub davam elədi: — Görünür, İlyin bilavasitə rəisindən ekspertə daha çox inanır və ümid bəsləyirdi. Sizin mənim

ünvanımı axtardığınız və Andrey İlyinin mənim evimə gəldiyindən kimin xəbəri var idi?

— Maraqlıdır, — general bildirdi, — beş-on adam bilirdi, vəssalam.

— Onların adlarını yazın, — Dronqo davam edirdi. — Mənim Parisə Aleksandr Mixayloviçlə görüşə gedəcəyim və Lyubomudrovla görüşlərim barədə kim bilirdi?

— Ondan da az adam, — Fedoseyev fikirli-fikirli dedi, — görünə biləcəyindən daha az adam bilirdi.

— Növbəti sual. — Dronqo hər sualını nömrələyərək iri və yayğın xətlə qeydlər aparırdı. — Ölən qadınla kim ünsiyyətdə olub? O qadınla ünsiyyət qurub, bir növ onunla qarşı tərəf arasındakı rabitəçi kim ola bilərdi?

General təşvişlə Andrey İlyinə baxdı. İlyin cəld bloknotunda bir neçə ad qeyd elədi.

— Nəhayət, sonuncu sual, — Dronqo qeyd etdi. — Bizim Koptevanın evinə gedəcəyimizi və ümumiyyətlə, onunla maraqlanacağımızı dəqiq kimlər bilirdi? İndi bütün siyahılardakı adları müqayisə edin və ən çox rast gəlinən adı seçin.

— Lənət şeytana! — general dözməyib dedi. — Hər şeyin bu qədər bəsit olduğunu heç vaxt düşünməzdim.

— Xeyr, bəsit deyil. Ən əsası sualı düzgün qoymaq bacarığıdır. Hamı ən mühüm olanın şübhəli adamın cavablarının olduğunu düşünür, əsas olan isə onun cavabl-arı yox, müstəntiqin suallarıdır. Dəqiq, qısa və dürüst ifadə olunmuş suallar uğurun yarısı deməkdir. Mən Amerika fantastlarının birinin hekayəsini oxumuşam, səhv etmirəmsə, Azimov, ya da Şeklinin. Hekayədə kainatda ideal bir maşının, insanın bütün suallarına cavab verməyə qadir olan kompüterin olduğundan bəhs olunurdu. Amma

bununla belə kimsə bir düzgün cavab əldə edə bilməmişdi. Hekayənin nəticəsi heyranedici dərəcədə paradoksal idi: tam həqiqəti əldə etmək üçün sualları tam dürüst ifadə etmək gərəkdir. Sualları dürüst ifadə etmək üçün isə biliklər lazım idi ki, bu biliklərə də insanlar malik ola bilməzdi. Qapalı dairə faciəsi.

— Bəs fantastların məsələyə nə aidiyyəti var? — general anlamadı. — Lakin metodunuz kifayət qədər orijinaldır, — o, etiraf elədi, — böyükdən kiçiyə doğru. Biz bütün şübhəlilərin siyahısını tərtib edərik.

— Axırıncı sual, — deyə Dronqo yorğun halda xatırlatdı. — Bizim Koptevanın evinə gedəcəyimizi dörd nəfərdən başqa kim bilirdi?

— Heç kim, — general əminliklə bildirdi, — onda belə çıxır ki, satqın dördümüzdən biridir?

— Siz qəbul otağından danışırdınız? — Dronqo xatırladı. — Həmin vaxt orada kim var idi?

— Mənim katibəm, — general cavab verdi.

— Bir də Lyonya, — İlyin xatırlatdı.

— Nə? — Fedoseyev üzünü ona tutdu. — Bizim sürücü?

— O, Aleksandr Mixayloviçin sürücüsüdür, — İlyin inkar etdi.

— Siyahı, — general səsini ucaltdı, — suallar hanı? — deyə o, siyahını Andreydən alaraq bağırdı. — Lənətə gələsiniz... O, rəisin evindəki təmir barədə də bilirdi.

— Əlbəttə.

— Qızları Aleksandr Mixayloviçin yanına da o aparıb-gətirirdi?

— Həmişə yalnız o, — İlyin boğuq səslə bildirdi.

— Sən Dronqonun evinə kiminlə getmişdin? Yadına sal!

— Onunla, — Andrey köks ötürərək cavab verdi. — Axı siz özünüz bu işdən çox adamların bilməməsinin zəruriliyini demişdiniz.

— Sən ünvanı öyrənəndə o da qəbul otağındaydı?

— Bəli. O sizin katibənizin yanında oturmuşdu. Biz onu danışmaq üçün çağırtdırmışdıq.

— İndi hardadır? — general bağırırdı. — Onu tapın! Təcili! Tapın onu!

— Lənət şeytana! Hər şey bu qədər bəsit imiş. — General kabinetində vurnuxmağa başladı. — Siz doğrudan da bütün suallarınızı elə burada, indi tərtib edirdiniz?

— Yox. Mən onları uzun illərdir tərtib edirəm. Savva Afanasyeviç, əslində hər şey elə ilk dəqiqədəncə məlum idi. Qarşı tərəfin belə bir fitnəyə ruhlanması üçün Aleksandr Mixayloviçin yaxın ətrafından bir nəfərin olması önəmliydi. Onların Aleksandr Mixayloviçin mühafizəsində bir zəiflik tapıb onun hisslərindən bu qədər məharətlə — istifadə etməyi bacarmaları üçün bir satqın olmalıydı. Sözün açığı, mən Lyonyadan şübhələnirdim. O da yalnız ölən qadını onun aparıb-gətirdiyi səbəbindən. Belə bir uyğunlaşma mənə ağlasığmaz görünürdü, həddindən artıq açıq-aşkar bir işarə idi. Amma bizim rəqiblər uğurlarından o qədər əmin idilər, bu kimi xırdalıqlar onları qayğılandırmırdı. Mənim fikrimcə, biz Lyonya ilə söhbət etməli və hər şeyi onun özündən öyrənməliyik.

— Mən hər şeyi o şərəfsizdən öyrənəcəyəm, — Fedoseyev yumruqlarını sıxdı. — Bircə-bircə hər şeyi.

— Bir də mənə Lısakovun ünvanı lazımdı, — Dronqo xatırlatdı.

— Bəli-bəli, o da yadımdadı, — general telefonun dəstəyini qaldırdı, — mənim hələ Daxili İşlər Nazirliyində köhnə əlaqələrim var, onun ev ünvanını öyrənməyə çalışaram. Hərçənd, əgər bu gün axşam onun başından bir tük belə əskik olarsa, mənim keçmiş həmkarlarımla ciddi problemlərim yarana bilər.

Generala mane olmamaq üçün Dronqo ayağa qalxıb pəncərəyə yaxınlaşdı. General yerində əyləşib telefonla danışdığı müddətdə o, pəncərədən kompaniyanın binasının qarşısındakı meydançaya baxırdı. Aşağıda ofisə işə gələn əməkdaşların avtomobilləri dayanmışdı. Avtomobil dayanacağında olan maşınların böyük əksəriyyəti xarici maşınlar idi – bu, təkcə bolluğun yox, həm də seçilmənin əlaməti sayılırdı.

General telefonun dəstəyini asanda Dronqo masaya doğru qayıtdı.

— Ünvanı mənə yarım saatdan sonra bildirəcəklər, — general bildirdi.

Elə bu anda kabinetə tələsik Andrey İlyin daxil oldu.

— Yoxdur! — deyə o, elə qapıdan ucadan bildirdi, — Yoxdur! Heç yerdə yoxdur. Bu gün heç işə də gəlməyib. Ev telefonu da cavab vermir.

— Deyəsən, mən rəqiblərimizi lazımınca dəyərləndirməməkdə tələsmişəm, — Dronqo fikirli halda dedi. — Tez olun, onun evinə gedirik. Bəlkə çatdıq.

# *DÖRDÜNCÜ GÜN*

İyirmi dəqiqədən sonra onlar sürücünün yaşadığı evin qarşısına gəldilər. Bu dəfə Fedoseyev müşayiət üçün beş

nəfər əməkdaş ayırdı. Dronqo, Andrey və həmin əməkdaşlarla birlikdə iki avtomobildə gələrək, kifayət qədər heybətli bir qrup təəssüratı yaradırdılar. Leonid köhnə bir binanın üçüncü mərtəbəsində yaşayırdı. Bu evlər bir möcüzə olaraq hələ də Moskvada qalmağa davam edirdi, amma hamısının sökülməsi nəzərdə tutulurdu. Bu bina əsrin əvvəllərində inşa olunmuş və mənzilləri elə ilk başdan kirayə verilmək üçün nəzərdə tutulmuşdur. Bir vaxtlar zəngin kirayəlik olan apartamentlər getdikcə kommunal mənzillərə çevrilməyə başladı. Doxsanıncı illərin əvvəllərində Moskvada tikinti bumu start götürdüyü vaxt bütün kommunal mənzillərin söküntüsünə başlanıldı, qonşular müxtəlif ünvanlara yerləşdirildi, boş qalmış yaşayış sahələri isə yenidən tikilib təmir edilərək tamamilə başqa adamlara satıldı.

Lakin bu evlərin qiyməti tədricən enməyə başladı. Yeni zənginləşmiş adamlar qonşuluqda nifrətdən və paxıllıqdan üz-gözləri əyilmiş adamların yaşamalarını istəmirdilər. Öz dairələrindən, özlərinə yaxın olan adamlardan olan qonşular onlara daha çox əl verirdi. Onlar arasında ümumi problemlər – qoruma, kameralı zənglərin quraşdırılması, ümumi qaraj və sair məsələlər asanlıqla həllini tapırdı. Nə imkansız qonşuların zədələnmiş su borularının, nə də bloklarda pəncərə qabağında əyyaşlıq məclisləri quran kommunal mənzillərin sərxoş sakinlərilə üzləşmə ehtimallarının dərdini çəkməyə ehtiyac yox idi.

Leonid bu kimi çətinlikləri nəzərə almadan yaşaması üçün bu evi seçmişdi. O, Moskvaya bir əyalətdən gəlmiş tənha gənc oğlan idi. O, paytaxt həyatını, böyük səkkizotaqlı bir mənzildən ona ayrılmış ikiotaqlı yaşayış yerini sevirdi. Yenidən qurulmuş kommunal mənzilin sahibləri belə bir böyük mənzilin ləğv olunmasının çətinliyini vaxtında anlamış, onu bir neçə yerə bölərək, yeni sahiblərinə yaxşıca mənfəət əldə edərək satmışdılar.

Dronqo, Andrey və onlarla birlikdə gələn kompaniyanın təhlükəsizlik xidmətinin iki nəfər əməkdaşı pilləkənlərlə — yuxarı qalxıb xeyli vaxt Leonidin qapısını döydülər. Nəhayət, taqqıltıya qapısını açan qonşu onlara nə lazım olduğunu soruşdu.

— Burada bizim əməkdaşımız yaşayır, — Andrey izah elədi, — bu gün o, işə çıxmayıb və biz ona görə çox narahatıq. Siz bu gün səhər onu görməmisiniz?

— Mən, ümumiyyətlə, heç kimi görməmişəm, — deyə qaraqabaq qonşu cavab verdi. Görünür, o, təbiətcə melanxolik idi. Dronqo onun şişkin yanaqlarına, vaxtsız əmələ gəlmiş dərin üz qırışlarına, gözünün altındakı torbacıqlara və maykasındakı xırda sökülmələrə diqqət yetirdi. Deyəsən bu adam mənzili alanda heç də pis dolananlardan deyilmiş, lakin sonradan onun həyatında xoşagəlməz dəyişikliklər baş verib. Bu üzdən də o, indi artıq öz ikiotaqlı «cənnətinə» uyğunlaşa bilmirdi.

— Siz çoxdandır burada yaşayırsınız? — Dronqo soruşdu.

— O qədər də yox, — qonşu cavab verdi.

— Köçməyi düşünürsünüz, yoxsa mənzilinizi kirayəyə verəcəksiniz?

Xarici görkəmindən kişinin təqribən əlli yaşı olardı. Lakin səliqəsizliyi onu yaşından xeyli böyük göstərirdi. Bəlkə də qırx beş yaşı var idi. O, təəccüblə Dronqonun üzünə baxdı.

— Siz bunun üçün gəlmisiniz? — o soruşdu. — Evə baxmaq istəyirsiniz? Mənim onu kirayə verməyə hazırlaşdığımı haradan bilirsiniz? Mən hələ üç gün əvvəl qəzetə elan vermişəm. Elan hələ heç çıxmayıb.

İlyin təəccüblə Dronqoya baxırdı. Həqiqətən də, bu adamın müşahidəçilik qabiliyyətinə və diqqətinə qibtə edirdi.

— Bunu təsadüfən öyrəndim, — Dronqo gülümsədi, — mənim qonşum reklam şöbəsində çalışır. Elə siz elanınızı verən qəzetin redaksiyasında. Bəlkə Leonidi axırıncı dəfə nə vaxt gördüyünüzü bir yadınıza salasınız?

— Mən onu görməmişəm deyirəm sizə, — deyə qonşu əsəbi halda cavab verdi. — Taqqıltı salıb camaatı narahat etməyin. Evində yoxdursa, deməli, harasa gedib. O, əvvəllər də həmişə bir-iki günlük harasa gedib-gələrdi.

— Bunu bilirik, — İlyin tələsik bildirdi, — o, Aleksandr Mixayloviçin bağ evinə gedirdi və orada qalırdı, — deyə o, izah elədi, — amma dünən onu heç yerə çağırmayıblar.

— Qapını açmaq lazımdır, — Dronqo təklif elədi, — gözləmədiyimiz bir hal da baş vermiş ola bilər.

— Necə açaq? — deyə Andrey təəccübləndi. — Özünüz ki görürsünüz, qapı dəmirdir. Elə bilirsiniz aramızda «qapıaçanlar» var? Belə qapını açmaq, çətin ki, mümkün ola.

— Avtogen tapın və qıfılı vurub sındırın — Dronqo məsləhət gördü, — əgər sürücünüz harasa qaçıbsa, istəristəməz evində dəlillər qalmalıdır. Onun ailəsi var idi?

— Yox. Görüşdüyü bir qadın var idi, — deyə təhlükəsizlik xidmətinin əməkdaşlarından biri cavab verdi.

— Siz də, təbii ki, o qadının harada yaşadığını bilmirsiniz, hə? — Dronqo səbrini itirirdi. — Lənət şeytana! Nə təhlükəsizlik xidmətisiniz siz?! Siz işçiləriniz barədə hər şeyi bilməlisiniz, tamamilə hər şeyi. Hətta onların özlərinin özləri barədə bildiklərindən də artığını.

— Əgər biz qapını sındırmağa başlasaq, qonum-qonşu yığılacaq, — İlyin ehtiyatla qeyd etdi.

— Milis zabiti çağırtdırın, ona bizim Leonidin iş yoldaşları olduğumuzu və onun bu gün işə çıxmamasına görə narahat

olduğumuzu bildirin. Biz qapını açarkən sahə müfəttişi yanımızda olsun. O bizə mane olmaz. Əgər evdə hansısa izlər varsa, biz onları aşkar edəcəyik. Amma arzuolunmaz vəziyyətlə də üzləşmə ehtimalı var. Lənət şeytana! Heç ağlıma gəlmədi. Avtogenə ehtiyac yoxdu. Əgər sürücünüz evində idisə, qapı qıfılla bağlı olmamalıdı. Gedərkən qapını, sadəcə, örtüblər və o özü avtomatik olaraq bağlanıb. Amma bu, yalnız onun evdə qaldığı və qapını içəridən bağlaya bilmədiyi halda ola bilər.

— Siz demək istəyirsiniz ki, onu öldürüblər? — deyə İlyin sarsılmış halda soruşdu.

— Mən bu variantı da istisna etmirəm. Ötən gecədən sonra mənim qarşı tərəfə çalışanın dəqiq kim olduğunu asanlıqla ayırd edə biləcəyim artıq məlum olmuşdur. Ona görə də onlar Aleksandr Mixayloviçin sürücüsü Leonidi, son dərəcə təhlükəli bir şahid olduğu üçün, sadəcə, aradan götürmək qərarına gələ bilərlər.

— Qapını necə açaq?

— Sadəcə, universal kilidaçan dəsti lazımdır, — Dronqo cavab verdi, — məndə var idi, amma təəssüf ki, mən onu öz evimdə qoymuşam. Evimi isə, böyük ehtimalla, nəzarətə götürüblər, ona görə də oralarda görünməmək daha məqsədəuyğundur. Deyəsən həqiqətən də sahə müfəttişini çağırmalı və qıfılı kəsməli olacağıq. Başqa çarə yoxdur. Yeri gəlmişkən, əgər orada bir hadisə baş veribsə, sahə müfəttişinin gəlməsinin də faydası olacaq.

O, üzünü hələ də mənzilinin qapısında dayanaraq bir şey anlamadan gözünü naməlum adamlara dikən qonşuya tutdu.

— Sahə müfəttişinizə necə zəng etməyi bilirsiniz? — Dronqo soruşdu.

— Yox, mən onu tanımıram, — qonşu əsəbi tərzdə cavab verdi.

— Bəs ərazinizin MİS (Mənzil-İstismar Sahəsi) idarəsinə necə?

— Arabaya beşinci təkər lazım olmadığı kimi, onların hamısı da mənə lazım deyil, — qonşu donquldandı və qapısını çırparaq evinə girdi.

Dronqo saata baxdı.

— Saat dördə işləyib. İş gününün sonuna qədər sahə müfəttişi ilə MİS nümayəndəsini tapmaq lazımdır. Cəld olun, yoxsa yubana bilərik. Mənim axşam Lısakovla mühüm görüşüm var.

— Gedin, — İlyin onlarla birlikdə mənzilin qarşısında dayanan əməkdaşlara əmr elədi. — Özü də cəld olun, — deyə arxalarınca ucadan səsləndi.

Orada ikisi qaldılar. İlyin təşvişlə qapıya baxıb Dronqodan soruşdu:

— Sizcə, onu öldürüblər?

— Hələ bilmirəm. Amma qəribəsi odur ki, bizim onu hesablayıb tapa biləcəyimiz gün o, işə çıxmayıb. Belə təsadüflərə inanmaq çətindir. İki variant var. Ya o qaçıb. Bu ağlabatan bir fərziyyə deyil, çünki o halda belə çıxır ki, rəqiblərimiz altruistdir və öz agentlərini gizlətmək qərarına gəliblər. Buna inanmaq çətindir. Ya da onu öldürüblər. Bu fərziyyə həqiqətə daha yaxındır. Bütün izləri gizlətmək üçün. İkinci variantın daha real səslənməsilə, yəqin ki, sən də razılaşarsan.

— Onunla hələ dünən söhbət etmək lazım idi, — Andrey köks ötürdü.

— Bəli-bəli. Özü də bu sizin yox, mənim səhvimdir. Mən Savva Afanasyeviçin nə qədər əsəbiləşdiyini, bütün bunların onun heysiyyətinə toxunduğunu görürdüm. Ona görə də sürücünün dindirilməsində təkid etmədim. Mən Fedoseyevin hər şeyi yoxladıqlarına dair inandırmaları ilə kifayətləndim. Bizim işdə hisslərə qapılmaq olmaz. Mən generalın xatirinə dəymək istəmirdim, nəticədə də Leonidlə söhbət etmədim. Bunun nə ilə bitdiyini bir azdan öyrənəcəyik. Lakin istənilən halda bu, mənim səhvimdir. Hissləri tamamilə kənarlaşdırmaq gərəkdir. Fedoseyevin heysiyyətini nəzərə almaqdan öncə, mənə tapşırılan işin məsuliyyətini nəzərə almalıydım.

— Qonşunun evini kirayə vermək niyyətini nədən bildiniz? — deyə İlyin soruşdu.

— Sən ki, özün onu gördün. Onun əynində deşik-deşik olmuş, İtaliya istehsalı olan bahalı mayka var idi. Bir adamın belə bahalı bir mayka alıb geyinmək imkanı varsa, onu bu qədər əskilmiş halda geyinməz. Kişinin xarici görkəmi də çox şeyi deyirdi. Həyatda sınmış biridir, bunu onun gözləri, üzü, əlləri bildirir. İnsanda ən qorxulu olan onun sönükmüş gözləridir. Həyata marağın olmaması. İçində ağrı donub qalmış yaralı gözlər də olur, səfehlik ifadə edən mənasız gözlər də, içində inamsızlıq və şübhə kök salmış ehtiyatlı gözlər də olur. Onun isə gözləri, ölü gözü kimi sönükmüşdür.

Daha sonra. Təmirə nəzər salınarsa, bu mərtəbədə təzəlikcə, yəni bir neçə il əvvəl kommunal bir mənzil paylaşdırılaraq mənzillərə bölünüb. Buradan da bu nəticəyə gəlinir ki, bütün mənzillər məhz bir neçə il bundan əvvəl alınıb. O vaxt onlar indikindən daha baha qiymətə idi. Əgər bir adamın şəhərin mərkəzində ev almaq üçün pulu var idisə, deməli, onun işləri heç də pis getmirmiş. İndi belə bir fakta diqqət yetir ki, o çıxıb bizimlə danışdığı müddətdə evindən bir səs belə eşidilmədi. Onun nə arvadı, nə də

uşaqları var. Bu, açıq-aşkar bəllidir. Ya əvvəllər onun ailəsi olub, ya da ümumiyyətlə heç vaxt olmayıb. Amma istənilən halda, onun kimi həyatdan üzü dönmüş bir adamın, əgər şəhərin mərkəzində bir evi varsa və bununla belə əyninə əməlli-başla paltar almağa imkanı yoxdursa, belə bir mənzildə təkbaşına yaşamağa davam etməsi az inanılandır. Böyük ehtimalla o bu mənzili ya kirayə vermək, ya da ümumiyyətlə satmaq qərarı verəcək. Gəldiyim nəticə də elə bundan qaynaqlanırdı. Vəssalam.

— Mən belə halların yalnız kinolarda olduğunu sanırdım, — İlyin güldü, — gəldin, gördün, hesablayıb tapdın.

— Əvvəlcə ondan başlayaq ki, belə hallar ədəbiyyatda da olur. Dahi Şerlok Holms indiyə kimi bütün yeniyetmələrin sevimlisidir. Onun davamçıları var idi. Bir qədər qeyri-adi xasiyyətə malik Erkül Puaro və bəsirətli missis Marpl, bir qədər qəmgin və melanxolik komissar Meqre və tənbəl, lakin bəsirətli Niro Vulf və s. Mən ən məşhurlarının adını çəkdim. Onlardan bəziləri evindən çıxmadan, kreslosunda əyləşdiyi yerdəcə hansısa bir cinayətin üstünü açmağa müvəffəq olurdu. Görürsən, zəmanə necə dəyişib? İndi, sizin sürücü yaşadığı mənzilin qapısını açmaq üçün qapının ağzında dayanıb, milis müfəttişilə MİS nümayəndəsinin gəlişini gözləmək onların heç birinin ağlına belə gəlməzdi. Real həyatda hər şey daha müşkül olur. Eyni zamanda da daha gülməli. Məsələn, mənim Lısakovla görüşüm kimi. Onunla mənim görüşüm, sözün əsl mənasında, tragikomediya idi. Öz aramızdır, bu gün mən o tragikomediyanı davam etdirmək niyyətindəyəm.

— Onunla görüşmək fikrinizdən dönməmisiniz?

— Əsla. Mən mütləq onunla görüşəcəyəm. Bizim söhbətimiz hələ bitməyib.

— Lısakov, — cinayət-axtarış idarəsinin inspektorudur — Andrey xatırlatdı. — Əgər o, atəş açmaq niyyətinə düşsə, istənilən halda bəraət qazanmağı bacaracaq. Sizin ona zor tətbiq etmənizi, ona hücum etmənizi bəhanə gətirə bilər.

— Mənim də tapançam var, — Dronqo soyuqqanlılıqla bildirdi, — hərçənd güllələrini içindən boşaldıblar. Lakin mənim atəş açmaq niyyətim yoxdur, tanışımızın nişan hədəfi olmaq fikrim heç yoxdur. Güman edirəm ki, onu atəş açmaması üçün inandıra biləcəm. Bu, onun özünün də marağındadır.

— Bəs birdən sözünüzə baxmazsa?

— Onda o, atəş açacaq. Amma mən ümid edirəm ki, iş o yerə çatmaz.

— Bəlkə aşağı enib maşında gözləyək? — deyə İlyin təklif elədi.

— Əvvəlcə sən buraya qapının ağzında növbə tutmağa iki nəfər əməkdaşınızı çağıracaqsan. Biz yuxarı qalxana qədər onlar burada durmalıdır, — Dronqo ciddi tərzdə tapşırdı. — mən diqqətsizliyimiz üzündən evdən lazımi dəlillərin itməsini qətiyyən istəmirəm.

— Bu saat onları çağıraram, — Andrey aşağı tələsdi.

Dronqo onun dalınca baxdı. Bu cavan oğlan enerjilə coşub-daşırdı. Nədənsə birdən-birə Dronqo özünün az əvvəl danışdıqları qonşuya oxşadığını düşündü. Artıq onu təəccübləndirmək çətindir və tədricən o, enerjili cavan adamdan laqeyd, melanxolik və bədbin bir vecsizə çevrilirdi.

«Bəlkə məndə də o qonşunun xüsusiyyətləri əmələ gəlməyə başlayır? – deyə Dronqo dilxor halda düşündü. – Axı mən heç dünən, qəfildən qaçırıldığım vaxtda belə bu qədər

qorxmurdum. Yoxsa həyat tərzimdənmi yorulmuşam – kim bilir?»

O, qapıya yaxınlaşıb əlilə qıfılı yoxladı. Dərindən köks ötürdü.

«Bəlkə doğrudan da hər şeyi atıb Seyşel adalarına gedim? – Dronqo düşündü. – Mənə təklif etdikləri kimi, hə? Amma hələ indi yox, bir həftədən sonra. Bir həftədən sonra, – deyə Dronqo düşündü və gülümsədi. – Deməli, mən o qonşuya oxşamıram, çox şükür. Deməli, məni daha çox mübarizənin nəticəsi maraqlandırır və mən hələ də həyat eşqini itirməmişəm. Elə bu da mənim taleyimdəki ən əsas məqamdır: həyata və çətin əldə olunan həqiqətin axtarışına marağımın itib-tükənməməsi».

O, pilləkəndə dayanıb Andreylə iki nəfər əməkdaşın qalxdığını seyr edib gülümsəyirdi.

# *DÖRDÜNCÜ GÜN*

Xeyli gözləməli oldular. Milis müfəttişini axtarıb tapana, MİS nümayəndələri çağırılana və qapının açılmasının önəmliliyi izah olunana qədər iki saata yaxın vaxt keçdi. MİS idarəsindən bir xanım yollamışdılar. Qadın ortaboylu, xoş görkəmli və fantastik sinəli biriydi. O, çox uzun-uzadı və ucadan danışırdı. «Naməlum adamların», hətta ev sahibinin iş yoldaşları olsalar belə, qapının açılmasında bu qədər təkid etdiklərinin səbəbini əsaslandırmalarını tələb edirdi. Ona Leonidin bu gün işə çıxmadığını, bu səbəbdən çox narahat olduqlarını, sürücünün heç vaxt öz yoldaşlarını pis vəziyyətdə qoymadığını, həmişə vaxtlı-vaxtında işə gəldiyini bütün təfərrüatları ilə izah etməli oldular.

Nəhayət, qapının açılmasına qərar veriləndə, saat altıya az qalırdı. O vaxta qədər buraya əlində lazımlı alətlər olan çilingər də gətirilmişdi. O, iyirmi dəqiqəyə yaxın əlləşdi və nəhayət, qapının qıfılını açdı. Qapı içəridən qıfıllanmamışdı. Elə bayırdan da. Onu, sadəcə, örtmüşdülər. Örtdükləri zaman da qıfıl avtomatik işə düşüb onu kilidləmişdi. Eynilə Dronqonun təxmin etdiyi kimi.

Qapı açılanda hamı içəri girməyə ürək etmədən qapının ağzındaca donub qaldı. Nəhayət, sahə müfəttişi mənzilə birinci daxil oldu. O, içəri girdi və artıq bir neçə dəqiqədən sonra hamı onun anlaşılmayan tərzdə söyləndiyini eşitdi. Yataq otağında yerdə, çarpayısının düz yanında qətlə yetirilmiş sürücü sərilmişdi. Kimsə ona üç güllə vurmuşdu. Əvvəlcə arxadan, sonra ürəyindən. Bir də başından nəzarət atəşi açmışdı. Otaq al qana boyanmışdı. Sahə müfəttişi idarəyə və prokurorluğa zəng etmək üçün telefona tərəf qaçdı. Ciddi görkəmli qadın – MİS nümayəndəsi az qala huşunu itirəcəkdi. Çilingərin ürəyi bulandı.

Dronqo öldürülənə baxa-baxa yataq otağında dayanmışdı. Andrey meyitə baxmamağa çalışaraq ona yaxınlaşdı.

— Siz haqlıydınız — o, astadan dedi, — onu öldürüblər.

— Hə, təəssüf. Təəssüf ki, bu cavan oğlan satqınlığın hər zaman olduğu kimi yalnız bu cür mükafatlandırıldığını anlamadı. Nədənsə hər bir satqın onunla fərqli davranacaqlarından əmin olur, lakin özünün onu satın alan adamlara yalnız müəyyən bir vaxt çərçivəsində lazım olduğunu anlamır. Hamısı eyni cür düşünür: bir dəfə öz sahibinə xəyanət edən şərəfsizə etibar etmək olmaz. Bunu bir dəfə edibsə, ikinci dəfə etməyəcəyinə kim zəmanət verər? Buradan isə belə bir nəticə yaranır: satqınlığın axırı yoxdur. Sədaqəti qoruyub saxlamaq çox daha etibarlıdır.

— Sizcə, o bunu bilmirdi?

— Bunu heç Bibliyadakı Yahuda belə bilmirdi, — deyə Dronqo xatırlatdı. — Hər bir satqın hər şeyin fərqli olacağından, yaxşı nəticələnəcəyindən əmin olur. Hər biri də qəpik-quruşundan savayı, satqınlığına görə özünün xüsusi haqqını alır. Son zamanlar başa atəş açmaq ənənəvi bir nəzarət-yoxlanışa çevrilib, dəb halını alıb.

İlyin cibindən mobil telefonunu çıxarıb Fedoseyevə zəng elədi.

— Biz onu tapdıq, — deyə xəbər verdi. — Bəli, öz evində. Bu gün səhər onu qətlə yetiriblər. Xeyr, milis gəlib, burdadır.

— Mən getməliyəm, — Andrey generalla danışıb qurtarandan sonra Dronqo astadan bildirdi. — Şahid qismində çıxış edib ifadə vermək niyyətim yoxdur. Onsuz da bu işdə mənim iştirakımdan çox adam xəbərdardır. Sadəcə, öldürülənin bədəninə baxmaq istəyirəm.

— Sizə məlum olmayan nə isə qalıb?

— Xarakterik iz. Üç güllə. Arxadan, adam pəncərənin qabağında dayanarkən, ürəyindən, o, yerə yıxılarkən. Nəhayət başından. Bu sənə nəyisə xatırlatmırmı?

— Başa düşmədim, — İlyin qaşlarını çatdı. — Nədən bəhs edirsiniz?

— İrina Maksimenko da eyni tərzdə qətlə yetirilmişdir. Üç güllə ilə. İkisi bədənindən vurulmuşdur, biri də başından. Özü də hər iki halda ilk güllə arxadan vurulmuşdur. Görünür, qatil qabaqdan atəş açmağı sevmir və qurbanının üzünü başqa tərəfə çevirməsini gözləyir.

— Siz qatilin eyni adam olduğunu düşünürsünüz?

— Dəst-xətt eynidir. Böyük ehtimalla eyni adamdır. Bir sürücünü öldürmək üçün onlar başqa qatil axtarışına düşməzdilər. Bir ölənin paltarına bax. O, heç şalvarını axıra qədər düymələməyi də çatdırmayıb. Görünür, qatil ona

səhər tezdən zəng edib və Leonid qapını ona əynini geyinə-geyinə açıb. Buradan onun öz qatilini tanıdığı nəticəsinə gəlinir. Bu isə sizin sürücünün öldürülmüş qadınla və oteldə baş verən faciə ilə birbaşa əlaqədar olmasının təkzibedilməz sübutudur. Qatilin eyni adam olmasına dair məndə heç bir şübhə yoxdur. İndi sənin vəzifən bir dəqiqəliyinə sahə müfəttişinin diqqətini yayındırmaqdır ki, mən də həmin vaxtda öldürülənin bədəninə baxa bilim.

— Bu saat mən onu o biri otağa çağıraram, — Andrey pıçıltı ilə dedi. — Bir şüşə-filan sındıraram, o da tələsik ora gələr. Amma siz cəld hərəkət edin.

İlyin o biri otağa keçdi və bir azdan oradan xarakterik şüşə qırılmasının səsi eşidildi.

— Mən axı dedim ki, heç nəyə toxunmasınlar, — sahə müfəttişi yan otağa qaçaraq səsini ucaltdı.

Dronqo cəld öldürülənin yanına tələsdi. Əyilib onun ciblərini axtardı. Qeyri-adi bir şey yox idi. Əl dəsmalı, bir az pul. O, ətrafa göz gəzdirdi. Ehtiyatda cəmi bir neçə saniyə var idi. Nə üçün öldürülən pəncərənin yanında dayanıbmış? Niyə yataq otağına girib pəncərəyə tərəf qaçıbmış? Əgər o, gələn adamın onu öldürmək üçün gəldiyini anlamışdırsa, qeyri-şüuri olaraq pəncərə tərəfə yox, qapıya doğru qaçmalıydı. Dronqo pəncərədən aşağıya baxdı. Buradan aşağı hoppanmaq mümkün deyil. Onda nədir məsələ? Tez, tez. Burada, pəncərənin yanında Leonid üçün hər şeydən önəmli bir şey olmalıdır. Təsadüfi heç nə olmur. O, yataq otağına girib pəncərəyə tərəf atılıb və elə bu anda ardınca otağa girən qatil onu arxadan vurub. Nə üçün sürücü məhz pəncərə tərəfə qaçmışdı? Lənət şeytana! Vaxt, demək olar ki, tükənirdi, tez fikirləşmək lazımdır. Dronqo ətrafa göz gəzdirdi. Pəncərənin altlığının üstündə bir qələm və bir saat var idi. Başqa heç nə yox idi. Tez ol. O, aşağı əyilib əlini pəncərənin altlığına gəzdirdi. Yapışqan bir şey var idi –

lentmi, kasetmi? Elədir ki var. Yapışqan lentlə bərkidilmiş maqnitofon kaseti. Dronqo kaseti qoparıb cibinə qoyanda sahə müfəttişi otağa daxil olurdu.

— Pəncərədən o yana çəkilin, — deyə sahə müfəttişi acıqlandı. Müfəttiş belə bir qətllə ilk dəfə üzləşən və meyitə baxmamağa çalışan cavanca bir leytenant idi.

— Bəli, əlbəttə. Bağışlayın, — Dronqo meyitin yanından kənara çəkildi.

Otaqdan çıxanda İlyini gördü və pıçıltı ilə ona minnətdarlığını bildirdi:

— Çox sağ ol. Hər şey qaydasındadır. Sən burda qal, mən də gedim Savva Afanasyeviçin yanına.

— Bir şey tapdınız? — deyə Andrey soruşdu.

— Deyəsən tapmışam. Məni şahidlər siyahısına salmamalarına nəzarət elə. Burada mənsiz də ifadə verə biləcək adam çoxdur. Özü də ehtiyatlı olun. Bu gün və bütün sonrakı günlərdə biz səninlə kompaniyanızın ofisində gecələyəcəyik. Ümid edirəm ki, bunu unutmamısan.

— Gələcəm, — İlyin gülümsədi, — siz də ehtiyatı əldən verməyin. Hər şey ola bilər.

Dronqo tələsik evdən çıxdı. Onun cibində Leonidin həyatını riskə ataraq yazdırdığı kaset var idi. Bu kaset nə idi – onun alibisimi? Yoxsa özünə bəraət qazandırmaq istədiyi bir məlumatmı? Bunu öyrənmək üçün ofisə çatıb bu kaseti dinləməkdən başqa çarə yox idi. Dronqo əlini qaldırdı və təəssüflə pencəyinin sağ qolunun meyitə baxarkən qana bulaşdığını gördü.

«Bir bu əskik idi, – o, əsəbi halda düşündü, – təcili əynimi dəyişməliyəm. Yoxsa üstəlik bu bədbəxtin ölümünü də mənim ayağıma yazacaqlar».

# *DÖRDÜNCÜ GÜN*

Onlar generalla birlikdə oturub Dronqonun gətirdiyi kaseti dinləyirdilər. Kasetdə sürücü Leonidin söhbət əsnasında bir neçə dəfə Arsen adlandırdığı naməlum bir adamla söhbəti yazılmışdı.

« – Başa düş – Leonid əsəbiləşirdi, – həmişə göz qabağında olmaq olmaz. Hamı başa düşəcək ki, o qızı sənin yanına mən aparıb-gətirmişəm.

— Heç kim bir şey başa düşməyəcək, — Arsen boğuq səslə cavab verirdi, — hər şey yaxşı olacaq. Atılıb-düşməsən, hər şeyi tələb olunduğu kimi edəcəyik.

— Tələb olunduğu kimi, tələb olunduğu kimi, — Leonid əsəbiləşirdi. — Sən heç olmasa özün bizim nə kimi bir işə ilişdiyimizi dərk edirsən? Bir adam xəbər tutsa, bizim ikimizi də tikə-tikə doğrayacaqlar.

— Doğramazlar. Elə bilirsən Moskvada göstəriş verən bircə sənin rəisindir? Burada elə rəislər var ki, səninkini heç ruhu incimədən belə ayaqlarının altında qoyarlar. Sadəcə olaraq, onlar əllərini qana bulamaq istəmirlər, ona görə də İrişkanı yollayıblar. İstəsəydilər, onun özünü çoxdan bir yerdə boğub öldürərdilər.

— Hə, sən elə fikirləş. Bax görüm ona əlləri çata bilirmi? — deyə Leonid etiraz elədi. — Heç bilirsən bizim necə qoruma xidmətimiz var? Generalımız da ağıllı-kamallı kişidir. Bizə əl çatdırmaq elə də asan iş deyil.

— Nə olsun, fahişə məsələsində ki tilova düşdülər, — Arsen inkar elədi. — Adam istəsə, dağı dağ üstə çevirər, istənilən bir adama yol tapmaq olar. Prezidentləri öldürməyi

bacarıblar, sənin rəisin kimi bir çəlimsizi məhv etmək iki dəqiqəlik işdir.

— Doğrudan deyirsən? Səncə onu güllələyəcəklər?

— Hələlik yox. Əgər işləri düzgün qursaq, İrina məsələsində də hər şey yolunda olacaq. Yox, əgər inad eləsə, onda günün görər. Bir anın içində işinə baxacaqlar, bir göz qırpımında.

— Bəs İrina necə olsun?

— Heç necə. Onların hardasa bir yerdə olanda şəkillərini çəkəcəklər. Sonra şəkilləri ona göstərəcəklər. Nə etməli olduğunu da izah edəcəklər. Sözə baxmaq istəməsə, şəkillərini televiziya ilə yayınlayacaqlar. Ya da qəzetlərdə dərc edəcəklər. Qəzetlərdə indi elə materiallara çox üstünlük verilir. Bilirsən hər şey necə maraqlı olacaq?! Bu yaxınlarda bir nazir o tipdə bir işə düşmüşdü. Hamamda, qızlarla kef edirmiş. Bunun da hamısını kamera ilə çəkiblərmiş. Şəkillər dərc olunanda isə onun axırı çatdı.

— Nazirin məsələyə nə aidiyyəti var? — deyə Leonid məntiqlə soruşdu. — Elə bilirsən mənim rəisimi o cür şəkillərlə qorxuda bilərsiniz? Şəhərin qız-qadınlarının yarısı onun əlindən keçib. Bunu bütün Moskva bilir. Bilirsən onun yanına hansı aktrisalar, hansı say-seçmə qız-qadınlar gətirilib? Onları özüm onun yanına aparıb-gətirmişəm. Siz də onun başını İrina ilə tovlamaq istəyirsiniz.

— Niyə elə deyirsən ki? Məgər bu dəqiqə oteldə İrina ilə birlikdə deyil? — deyə Arsen xatırlatdı. — Heç də bir iş bacara bilməyəcəyimizi demə. Buna nə sən, nə də mən qərar verəcəyik. Bizim işimiz xırda işlərdir — gətirdin, apardın, tanış elədin, aradan çıxdın. Vəssalam. Pulumuzu alıb kral kimi yaşayacağıq.

— Əgər məni aldatmasan! — Leonid hədə nidası ilə ona dedi. — Özün bilirsən ki, mən səni heç vaxt aldatmamışam. Nə vaxt qız lazım olubsa, həmişə sənə müraciət eləmişəm. Mənim rəisim də sənin fahişələrin üçün yaxşı pullar ödəyib.

İndi isə, Arsen, əgər məni aldatsan, hər şeyi ona deyəcəyəm. Bizim söhbətimiz barədə də deyəcəm.

— Məni hədələmə, — Arsen onun sözünü kəsdi, — məni yaxşı tanıyırsan. Mən səni pis vəziyyətdə qoymaram».

— Leonid yenə də ona inanmamışdı, — Dronqo qeyd etdi, — ona görə də bu söhbətlərini kasetə yazmışdı. Görünür, özünü sığortalamaq üçün.

— Sən pis vəziyyətdə qoymazsan, — deyə Leonid davam edirdi, — bəs onlar necə? Bəlkə aldadacaqlar? Yüz min az pul deyil. Elə pul üçün adam özünü asa da bilər.

— Yaxşı-yaxşı, qorxuya düşmə. Biz səninlə hələ ondan da çox pul qazanacağıq. Qız çoxdur, iş yetərincədir — deyə Arsen sevincək bildirdi, sənin işin bircə odur ki, hər işi səliqə ilə görəsən, qız hara desə — onu apar. Artıq-əskik sual da vermə. Heç bilirsən o qız necə məğrurdur?

— Hə, hamısı məğrurdur, — Leonid ədəbsiz sözlər yağdırdı.

— Yox, yox, İrina elə deyil. O, yüksək səviyyəli birisidir. O sənin üçün Tver küçəsində itinə tök olan fahişələrdən deyil.

— Fərqi nədir? Onunla evlənəsi deyiləm, bir yaşayası deyiləm. O, heç mənimlə danışmır da. İki dəfə onunla söhbət etməyə cəhd eləmişəm, mənə naz edir, ağzını-gözünü büzüşdürür. Guya ki, mən onun kim olduğunu bilmirəm.

— Bilirsən, bilirsən, — Arsen əsəbi halda deyindi, — sən hər şeyi bilirsən. Amma bəri bax, diliuzunluq eləmə ki, dilini kəsib gödəltməsinlər, eşitdin?!»

Birinci söhbət bitdi. Səciyyəvi bir xışıltı səsi eşidildi, sanki kaseti kimsə irəli fırlayırdı.

— Köpək oğlu şərəfsiz! — Fedoseyev yumruğunu stola çırpdı. Kompaniya prezidentinin şəxsi sürücüsünün göz

qabağındaca düşmən tərəfə işləməsi, onların sürücünü belə asanlıqla “işə” cəlb edə bilmələri onun üçün böyük bir zərbə idi. — Mən təxmin etməliydim, — Savva Afanasyeviç dilxor tonda dedi, — axı biz hamımız Aleksandr Mixayloviç üçün gətirilən qızları onun gətirdiyini bilirdik. Qonaqlar bağ evində gecələyəndə, ya da harasa təbiət qoynuna yollananda, Lyonya qız gətirməyə gedirdi.

— Deyəsən, bu lentdə ikinci söhbət də var, — deyə tanış səsləri eşidən Dronqo bildirdi.

— Sən axı deyirdin qorxulu heç nə olmayacaq — Leonid qışqıra-qışqıra deyirdi, — sən axı demişdin ki, onlar, sadəcə, bir neçə dəfə görüşüb, birlikdə vaxt keçirəcəklər. Halbuki qızı öldürdülər. Kim öldürdü onu?

— Mən hardan bilim? Sənin rəisin özü öldürüb. Mən elə bir qız seçmişdim ki, gəl görəsən — hamının xoşuna gələn biriydi — gözəl-göyçək, bacarıqlı, tələbə, sənin alçaq rəisin isə onu öldürdü. Yəqin kefini sürüb, doyub, indi də başından eləmək qərarına gəlib.

— Axmaq-axmaq danışma! — deyə Leonid ümidsizcəsinə qışqırırdı. — Mənim rəisim onu necə öldürə bilərdi axı? Axmaq deyil ki. Öldürüb, vizit kartı kimi qoyub öz nömrəsində qalsın? Dəli olmusan, hə? Qızı qəsdən öldürüb otelin nömrəsində qoyublar ki, hamı günahı Mixayloviçdə görsün. Elə bilirsən mən heç nə anlamıram? Sən də elə ilk başdan bunları bilirdin. Qızın onun nömrəsində öldürüləcəyini və elə orada saxlanacağını da bilirdin.

— Mən heç nə bilmirdim, — Arsen etiraz elədi, — mən, sadəcə, qızı göndərdim, vəssalam. Yaxşı bir qız seçib, sənin rəisin üçün göndərdim həmişəki kimi. O da götürüb qızı gəbərdib. Vəssalam. Gəbərdib, sonra da qorxusundan altını batırıb Parisə qaçıb.

— Rəisim o qızı öldürməyib deyirəm sənə, — Leonid əsəbiləşməyə davam edirdi, — qız vannada çimdiyi yerdə rəisim onu necə öldürə bilərdi axı? Biz onun dalınca nömrəyə gəldik. Rəis hələ vanna otağına girib qızla vidalaşıb öpüşdü. Sonra biz çantalarını götürüb onunla birlikdə nömrədən çıxdıq. Bilirsən qız onun necə xoşuna gəlmişdi?! Onlar hələ yenə də görüşəcəklərinə dair sözləşmişdilər.

— Sən özün vanna otağına girib gözünlə hər şeyi görmüsən? — Arsen soruşdu. — Qızı öz gözlərinlə sağ gördün? Bəlkə orada, sadəcə, suyun səsi gəlirdi, ya da başqa bir qadın var idi? Nə bilirsən ki, siz gedəndə İra hələ sağ idi?

— Mən nömrədə olmuşam. Çamadanların dalınca təkrarən qayıtmışdım. Heç yerdə də meyit görmədim.

— Bəlkə rəisiniz sizi qəsdlə çağırtdırmışdı ki, onun üçün bir növ alibi olasınız? Bəlkə o, qızı öldürüb vanna otağında saxlamışdı, bəlkə ona görə suyu açmışdı? Siz çıxandan sonra isə meyiti götürüb otağa gətirib ki, o şərəfsizdən heç kim şübhələnməsin, hə, bəlkə belə olub məsələ?

— Şərəfsiz özünsən! — Leonid bağırdı. — Kim, axı kim onu öldürə bilər?

— Deyirəm ki, sənin rəisin özü öldürüb.

— Mən onu aeroporta şəxsən özüm aparmışam. Qız hələ onda sağ idi, — sürücü israrla təkrarlamağa davam edirdi.

— Sağ idi, sağ idi... Bəlkə rəisin aeroportdan qayıdıb onu öldürüb? Nə bilirsən? Bir maşın tapmaq onun üçün çətin iş idi bəyəm? Bəlkə o, ümumiyyətlə, sənin barəndə hər şeyi bilirmiş və sənin özünü pis vəziyyətdə qoymaq istəyirmiş?

— İndi mən nə edim? — Leonid soruşdu. Əsəbiləşdiyi açıq-aşkar bəlli olurdu. Lakin belə bir lent yazısının onun

günahsızlığının sübutu ola biləcəyini düzgün düşünmüşdü.
— Ən azından Aleksandr Mixayloviçin qarşısında bəraətini qazanmaq üçün. Elə ona görə də bu söhbətləri kasetə yazdırıb.

— Heç nə eləmə. Sənin günahın yoxdur. Sənin işin xırda işdir. Apardın, gətirdin, vəssalam. Bu iş barədə təzə xəbər-filan eşitsən, dərhal mənə xəbər ver. Dərhal mənə zəng elə, mən özüm bir şeyi fikirləşib taparam...»

Bu yerdə lent yazısı bitdi. General ağır bir ah çəkdi və ağzından çıxan söyüşləri söydü. Demək olar ki, eynilə Leonidin kasetdə söydüyü kimi.

— Bu sübut deyil, — Dronqo fikirli-fikirli dedi. — Kaset ortaya çıxanda, mən sevindim ki, burada Aleksandr Mixayloviçin suçsuzluğunun sübut-dəlilləri olacaq. Bu kaset isə daha çox Leonidin bu kirli hadisə ilə birbaşa əlaqədarlığının və qətllə əlaqəsinin olmadığının sübutudur. Bu kaset müstəntiqlərin əlinə düşsə, onlar burada danışılanlardan onunla birlikdə oteldə qalan qızın qatilinin həqiqətən də Aleksandr Mixayloviçin olduğu və onun məsuliyyətdən qorxaraq qaçdığı nəticəsinə gələcəklər.

— Bəli, konkret bir şey yoxdur, — Fedoseyev dilxor halda təsdiqlədi. — Mən bu əclafı öz əlimlə boğardım...

— Artıq gecdir, — Dronqo bildirdi, — onu artıq başqa əllər aradan qaldırdı. İndi bizim qarşımızda duran daha konkret məsələdir. Bu Arsenin kim olduğunu ayırd etmək. Söhbətdən onun ya dəllal, ya da sutenyor olduğu aydınlaşır. Yəqin ki, onun qızları necə hazırlayıb tədarük etdiyinə dair dediklərini eşitdiniz, deyilmi? Deməli, şübhəlilər dairəsi məhduddur. Adamlarınıza tapşırın ki, sutenyorlar və dəllallar arasında onu axtarsınlar. Əgər Aleksandr Mixayloviçin dost-tanışı üçün qızların gətirilməsi məsələsində ona müraciət olunurdusa, deməli, bu Arsen dediyimiz adam kifayət qədər tanınmış birisi olmalıdır.

Mənim anladığım qədər, orada söhbət həqiqətən də «say-seçmə nüsxələrdən» gedirdi.

— Axtararıq, — Savva Afanasyeviç razılaşdı, — mənim bu alçaqların dalınca düşməyə adamım da çatmır. Hərraca isə cəmisi bir neçə gün qalıb — general təşvişlə xatırlatdı, — sizcə, bir nəticə əldə etməyi çatdıracağıq?

— Çatdırmalıyıq — Dronqo cavab verdi. — Heyif ki, Leonidi əldən verdik. Gərək onu hələ dünən ikən sorğu-sual edəydik. O bizə çox yardımçı ola bilərdi. Kasetdə danışılanlardan onun həqiqətən də qızın qatilini tanımadığı məlum olur. Buradan isə belə bir nəticə irəli gəlir. Ya Aleksandr Mixayloviçi çapıqlı çiynilə təqlid edən qatil elə Arsen özü imiş, ya da onun tanıdığı adamlardan biri. İstənilən halda Arsen bu gün səhər sürücünün evinə gəlmişdi.

— Nədən belə qərara gəldiniz?

— Leonid qapını hər yoldan keçənə açmazdı. O, qapını açıb tanışını, ya da tanışlarını içəri buraxmışdır. Gələnlərin onu öldürmək niyyətində olduğunu anlayanda isə instinktiv olaraq bu kaset gizlədilmiş pəncərəyə tərəf qaçmışdı. Arsenin bu gün o evdə olması şübhəsizdir. Bəlkə o bədbəxt Arsenin onu müdafiə edəcəyinə inanırdı? Ona görə də biz Arseni mütləq axtarıb tapmalıyıq.

— Bütün Moskva bizə güləcək, — general məyusluqla bildirdi, — mənim işçilərim indi də bir sutenyor axtarışına çıxmalıdır.

— Başqa çarəmiz yoxdur, — Dronqo onun sözünü kəsdi, — əks halda həqiqətən də məğlub olacağıq. Bir neçə gün qalıb, general, sizin adamlarınızın çəldliyindən çox şey asılıdır. İndi saat səkkizə işləyib. Bir azdan Lısakov evinə gedəcək. Mən tələsməliyəm.

— Silahınız varmı?

— Tapançam var, amma bildiyiniz kimi, güllələrini əlimdən alıblar.

— Mən sizə güllə verilməsi üçün göstəriş verəcəm. Yenə bir şey lazımdırmı? İstəyirsiniz köməyə əməkdaşlarımdan ayırım? — deyə Fedoseyev alicənablığını nümayiş etdirdi.

— Xeyr, — Dronqo gülümsədi, — istəmirəm. Əgər mənim Lısakovla söhbətim zamanı nəsə baş versə və həmin vaxt orada sizin adamlarınız olsa, onda Aleksandr Mixayloviçin kirayələdiyi otel nömrəsindəki qalmaqaldan daha gurultulu bir qalmaqal yaranar. Sizə düşmən olan qəzet və jurnalların milis mayoru, cinayət-axtarış idarəsinin baş inspektorunun qətlində sizin adamların əlinin olduğunu nə qədər böyük bir zövqlə dərc edəcəklərini təsəvvür edə bilirsinizmi? Belə bir qalmaqaldan sonra istənilən hərracın məğlubiyyətə uğramış olduğuna heç bir şübhə-tərəddüd qalmaz.

— Bəli, — general təsdiqlədi, — yəqin ki, siz haqlısınız.

— Bir də mənim üçün balaca kasetli bir cib maqnitofonu hazırlayın. İki kasetli olsa, daha yaxşı olar. Birində bu söhbətin surəti olmalıdır.

— Mən onu elə bu dəqiqə başqa bir kasetə köçürəcəyəm, — general bildirdi.

— Lap yaxşı, — Dronqo yenidən saata baxdı. — Bizim həqiqətən də çox az vaxtımız qalıb. Tapançaya bir səsboğan da əlavə etməyi unutmayın. Təbii ki, onu qısa zamanda tapa bilsəniz.

# *DÖRDÜNCÜ GÜN*

Üç saata yaxın idi evin yanında gözləyirdi. Hava kifayət qədər soyuq idi və Dronqo növbəti dəfə özü ilə gödəkcə

götürmədiyinə heyifsiləndi. Amma evə qayıtmaq məqsədəuyğun deyildi. Yuxusuz gecədən sonra başı möhkəm ağrıyırdı. O, heç oturduğu skamyadan ayağa qalxıb xiyabanda gəzişməyə belə özündə taqət tapmırdı. Skamya həyətə girişlə üzbəüz yerdə idi. Buradan Lısakov evinin həyətinə girərkən görünəcəkdi. Dronqo artıq mayorun adətən işə gedib-gəldiyi tünd rəngli «09» markalı maşınının olduğunu öyrənmişdi.

Bahar fəsli olmasına baxmayaraq, gecə havalar hələ də soyuq keçirdi. Dronqo təəssüf hissi keçirərək alnını ovxaladı. Saçı tökülməyə başladığından, başı sanki müdafiə qatından məhrum olmuşdu və soyuq havada papaqsız bayıra çıxdıqda, tez ağrımağa başlayırdı. Onun başına beret, şlyapa və ya kepka qoymağı sevmədiyi nəzərə alınarsa, başı kifayət qədər tez-tez ağrıyırdı və yeganə xilas vasitəsi bir tanış gürcü diplomatının ona bir vaxtlar hədiyyə etdiyi keçədən tikilmiş svan papağı idi.

Təbii ki, o bu papağı əməliyyata yollanarkən özü ilə götürməmişdi, hava isə getdikcə daha da soyuyurdu. Dronqo yenidən gicgahlarını ovxaladı. O, təəssüf hissilə cinayət-axtarış idarəsinin normallaşdırılmamış iş gününün dan yeri ağarmağa başlayandan o biri günün sübh çağına kimi davam edə biləcəyini düşünürdü. Fikrə dalmaq üçün vaxtı kifayət qədər idi. Bu üzdən də o, Moskva Cinayət-Axtarış İdarəsi əməkdaşlarının işi barədə fikirlərə qərq oldu. Bəli, hazırkı şəraitdə onların işi çox ağır idi – aşağı əməkhaqqılı və alqışlanmayan. Baş inspektorların işində qalmaları üçün iki variantları var idi. Ya bütün məişət və mənəvi nöqsanlara göz yumub, dişini canına sıxaraq fədakarcasına çalışmağa davam etmək, ya da öz vicdanına tüpürüb işindən nəinki mənəvi, həm də adi cinayət-axtarış inspektorlarının maaşından qat-qat artıq maddi gəlirdən zövq alaraq çalışmaq. İnspektorların az bir qismi birinci kateqoriyaya aid idilər, böyük əksəriyyəti isə ikinci

kateqoriyaya. Aralarında hər iki kateqoriyaya aid edilənləri də var idi – onlar həqiqətən də həyatlarını riskə ataraq işlərinə canfəşanlıqla yanaşırdılar. Lakin bununla yanaşı, istənilən gəlirli bir işdən mənfəət götürüb qazanmaq imkanlarından da vaz keçmirdilər. Görünür, mayor Lısakov da bu növ insanlara aid idi.

Gecə saat on ikinin yarısında Dronqo, nəhayət, mayorun «09» markalı maşınının həyətə girdiyini gördü. Sükan arxasında Lısakov özü əyləşmişdi. Maşının salonunda ondan başqa kimsə yox idi. Lısakov həyətə girib maşından düşdü və qarajın qapısını açdı. Sükana əyləşib maşını ehtiyatla qaraja sürdü. İşığı yandırdı. Qaraj qapılarının bir tayını bağladı. Açarı çıxarıb qapını bağlayaraq maşını siqnalizasiyaya qoymaq üçün ona yaxınlaşdı və elə bu anda arxadan qaraj qapısının ikinci tayının örtüldüyünü eşitdi. Lısakov geriyə çevrildi. Qapının ağzında əlində tapança ilə Dronqo dayanmışdı.

— Axşamınız xeyir, — o, mayorla salamlaşdı, — evə nə yaman gec qayıdırsınız!

Lısakov qorxaq adam deyildi. O da özünü itirmədi. Gözləri qəzəb saçaraq əlini siqnalizasiya düyməsinə uzatmaq üçün bir jest elədi. Əgər o, cəld aşağı əyilməyi çatdırsa, sirena bütün qonşuları onun maşınına hücum olunduğundan xəbərdar edəcək. Amma bunu etməyə ona dünən bu qədər axmaqcasına əldən buraxdığı bu tip də mane ola bilər. O, atəş aça bilər. Lısakov bunu yaxşı anlayırdı.

— Bir addım geriyə atın, — Dronqo pistoletini yuxarı qaldırıb əmr elədi.

Mayor təəssüflə siqnalizasiya düyməsinə baxıb qamətini düzəltdi və bir addım arxaya çəkildi.

— İndi son dərəcə ehtiyatla, sağ əlinizin iki barmağı ilə tapançanızı çıxarıb yerə atın, — Dronqo təklif elədi, — sizi

xəbərdar edirəm, cüzi yanlış hərəkət etsəniz, atəş açacağam. Yeri gəlmişkən, fikir verdinizsə, mənim tapançam səsboğanlıdır. Atdığım güllələrin səsini eşidən belə olmayacaq.

Lısakov əlini sol çiyninin altından asılmış qoburundakı tapançaya uzatdı.

— Yavaşca, — Dronqo xatırlatdı, — çox asta və ehtiyatla.

Mayor yenə də tapançasını əlinə alıb risk etmək istədi və həmin anda başının üstündən atılan gülləni gördü. Dronqo tərəddüd etmədən atəş açmışdı. Boğuq bir şappıltı səsi gəldi. Lısakov barmağını çaxmaqdan çəkib tapançasını yerə atdı.

— Başı xarab, — deyə o, qarşısındakı adama baxıb deyindi.

— Özü də necə başı xarab — təsəvvür edə bilməzsiniz — Dronqo təsdiqlədi. — Dünən siz qarşımda əlinizdə tapança dayanaraq pasportumu cırıb məni həbsxananızın karserinə atmağa çalışırdınız. Səhv etmirəmsə, kabinetinizdə hətta döyülüb zor tətbiqinə də məruz qaldım. Hərçənd, mən kinli adam deyiləm. Mənim sizə cəmisi üç sualım var. Zəmanət — həyatınızdır. Ya mənim suallarıma cavab verirsiniz, ya da sabah səhər sizi bu qarajda tapırlar.

— Hamı bunun sənin əl işin olduğunu anlayacaq, — mayor nifrətlə pıçıldadı.

— Mən bundan əmin deyiləm. Birincisi, mənim alibim var, bu məsələdə mən öncədən tədbir görmüşəm. İkincisi, mənim diplomatik pasportum var, deməli, hətta yaxalansam belə, ən pis halda Rusiyadan çıxarılmaqla kifayətlənəcəm. Nəhayət, üçüncüsü, ümid edirəm ki, sabah səhər mayor Lısakov barədə bugünkündən bir o qədər də fərqli şeylər öyrənməyəcəklər.

— Hədə-qorxu gəlirsən? — mayor dişlərini ağartdı.

— Yox. Sadəcə, məlumatlandırıram. Məndə maraqlı bir kaset var. Orada nömrəsində qadın meyiti tapılmış həmin o biznesmenin sürücüsü ilə qadını ora gətirən bir adamın söhbəti yazılıb. Dinləmək istəyirsən?

— Nə kaseti? — deyə Lısakov anlamadı.

Cavab yerinə Dronqo sol cibindən kiçik bir maqnitofon çıxarıb, maşının kapotuna qoyaraq qoşdu. Leonidlə Arsenin səsləri eşidildi. Mayor başını bir qədər əyərək, sanki bu səs yazısının nə yolla qarşısında dayanmış bu təhlükəli adamın əlinə düşdüyünü anlamağa çalışar kimi çox diqqətlə dinləyirdi. Dronqo isə, öz növbəsində, diqqətlə əsirini müşahidə edir və söhbət zamanı onun üz cizgilərində cüzi dəyişiklikləri belə tutmağa çalışırdı. Birinci yazı bitdi və Dronqo maqnitofonu söndürdü.

— Bu hamısı deyil, — o, gülümsəyərək izah elədi. — Davamını dinləmək istəyirsiniz, yoxsa mənim sözümə inanacaqsınız?

— Məndən nə istəyirsən?

— Sadəcə, üç istəyimi yerinə yetirməni istəyirəm. Sehrli nağıllardakı kimi. Siz mənim üç istəyimi yerinə yetirirsiniz, mən də yox olub gedirəm. Sizi maşınınızla və tapançanızla təkbətək qoyub çıxıb gedəcəm. Yeri gəlmişkən, zəhmət olmasa tapançanızı ayağınızla maşının altına itələyin. Mən çaxmağa basmazdan öncə sizin sıçrayıb onu götürə bilib-bilməyəcəyinizi düşünüb-daşınaraq ona vecə baxdığınızı görürəm. Sizi inandırım ki, çatdırmazsınız. Ona görə də boş xülyalara qapılmağa ehtiyac yoxdur, ayağınızla onu maşının altına itələyin.

Lısakov dişlərini qıcadı, amma cavab vermədi. Sadəcə, ayağı ilə tapançanı vurub maşının altına itələdi. O, bilərəkdən tapançaya möhkəm vurub onu kənara itələdi. Tapança divara dəyib geriyə uçdu və maşının altına, düz

mayorun ayağının yanına düşdü. Bu arada Dronqo sol əlilə birinci kaseti çıxarıb yerinə ikincisini qoydu və yazılma düyməsini basdı.

— Nə suallardır mənə verəcəyiniz? — Lısakov dişlərini qıcadı.

— Kameranı quraşdırıb, sonra da onu oradan çıxarmaq əmrini sizə kim verib? Bunu nə vaxt etmisiniz? Və Arsen kimdir?

Lısakov susurdu. O, beynində götür-qoy edərək nə deyəcəyini düşünür, üstünə tuşlanmış tapança isə onu açıq-aşkar əsəbiləşdirirdi.

— Zəmanətiniz hardadır? — mayor ağır nəfəs alaraq soruşdu.

— Zəmanətiniz mənim sözümdür, — Dronqo səbatla cavab verdi, — zənnimcə, bu kifayət qədərdir. Sizdən fərqli olaraq, mən verdiyim vədi heç vaxt pozmuram.

— Mən kameranı quraşdırmamışam, bunu kimin etdiyini də bilmirəm. Bu, birinci sualınızın cavabı.

— Amma çıxarmaq sizin işinizdir?

— Hə, — mayor təsdiqlədi.

— Kameranın çıxarılması əmrini sizə kim verib?

Lısakov cavab vermirdi. Dodaqlarını yaladı. Gözlərini yumub açdı.

— Yox, — cavab verdi, — bunu sənə deməyəcəm, istəyirsən atəş aç.

— Kameranı nə vaxt çıxardınız? — Dronqo ona «Siz» deyə müraciət edir və bu da onu daha çox əsəbiləşdirərək çaşdırırdı.

— Qətl günü. Mən otaqda tək qaldım. Divardakı şəklə yaxınlaşıb kameranı çıxardım. Axşam mən həmin otaqda oraları yığışdıraraq şəklin altından sallanan məftillərə baxan Koptevanı gördüm. Ona kiməsə bir kəlmə belə deməyəcəyini tapşırdım.

— Arsen kimdir?

— Bilmirəm. Yəqin ki, hansısa sutenyordur. Mən elə xırda adamlarla məşğul olmuram. — Dronqo Lısakovun əməliyyatçılara xas məntiqi düşüncəyə malik olduğunu və lentdəki yazıdan düzgün nəticələr çıxardığını düşündü.

— Yaxşı, — Dronqo dedi, — siz mənim iki yarım sualıma cavab verdiniz. Sadəcə olaraq, birinci sualın yarısı qaldı. Beləliklə, bir daha soruşuram — kameranı çıxarmağı sizə kim əmr etmişdi?

— Deməyəcəm, — Lısakov inadla təkrarladı.

— Onun içində kaset var idi?

— Yox, içindən çıxarılmışdı, kamera boş idi.

— Kameranı kimə verdiniz?

— Heç kimə. Mənə onu oradan çıxarıb sındırmaq tapşırılmışdı. Mən də deyildiyi kimi elədim. Çıxaran kimi aparıb sındırdım, xırdaladım və sınıqlarını çaya tulladım.

— Eyni sualı təkrarlayıram, — kameranı çıxarmanızı sizə kim tapşırmışdı? Ya da istəyirsinizsə, sualı belə qoyaq — kameranı sındırmağı sizə kim tapşırmışdı?

— Yox, — Lısakov yenə də höcətləşdi, — bunu deyə bilmərəm. Məni o saat öldürərlər. Bu barədə bir kəlmə belə deyə bilmərəm.

— Bizim bu söhbətimiz barədə kimsənin xəbəri olmayacaq — sizə söz verirəm.

— Yox, — deyə Lısakov inadından dönmürdü, — onlar məni tapıb öldürəcəklər.

— Elə bilirsiniz sizi mən öldürsəm daha yaxşı olar?

— Deyə bilmərəm, — Lısakov köks ötürdü, — bilmərəm.

— Hə, bir də Kopteva qalır. O sizin ona şəklin altındakı gizlinc barədə heç kimə bir söz deməməyi tapşırmanızı təsdiqləyər.

Lısakovun üzündə sanki gülümsəmək istəyirmiş kimi bir kölgə sezildi. Dronqo boş güllə açdığını hiss elədi.

— Yeri gəlmişkən, — Dronqo ondan bu kozırı qoparmağın zəruri olduğunu anladı, — biz onunla söhbəti də lentə yazmışıq. Odur ki, geriyə yolunuz yoxdur.

Bax, indi artıq Lısakov gərildi, gözə çarpacaq dərəcədə gərildi. Qarşısında dayanan adama qəzəbli bir baxış tuşladığından sir-sifəti dəyişdi.

— Mənə o adamın adını bilmək lazımdır, — Dronqo saata baxdı, — vaxt itiririk, mayor. Mən onun adını öyrənməmiş buradan çıxıb getməyəcəm.

— Polkovnik, — Lısakov pıçıltı ilə dedi, — polkovnik Savelyev, bizim idarənin rəisi.

— Çox yaxşı, — Dronqo cibindən mobil telefonunu çıxarıb nömrə yığmağa başladı. — Axşamınız xeyir, — deyə o, zəngini gözləyən İlyinlə salamlaşdı. — Bu dəqiqə biz mayor Lısakovla söhbət edirik. Səndən bir xahişim var, zəhmət olmasa bu dostumuzun çalışdığı idarənin rəisinin kim olduğunu bir araşdır. Mənə onun soyadı lazımdır.

— Lazım deyil, — Lısakov xırıltı ilə dedi, — mən yalan dedim. Yoxlamağa ehtiyac yoxdur. Bizdə elə bir polkovnik yoxdu.

— Hərgah yoxlamaq lazım deyil, — Dronqo məmnun tonda İlyinə dedi, — deyəsən dostumuz bizə həqiqəti söyləməyə hazırdır.

— Ehtiyatlı olun, — İlyin sağollaşaraq dedi.

— Beləliklə, mənə yalan söylədiniz. Bəlkə kamera tapşırığını sizə kimin verdiyini söyləyəsiniz? Siz kameranı kimin əmrilə sındırdınız? Mənə onun adı lazımdır! Cəld ol, Lısakov! Vaxt itiririk.

Mayorun ziddiyyətli düşüncələrlə daxili mübarizə apardığı bəlli olurdu. O, tərəddüdlər içində çapalayırdı.

— Əgər məni anlamadınızsa, mən sizə vəziyyəti izah edim. Yalan danışmağın heç bir anlamı yoxdur. İstənilən halda siz etibarınızı itirmiş olacaqsınız. Üstəlik, bir kimsə sizin mənimlə münasibətlərimizi də bəyan edəcək. Cəld qərar verin, mayor, vaxtınız çox məhduddur.

— Atəş açmayacaqsan ki? — mayor hələ də tərəddüd edirdi.

— Açmayacam. Bu, səfehcəsinə və məntiqdən kənardır. Mənə o adamın adını xəbər verəcəksinizsə, sizi niyə öldürüm? Bunu yalnız şəxsi qərəzlilik hissindən irəli gələrək edə bilərəm. Amma sizin məni kabinetinizdə döydüyünüzü unutdum belə. Hərçənd qabırğalarım indiyə kimi ağrıyır. Nəhayət, ən əsası: bədbəxt qadının oteldə qətlini planlaşdırıb həyata keçirən adamlar şahidləri təmizləməyin vaxtının yetişdiyi qərarına gəliblər. Az əvvəl lentə yazılmış səsini eşitdiyiniz Leonid bu gün səhər öz mənzilində qətlə yetirilmişdir. Sözlərimin həqiqət olduğunu yoxlamaq istəyirsinizsə, səhərki qətlin baş verdiyi ünvanı sizə deyə bilərəm. Siz də həmin dairənin milis idarəsinə zəng edib yoxlayarsınız. Siz bu kirli işin içinə çox dərin girmisiniz. Lısakov, yeganə şansınız da mənə həqiqəti söyləmənizdir.

— Onu öldürüblər? — deyə Lısakov eşitdiyinə inanmadı.

— Mən sizə ünvanı deyəcəm, siz də zəng edib yoxlayarsınız. Mən saxta oyun aparmıram. Onu bu gün səhər öldürüblər. Eynilə İrinanı güllələdikləri kimi güllələyiblər. İki güllə bədəninə vurublar. Nəzarət üçün atəşi də başından...

Mayor susurdu. O bu vəziyyətlə nə etməli olduğunu düşünərək gözlərini yerə dikib durmuşdu. Dronqo əsirinin vəziyyətinə anlayışla yanaşaraq onu tələsdirmirdi.

— Yaxşı, — Lısakov nəhayət cürətləndi, — deyəcəm... mən sizə deyəcəm... Amma o bunu məndən öyrənməyinizi bilməməlidir...

— Sizə söz verirəm. Onun adını deyin.

— Krivets. Polkovnik-leytenant Krivets. Petrovkada çalışır. Şöbə rəisidir. Əvvəllər mən onun şöbəsində işləmişəm. O, məni yanına çağırtdırıb, otel nömrəsində kameranın olacağını bildirdi. Boş kameranın. Onu oradan çıxarıb sındırmaq lazım olduğunu dedi. Mən də onun dediyini elədim. Vəssalam.

— Bu saat yoxlayarıq, — Dronqo yenidən mobil telefonunu çıxarıb nömrə yığdı. — Andryuşa, — o, mehriban tonda İlyinə müraciət elədi, — Lısakovun əvvəllər Petrovkada, polkovnik-leytenant Krivets deyə birinin başçılığı altında çalışıb-çalışmadığını araşdır. Hə, soyadı Krivetsdir. Tez araşdır və mənə zəng elə. Hələlik.

— Siz mənə söz verdiniz, — Lısakov xatırlatdı.

— Mən sözümün üstündə duracağam. Əgər sizin həqiqətən də onunla çalışdığınız təsdiqlənsə, mən çıxıb gedəcəm. Amma əgər sizin başqa bir adamı güdaza verdiyiniz məlum olarsa, mənim yerimə bir başqası gələcək. Həmin gələn adam daşınıb-düşünmədən sizi öldürəcək. Mayor, yəni siz cinayət yerindən kameranı aparmaqla necə bir oyuna girdiyinizi hələ də anlamamısınız? Həmkarlarınız arasında yoxlamalar, dindirilmə protokollarının qeydiyyatı və sənəd

alınması zamanı nəzərə çarpmayan pozuntuların mümkün olduğundan xəbərim var. Amma bu, tamamilə başqa bir məsələdir. Siz bu kamera ilə çox kobud bir yanlışlığa yol vermisiniz. İndi artıq bizim o qatilləri onların sizi tapmazdan əvvəl tapmamızda siz də maraqlısınız. Dünən mən sizə məhz bunu izah etməyə çalışırdım. Lakin siz məni heç dinləmək də istəmədiniz.

— Krivets, — Lısakov qətiyyətlə təkrarladı, — kameranı oradan çıxarmağı mənə o tapşırmışdı.

— İntizamlı iş baş verdiyi vaxt sizi himayə edən həmin adam idi? — deyə Dronqo soruşdu.

— Siz hardan bilirsiniz? — deyə Lısakov qəzəbləndi.

Bu vaxt mobil telefon zəng çaldı. Dronqo zəngə cavab verdi.

— Eşidirəm.

— Elə bir adam var, — deyə İlyin xəbər verdi, — doğrudan da əvvəllər Lısakovun rəisi olub. Sizcə, o sizə həqiqəti dedi?

— Bilmirəm.

Dronqo telefonu söndürüb cibinə qoydu. Sonra da maqnitofonu söndürüb, onu cibində gizlətdi.

— Yaxşı, Lısakov, — o, sağollaşaraq dedi, — çalışın bir neçə dəqiqə ərzində sakitcə durasınız. Mən qapıdan çıxana qədər. Ən əsası isə, bizim bu söhbət barədə özünüz heç kimə bəhs etməyin. Əks halda, sizi əhatə edəcək çoxsaylı düşmənlərdən qorunmaq sizin üçün həqiqətən də bir problemə çevrilə bilər. Bizim sizinlə heç bir söhbətimiz olmayıb. Amma əgər siz mənə qarşı hansısa tədbirlər görmək niyyətinə düşsəniz, onda bu söhbətin sədası düz sizin idarəyə qədər gedib çıxacaq. Yəqin ki, mənim bütün danışdıqlarımızı kasetə yazdığımı anlamış olarsınız, deyilmi?

— Alçaq! — Lısakov dişlərini qıcadı.

— Yox. Bunu, sadəcə, işimi ehtiyatlı tutmaq üçün elədim. Xasiyyətinizə bələd olduğum üçün, sizdən nə desən gözləmək olar. Bu mənim gələcək üçün təminatımdır. Gələn səfər sırf kefiniz elə istədiyi üçün sənədlərimi cırıb məni karserə yollamaq istədiyiniz halda, mən sizə bu lent yazısı məsələsini xatırladaram. kaset etibarlı və əmin bir yerdə saxlanılacaq, ondan arxayın olun. Hətta mənə yalan söyləmisinizsə, yenə də sizə yazığım gəlir, mayor Lısakov.

Mayor qəzəbindən özünə yer tapmırdı:

— Səni görüm...

— Bunu isə mən çox eşitmişəm. Uğurlu günlər, mayor. Sizə bir dənə də ulduz almanızı arzu edirəm. Ona tam mənası ilə layiq olduğunuzu düşünürəm.

Dronqo çevrilib qarajdan çıxdı. Lısakov əyilib maşının altından tapançanı götürüb onun dalına cəld küçəyə çıxdı. Həyətdə artıq heç kim yox idi. Lısakov tapançanı əlində möhkəm sıxmış vəziyyətdə bütün həyəti var-gəl elədi – bir ins-cins yox idi. Aciz bir qəzəb içində o, dodaqlarını dişləyirdi. Naməlum adam sanki ərimişdi. Onunla bərabər lentə alınmış söhbətləri də yoxa çıxmışdı.

# *BEŞİNCİ GÜN*

Andreyin kabinetində ikən o, nə dərəcədə yuxusuz olduğunu hiss elədi. İlyin raskladuşka gətirdi, amma Dronqo onu istəmədi, döşəyi götürüb yerə atdı.

— Mən çəkili adam yerdə yatsa yaxşıdır. Ən azından belim ağrımaz, — deyə təəccüblə ona baxan Andreyə bildirdi.

— Biz aşağıdakı qoruma xidmətçilərinin sayını artırıb, iş rejimini gücləndirmişik, — İlyin xəbər verdi, — qalmış bir neçə gün müddətində əməkdaşlarımızın ailələrini kiminsə şantaj yolu ilə narahat etməməsi üçün hamısını Almaniyaya, turist səfərinə yollamışıq. Biz hamını şəxsi məsuliyyət barədə xəbərdarlıq edirik. Fedoseyev öz evində qalır, amma sabah bizimlə birlikdə burada qalacağına söz verib.

— Yaxşı — Dronqo cavab verdi, — televizoru qoş, son xəbərləri dinləyim. Gecə saat birdə ORT kanalında təzə xəbərlər yayımlanacaq.

— Bütün kanallar hərracdan bəhs edir, — İlyin xəbər verdi, — elə bil zəncirdən qopublar. Bu hərracın ölkəmizin tarixində ən nəhəng hərrac olacağı bildirilir.

— Bu münasibətlə sizi ürəkdən təbrik edirəm, — Dronqo bunu söyləyə-söyləyə əynini soyunmağa başladı.

— Mən gedim, — Andrey ədəblə bildirdi.

— Dayan. Səninlə hələ söhbətim var. — Dronqo pencəyilə qalstukunu da çıxardı. — İnstitut məsələsindən nə xəbər var?

— Hələlik xəbər yoxdur, — Andrey köks ötürərək cavab verdi, — biz elə bir fakültəsi olan bütün institutları yoxlayırıq. Amma heç birində İrina Maksimenko adlı tələbə yoxdur. Bəlkə qız yalandan demişdir?

— Lentdəki yazıda Arsen demişdi ki, İrina məğrur qızdır, tələbədir. Böyük ehtimalla, qız həqiqətən də tələbə imiş. Axtarışlara davam etmək lazımdır.

— Bizim iki nəfər əməkdaşımız bu işlə məşğuldurlar — İlyin bildirdi, — sabah da davam edəcəklər.

— Sabah bu həftənin axırıncı iş günüdür, — Dronqo xatırlatdı, — bacardıqları qədər çox ali təhsil ocaqlarını

yoxlamağa çalışsınlar. Hamısını yoxlamaq lazımdır — axşam, əyani, qiyabi fakültələrini — bir sözlə, hamısını.

— Mən onlara elə bu cür tapşırıq vermişəm.

— Yaxşı. Arsen məsələsi nə yerdədir? Onun kim olduğunu öyrənə bilmisiniz?

Andrey günahkarcasına bildirdi:

— Yox. O qədər iş var ki, heç Arsen yada düşməyib. Amma biz onu da axtarırıq.

Dronqo qaşlarını çatdı:

— Pis axtarırıq. Hərçənd, deyəsən öz günahımdır. Əvvəlcədən mənə, sadəcə, iki nəfər köməkçi ayrılmasını istəmişdim. Düzdür, onlardan biri ayağını zədələyib, ikincisini isə müxtəlif tapşırıqlarla daran-darta çəkirlər, mən isə öz məsuliyyətimi başqalarının boynuna qoymamalıydım. Yaxşı, sabah səhər özüm Arsenin axtarışı ilə məşğul olacam. Mənim müəyyən əlaqələrim var, çalışaram onlardan da istifadə edəm.

— Yaxşısı budur, siz bir az istirahət edin, — Andrey tövsiyə elədi, — neçə vaxtdır ayaq üstəsiniz.

— Həqiqətən də, yaxşı olardı, — deyə Dronqo razılaşdı və elə bu vaxt telefon zəng çaldı. Andrey təəccüblə Dronqoya baxıb dəstəyi qaldırdı.

— Axşamınız xeyir, Aleksandr Mixayloviç — o, salamlaşdı və Dronqo bu zəngin Parisdən gəldiyini anladı. Dəstəyi qaldırdı.

— Axşamınız xeyir, — o, biznesmenin tanış səsini eşitdi. — Necəsiniz? İşləriniz necədir?

— İşləyirik. — O, dinlənilə biləcəklərini unutmurdu, ona görə də telefonda işlər barədə danışmayacaqdı.

— Bu gün prokurorluqdan mənim qəbul otağıma zəng eləmişdilər, — deyə Aleksandr Mixayloviç xəbər verdi. — Onlar şahid ifadəsi verməyim üçün mənim Moskva gəlməyimi tələb edirlər. Necə bilirsiniz, mən ora getməliyəm, ya yox?

— Zənnimcə getməlisiniz, — Dronqo cavab verdi, — siz ki onların bu işin təfərrüatları ilə maraqlandığını başa düşürsünüz. Sizin qayıtmaqdan imtina etməyə davam etməniz lazımsız şübhələrə yol aça bilər. Bundan da əlavə, mən sizin Moskvada olmanızın Parisdə olmanızdan daha faydalı olacağını düşünürəm.

— Mən də bu barədə düşünmüşəm. Bazar günü gəlməyə qərar vermişəm. Problemimizin həlli üçün hələ ehtiyatda bir günüm qalacaq. Bazar ertəsi günü müraciət ərizələrinin vaxtı bitir, — deyə biznesmen xatırlatdı, — biz isə hələ heç nəyin təsdiqini tapmamışıq. Ya hərracda iştirakımızı təsdiqləməliyik, ya da iştirakdan imtinamızı.

— Buna siz gələndən sonra qərar verəcəyik, — Dronqo səbatla bildirdi, — gəlin, yolunuzu gözləyirik.

O, telefonun dəstəyini asıb Andrey İlyinə baxdı.

— Yatmır, — deyə İlyin köks ötürdü, ümumiyyətlə, çox gec yatan adamdır, gecələr işləməyə üstünlük verir.

— Mənə bu xüsusiyyəti barədə demişdi, — deyə Dronqo cavab verdi, — yaxşı ki, əlimizdə bu dəlil — kaset var. Birinci yazını müstəntiq üçün saxlamaq olar, ikincisini isə pozmaq lazımdır. Ən azından sabah səhər prokurorluğa verməyə hazırlaşdığımız surətdəki yazını. Aleksandr Mixayloviçin bu cinayətdə iştirakına dair bütün şübhələrin üzərindən götürülməsi lazımdır.

— Sizcə bizə inanacaqlar?

— Nə qədər ki əlimizdə videoyazılı kaset yoxdur — inanmayacaqlar. Hadisələrin gələcək inkişafı bizdən asılıdır. Ya qətl lentə alınan lenti prokurorluğa verib sizin rəisin axırına çıxacaqlar, ya da biz bir şey fikirləşib tapmağı çatdıracağıq. Hələlik cüzi də olsa uğurumuz var və biz birinci söhbət yazılmış lenti prokurorluğa verə bilərik. Sizin sürücü öldürülüb və bu səbəbdən də səs yazısını lazımi yerə təqdim etməklə, ona zərər vermiş olmarıq. Lakin plyonkanı ora verməzdən öncə Arseni tapsaq yaxşıdır.

— Deməli, sabah, nəyin bahasına olursa olsun, Arseni axtarıb tapmalıyıq, — deyə İlyin nəticə çıxardı.

— Sabah yox, artıq bugündən başlamaq lazımdır, — deyə Dronqo saata baxdı. — Gecəniz xeyrə qalsın, Andrey. Mən hələ bir az çalışmağı düşünürəm. Bugünkü hadisələri düşünüb-daşınmaq üçün bir neçə saat da çalışmalıyam.

— Gecəniz xeyrə qalsın. Andrey kabinetdən çıxdı. Dronqo əynini dəyişib yerinə uzandı. Xeyli müddət yerində çapalayaraq yuxuya gedə bilmədi. Bugünkü gün kifayət qədər uzun çəkdi. Sabahkı günün necə olacağı isə sırf Dronqonun özündən asılıydı. Nəhayət o, səhər saat dördə işləmiş yuxuya getdi. Yuxuda da əlini uzadıb tapançasını onun atəş açmasından tez götürməyi çatdıran Lısakovu gördü.

# *BEŞİNCİ GÜN*

Andrey tələsik kabinetə daxil olanda Dronqo hələ yatırdı.

— Nə olub? — deyə Dronqo başını qaldırıb tapançasını qoyduğu sol tərəfə baxdı. Adətən kinoda qəhrəmanların silahlarını yastıqlarının altında gizlətdiklərini göstərirlər. Amma Dronqo bunu edə bilməzdi, ən azından yastığının

altına əlini qoyduğu və yuxulu-yuxulu təsadüfən çaxmağa basa bildiyi üçün. Ümumiyyətlə, doldurulmuş tapançanı yastığın altına qoymaq, Dronqonun fikrincə, axmaqlığın son həddi idi.

— Bugünküdür, — Andrey kefsiz halda qəzeti stolun üstünə qoyaraq dedi, — «Moskovskiy komsomolets»də kriminal xronika.

— Nə xronikası? Qəzetin nə aidiyyəti var? — deyə hələ yuxudan tam ayılmamış Dronqo anlamadı.

— Dünən Dequnin küçəsində Kopteva adlı vətəndaşla naməlum bir kişi vəhşicəsinə qətlə yetirilmişdilər. Onları mənzillərinin qarşısına çatdıqları anda güllələyiblər. Cinayətin səbəbini heç kim anlamaya bilmir. Kopteva oteldə xadimə işləyirdi və qonşuların dediyinə görə...

— Qəzeti bura verin! — Dronqo qəzeti İlyinin əlindən aldı, xəbəri tələsik oxudu və qəzəblə qəzeti kənara tulladı, — təxmin etməliydim! Dünən mən Koptevanın adını çəkəndə Lısakovun sifətində elə bir ifadə var idi ki, sanki o qadın onun üçün artıq heç bir təhlükə kəsb etmirdi. Təxmin etməliydim, — deyə Dronqo təkrarladı. — Yalnız yalandan onunla olan söhbətimizi də lentə yazdığımı deyəndə Lısakov qorxuya düşdü. İndi mən onun nədən qorxduğunu dəqiq bilirəm. Bilmirəm tamahkarlığı, yoxsa axmaqlığı üzündənmi dünən öz evinə qayıdan Koptevanı onun əmrilə öldürüblər. Yanındakı kişi də, görünür, onunla birlikdə yaşayan adamdır. Ağılsız gədə qadını evinə getməkdən çəkindirə də bilməyib. Kopteva öldürülübsə, bütün izləri itirmiş olduq. Amma əgər məndə onun Lısakovun hədələrindən bəhs etdiyi kaset varsa, onda işin axarı nəinki tamamilə dəyişir, üstəlik Lısakovun özü ilə adamlarını əsas şübhəlilər sırasına daxil edir.

— Deməli, indi onun qarşısında dayanan məqsəd sizə çatmaqdır, — Andrey xoşagəlməz nəticə çıxardı, — ona görə

də yaxın iki-üç gün ərzində sizə buradan çıxmaq olmaz. Mənim kabinetimin pəncərələri həyətə baxır, aşağıda da qoruma xidmətimiz dayanır. Burada təhlükəsizlikdə olarsınız.

— Əksinə, — Dronqo inkar elədi, — ən təhlükəli yer məhz elə buradır. Onlar məni burada axtaracaqlar. Onların mənim barmaq izlərim olan əşyaları əldə edib, Kopteva ilə tanışının öldürüldükləri pilləkənin üstünə atacaqları istisna deyil. Əgər bizə atəş açılan gün evinə getdiyimiz Kopteva ilə tanışının öldürülmələrini mənim üzərimə atsalar, həbsxanadan sağ çıxmaq şansım olmayacaq. O vaxt biz milisə kimin evinə gəldiyimizi bildirmədik. — Əgər onlar səfeh deyilsə, oradakıların isə heç də hamısı səfeh deyil, onda elə günü bu gün bizi ifadə verməyə çağıracaqlar.

— Biz onlara təsadüfən ora gəlib çıxdığımızı deyə bilərik, — deyə İlyin etiraz elədi.

— Təsadüfən? — Dronqo təkrar soruşdu. — İki gün əvvəl dünən öldürülmüş Koptevanın yaşadığı binanın blokundan çıxmışıq. Elə həmin vaxt da bizə atəş açmışdılar. Müstəntiqlərin çoxlu sayda suallarının yaranması təbii haldır. Xüsusilə də Koptevanın Aleksandr Mixayloviçin kirayələdiyi otel nömrəsinin olduğu həmin mərtəbədə xadimə işlədiyi məlum olarsa. Sən bir hadisələrin ağlasığmaz gedişatına bax! Məhz xadimə yaşadığı binanın qarşısında vəkillə cinayət törədilməsində şübhəli bilinən Aleksandr Mixayloviçin rəhbərlik etdiyi kompaniyanın təhlükəsizlik xidmətinin rəhbər müavininə atəş açılır. Sizcə, bütün bunlardan sonra onlar bizə inanar? Kopteva ilə tanışını öldürməklə bizi çox pis vəziyyətdə qoydular. İndi bütün işləri bir kənara qoyub, prokurorluq müstəntiqlərinin bir neçə gün əvvəl orada nə baş verdiyini öyrənə və o günkü atəşaçmanı da dünənki qətllə əlaqələndirənə kimi təcili olaraq Arseni tapmaq lazımdır. Ah, necə də böyük bir

axmaqlıqdır! Mən axı qadına bir neçə gün evinin həndəvərinə hərlənməməsini tapşırmışdım.

Dronqo yerindən ayağa sıçradı:

— Vaxt itirmək olmaz. Vaxtımız artıq sayılıdır. İstənilən anda bizi çağırtdıra bilərlər. Məni hələ bir az axtarmalı — olacaqlar. Axı mən evimdə qalmıram. Sizin ikinizi isə ünvanınızla tez tapacaq, ya da bura zəng edəcəklər. Hər şey nə qədər mənasız alındı! O köpək oğlu Lısakov sonunda zəhərini sancmağı bacardı. Əqrəblər kimi. Koptevanın ləğvinə dair əmrin onun tərəfindən gəldiyinə heç şübhəm yoxdur. Ya da kim bilir — bəlkə də ikisini də öz əlilə güllələyib.

— Onda evin qarşısında bizə atəş açanlar kim idi?

— O deyildi. Böyük ehtimalla başqa birisiydi. Bizi qorxutmaq istəyən kimsə. Lısakovun psixologiyasını anlamağı bacarmışamsa, o, heç vaxt havaya güllə atmazdı. Ya başdan vurardı, ya heç vurmazdı — onun prinsipi budur. O, quşu gözündən vuranlardandır. Mənə maşınla məni buradan aparacaq bir sürücü lazım olacaq. Qaraj tərəfdən çıxacam.

— Biz sizə qoruma verəcəyik, — deyə Andrey təklif elədi.

— Yox, olmaz. Sizin qorumalar məni hücumdan qoruduğu zaman, sizin adamlarınız mənim üçün kifayət idi. Lakin həbsdə dindirmədən sizin adamlarınız məni mühafizə edə bilməz. Əksinə, daha da diqqəti məndə cəmləşdirəcəklər. Kompaniya darvazasının o biri tərəfində Lısakovun adamlarının növbə tutub mənim kompaniyanın ərazisindən çıxdığımı xəbər verməyə hazır olduqlarından şübhə etmirəm. Buradan çıxan kimi onlar məni həbsə alacaq və heç bir qoruma dadıma yetə bilməyəcək. Məni Kopteva ilə dostunun qətlində şübhəli qismində həbsə alacaqlar. Ümid edirəm ki, isti suyunuz gəlir. Üzümü qırxmaq istəyirəm.

— Əlbəttə. Başqa bir şey lazımdırmı?

— Qarajınızdakı ən pis, ən nəzərəçarpmayan maşın hansıdır?

— Bizim pis maşınımız yoxdur, — Andrey gülümsədi, — hamısı yaxşıdır.

— Hə, əlbəttə. Harada olduğumu unutdum. Nə bilim, sadə bir maşın, «Mersedes», ya da «BMV» olmasın.

— Bizdə «Linkoln», «Kraysler» də var, bir dəqiqə, bir də Koreya istehsalı olan «Espero» avtomobilimiz də var, ondan bizim mühasiblər istifadə edir.

— Əla. Bir adam tapın, belə solğun, nəzərə çarpmayan, sadə birini tapın və həmin maşının sükanına otuzdurun. Qadın olsa daha yaxşı olar. Mən yük yerində, ya da arxa oturacaqda gizlənəcəm. Arxa oturacaqda olsam yaxşıdır, yük yerində havasızlıqdan boğula bilərəm, o qədər də sağlam ürəyim yoxdur.

— Bu saat təşkil edərik, — Andrey cavab verdi. — Hara gedəcəksiniz?

— Mənim tanışlarım var. Onlar mənə Arseni qısa müddətə tapmaqda yardım edəcəklər. Mən heç vaxt onlara müraciət etməmişəm. Amma madam ki, zərurət yaranıb... onlar mənə kömək edərlər.

— Bəs sonra?

— Məni buradan çıxaran adamdan axşam sövdələşdiyimiz yerdə gözləməsini xahiş edəcəm. Maşına oturub, yenidən sizin yanınıza qayıdacam. Təəssüratlarımızı bölüşərik. Arseni yaddan çıxarın, onu özüm tapmağa çalışacam. Mənə, sadəcə, bir mobil telefon, bir də dünənki iki kasetli maqnitofon lazım olacaq. Biri Arsenlə Leonidin söhbətlərinin, ikincisi də mənimlə Lısakovun söhbətimizin lentə alındığı kasetlər. Onları mümkün qədər tez hazırlayıb

mənə verməyə çalışın. Sizin əsas vəzifəniz isə İrina Maksimenkonun harada oxuduğunu öyrənməkdir. Necə məlumat olursa olsun, onu əldə edin. Eyni zamanda da həmin o polkovnik barədə məlumat toplayın. Onun soyadı yadınızda qalıb?

— Krivets, — İlyin cavab verdi.

— Əla. Ona aid bütün məlumatları toplayıb mənə təhvil verin.

— Savva Afanasyeviçlə danışmaq istəmirsiniz?

— Çatdırmaram. Ona çox təəssüf etdiyimi bildirin. Bir hərrac başlayana qədər kompaniyanın binasını tərk etməməsini tapşırın. Bu, təhlükəli ola bilər, həmçinin onun üçün də.

Andrey Dronqonun tapşırıqlarını icra etməyə yollandı. Dronqo da kişilər üçün olan ayaqyoluna gedib üzünü qırxmağa başladı. Bitirməyə az qalmış general Fedoseyev şəxsən özü onun yanına gəldi.

— Bağışlayın, — deyə Savva Afanasyev utanaraq dedi. Dünənki gündən sonra o bu qəribə adama şübhəsiz və qərəzsiz bir hörmət bəsləyirdi, — çıxmazdan əvvəl sizinlə mütləq danışmaq istədim.

— Axşam bura qayıtmağa, — deyə Dronqo gülümsədi, — və hər şeyin həll olunacağı bazar ertəsinə qədər də heç yerə yoxa çıxmamağa çalışacam.

— Sizcə, bizim şanslarımız varmı?

— O qədər də çox deyil. Amma yenə də var. Lısakovun bəhs etdiyi polkovnik-leytenant haqqında mümkün qədər çoxlu məlumat əldə etməyə çalışın. Onun etirafları yazılmış kaseti Andreyə verəcəm. Hər ehtimala qarşı surətini çıxarmışam. Ehtiyatlı olun. Arsenlə sürücü arasındakı söhbət olan kasetin surətini çıxarsanız yaxşıdır. İkinci söhbəti pozmaq

lazımdır. Əgər mən bu gün geri qayıtmasam, hər iki kaseti prokurorluğa göndərin. Ümid edirəm ki, mənim o biri dünyadan göndərdiyim hədiyyə Lısakov üçün xoş bir sürpriz olacaq.

Dronqo üzünü qırxmağı bitirib əl-üzünü yuyurdu. General yanında durub, bütün onun tapşırıqlarını səbirlə dinləyirdi.

— Sizcə, onlar bizim binaya hücum edə bilərlər? — deyə Fedoseyev maraqlandı.

— İnanmıram. Amma qumbaraatandan atəş açıb, ya da hansısa bir «sovqat» göndərməyə tamamilə qadirdirlər. Ona görə də hər an ayıq-sayıq olun. Anladığım qədər, nəzərdə tutulan hərracda bir neçə milyard dolların müqəddəratı həll olunmalıdır. O pulların xatirinə isə sizin binaların bütün kompleksini göyə uçurub, yenidən inşa etmək mümkündür.

— Mən əlavə adamlar da çağırmışam.

— Düz eləmisiniz. Mənim maşınım hazırdır?

— Bəli. İlyin sükana bizim iqtisadçılardan birindən əyləşməsini xahiş edib. Daha doğrusu, iqtisadçı xanımlardan birini. Gənc qadındır.

— Ailəlidir?

— Bəli, iki övladı var.

— Əvəzləyin, — Dronqo qətiyyətlə bildirdi, — iki uşaq anasını belə bir işə cəlb etmək olmaz. Əgər məni xilas edərkən ona bir zərər gəlsə, ömrüm boyu özümü alçaq biri hesab edəcəm. Təcili onu başqası ilə əvəzləyin.

— Əvəzləyərik, — Fedoseyev razılaşdı. Bu qəribə ekspert getdikcə onun daha çox xoşuna gəlirdi. Birdən general kədərli halda həmişə belə bir oğlunun olmasını arzuladığını düşündü. Onun üç qızı, beş nəvəsi var idi. Lakin oğul

arzusu həmişə onun məhrəm, eləcə də həyata keçməyən bir xəyalı olub.

— Əvəzləyərik, — deyə o, iltifatla Dronqoya baxıb təkrarladı.

# *BEŞİNCİ GÜN*

Dronqo aşağı endi. Maşının arxa oturacağında gizlədilmə üçün iki ədəd adyal hazırlanmışdı. İlyin boz rəngli ciddi biçimli kostyum geyinmiş qadını göstərdi. Qadının səliqə ilə arxaya daranmış sarı rəngli saçları, arxayın baxışı və xoşagələn siması var idi. Dronqo onun əynindəki — paltara diqqət yetirdi. Pencəyi əynində qüsursuz oturmuşdu. Ətəyinin bir qədər qısa olması isə belə bir ciddi kompaniyanın ofisində çalışanlara xas deyildi. Görünür, nöqsansız ayaqlarını nümayiş etdirmək bu cavan xanımın xoşuna gəlirdi. Dronqo astaca köks ötürdü. O, dünyanın altmışdan yuxarı ölkəsində olmuşdu, lakin heç bir yerdə Moskva qadınlarının ayaqlarından qəşəngini görməmişdi. Hərdən adama elə gəlirdi ki, gözəl qadınlar burada «inkubatordan» çıxırlar. Parislə Milanda belələrinə yalnız podiumlarda rast gəlinirdisə, burada küçələr elələrilə zəngin idi.

— Yuliya, — deyə qadın özünü təqdim elədi.

— Şad oldum, — Dronqo cavab verdi, amma adəti üzrə öz adını çəkmədi. Əsl adını heç vaxt demirdi, qəribə Dronqo təxəllüsünü isə çəkmək istəmirdi.

— Əyləşin maşına, — qadın «Espero»sunu göstərərək təklif elədi. Dronqo avtomobilə yaxınlaşdı, arxa oturacağa keçib, demək olar ki, ikiqat olub yerdə yerləşdi. İlyin ona mobil telefon, mərhum sürücü ilə naməlum Arsenin söhbətlərinin

yazıldığı kaseti və kiçik maqnitofonu uzatdı. Yuliya isə qayğıkeşliklə onun üstünü adyallarla örtdü. Maşın Dronqo kompleksli sərnişinlər üçün nəzərdə tutulmamışdı.

Qadın sükan arxasına əyləşdi. Maşın aramla qarajdan çıxdı və dayanmadan yoluna davam elədi. Bir qadının idarə etdiyi «Espero». Kənardan görünən belə bir mənzərə idi. Əsaslı surətdə gizlədilmiş Dronqo tamamilə gözə görünmürdü.

Bir neçə kilometr getdikdən sonra Yuliya maşını ehtiyatla saxlayıb dedi:

— Deyəsən artıq çıxa bilərsiniz.

— Təşəkkür edirəm, — Dronqo yerindən qalxdı, — bu odeyalların altında az qala boğulacaqdım.

— Məni xəbərdar etsəydiniz, bir az ehtiyatla sürərdim — Yuliya gülümsədi.

Təbəssümü mülayim və mehriban idi. Dronqo da cavabında gülümsədi.

— Yardımınıza görə sizə çox minnətdaram, — o, qalstukunu düzəldərək dedi, — gəlin indidən harada görüşəcəyimizi müəyyən edək.

— Mən hara gəlim? — Yuliya soruşdu.

— Povarskaya küçəsində olan Ali Məhkəmənin binasını tanıyırsınız?

— Yox, tanımıram. Amma o küçənin harada olduğunu mənə desəniz, tapmağa çalışaram.

— Ora keçmiş Vorovski küçəsidir. Kalinin prospektinin arxasındakı küçə, — Dronqo izah elədi.

— Bəli, əlbəttə, tanıyıram, — Yuliya yenə də gülümsədi, — axı mən moskvalıyam, o rayonda böyümüşəm. Biz Hersen küçəsində yaşamışıq.

— Çox gözəl. Elə olan halda məni tapacağınıza heç şübhə etmirəm. Axşam saat on tamamda görüşərik. Siz elə gec gələ biləcəksiniz?

— Əlbəttə, gələrəm. Yalnız Ali Məhkəmənin o küçədə olduğunu bilmirdim. Məgər Ali Məhkəmə elə gec vaxtda çalışır?

— Yox, təbii ki, çalışmır. Sadəcə, orada həmişə növbətçi milis əməkdaşları olur. Onlar ehtiyac olduğu təqdirdə, bizim də şahidlərimiz və ya müdafiəçilərimiz olar — baxır vəziyyətə. Ən əsası isə cümə gününün axşamı orada, çox güman ki, çox adam olmayacaq. Ümumiyyətlə, kənar adam olmayacaq. Mən də rahatca mümkün «quyruğu» nəzərdən qaçırmaram.

— Mən o binanı tapacağam, — deyə Yuliya gülümsədi.

— Deməli, danışdıq. Sualıma görə üzr istəyirəm, neçə yaşınız var?

— İyirmi dörd, — deyə qız «iki daşın arasında» onun yaşının məsələyə nə aidiyyətinin olduğunu anlamayaraq cavab verdi.

— Hələ uşaqlarınız yoxdur?

— Yox. Mən ailəli deyiləm, — Yuliya qısaca cavab verdi. Hətta belə bir vəziyyətdə ikən bu adam ona pərəstişkarlıq etməyi düşünür? Bunu nəzərə alaraq əlavə elədi: Nişanlım var.

— Ümid edirəm ki, nişanlınız evə gec qayıtdığınıza görə mənə çox qəzəblənməz, — Dronqo dedi.

— O, qısqanc deyil, — qız əminliklə bəyan elədi.

— Onda onu da özünüzlə gətirin, — Dronqo təklif elədi.

— Nə? — deyə Yukliya təəccübləndi. Bu adamdan nə istəsən gözləmək olurdu, amma belə bir təklif...

— Daha az şübhə olar, — Dronqo izah elədi, — əgər nişanlınızla gəlsəniz, heç kimin diqqətini çəkmiş olmazsınız. Məni başa düşdünüz?

— İndi başa düşdüm, — qız güldü, — yaxşı, onu dilə tutmağa çalışaram.

— Oldu. Uğurlar olsun, Yuliya.

— Sizə də, — qız cavab verdi.

Dronqo maşından düşdü. Onun kifayət qədər uzaqlaşdığını gözləyib ətrafa göz gəzdirdi. Deyəsən, maşını təqib edən yox idi. Lakin hər ehtimala qarşı o, hələ bir saat ərzində şəhərdə dolanıb, diqqətlə nəyin şübhəli görünə biləcəyini müşahidə edirdi. Yalnız ondan sonra bir yol maşınını saxlatdırıb, sürücüdən onu məşhur gürcü restoranına aparmasını xahiş elədi.

Restoran işıqlı və sərin idi. Səhərlər burada adətən müştəri olmurdu və ofisiantlar sanki darıxırdılar. Günorta saat üçə qədər yalnız yüngül qəlyanaltılar və səhər yeməkləri verilirdi və müştərilər də çaypulu baxımından o qədər səxavətli deyildilər.

Dronqo restorana daxil olub baş ofisianta yaxınlaşdı.

— Mənə Nuqzar lazımdır, — sakitcə bildirdi.

Baş ofisiant təəccüblə Dronqonun üzünə baxdı.

— Hansı Nuqzar? — deyə o, soyuqqanlılıqla soruşdu.

— Sizin Nuqzar, — Dronqo təmkinlə izah elədi, — o, mənə təcili lazımdır.

— Keçin bir stol arxasında əyləşin, — baş ofisiant dedi, — odur bax, qıraqdakı stolun arxasında. Mən də

gedim öyrənim görüm Nuqzar kimdir. Birdən tapsam, ona nə deyim? Kimdən salam yetirim?

— Dronqodan.

— Elə də deyim — «Dronqo»?

— Elə də de.

— İstirahət edin, — deyə baş ofisiant yenidən stolu göstərdi. Özü isə tünd rəngli pərdənin arxasında yox oldu.

Dronqo başını buladı. Konspirasiya yüksək səviyyədə idi. O, stola yaxınlaşıb stulda əyləşdi və səbirlə baş ofisiantın qayıtmasını gözləməyə başladı. Bir ofisiant gəldi:

— Bir şey yeyəcəksiniz və ya içəcəksiniz? — deyə soruşdu.

— Sadəcə, çay — Dronqo cavab verdi və bir qədər ləngiyərək əlavə elədi: — Yaxşısı budur, varınızdırsa, xaçapuri gətirin. Bir də suluquni.

— Baş üstə, — ofisiant gülümsədi və bir göz qırpımında yoxa çıxdı.

Bir dəqiqədən sonra qayıtdı. Lakin adi çaydan əvəzinə böyük, mürəkkəb naxışlı saxsı bir bardaq və beş nəfər kişiyə yetəcək çoxlu sayda qəlyanaltılar gətirdi.

— Sən yanılmısan, — Dronqo gülümsədi, — mən bu qədər yemək sifariş etməmişəm. Çaxır heç istəməmişəm. Mən səhərlər çaxır içmirəm.

— Bu, sifariş deyil, — ofisiant səbatla cavab verdi, — hədiyyədir. Bunların hamısını gətirməyi Nuqzar özü tapşırıb.

— Özü burdadır? — deyə Dronqo çaxıra əhəmiyyət vermədən soruşdu.

— Hələ yoxdur. Amma Nuqzarın qonağı bizim də qonağımızdır. Bizim lobyamızdan dadın. Belə lobya bizdən — başqa Moskvanın heç yerində yoxdur. Biz onun içinə Gürcüstandan gətirilmiş dağ otlarından hazırlanmış ədviyyatlar əlavə edirik.

— Mütləq dadaram. Amma mənə Nuqzar lazımdır.

Zalda görünən baş ofisiant təntənəli şəkildə əlində mobil telefon gətirirdi. Dronqoya yaxınlaşıb telefonu ona uzatdı.

— Nuqzar sizinlə danışmaq istəyir, — deyə o, ədəb-nəzakətlə bildirdi.

Nuqzar bir çox adamların adını çəkməyə belə qorxduğu şəhər «yiyələrindən» biriydi. O, bir çox cinayətkar qruplaşmaların arasındakı münaqişələrdə iştirak etmiş və hər zaman müdrik qərarlar verən tanınmış «qanuni oğru», kriminal avtoritet və yüksək nüfuzlu bir hakim idi. Mərdliyi və namusluğu ilə hörmət qazanmışdı. Nuqzar Dronqonu çoxdan tanıyırdı. Ekspert Moskvada naməlum şəraitdə yoxa çıxmış David Qogiyanın oğlu ilə nişanlısını axtarıb tapdığı zamanlardan. O vaxt Dronqo onları nəinki sağ-salamat tapmışdı, həm də oğlu atasına qaytarmağı bacarmışdı. Belə yaxşılıqlar isə unudulmur. Cinayətkar mühitdə mərdliklə namus digər ictimai qatlardakından da artıq dəyərləndirilirdi.

— Salam, əzizim, — Dronqo Nuqzarın səsini eşitdi, — bizim restorana gəldiyin üçün sənə minnətdaram. Amma bax, xətrimə dəymə, yeməklərimizdən ye. Heç bilirsən bizim necə lobyamız var! Ədviyyatlarını Gürcüstanın özündən gətirirlər.

— Bilirəm, bilirəm, — Dronqo güldü, — ədviyyələri də eşitdim.

Gürcülərin yüksək dərəcəli emosionallığı, bir növ teatrallığı ona yaxşı təsir bağışlayırdı. Onlar hər şeyi unudaraq oyun

oynayan böyük uşaqlara oxşayırdılar. Dronqo dünyada pis xalqların olmadığından əmin idi. Qafqazda böyüdüyü üçün ta uşaqlıqdan müxtəlif xalqların nümayəndələrilə ünsiyyətdə olmuşdu. Özü də insanları «yaxşı» və «pislərə» ayırmadan, hər birində ilk növbədə, xalqının ən yaxşı xüsusiyyətlərini ehtiva edən bir şəxsiyyət görməyə öyrəşmişdi.

Gürcüstanda vətəndaş müharibəsi başladıqda, bu, onun da şəxsi acısı, şəxsi faciəsinə çevrilmişdi. Bir zamanlar mehriban dost olan bu xalqların düşmən qruplaşmalara parçalanması onu ümidsizliyə düçar etmişdi. Abxaziyadakı hərbi qarşıdurmalardan sonra ilk dəfə Tiflisə gəlib, hələ yarıtikilmiş olan Rustaveli prospektini tanınmayacaq dərəcədə darmadağın olduğunu və qaçqınlarla dolu mehmanxanaları görəndə, bir zamanlar öz torpağında dost-tanışını böyük mehribanlıq və qonaqpərvərliklə qəbul edən insanların ağrı-acısını nə qədər dərindən çəkdiyini, onların faciəsinə şərik olduğunu duydu.

— Bir şey lazımdır? — Nuqzar onu ürəkaçmayan fikirlərdən yayındırmaq niyyətilə soruşdu.

— Mənim səndən böyük xahişim var, Nuqzar, yardımına ehtiyacım var, — deyə Dronqo cavab verdi.

— De görək. Bizim canımız da sənə qurbandı. Sən o vaxt bizim üçün elə böyük yaxşılıq elədin ki... Bütün şəhəri müharibədən xilas elədin. Xahişini de, mən də əlimdən gələni əsirgəmərəm.

— Mən Arsen adlı bir adamı axtarıram. Məndə olan məlumata görə, Arsen ya dəllaldır, ya da sutenyor.

— Vay, əzizim, — Nuqzar dilxor tonla dedi. — Nə danışırsan? O əclaf sənin nəyinə lazımdır?

Əsl «qanuni oğru» üçün dəllallıq və ya sutenyorluq son dərəcə eyibli və mənfur bir işdir. İstənilən Qafqaz kişisi

üçün isə bu peşə ikiqat biabırçıdır. «Qanuni oğruların» təqribən üçdə iki hissəsini gürcülər, azərbaycanlılar və ermənilər təşkil edirdi. Qafqazı təmsil edən hər bir kəs üçün isə Arsenin peşəsilə məşğul olmaq öz kişilik şərəfini itirmək demək idi.

— O mənə lazımdır, — deyə Dronqo qətiyyətlə cavab verdi, — çox lazımdır, Nuqzar. Söhbət öldürülmüş bir qadından gedir. Onun qətlində mənim bir tanışımı suçlayırlar, halbuki qızı o öldürməyib. Mən qatili tapmalıyam.

— Başa düşdüm, əzizim, bundan artıq izah verməyə də bilərsən. Rahatca otur, naharını ye. Yarım saatdan sonra sənə zəng edib, bütün lazımi məlumatları verəcəklər. Hə, mütləq bizim lobyamızın dadına bax — deyə Nuqzar yenə də özünü saxlaya bilməyib təkrarladı.

Artıq Dronqo imtina etmək haqqının olmadığını bilirdi. Ona gətirilən bütün yeməklərin dadına baxmağa məcburdur. Hərgah, bu, onu o qədər də dilxor etmirdi. Hər dəfə özü-özünə pəhriz tutub arıqlamağa başlamağa söz versə də, ağzının dadını bilən adamlara məxsus xasiyyət bu vədinə üstün gəlirdi və o, bu və ya digər ölkələrdə olanda, böyük məmnuniyyətlə firma restoranlarını ziyarət edib, yeni-yeni təamlardan zövq alırdı.

Düz yarım saatdan sonra baş ofisiant yenə də mobil telefonu gətirdi. Dronqo hətta təəccübləndi də. Sanki Nuqzar onun zəngini gözləyirmiş.

— Sənə onun ünvanımı, yoxsa telefon nömrəsimi lazımdır?

— Hər şeyi öyrənmisən? — deyə Dronqo inanmadı.

— Bəs necə bilirdin? Moskva balaca şəhərdir, — deyə Nuqzar güldü, — burada hamı bir-birini tanıyır. Deyirəm, yaz.

O, Dronqoya Arsenin telefon nömrəsilə ünvanını diktə elədi. Sonra da əlavə elədi:

— Bəlkə uşaqlarımdan göndərim? Sənə kömək lazımdır?

— Yox, mən o Arsenlə özüm söhbət etmək istəyirəm.

— Arsen təhlükəli adamdır, — deyə Nuqzar hər ehtimala qarşı Dronqonu xəbərdar elədi. — Elə bir peşə ilə məşğul olan kişi arvad kimi yalançı və hiyləgər olur. Həm də çox təhlükəli. Məni başa düşürsən?

— Çox sağ ol, Nuqzar. Öz aramızdır, lobya yaxşı deyildi.

— Nə?! — deyə Nuqzar dərhal hər şeyi unudaraq eşitdiyinə inanmadı. — Necə yəni yaxşı deyildi?

— Lobya, sadəcə, yaxşı yox, çox əla idi, Nuqzar. Çox minnətdaram!

— Görürsən?! — deyə Nuqzar mütəəssir oldu, — indi sən artıq əsl lobyanın harada olduğunu bilirsən.

— Çox sağ ol — Dronqo Nuqzarın əfsanəsini xatırlayıb gülümsəyirdi. Bu adamın qidaya olan meylini hamı bilirdi. Deyilənə görə, koloniyada həbsdə olduğu zaman ona Moskvanın ən yaxşı, adlı-sanlı restoranlarının birinin aşpazı şəxsən qulluq edir, onun yeməklərini özü bişirirdi. Həmin aşpaz isə dövlət malının oğurluğu ilə növbəti mübarizə zamanı həbsə alınmışdı.

Dronqo bilirdi ki, qonaqlığa görə pul ödəmək olmaz. Onsuz da ondan pul almayacaqdılar, üstəlik, pul təklif etməklə restoran sahiblərinin xatirinə dəyə bilərdi. Lakin ofisiantlara çay pulu verməyə ona heç kim mane ola bilməzdi. Məhz ona görə də o, ofisianta yeni pulla yüz rubl uzatdı. Ofisiant da minnətdarlıqla pulu ondan aldı. Bununla da onlar hesablaşdılar. Hamı razı qaldı.

# *BEŞİNCİ GÜN*

O, maşını ilə həmin evə, doxsanıncı illərin ortalarında sanki sehrli çubuğun gücü ilə peyda olmuş Miçurin prospektindəki dəbdəbəli binaya yaxınlaşdı. Paytaxtda vüsət almış inşaat bumunun məhsulu olan bu yeni binaların yanlarından ötmək belə mümkün olmayan özünün daxili qoruma xidmətləri var idi. Dronqo içəri girməyin mümkünlüyünü düşünərək uzun müddət binanın ətrafında dolaşdı. — Darvazanın yanında oturmuş gözətçidən əlavə, bir gözətçi də binanın blokunda idi. Sənədsiz, dəvətsiz iki adamın yanından ötüb keçmək, praktiki olaraq, mümkünsüz idi.

Qeyri-adi bir şey düşünüb tapmaq lazım idi. Lakin bunu çox qısa müddətdə və zəruri texniki vasitələr olmadan etmək müşkül məsələ idi. Dronqo vaxtını əbəs yerə itirdiyini anladı. Hələ səhər vaxtı ehtiyat üçün kompaniyanın ofisində ikən Andreydən aldığı mobil telefonla zəng etmək qərarına gələndə, planı da eyni vaxtda düşünməyə başladı. Dəstəyi qadın qaldırdı.

— Hər vaxtınız xeyir olsun, — deyə Dronqo salamlaşdı, — Arsenlə danışa bilərəmmi?

— Bu saat çağıraram, — qadın heç zəng edənin kim olduğunu soruşmadı. Görünür bu, onu sadəcə maraqlandırmırdı.

— Alo, danışan kimdir? — deyə Arsenin tanış səsi eşidildi.

— Hər vaxtınız xeyir, — Dronqo tələsik dedi, — mən sizin bir nəfər dostunuzun xahişilə zəng eləmişəm.

— Hansı dostumun? — deyə Arsen anlamadı.

— Sizin dostunuzun, dünən səhər vaxtı öldürülən adamın.

Araya sükut çökdü. Sonra Arsen tələsik dedi:

— Sağ olun və dəstəyi asdı.

Dronqo nömrəni bir də yığdı. Arsen dəstəyi qaldırıb çəmkirdi:

— Köpək oğlu, sən kimsən ki, mənə hədə-qorxu gəlirsən? — Dronqo maqnitofonu qoşub onu trubkaya yaxınlaşdırdı. — Arsen dəstəyi atmağa cəsarət etmədən və onların sürücü ilə mübahisələrini lentə yaza biləcək adamın kim olduğunu anlamadan Lyonya ilə danışığının lent yazısını dinləyirdi. Yalnız bir dəqiqə keçdikdən sonra o, bunu Lyonyanın özünün etdiyini və indi bu lentin artıq nəinki sadəcə bir dəlil, hətta günahının təkzibedilməz sübutu olduğunu anladı. Bu lent onun İrina Maksimenkonun göndərilməsilə öldürülməsində də, sürücünün dünənki qətlində də günahının əyani təsdiqi idi.

Arsen bir kəlmə demədən dinləyirdi. Sanki iki həmsöhbətin bir-birinə nə deyəcəyi onun üçün çox maraqlı idi. Dronqo maqnitofon kasetini söndürmək üçün Arsenin dəstəyi atacağını gözləyirdi. Lakin Arsen yenə də danışıb-dinmədən lenti dinləməyi davam edirdi. Birinci söhbət bitdi və Dronqo maqnitofonu yığışdırdı.

— Başqa söhbətləri də qoşummu, yoxsa sözümə inanacaqsan? — deyə Dronqo soruşdu.

— Nə istəyirsən? — deyə Arsen xırıltılı səslə soruşdu.

— Söhbət etmək.

— Nə vaxt?

— İndi.

— Mən sənin ayağına gələn deyiləm, — Arsen tələsik bildirdi. Onun ölmüş birinin səsini və özünün sürücü ilə söhbətini canlandırmış adamdan qorxduğu bəlli olurdu.

— Onda mən qalxım sənin evinə, — Dronqo təklif elədi.

— Sən mənim harada yaşadığımı bilirsən? — deyə Arsen təəccübləndi və qorxdu.

— Qorumaları gələcəyimdən xəbərdar elə, — Dronqo cavab verdi, — yaxındayam, qalxıram yanına. Hələlik.

Dronqo telefonu söndürdü. Qoltuqaltında bərkidilmiş xüsusi qoburdakı tapançasını yoxladı. Maqnitofonu cibinə qoyub binaya tərəf tələsdi. Dronqonun kimin yanına getdiyini bilən darvazanın yanındakı birinci gözətçi başını tərpədib onu buraxdı. İkincisi ondan getdiyi mənzilin nömrəsini soruşdu.

— Özün bilməlisən, — Dronqo liftə girərək soyuqqanlılıqla dedi, — mən sənin üçün evlər idarəsi deyiləm, — liftin qapıları bağlananda bunu da sərt şəkildə əlavə elədi.

Səkkizinci mərtəbəyə çatıb liftdən çıxdı və Arsenin yaşadığı mənzilə yaxınlaşıb qapının zəngini vurdu. Arsen sanki qapının ağzında durub onu gözləyirmiş kimi qapını dərhal açdı. O, orta boylu, bir az keçəl, çəlimsiz, bir az beli bükük, modabazlar kimi əyninə tünd rəngli ipək köynək və tünd şalvar geyinmiş birisiydi. Üzündə kosmetika izləri görünürdü. Kəskin və xırıltılı səsinə görə Dronqo qarşısında fiziki baxımdan daha inkişaf etmiş bir adam görəcəyini zənn edirdi. Belə bir sısqaya görə heç silah götürməyə dəyməzdi, – deyə Dronqo düşündü.

— Gəl, gəl Arsen qonağı içəri buraxaraq mülayim təbəssüm göstərməyə cəhd etdi.

Dördotaqlı mənzil geniş holldan başlayırdı. Dronqo böyük bir qonaq otağına keçdi. Evdə qadın olduğunun əlamətləri

Dronqonun gözünə dəymədi. Qəribədir, əslində, qadın hələ burada olmalıydı.

— Otur, — Arsen ona böyük divanı göstərdi, — deməli, lent yazısını mənə gətirmisən?

Onun şokdan çıxdığı hiss olunurdu. Görünür, Dronqo gələnə kimi o, kiməsə zəng edib məsləhətləşmişdi. Ona görə də özünü nisbətən arxayın aparırdı.

— Məgər sənə başqa nəsə lazımdır ki? — Dronqo soruşdu.

— Yox, lazım deyil, — Arsenin gözləri işıldadı, — mənə başqa heç nə lazım deyil. Mən sənin nə istədiyini və bu səs yazısını haradan aldığını bilmək istəyirəm.

— Lap yaxşı, ona görə də gəl söhbət edək.

— Nə barədə? — Arsen başını qaşıdı. Sağ əlinin barmağında böyük almaz qaşlı üzük parıldadı.

— Sürücü ilə sən barədə. — deyə Dronqo cavab verdi.

— Mən barədə nə danışacağıq ki? — Arsen saata baxdı.
— Sən mənə əvvəlcə de görüm, o maqnitofon lentini haradan almısan?

— Leonid verib və başına bir iş gələcəyi təqdirdə sənə çatdırmağımı xahiş edib. O elə də demişdi: məni öldürsələr, Arseni axtar tap. Bu, onun işi olacaq.

— Eləcə də demişdi? — Arsen yenidən əsəbi halda başını qaşıdı. — Niyə mənim barəmdə elə düşünürdü? Necə bilirsən?

— Sən onu niyə öldürdün? — Dronqo soruşdu.

Arsen diksindi.

— Kim öldürüb? — Onun çiyinləri aşağı endi. — Nə ağzına gələni danışırsan? Mən həyatımda heç kimi öldürməmişəm.

Heç vaxt, heç kimi öldürməmişəm.

Dronqo təsdiqlədi:

— Doğrudur, sən öldürməmisən. Sən onun evinə təkcə gəldin, o da qapını sənə açdı. Sən evə girib, hətta onunla söhbət eləməyə başladın. Sonra evə qatili buraxdın. İrina Maksimenkonu öldürən həmin qatili. Sən qapını açanda, yazıq Lyonya vəziyyəti anladı. O, kaseti çıxarmaq üçün yataq otağına qaçmışdı. Görünür, onu pəncərədən aşağı atmaq istəyirmiş ki, bu yolla özünü xilas etmiş olsun. Lakin peşəkar qatil dalınca qaçıb yataq otağında ona iki güllə atıb öldürmüşdür. Sonra üçüncü — yoxlama atəşini başından vurmuşdur. Sən heç keçmiş dostunun nə etmək istədiyini anlamadın belə. kaset isə pəncərənin altında gizlədilmişdi.

Arsen sarı dişlərini göstərərək hırıldadı. Dərindən köks ötürdü. Bir daha saata baxıb dedi:

— Kasetin əvəzində nə istəyirsən?

— Heç nə. Sadəcə, biznesmen üçün qadın tapmaq tapşırığını sənə kimin verdiyini bilmək istəyirəm. Bir də qadını kimin öldürdüyünü? Bunları mənə desən — kaset sənindir. Bundan artıq mənə səndən heç nə lazım deyil.

— Heç nə lazım deyil? — Arsen təkrarən soruşdu. — Hə, əlbəttə. Sənə sadəcə adlar lazımdır. Gəlişinin səbəbi aydındır. Bəlkə maqnitofonu göstərəsən? Yanındadır?

— Neynirsən maqnitofonu?

— Dinləmək istəyirəm. Bəlkə heç maqnitofonu gətirməmisən? Bəlkə mənə qaraqorxu gəlirsən? kaset hardadır?

— Məndə, — Dronqo maqnitofonu cibindən çıxararaq cavab verdi.

— Qoş onu, — Arsenin gözləri işıldadı, — maraqlı söhbətdir. Bəlkə o biri söhbətləri də qoşasan dinləyək?

Aydındır, Arsen kiməsə zəng etmişdi. İndi də vaxtı uzadırdı. Dostlarının, ya da üç atəş açan qatilin gəlməsi üçün. Özü də qatil tək gəlməyə də bilər. Ona görə idi ki, Arsen artıq neçənci dəfəydi saata baxırdı. İstənilən gözlənilməzliyə hazır olmaq lazımdır. Əsas da sonuncu – başdan nəzarət atəşi açmağı sevən qatilin gəlişinə. Xeyr, Arsen, əbəs yerə ümidlənirsən.

— Əgər belə maraqlanırsansa, maqnitofonu al, özün dinlə, — deyə Dronqo divandan qalxıb maqnitofonu ev sahibinə uzatdı. Arsen əlini uzanda isə Dronqo maqnitofonla ona bir zərbə endirdi. Boynundan vurdu. Arsen hıçqırıb, səssiz-səmirsiz yerə sərildi. Dronqo cəld onu tutdu ki, yıxılma səsi digər otaqlarda eşidilməsin.

O, ehtiyatla bu çəlimsiz bədəni divana uzatdı və rahatlıqla ürək döyüntülərini dinlədi. Ürək döyüntüləri ritmdən bir qədər yavaş vururdu. Amma qorxulu bir şey yox idi. Dronqo yataq otağının qapısını açdı. Çarpayının üstündə təqribən iyirmi beş yaşında bir qadın uzanmışdı. O, çılpaq idi, əynində təkcə lifçiyi var idi. Qadın ağzı üstə uzanmışdı. Dronqo çətinliklə onun əynində bikinin də olduğunu gördü. Ensiz zolaqlar o dərəcədə görünməz idi.

— Nə var? — deyə qadın heç utanmadan soruşdu. O, jurnal oxuyurdu.

— Heç nə. Sən kimsən?

— Mən Likayam. Sən Arsenin yanına qonaq gəlmisən? — qadın qımışdı, arxası üstə çevrildi. — Onun tanışısan?

— Elə də demək olar, — deyə Dronqo cavab verdi, — bəs sən kimsən? Burada işləyirsən?

— Onunla? — deyə qadın qaqqıldadı. — Yox, işləmirəm. İstirahət edirəm. Axşam onun yanında dostu gəlməlidir. Ona görə də Arsen məni əvvəlcədən çağırtdırıb.

— Uzan — Dronqo ona tövsiyə elədi, — otaqdan da çıxma. Güllə səsləri eşitsən, qaç, vanna otağında gizlən, amma oradan çıxma. Heç yerə də zəng eləmə. Əks halda həyatında son dəfə oxuduğun şey o jurnal olacaq. Başa düşdün?

— Başa düşdüm, — qadın qorxmuş halda ah çəkdi.

— Sağ ol, — Dronqo otaqdan çıxdı və qapını örtdü. Arsen qonaq otağında, divanın üstündə həminki hərəkətsiz vəziyyətində uzanmışdı. Dronqo şalvarından kəmərini çıxardı, Arsenin əllərini bağladı və onu götürüb ikinci yataq otağındakı çarpayıya tulladı. Qonaq otağına qayıdıb qapıya yaxınlaşdı və diqqətlə qıfıla baxdı. Belə bir qıfılı adi kilidaçanla açmaq çətindir. Deməli, naməlum adam evə girmək istəsə, mütləq zəngi vurmalıdır. Üstəlik, gözətçilər də xəbərdar olunmalıdır. Hərçənd, Arsenin davranışından onun gözətçiləri qonaqların gələcəyindən xəbərdar etdiyi məlum olurdu. Təbii ki, xəbərdar etmişdi. Çünki sonradan gələn qonaqlar səssiz-səmirsiz gəlib, əvvəlcə gələni ürkütməməliydilər.

Dronqo yataq otaqlarına qayıtdı. Birinci otaqda elə bayaqkı vəziyyətdə qorxudan artıq heç nə anlamayan fahişə var idi. İkinci otaqda isə çarpayının üstündə sanki namuslu bir zəhmətkeş kimi ağır iş günündən sonra mürgüyə dalmış Arsen uzanmışdı. Evə gələcək adamların kim olduğunu gözləmək qalırdı.

On dəqiqədən sonra qapını ehtiyatla döydülər. Dronqo gülümsədi. Haqlı imiş. Ev sahibi gözətçiləri təzə qonağın və ya qonaqların gələcəyi barədə əvvəlcədən xəbərdar etmişdi.. Dronqo danışıq qurğusuna yaxınlaşıb gözətçini çağırtdırdı.

— Yüz otuz ikinci mənzilə gələnlər neçə nəfərdir?

— Bir nəfər, –növbətçi cavab verdi, — dediyiniz kimi — bir nəfər.

— Çox sağ ol, — Dronqo dedi. Tapançasını qoburdan çıxardı. Qapının yanında dayandı və naməlum adamın gəlişini gözləyərək qapının qıfılını açdı.

Qapı ehtiyatla açıldı və koridora təqribən qırx yaşlarında ucaboy bir kişi daxil oldu. Onun qısa qırxılmış saçları, yaxşı biçimli kostyumu, arxayın hərəkətli, enli kürəyi var idi. Kişi bir addım atıb yanağının yanında tapançanın lüləsini hiss elədi.

Dronqo tövsiyə elədi:

— Yavaş ol, — müqavimət göstərməyə ehtiyac yoxdur. Mən xəbərdarlıqsız atəş açacağam. — O, sol əlilə adətən professionallarda olduğu kimi qoburda bərkidilmiş tapançanı çıxardı. Sağ cibindən qırmızı kitabçanı çıxardı. Bütün bunları yerə atdı. Kişini otağa itələyərək dedi:

— Sakit! Kəskin hərəkətlər eləməyin. Divan tərəfə gedin.

Kişi divana yaxınlaşdı. Sifəti həyəcandan qıpqırmızı olmuşdu. O, qəzəblə Dronqoya baxırdı, amma hələ susurdu. Dronqo yerdən onun tapançasını qaldırıb öz cibinə qoydu. Sonra əyilib vəsiqəsini də qaldırdı və onu da öz cibinə qoydu.

— Hə, sonra? — deyə gələn adam soruşdu. — Sən bura pul üçün gələn həmin şantajçısan?

— Siz hardan bilirsiniz?

— Bilirəm, — kişi cavab verdi, — tapançanı o yana çək. Küçədə məni maşın gözləyir, yarım saatdan sonra mən burdan sağ-salamat çıxmasam, burada milis Petrovkadakı binada olduğundan çox olacaq.

— Niyə? Yəni demək istəyirsiniz ki, onlar Arseni bu qədər sevirlər?

— Onu yox, məni, — qırmızısifət qımışdı, — vəsiqəmi aç, oxu. Onda tapançanı tez yığışdırarsan.

Dronqo gözünü gələn adamdan çəkmədən cibindən vəsiqəni çıxarıb oxudu: «Polkovnik-leytenant Krivets Sergey Fyodoroviç».

— Aydın oldu? — deyə polkovnik-leytenant soruşdu. — İndi isə sənədlərimi və silahımı qaytar. Burada nə baş verdiyini də izah elə.

— Necə də maraqlıdır, — Dronqo gülümsədi, — sizi göydə axtarırdım, yerdə tapdım. Bütün Moskvanı ələkvələk edəcəkdim sizi tapmaq üçün. Deyəsən, bu, dağın Məhəmmədin ayağına gəldiyi həmin vəziyyətdir.

— Bu sözlərinizlə nə demək istəyirsiniz? — polkovnik-leytenant artıq Dronqoya «siz» deyə müraciət edərək soruşdu.

— Məşhur bir atalar misalı var: «Dağ Məhəmmədin ayağına gəlmirsə, Məhəmməd özü dağın ayağına gedir». Mən sizə qonaq gəlməyə hazırlaşırdım, Sergey Fyodoroviç.

— Siz məni haradan tanıyırsınız? — polkovnik-leytenant qəzəbləndi.

— Tanıyıram, — Dronqo polkovnik-leytenantla üzbəüz kresloda əyləşərək cavab verdi, — gəlin söhbət edək, Sergey Fyodoroviç.

— Səninlə nə haqda söhbət edəcəm? — deyə Krivets yenidən arxayınlaşdı. — İyirmi beş dəqiqə qalıb. Bir azdan buraya xüsusi təyinatlılar qrupu gələcək. Bir qərar verməzdən əvvəl başını işlət.

— Məni maraqlandıran sizin ev sahibilə münasibətlərinizdir, — Dronqo gülümsəyərək bildirdi. — Doğrudan da maraqlıdır. Şöbə müdiri məşhur bir sutenyorun evinə gəlir. Belə bir hal sizə qəribə gəlmir?

— Yox, gəlmir, — polkovnik-leytenant nifrətlə dodaqlarını əyərək cavab verdi, — sən isə mənə burada hədə-qorxu gəlmə. Hər bir cinayət-axtarış idarəsinin işçisinin özünün agenturası olmalıdır. Arsen isə mənim rəsmi agentimdir. Bizim idarədən maaş alır. Ona görə də məni hədələmə, onsuz da bir şey sübut edə bilməzsən.

— Ona görədir ki, siz ona bir qadın tapıb Aleksandr Mixayloviçin yanına göndərməsini tapşırmısınız? — deyə Dronqo birbaşa sual verdi. — Sonra da mayor Lısakova otel nömrəsində quraşdırılmış kameranı yığışdırmağı əmr etmisiniz.

— Nə? — deyə polkovnik-leytenant gərildi. — Nə Lısakov? O kimdir? Siz nədən bəhs edirsiniz? — O, qorxuya düşərək yenidən «siz» müraciətinə keçdi.

— Sizin əmrinizlə kameranı yığışdıran mayor Lısakovdan. Səs lentini dinləmək istəyirsiniz, yoxsa sözümə inanırsınız?

— Sizdə bu söhbətin lenti də var? — deyə Krivetsin dodaqları əyildi.

— Məndə həyatın bütün halları üçün lentlər var. Sizdən öyrənirəm, polkovnik-leytenant. İstəyirsinizsə, mübadilə edək — mən sizə bütün lentləri verim, siz isə mənə İrina Maksimenkonu kimin öldürdüyünü və kameranı otel nömrəsində kimin quraşdırdığını deyin.

— Cəhənnəm ol ey... — Krivets nalayiq söyüş söydü. Dronqonun əlindəki tapançaya əhəmiyyət vermədən, əlini cibinə salıb yaylığını çıxardı, üzünü sildi və dedi: — Svetka Koptevanın evinə soxulan sən idin?

— Sizin adamlar isə bizə atəş açmışdılar, hədə-qorxu gəlmək üçün — Dronqo dəqiqləşdirdi, — Koptevanı öldürən də sizin adamlar idi.

— O Lısakovun işidir. Mən elə rəzil işlərə heç vaxt razılıq verməmişəm. Bura gəlib, sən axmaqla bir razılaşmaya gəlmək istəyirdim, — vəziyyətdən və əhvalından asılı olaraq — o Dronqoya gah «sən», gah da «siz» deyə müraciət edirdi. — Sən niyə burnunu bu işə soxursan? — deyə Krivets təəccübləndi. — Məgər bu işlərin nə ilə bitə biləcəyini anlamırsan? Səni bir milçəyi öldürən kimi gəbərdəcəklər. Heç kim də köməyinə çata bilməz.

— Mənim barəmdə qayğınızı dəyərləndirdim. İndi yekun vuraq, polkovnik-leytenant. Sizin əmrinizlə Arsen biznesmenə yaxınlaşdırmaq üçün bir qadın tapır. Sonra Aleksandr Mixayloviç kirayələdiyi otel nömrəsində kimsə gizli kamera quraşdırır. Sonra naməlum qatil guya biznesmenmiş kimi qrimlənir və qətli həyata keçirir. Videoçəkilişi qatil özü götürür. Kameranı isə sizin xahişinizlə mayor Lısakov çıxarır. Ondan sonra Koptevanı susmasına dair tənbehləyir. Hələlik dediklərim düzdür, yoxsa nəyisə səhv salmışam?

Polkovnik-leytenant susurdu. Sadəcə, çoxdan idi tərdən yaş əskiyə çevrilmiş əl dəsmalı ilə üzünü silirdi.

— Sonra sizə çalışan sürücü Leonid bizim Koptevanın evinə yollandığımızı xəbər verib. Siz də bizi bir az qorxutmaq qərarına gəldiniz. Sonra bu özfəaliyyətinizə görə, görünür, qulağınızı dartmışlar. Ehtiyatsızlıqla yanına getdiyim Lısakov isə Kopteva ilə tanışını şəxsən özü aradan götürmək qərarına gəlib. Vəssalam. İşlər bu şəkildə cərəyan etmişdir. Amma bir məqam var. Siz İrina Maksimenkonu öldürən adamın bu işləri ustalıqla quraşdıran bir qatilin yox, Aleksandr Mixayloviçin olduğunu iddia edən Arsenə bir o qədər də etibar etmirdiniz.

— Həddindən artıq çox bilirsən — polkovnik-leytenant bəyənməzcəsinə qeyd etdi, — deməli, qocalmaq nəsibin olmayacaq. Cavan öləcəksən.

— Mənə onun adı lazımdır. Qatilin adı!

— Cəhənnəm ol! — Krivets qəzəblə dedi, — bilirsən ki, onun adını sənə deməyəcəm. Elə bilirsən mən də sənin kimi o biri dünyaya tələsirəm? Mən sənə onun adını desəm — məni ölü bil. Onlar məni bir anın içində tapıb gəbərdərlər. Elə bilirsən bu qadın həngaməsini quraşdırdıqlarının səbəbini anlamıram? Biz elə bir qadını tapmaq üçün bir neçə həftəmizi sərf etmişik. Hər şey bizə əmr olunduğu kimi — yerli-yerində və dəqiq olmalıydı. İndi sən durub gəlib, bir neçə günə hər şeyi həll etmək istəyirsən? Xeyr, elə şey ola bilməz. Heç kim sənə bunu etməyə yol verməz.

— Mənim nəyisə həll etməyimə ehtiyac yoxdur. Mənə qatilin adı lazımdır. Mən qadını sizə kimin sifariş etdiyini və bütün bu hoqqaların arxasında duran adamın kim olduğunu bilirəm. Lakin mənə qatil lazımdır. Sadəcə, o. Vəssalam. Qatilin kim olduğunu öyrənən kimi, mən buradan yox olacam və siz məni bir daha görməyəcəksiniz.

— Yox! — deyə Krivets çəmkirdi. — Onu bil ki, mən heç nə deməyəcəm! İstəyirsən məni öldür.

— İşə bir bax, — Dronqo fikirli-fikirli dedi, — deməli, belə çıxır ki, siz ölümdən daha çox onlardan qorxur sunuz, hə?

— Əlbəttə — podpolkovnik dişlərini ağartdı, — sən məni sadəcə öldürəcəksən, vəssalam. Mənim arvadım uzun müddət pensiya alacaq və bir qəhrəmanın dul qalmış arvadı olacaq. Onlar məni sıxışdırsa isə, mənim nəinki ailəm, heç itim-pişiyim də qalmaz. Hətta ölümümdən sonra da hamı məni alçaq bir adam kimi tanıyacaq. Yox, mən sənə heç nə deyən deyiləm, nə istəyirsən, elə.

— Gecdir — qəfildən Arsenin səsi gəldi. O, əlində tapança ilə qapının ağzında dayanmışdı.

«Lika, – Dronqo nə baş verdiyini anladı, – o, ikinci yataq otağına keçib, Arsenin əllərini açmışdır. Onun da əl-qolunu bağlamamaqda səhv etdim. Tapança isə, görünür, Arsenin yataq otağında imiş».

— Silahını yerə at, — Arsen əmrlə dedi, — yoxsa atəş açacağam. Cəld ol!

— Gecdir! — deyə Dronqo qışqırdı. Polkovnik-leytenant mənə dedi ki, İrinanı sən öldürmüsən.

— Yalan deyir! — deyə Krivets yerindən sıçradı. — Hər şeyi yalan deyir!

Arsen tapançanı polkovnik-leytenanta tuşladı. Bu anda Dronqo ona tərəf çevrilib güllə atdı. O, dəqiq nişan almışdı, Arsen ağrıdan bağırdı, güllə onun qolundan dəymişdi. Tapança yerə düşüb polkovnik-leytenanta tərəfə sıçradı. Krivets divanın yastığını Dronqo tərəfə tullayıb tapançaya tərəf atıldı. Dronqo bir güllə də atdı. Amma bu atəş uğursuz oldu. Bu dəfə o, tapançaya güllə atırdı, lakin silahın yerdə sürüşməsi trayektoriyasını — nəzərə almadı. Evin döşəməsi həddindən artıq yaxşı təmizlənibmiş.

Polkovnik-leytenant tapançanı əlinə aldı. Dronqo isə holla tərəf qaçdı. Ona atılan iki güllənin səsi gurultu ilə mənzilə yayıldı.

— İndicə bura adamlar gələcək, — Dronqo ucadan dedi.

— Mənim adamlarım, — deyə polkovnik-leytenant cavab verdi.

— Dayanın, atəş açmayın. Sizin vəsiqənizlə tapançanız məndədir.

— Biz sizinlə razılaşmaya gələrik, — polkovnik-leytenant cavab verdi və əlini uzadıb güllə ilə Arseni düz başından vurdu. Arsen dartılıb yerə yıxıldı. Onun qan damcıları ilə beyninin parçaları divara yayıldı.

— Axmaq! — Dronqo üzünü turşutdu. — Necə də axmaqsınız! Onu niyə öldürdünüz? — deyə o, kifayət qədər ucadan qışqırdı ki, qonşu otaqda da səsini eşitsinlər. — Onu niyə güllələdiniz?

— Bu mənim işimdir. O, məni pis vəziyyətdə qoydu. Axmağın biri axmaq məni bura gəlməyə məcbur etdi!

Polkovnik-leytenant qonşu otaqda qorxu və həyəcandan donub qalaraq hər şeyi eşidən Likanın olduğunu bilmirdi. Mənzildə bütün danışıqları eşidən bir şahidin olduğu onun heç ağlına da gəlmirdi.

— Onunla da razılaşmaq olardı, — deyə Dronqo qışqırdı.

— Gecdir, — polkovnik-leytenant cavab verdi, — o, artıq ölüdür. Mənim vəsiqəmlə tapançamı özümə qaytar. Sonra gec ola bilər.

— Mənə qatilin adı lazımdır.

— Onda gözlə ki, səni həbs etsinlər. Bu saat buraya qorumalar gələcək.

— Onda mən gedirəm. Sənin vəsiqənlə tapançanı da özümlə aparıram, polkovnik-leytenant. Əgər qatilin adını mənə deməsən, sənədlərinlə birlikdə çıxıb gedəcəm.

— Dayan! — polkovnik-leytenant qışqırdı. — Lənətə gələsən! Tapançamla vəsiqəmi mənə qaytar. Sənə onun adını deyəcəm.

— Sənə inanmağım gəlmir, polkovnik-leytenant. Öz agentinlə bu cür davrandığından sonra sənə inanmaq axmaqlıqdır. Qatilin adını de, tapançanı özünə qaytarım.

Vəsiqəni isə aşağıda sürücünə verəcəm. İstəyirsən ona zəng elə, qoy bilsin. Cəld ol, adı de. Vaxtım azdır.

— Səni görüm lənətə gələsən! — deyə polkovnik-leytenant təkrarladı. O, divanın arxasında gizlənirdi. — Onun adı Denisdir. O, ölən qızın dostu idi, yəni şəxsi sutenyoru. Bundan artıq sənə heç nə deməyəcəm, tapançanı at.

— Al, tut, — Dronqo tapançanın güllə darağını boşaldıb yerə atdı.

— Bəs vəsiqəm? — Krivets bağırdı.

— Dedim axı, onu aşağıda sənin sürücünə verəcəm. Bu, mənim təhlükəsizliyimin təminatıdır. Maşının hansıdır?

— Qara «Volqa». Maşında serjant formasında oğlan oturub. Nömrəni deyim?

— Lazım deyil. Mən maşının milis maşını olduğunu anlayacam. O Denisi haradan tapmaq olar?

— Mən hardan bilim? — deyə polkovnik-leytenant qəzəblənib telefona tərəf atıldı və maşınının mobil aparatının nömrəsini yığmağa başladı. — Mən sənin üçün məlumat bürosu deyiləm. Mərhumdan soruşardın, amma indi o, sənə daha bir söz deyə bilməz. — Sonra da astaca telefonun dəstəyinə dedi: — İndi binadan bir tip çıxacaq. Yekəpər biridir. Ondan mənim vəsiqəmi al.

— Hələlik, — Dronqo ehtiyatla qapıya tərəf irəlilədi, — ağıllı olun, polkovnik-leytenant, artıq-əskik hərəkətlər etməyin. Bu saat buraya qorumalar gələcək.

O, təngnəfəs olmuş vəziyyətdə qapıdan çıxdı. Liftlə kimsə qalxırdı. Dronqo pilləkənlərlə aşağı qaçanda liftin qapıları qəfildən açıldı, içindən iki nəfər gözətçi mənzilin qapısına tərəf qaçıb, qapını möhkəm döyməyə başladı.

«Başına gələcəklərini təsəvvür edirəm, – deyə Dronqo sevinərək düşündü, – üstündə heç bir sənədi yox, mənzildə isə adam meyiti var. Bir də canlı şahid, xəbəri olmadığı otaqdakı qız. Polkovnik-leytenant necə bir zibilə keçdiyini təxmin etmir».

Küçədə, hasarın o biri tərəfinə çıxan kimi onun qarşısına hərbi formalı serjant çıxdı.

— Sənədləri ver, — oğlan sərt tonda tələb elədi. Dronqo gülümsədi və polkovnik-leytenantın vəsiqəsini ona uzatdı.

«Görəsən, qonşu otaqdan yarıçılpaq vəziyyətdə Lika çıxanda polkovnik-leytenant vəziyyəti necə izah edəcək? – Dronqo Krivetsin sifətini təsəvvür edərək bir daha sevincək düşündü. – Ürəyi partlayacaq. Hərçənd, bu, artıq onun şəxsi işidir».

# *BEŞİNCİ GÜN*

Təyin olunmuş vaxta hələ dörd saat qalırdı. Rastına çıxan mağazalara girərək, məqsədsiz şəkildə küçələrdə dolaşırdı. O, doxsan ikinci ilin əvvəllərində şəxsi ev əşyalarını satan adamların növbəsinin Böyük Teatrdan ta «Moskva» mehmanxanasına, oradan da Puşkin meydanına tərəf uzandığını yaxşı xatırlayırdı. O vaxtlar bu şəhər sanki məhvolmaya məhkum olunmuşdu. Ümid, demək olar ki, qalmamışdı. Üstəlik, iqtisadi nizamsızlığa da siyasi sarsıntılar əlavə olunurdu. Bir vaxtlar mövcud olmuş vahid, nəhəng bir ölkə qəfildən xırda-xırda parçalara bölündü. O parçaların da hər birində, öz növbəsində, qarşısıalınmaz dağılma prosesi başladı.

İndi isə şəhər mağazaları dünyanın ən ünlü mağazaları ilə bəhsə girə bilərdi. Piştaxtalar qəfildən xəyala belə

gəlməyən mallarla doldu. Düzdür, bu malların fantastik, qeyri-real və əvvəl heç bir yerdə görünməyən dərəcədə, hətta Amerika ilə Avropa ilə müqayisədə belə baha satıldığı məlum oldu,. Lakin məsələnin bu tərəfi, deyəsən, heç kimi qayğılandırmırdı.

Dronqo xüsusilə kitab mağazalarını dolaşmağı sevirdi. Kitabların heç satışa çıxmadan əlçatmaz olduğu yetmişinci illərin qıtlığından, köhnə qəzet və jurnalların əvəzinə təklif olunan, əvvəllər əlçatmaz olan Düma ilə Drüonun, Simenonla Bulqakovun əsərlərinin kütləvi nəşrləri başlanan səksəninci illərin «makulatura» bumundan sonra doxsanıncı illərin fövqəladə bumu başlandı. O vaxt kitablar kütləvi tirajlarla və münasib qiymətlərlə nəşr olunmağa başladı və bütün kitabsevərlər üçün əlçatan oldu. Son bir neçə ildə kitab bazarı naməlum və əvvəllər nəşr olunmayan xarici müəlliflərin, gənc istedadların, qrafomanların nadir fantastika və detektiv nəşrlərilə dolub-daşırdı. Amma tədricən hər şey çərçivəyə girməyə başlayırdı. İndi artıq istənilən bir kitabı xırdavatçı piştaxtalarından deyil, mağazalardan almaq mümkün idi. Yüz minlərlə nüsxədə dərc olunmuş tirajlar birdən-birə yoxa çıxdı və naşirlər hansısa bir kitabı böyük tirajla nəşr etdirmək riskinə nadir hallarda gedirdi. Mədəni kitab bazarı dövrü başlayırdı.

Lakin bütün bu dəyişikliklər təkcə kitab nəşriyyatına aid deyildi. Əvvəllər hansısa bir restorana getmək müəyyən çətinliklərlə başa gəlirdisə, indi artıq çoxsaylı restoran və kafelərin qapıları müştərilərin üzünə açıq idi. Əvvəllər mehmanxanaya düşmək qeyri-real məsələ idisə, indi müasir otellər qonaqlarına əvvəllər görünməmiş apartamentlər də daxil olmaqla, müxtəlif cür xidmətlər təklif edirdi. Həyat sanki sahmana düşürdü, hətta hələ də küçələrdə mövcud olan cinayətkar özbaşınalıq belə getdikcə azalmaq üzrə idi. Lakin bütün bunlar həyatın sadəcə zahiri görünüşü idi. Doxsanıncı illərin sonuna yaxın təsir sferaları parçalandı və

böyük bir dövlətin faktiki sahiblərinə çevrilmiş bir neçə nüfuzlu qrup nəhəng bir bazar olan Rusiyaya yiyələnmə uğrunda amansız mübarizəyə başladı.

Dronqo restoranda oturub şam yeməyi yeyir və bu günün hadisələrini təhlil edirdi. İndi artıq Kopteva ilə tanışının qətlində Lısakovun birbaşa iştirakına heç bir şübhə qalmırdı. Görünür, mayor qadının gəvəzəliyinin intiqamını bu üsulla almaq qərarına gəlibmiş. İndi özünü Aleksandr Mixayloviç kimi qələmə verib, məharətlə qatil rolunu icra edən naməlum Denisi tapmaq lazım idi. Görünür, Aleksandr Mixayloviçin çiynindəki çapıq barədə ona ölən qız məlumat vermişdi. Lakin yazıq İrina bu faktın, ilk növbədə, onun özünə qarşı istifadə olunacağını heç təxmin etməyibmiş.

Yaxın bir neçə gün ərzində onun polkovnik-leytenantı tapa biləcəyi ehtimalı çox azdır. Sergey Fyodoroviçin problemlərinin kifayət qədər artdığı məlum məsələ idi. Mənzildə meyitlə canlı şahidin – polkovnik-leytenantın sutenyoru öldürdüyünü görən və eşidən bir qadının olduğunu izah etmək və bu vəziyyətdən sıyrılıb çıxmaq heç də asan iş deyil. Amma hətta Krivets bu dolaşıqlıqdan çıxa bilsə də, Miçurindəki mənzildə olan odlu atışmanı hələ uzun müddət unutmayacaq.

Dronqo şam yeməyinin haqqını ödəyib restoranın çıxış qapısına tərəf getdi. Təqribən iyirmi yaşlarında olan gənc ofisiant onun arxasınca qaçıb dedi:

— Bağışlayın. Siz lazım olduğundan xeyli artıq pul ödəmisiniz.

— Nə qədər ödəməliydim ki?

— Üç yüz rubl. Siz isə dörd yüz ödəmisiniz.

— Restoran biznesi sizi hələ korlamayıb, — Dronqo gülümsədi, — artıq olanı özünüzə götürün, halal-xoşunuz olsun. Sağ olun.

O, küçəyə çıxdı. Bu gün hava dünənki qədər soyuq deyildi. Dronqo ətrafa göz gəzdirdi. Deyirlər, doyumlu bir şam yeməyindən sonra bir qədər piyada gəzişmək faydalıdır. Dronqo da elə piyada getməyi düşünürdü. Hərçənd yolu kifayət qədər uzun idi.

Yuliya onu pis vəziyyətdə qoymadı. Dediyi vaxtda danışdıqları yerə gəlmişdi. Amma təkcə gəlmişdi. Nişanlısı yanında yox idi. Dronqo arxa oturacağa əyləşib soruşdu:

— Niyə təksən?

— Ona bu barədə heç nə deməməyə qərar verdim, — Yuliya üzünü ona tutub cavab verdi. — Ona mənim axşam işimin spesifikasını izah etməkdə çətinlik çəkəcəkdim.

— Sizinlə razıyam, — Dronqo güldü. — Sizin ofisə yaxınlaşanda mənə xəbər edin, mən yenidən avtomobilin dibində gizlənim.

— Sizə bizim ofisə getmək çox önəmlidir? — qız soruşdu.

— Ora getsəm daha yaxşıdır. Evimə gedə bilmərəm, həddindən artıq təhlükəlidir.

— Bəlkə mənim evimə gedəsiniz? — birdən Yuliya soruşdu.

— Təşəkkür edirəm, amma təklifinizdən imtina etmək məcburiyyətindəyəm.

— Siz məndən qorxursunuz bəyəm? — deyə Yuliya meydan oxuyurmuş kimi soruşdu.

— Yox. Mən sizə çox minnətdaram. Sadəcə, sizi elə bir riskə atmaq haqqım yoxdur. Bizi izləyə bilərlər. Onda hər ikimizi öldürərlər. Ya da sizin evə mən artıq orada olmayanda gələrlər. Gəlib ya sizi, ya da yaxınlarınızı aradan götürərlər. Bağışlayın, amma sizə gedə bilmərəm.

— Eybi yoxdur, — deyə Yuliya astaca maşını işə saldı. Bütün yolu bir kəlmə danışmadı. Yalnız olduqları küçənin yanındakı küçəyə çıxanda «vaxtdır» dedi.

— Təşəkkür edirəm. Çox xahiş edirəm, məni bağışlayın.

— Eybi yox, — qız özünü gülümsəməyə məcbur etdi, — zənnimcə siz mənə həyatımda rədd cavabı verən ilk kişisiniz. Mən isə, təsəvvür edin ki, incimədim.

Dronqo arxa oturacağın qabağında yerə uzandı və Yuliya adyallarla onun üstünü örtdü. Onlar maşınla qaraja girəndə, Dronqo adyalları üstündən açıb maşından çıxdı və nəzakətlə qızın əlindən öpdü.

— Mən özümü namərd kimi hiss edirəm, — Dronqo etiraf elədi, — amma başqa əlacım yox idi.

— Sizə uğurlar arzulayıram, — Yuliya gülümsədi, — əgər sabah da mənim yardımıma ehtiyac olsa, qulluğunuzda hazıram.

— Razılaşdıq, — Dronqo da cavabında gülümsədi.

Fedoseyevin kabinetində ümumi işə aidiyyəti olan bir neçə adam gecikmiş şam yeməyinə toplaşmışdı. Stol arxasında Savva Afanasyeviçin özü də əyləşmişdi. Onun yanında hələ də möhkəm axsayan Lyubomudrov oturmuşdu. Onlarla üzbəüz isə Andrey İlyin var idi. İçəri daxil olan Dronqonu görən general əllərini qaldırıb dedi:

— Buyurun, süfrəyə əyləşin. Tam zamanında gəlmisiniz. Yəqin ki, qayınananız sizi çox istəyir.

— Ümid edirəm ki, hələ hər şey qabaqdadır,z — Dronqo süfrəyə əyləşdi.

— Biz, necə deyərlər, həm ziyarət, həm ticarət etmək qərarına gəldik, — deyə general izah elədi, — sizə xoş

xəbərim var. Siz haqlıymışsınız. Bizdə ölən qız haqqında yeni xəbərlər var.

— Nə kimi xəbərlər? — deyə Dronqo yeməyi tamamilə unudaraq soruşdu.

— Qız həqiqətən də kitabxanaçılıq fakültəsinin tələbəsiymiş. Amma təhsil aldığı institut Moskvanın özündə yox, Moskva ətrafında yerləşir, — deyə Fedoseyev izah elədi.

— Bunun böyük əhəmiyyəti yoxdur, — Dronqo köks ötürdü. — Onun Denis adında bir dostu var imiş. Onu axtarıb tapmaq lazımdır. Adamlarınıza tapşırın, sabah səhər tezdən onun axtarışına başlasınlar. Ya da yox, Denisin axtarışına onlarla birgə mən də gedəcəm. Əgər qız oranın tələbəsiydisə, deməli, onu orada Denislə birlikdə görən olardı.

— Denis kimdir? — general maraqlandı.

— Qatil, — Dronqo cavab verdi, — çiynində yalançı çapığı olan zəmin qatil.

— Siz bunu haradan öyrəndiniz? — deyə Vikenti Alekseyeviç təəccübləndi.

— Bu gün mənim bəxtimə bizim bu uzanmış dramın bir neçə personajı ilə tanış olmaq qisməti düşüb. Əvvəlcə məşhur Moskva sutenyoru olan Arsenin ünvanı ilə telefon nömrəsini öyrənə bildim. Onun evinə gəldikdən sonra, dərhal mənim ardımca da şəxsən polkovnik-leytenant Krivets özü gəldi. Onunla da orada tanış olduq.

— Qatilin adını da sizə Krivets xəbər verdi? — deyə general eşitdiklərinə inanmadı.

— Hər halda oğlanın adını mənə polkovnik-leytenant dedi.

— O sizə nədən oğlanın adını dedi ki? — deyə Fedoseyev soruşdu. — Siz onu hədələmisiniz?

— Yox, elə bir şəraiti onun özü yaratdı. Biz onunla söhbət etdiyimiz vaxtda bizim söhbətə müdaxilə etmək qərarına gəlmiş Arsen gəldi. Nəticədə Krivets iki canlı şahidin həddindən artıq böyük maneə olduğunu qərara alaraq, özünün çoxdankı agenti olan Arseni öldürdü. Arsen cinayət-axtarış idarəsinin maaşlı agentiymiş.

— Hə, sonra da Krivets sizə qatilin adını bildirib sizin oradan sağ-salamat çıxıb getməyinizə izin verdi? — deyə indi artıq Lyubomudrov eşitdiklərinə inanmadı.

— Yox. Elə deyildi. O, Arseni onun öz silahı ilə öldürməzdən əvvəl mən polkovnik-leytenant silahı ilə xidməti vəsiqəsini əlindən almışdım. Biz onunla mübadilə etməyə razılaşdıq. Mən ona silahı ilə sənədlərini qaytarmalıydım, o isə mənə qatilin adını bildirməliydi. Tapançasının darağını çıxarıb boşunu ona tulladım, vəsiqəsini isə küçədə sürücüsünə verdim. Bunun müqabilində o, qatilin adını mənə dedi.

— Siz də onun həqiqəti dediyinə inanırsınız?

— Hələlik bilmirəm. Amma istənilən halda mən heç nə itirmiş olmuram. Məsələ burasındadır ki, Arsenin öldürüldüyü anda sutenyorun mənzilində onun qadınlarının biri var idi. Bu qadının orada olduğu barədə isə polkovnik-leytenant tam xəbərsiz idi. Binanın üç nəfər qoruma növbətçisi ora gəlib çıxdığı üçün mənzilin bütün otaqlarını yoxlamaq fürsəti tapmamışdı. Əgər qadın bütün baş verənləri təfərrüatı ilə danışmağa başlasa, bizim polkovnik-leytenantımız əlli-ayaqlı həbsxanaya gedəcək. Həm də uzun müddətliyinə.

— Onu yaxşı tələyə salmısınız. Afərin! — general işin nə yerdə olduğunu anladı.

— O özü-özünü işə saldı desək, daha doğru olar. Özündən bu qədər arxayınçılıq olmaz. O, mənzildə kənar adamların olmadığından əmin idi.

— Siz də onu xəbərdar etmədiniz, deyilmi?

— Əlbəttə etmədim. Niyə etməliydim ki? İndi isə biz öldürülən qızın dostunun adını bilirik. Təbii ki, əgər polkovnik-leytenant məni aldatmayıbsa. Halbuki Krivets elə bir vəziyyətdəydi ki, çətin o məqamda ağlına nə isə gələrdi. Mənim fikrimcə, əgər ölən qızın Denis adlı bir dostu var idisə, biz onunla mütləq tanış olmalıyıq. Oğlanın peşəkar bir qatil olub-olmadığı tanışlığımızın elə ilk anındanca aydınlaşacaq. Həm İrinanın, həm də Lyonyanın öldürüldüyü hər iki halda qatil son dərəcə soyuqqanlılıqla və amansızcasına davranmışdır, bu isə sırf peşəkarllara xas xüsusiyyətdir.

— Yoxlayarıq, — İlyin dilləndi, — sabah səhər mən özüm o instituta gedəcəyəm.

— Mən də sizinlə gedəcəm, — Dronqo bildirdi. — Ən əsası isə odur ki, Lısakov Kopteva ilə tanışının ləğvində, ya birbaşa özü iştirak edib, ya da bu əmri şəxsən özü verib. Hər iki hal eyni cinayətdir. Ona görə də ilk növbədə Lısakovdan ehtiyatlanmaq gərəkdir.

— Bəs bizə atəş açanların kim olduğunu öyrənə bildinmi?

— Zənnimcə, onlar polkovnik-leytenantın adamlarıydı. Görünür, Lyonya doğrudan da bizim Koptevanın evinə getdiyimizi eşidib və bu xəbəri Arsenə çatdırmağa tələsmişdi. Arsen də bunu polkovnik-leytenanta xəbər verib. Nəticədə isə biz başımız üstündə keçən avtomat növbəsinə məruz qaldıq.

— Bəs otel nömrəsində kameranı kim quraşdırıbmış?

— Hələ bilmirəm. Bunu öyrənməyə hələ vaxtım olmayıb. Hadisələr həddindən artıq sürətlə və tam gözlənilməz məcrada cərəyan etdi.

— Yəni bizim qatili tapmaq ümidimiz varmı? — Vikenti Alekseyeviç heyranlıqla Dronqoya baxıb soruşdu. — Sözün açığı, mən belə bir möcüzəyə artıq inanmırdım.

— Mən də, — Dronqo tam ciddiyyətlə dedi, — və hərrac baş tutmayana qədər inanmayacam, — deyə sonradan əlavə elədi. — Həddindən artıq təhlükəli bir işdir. Sabah biz, nəyin bahasına olursa olsun, o Denis deyilən adamı axtarıb tapmalıyıq. Təbii ki, əgər elə bir adam həqiqətən varsa. Təəssüf etdiyim yeganə şey Arseni əməlli-başlı sorğu-sual edə bilmədiyimdir. Amma vaxtım çox az idi.

— Onu doğrudan da polkovnik-leytenant öldürdü? Təsadüfən gülləni siz atmadınız? — Fedoseyev soruşdu.

— Mən gülləni təsadüfən yox, dərkolunmuş vəziyyətdə atdım. Mənim atdığım güllə də onun mənə tuşladığı tapançasının əlindən düşməsinə səbəb oldu. Sonra onun tapançasını yerdən polkovnik-leytenant qaldırdı və Arseni başından güllələdi. Vəssalam. Əgər yataq otağında gizlənmiş fahişə qorxudan hələ ölməyibsə, o, hər şeyi olduğu kimi eşitməli olmalıdır. Özü də nəinki təkcə eşitməli, həm də prokurora polkovnik-leytenantın günahkar olduğunu təsdiqləməlidir.

— Sizi tək qoymaq təhlükəlidir, — deyə Vikenti Alekseyeviç nəticə çıxardı, — siz daim qeyri-adi vəziyyətlərə düşürsünüz.

— Birisi gün Aleksandr Mixayloviç gəlir, — general xatırlatdı. — Əgər o gələnə qədər biz qatili tapsaq, ona həyatının ən böyük və ən dəyərli hədiyyəsini vermiş olarıq.

# *ALTINCI GÜN*

Bu gecə o, əvvəlkinə nisbətən xeyli yaxşı yatdı. Yorğunluğu ilə gərginliyə alışmış olması özünü göstərirdi. Bundan da əlavə, o, hələ gənc yaşlarından, bir metr səksən yeddi santimetr boyla çəkisi doxsan kiloqramı ötmədiyi idmançı fiquralı olduğu vaxtlardan bərk yerdə yatmağı sevirdi. O vaxtdan bəri on beş ildən artıq vaxt keçmişdi və çəkisinin iyirmi kiloqramdan da çox artmasına baxmayaraq, bərk yatağa olan eşqi hələ də keçməmişdi.

Səhər yeməyini onlar adəti üzrə birlikdə yedilər. Hamı bugünkü günün bir çox məqamlara aydınlıq gətirə biləcəyinin məsuliyyətini anlayaraq susurdu. Qarşılıqlı razılaşmaya görə, Fedoseyevlə Lyubomudrov kompaniyanın mərkəzi binasında qaldılar. Dronqo ilə İlyin isə iki «Cip»lə İrina Maksimenkonun oxuduğu institut olan Podolska yola düşdülər.

Maşınların şüşələri qaraldılmış olsa da, İlyin yenə də Dronqonun arxa oturacaqda ortada, təhlükəsizlik xidmətinin iki nəfər əməkdaşının ortasında oturmasında israr etdi ki, onlar öz bədənlərilə eksperti mühafizə etsinlər.

Podolska gedən yolda heç bir gözlənilməzliklə üzləşmədilər. İnstitutda onlar kifayət qədər qısa zamanda mərhum İrinanın doğrudan da Denis Yepifantsev adlı bir qrup yoldaşının olduğunu və onların dostluq etdiyini öyrəndilər. Denisin ünvanını isə öyrənmək artıq heç bir çətinlik törətmirdi. Hər iki maşın onun yaşadığı binaya yaxınlaşdı və artıq yarım saatdan sonra bütün əməliyyat qrupu onun mənzilinin yanında toplaşıb qapısını döyürdü. Qapını təqribən altımış yaşlarında bir qadın açdı və narazılıqla qonaqlardan ayaqqabılarını soyunmalarını və ümumiyyətlə

səs salmamalarını tələb etdi. Sən demə, qadın kirayənişinlərinin həyatını cəhənnəmə döndərən ev sahibələrindən biriymiş. Bu növ ev sahibələri kirayənişinləri üçün elə dözülməz şəraitlər yaradır ki, nəticədə onlar hətta ən ucuz qiymətə belə elələrinin evində qalmağa razı olmur. Bu qadın kimi sahibələr kirayənişinlərin onlara nəinki ev kirayəsi ödəməli olduqlarını, həm də onların daimi gileygüzar, danlaq və məzəmmətlərini dinləməli olduqlarını düşünürlər. Sanki bu tələb icarə haqqının ayrılmaz əlavəsiymiş kimi. Bir çox gənclər də, məhz bu əlavələrlə razılaşmadan belə evləri dərhal tərk edirlər.

Ev sahibəsinin söylənməsinə məhəl qoymadan Dronqo və onunla gələn əməkdaşlar Denisin otağına daxil oldular. Onlar gəldiyi vaxt Denis kurs işilə əlləşib-çalışırdı. Polkovnik-leytenantın nə dərəcədə abırsızcasına yalan söylədiyini anlamaq üçün bu oğlanın üzünü görmək kifayət idi. Üzündən kitab həvəskarı olduğu bəlli olan bu uşağın gözündə qalın şüşəli eynək var idi. Baxışı isə son dərəcə dalğın bir adamın mülayim baxışıydı.

— Sizə kim lazımdır? — deyə Denis bu qədər adamın onun otağına gəldiyini görcək təəccübləndi.

— Denis Yepifantsev sizsiniz? — İlyin Dronqoya baxıb ruhdan düşmüş bir vəziyyətdə soruşdu.

— Mənəm, — oğlan təsdiqlədi. — Bəs siz kimsiniz? Sizə nə lazımdır?

— Deyəsən biz səhv etmişik, — İlyin Dronqoya baxıb dedi. — Özünüz görürsünüz ki, bu adam heç də bizim axtardığımız birisi deyil.

— Dayanın, — Dronqo qaşlarını çatdı və otağa keçib oğlanın çarpayısının üstündə əyləşdi, — siz İrina Maksimenko ilə bir qrupda oxumusunuz?

— İrina ilə? — deyə oğlan eynəyini düzəldərək təkrarən soruşdu. — Bəli, oxumuşuq. Amma biz qiyabi fakültədə oxuyuruq. Axı mən gecələr gözətçi işləyirəm.

— Gözətçi işləyirsiniz? — Dronqo çıxıb getməyə tələsən İlyinin səbirsizliyini görüb soruşdu. — Siz atəş açmağı bacarırsınız?

— Yox, — deyə oğlan utanaraq qıpqırmızı qızardı, — mənim görmə qabiliyyətim çox zəifdir, mənfi altıdır. Lakin onlardan məni gecə qarovulçusu işinə götürmələri üçün çox xahiş elədim. Ya da gözətçi işinə, indi belə deyirlər.

İlyin çaşqın vəziyyətdə bir-bir onunla gələn adamların üzünə baxırdı. Onların Dronqo ilə özünün müvəffəqiyyətsizliyinin şahidi olduqları ona toxunurdu. Bu yanlışlıqlarından böyük təəssüf hissi keçirərək onlara dedi:

— Siz qapının arxasında gözləyin.

Otağa tələsən ev sahibəsi qapının ağzında dayanmış təhlükəsizlik xidmətinin üç nəfər əməkdaşının köməyilə dərhal sıxışdırılaraq geri qaytarıldı.

Dronqo bu işdə bir qəribəlik hiss edirdi. Bu isə heç də polkovnik-leytenantın yalan danışa bildiyi üçün deyildi. polkovnik-leytenant istənilən başqa bir şəraitdə ağzına gələni deyə bilərdi, amma onların olduğu şəraitdə – əsla. Atışma başladığı, yanında özünün güllələdiyi, beyni darmadağın olan və al qan içində üzən bir meyitin olduğu, silahı ilə vəsiqəsinin tanımadığı adamın əlində olduğu vaxtda münasib namizəd taparaq elə bir əfsanə uydurmaq yalnız dərrakənin möcüzəsi sayəsində mümkün ola bilərdi. Ya da buna misli görünməyən bir iradə nümayişi demək olar. Polkovnik-leytenant isə nə fövqəladə dərrakə, nə də misli görünməyən iradə sahibidir. Bəs onda bu nə məsələdir? Onlar harada səhv etmişdilər?

— Siz İrina Maksimenkonu yaxşı tanıyırdınız? — deyə Dronqo oğlandan soruşdu.

— Biz onunla bir qrupda oxumuşuq, — oğlan eynəyini düzəldərək təəccüb içində cavab verdi, — yaxşı qız idi. Siz niyə onun barəsində soruşursunuz ki? Eşitdiyimə görə, qız həlak olub.

İlyin ümidsizlik içindəydi. Bəli, bəzən Dronqo kimi ekspert də yanıla bilərmiş.

— Siz onun harada yaşadığını bilirsinizmi?

— Əlbəttə bilirəm. Vasilyevsk küçəsində, düz şəhərin mərkəzində. Bir dəfə onunla orada rastlaşdıq. İrina mənə orada yaşadığını dedi. Hətta yaşadığı evi də göstərdi. Mən hələ o vaxt təəccübləndim ki, orada yaşayan qız nədən bizim institutda oxuyur? Axı köçürmə ilə evinə yaxın bir yerdə də oxuya bilərdi.

— O harada yaşayırdı? — Dronqo ayağa sıçradı. Qızın ünvanı heç yerdə yazılmamışdı.

— Vasilyevsk küçəsində, — Denis təəccübləndi, — amma nədənsə onun sənədlərində tamamilə başqa bir ünvan qeyd olunmuşdu. İrina orada kirayədə yaşayırdı, amma dəqiq heç nə bilmirəm.

— Hər dəfə də bu qədər yolu qət edib şəhərdən instituta gəlib-gedirdi?

— Bəli. Adətən onu nişanlısı aparıb-gətirirdi. Öz maşını ilə.

— Nə nişanlısı? — Dronqo ilə İlyin birsəsə soruşdular.

— İrinanın nişanlısı. Qəribə bir oğlan idi. Heç danışıb-dinmirdi. Özü də mənimlə adaş idi — adı Denis idi.

İki göz istəyirdi ki, Dronqo ilə Andreyin həmin anda bir-birinə baxdıqları baxışı görsün. Deməli, polkovnik-leytenant

başına gələnlərin ağırlığına tab gətirməyib, istər-istəməz Dronqoya əsl qatilin adını demişdi. Sonradan onların məhz Yepifantsef Denisin izinə düşmələrinə çalışması isə məsələnin başqa tərəfidir.

— İrina adətən hansı maşınla gəlib-gedirdi?

— Deyəsən «Sitroyen» idi, amma dəqiq yadımda deyil.

— Maşının nömrəsi yadında qalıbmı?

— Yox. Bəlkə uşaqlardan hansınınsa yadında qalmış olar. Mən adətən maşınların nömrələrinə baxmıram. Nəyimə lazımdır?

— Nişanlısı necə bir adam idi?

— Ucaboy, qədd-qamətli, yaraşıqlı bir oğlan idi. Amma elə hey susurdu. Bilirsiniz, mənə elə gəlir ki, o, heç rus millətindən deyildi. Gözləri bir cür idi, qəribə idi, asiyalılarda olduğu kimi. Deyəsən Sibirdən idi, hə, dəqiq yadımdadır, Sibirdən idi. Bəlkə də yakut idi, ya da buryat. Onun gözləri həmişə mənim diqqətimi çəkirdi.

— Siz onu çox görmüşdünüz?

— Üç, ya da dörd dəfə. O, İrinanı instituta gətirib, tez də çıxıb gedirdi. Bir kəlmə belə danışmadan. Amma sifəti həmişə qəribə idi.

— Necə idi?

— Bilmirəm. Sözlə dəqiq ifadə edə bilmirəm. Baxın, misal üçün, mən kənddə böyümüşəm və elə sifəti donuz kəsənlərdə görmüşəm. Donuz kəsənlər sanki həmişə özlərini heyvanların qışqırtısına kökləyirlər ki, kəsdikləri vaxtda qışqırıqlarına reaksiya verməsinlər. O oğlanın sifətində qəribə bir ifadə donub qalmışdı. Elə yaşı da, mənim fikrimcə, İranın yaşından xeyli çox idi.

— Nişanlı... — Dronqo fikirli-fikirli sözü uzatdı, — əyninizi geyinin, Denis, bizimlə gedirsiniz.

— Hara? — deyə Yepifantsev təəccübləndi.

— Bizə Vasilyevsk küçəsindəki İrinanın yaşadığı evi göstərərsiniz. Təbii ki, əgər xatırlaya bilsəniz. Bir də, zəhmət olmasa, adaşınızı bizə təkrarən müfəssəl şəkildə təsvir edərsiniz.

— Yaxşı, — oğlan razılaşdı. — Amma siz sonra məni evə geri gətirin. Oldumu?

— Söz verirəm, — Dronqo ayağa qalxdı. — Tələsin.

Dronqo otaqdan elə sürətlə çıxdı ki, qulağını qapıya dirəmiş ev sahibəsilə toqquşdu.

— O nə qələt eləyib? — deyə arvad dəhşət içində soruşdu. — Siz onu aparırsınız?

— Bəli, — Dronqo ciddi tonda cavab verdi. — Belə bir ev sahibəsilə ona yaşamaq olmaz. Xüsusi «sahibətəmizləyən» lazımdır, əks halda oğlan əldən gedəcək.

Qadın Dronqonun onunla masqara etdiyini anladı. Tərs-tərs ona baxıb oradan uzaqlaşdı. İlyin ağır köks ötürərək Dronqonun dalınca otaqdan çıxdı.

— Siz istənilən vəziyyətdən maksimal fayda çıxarmağı bacarırsınız, — deyə o, heyranlığını Dronqodan gizlətmədi.

— Mən, sadəcə, öz işimi görürəm, — Dronqo etiraz elədi, — hələ bizim bəxtimiz gətirib ki, o şərəfsiz polkovnik-leytenant qatilin adını ağzından qaçırdı. O, ağlına gələn başqa bir ad da çəkə bilərdi. Onda da...

— Siz qatilin İrinanın nişanlısı olduğunu düşünürsünüz?

— Mən onun İrinanın nişanlısı olmadığını düşünürəm. Lakin istənilən halda biz axşama qədər hər şeyi ayırd edib öyrənməliyik. Həm də bu əfsanəvi «nişanlını» axtarıb tapmalıyıq.

# *ALTINCI GÜN*

Vasilyevsk küçəsində təqribən bir saata yaxın dolaşdılar. Nəhayət, Yepifantsev İrina Maksimenkonu yanında gördüyü binanı xatırladı. İndi evin bütün sakinlərini incədən-incəyə yoxlamaq gərək idi. Dronqo münasib bir maşın tapmağı xahiş elədi. Maşın gəldikdən sonra isə sürücünün haqqını ödəyib Denisi geri, evinə yola saldı. Yepifantsev çıxıb getdikdən sonra İlyin Dronqoya yaxınlaşaraq bildirdi:

— Binanın altı bloku, hər bir blokda da on altı mənzil var. Biz mənzillərin hamısını yoxlamalıyıq?

— Bəli, hamısını, — Dronqo rəhmsizcəsinə cavab verdi, — Vikenti Alekseyeviçə zəng edin, bura gəlsin. Yaşlı adam sizinlə mənim qədər şübhə doğurmaz. Bir də kompaniya əməkdaşlarından bir qadın da gəlsin, məsələn,

Yuliya. O, Lyubomudrovla birlikdə mənzilləri sığorta agentləri adı altında gəzməlidir. Onların əsas məqsədi «Sitroyen»in sahibinin hansı mənzildə yaşamasını və binada Denis adlı bir adamın olub-olmadığını araşdırıb ayırd etməkdir.

— Binada doxsan altı mənzil var, — İlyin təşviş içində cavab verdi, — siz onların bütün mənzilləri gəzib-dolaşmasını istəyirsiniz?

— Mütləq gəzib-dolaşmalıdırlar. Tapşırıqlarım üzrə zəng edin, cəld olun, biz vaxt itiririk. Şükür Allaha ki, binanın liftləri işləyir, Lyubomudrov pilləkənlərlə qalxmalı olmayacaq. Onlara zəng edin və yardımlarına ehtiyac duyduğumuzu bildirin. Tez gəlsinlər.

İlyin zəng etməyə getdi. Günorta saat iki radələrində Lyubomudrovla Yuliya gəlib çıxdılar. Dronqo onlara sakinlərdən məhz nəyi öyrənməli olduqlarını təfərrüatı ilə izah elədi. Vikenti Alekseyeviç üzərlərinə qoyulan işin ağırlığını və məsuliyyətini dərk edib qaşlarını çatmışdı. Yuliya isə gülümsəyirdi, sanki onu bir rəqs gecəsinə dəvət etmişdilər. Sonra onlar tapşırığı icra etməyə yollandılar və Dronqo üçün cansıxıcı intizar dəqiqələri başladı. Nəhayət, iki saat yarımdan sonra onlar binanın birinci blokundan çıxdılar.

— Hələ ki, bir xəbər yoxdur, — deyə Yuliya onlara yaxınlaşan İlyinə bildirdi, — davam edəcəyik, — deyə də əlavə etdi. Andrey çevrilib maşına tərəf getdi. O, ümidsiz görünürdü.

— Bu binanın hələ beş bloku var — deyə o, qeyd etdi, — onlar çatdırmayacaqlar.

— Nə qədər çatdırsalar, yoxlasınlar, — Dronqo etiraz elədi. — Tələsdirmək lazım deyil.

İkinci blokun yoxlanılmasına birincisinə nisbətən az vaxt getdi – təqribən saatyarım. Lakin bu blokun sakinləri arasında da nə Denis adlı qonşunu, nə də «Sitroyen»i görən, tanıyan yox idi. Yuliya artuq yorğun və əsəbi idi. Hətta Dronqodan siqaret də istədi. Lakin Dronqo siqaret çəkmədiyi üçün siqareti onları müşayiət edənlərin birindən istədi.

Onlar binanın üçüncü blokuna girəndə saatın kiçik əqrəbi iş gününün sonu olduğunu göstərirdi.

— Getmək vaxtıdır, — İlyin qəzəblə qeyd etdi, — onsuz da bu gün bir nəticəyə nail olmayacağıq.

— Hadisələri tələsdirmə, — Dronqo tövsiyə etdi, — bir az da gözləyək. Bir yerə tələsmirik. Əgər Yepifantsev ünvanı düzgün yadında saxlayıbsa, deməli, haradasa buralarda İrina Maksimenko mənzil kirayələyirmiş, ya da ev alıbmış. Bunu dəqiqləşdirmək lazımdır.

— Gözləyək, — Andrey razılaşdı, — gedim, deyim ki, bizə isti qəhvə və buterbrodlar gətirsinlər. Qəhvə sevirsiniz?

— O qədər də yox. Amma tez gətirsələr, içərəm.

— Bu dəqiqə təşkil edərik, — deyə Andrey gülümsədi.

Lyubomudrovla Yuliya üçüncü blokdan çıxanda hava artıq qaralmışdı, axşam saat səkkiz idi.

— Yenə bir xəbər yoxdur? — deyə Andrey ümidsizcəsinə soruşdu.

— Sizin «Sitroyen» sahibiniz altımış doqquzuncu mənzildə yaşayır, — Lyubomudrov yorğun halda bildirdi, — adı da Denisdir.

Yuliya elə sevinirdi ki, sanki cinayətin üstünü özü açmışdı.

— İndi evdədir? — deyə Andrey təmkinlə maraqlandı.

— Yox. Qonşular deyir ki, Denis bir neçə gün bundan əvvəl ezamiyyətə gedib. İndiyə kimi də evinə gəlməyib.

— Düzdür, — Dronqo təsdiqlədi, — məhz elə bir neçə gün bundan əvvəl o, ortalardan yoxa çıxmalıydı. Onun soyadı nədir?

— Bunu öyrənə bilmədik. Lakin dəqiq ünvanı bildikdən sonra soyadını öyrənmək çətin məsələ deyil.

— Ümid edirəm ki, elədir, — Dronqo bildirdi, — indi isə biz yuxarı qalxıb, qəhrəmanımızın yaşadığı mənzilə göz gəzdirəcəyik, görək necə mühitdə, necə şəraitdə, necə ab-havada yaşayır bu qəhrəman. Bu baxış bizə bütün psixoloji təcrübələrimizdən daha çox məlumat verəcəkdir.

— Razıyam, — deyə İlyin tapançasını cibindən çıxarıb yoxladı və geri qoydu.

— Nə vaxt gedirik?

— Elə indi, — deyə Dronqo avtomobildən çıxdı. — Və bu səfər mən gec qalmayacağımızdan əmin olmalıyam.

Onlar iki nəfər təhlükəsizlik xidmətinin əməkdaşı ilə birlikdə dördüncü mərtəbəyə qalxdılar və altımış doqquzuncu mənzilin yanında dayandılar. Uzun müddət qapının zəngini basdıqdan sonra bu işin karsız olduğunu gördülər. Bu dəfə Dronqo özü ilə müşkül situasiyaların həlli üçün zəruri olan detalı – xüsusi kilidaçan dəsti götürmüşdü.

Onlar qapının kilidini açıb mənzilə daxil oldular. Zahiri görünüşdən hər şey adi idi. Adi üçotaqlı mənzil. Dronqo hər üç otağı gəzib, heç nəyə toxunmadan diqqətlə bütün detalları gözdən keçirirdi. Sonra xeyli müddət mətbəxdə dayanıb, sanki orada ev sahibinin peşəsinə, məşğuliyyətinə işarə elən nəyisə tapmağa çalışırdı.

— Yenə də anlaşılmaz bir işdir, — Andrey bildirdi, — əgər bu oğlan onun nişanlısı idisə, niyə onu öldürdü? Əgər

nişanlısı deyildisə, nə üçün qız onu öz nişanlısı kimi qələmə verirdi? Hətta onun evinə də gəlib-gedirmiş. Necə bilirsiniz?

— Sözün düzü, mən özüm də bir şey anlaya bilmirəm — Dronqo etiraf elədi. — Bura tamamilə simasız bir mənzildir, sanki burada adam yox, cisimsiz, qeyri-maddi bir ruh yaşayırmış.

Dronqo bir daha mənzili gəzib-dolaşdı. Diqqətəlayiq bir şey yoxdur. Yeganə qəribə olan şey bu mənzildə bir dənə də olsun kitabın olmamasıdır.

— Gedək, — Dronqo təklif elədi, — burada bir şey tapmayacağıq, yalnız izlərimizi qoymuş olarıq. Hə, onun telefon aparatı hansındandır?

— Adi telefon aparatıdır. Köhnə bir aparatdır, Riqanındır, səhv etmirəmsə, belə aparatlar on il əvvəl buraxılırdı.

— Aydındır. Gedək buradan — deyə Dronqo birinci qapıya tərəf yollanaraq təkrarladı.

Dördü də aşağı endilər. Aşağıda onları maşınlar gözləyirdi. —

— Bilirsənmi məni narahat edən nədir? — Dronqo birdən İlyinə müraciətlə soruşdu, — nə üçün videoçəkilişi aparan qatil elə həmin vaxt kameranı da oradan çıxarmamışdı? Bacarmamışdı? Niyə? Axı kamera lap xırda idi. Qatil onu nişanlısı elan edən qadını öldürüb, sadəcə kaseti oradan çıxarıb, sonra yoxa çıxıb. Daha sonra da Leonidi öldürmək üçün bir də qayıdıb. Burada heç bir məntiq yoxdur. Kaseti götürüb kameranı saxlamaq. Belə çıxır ki, xam bir adam imiş. Ya da ona bir o qədər də etibar etmirmişlər. Həm də etibar etməyənlər məhz onu bu işə cəlb edənlərin özüdür. Mənim fikrimi tuta bilirsən?

— Hələ tam yox, — deyə İlyin etiraf elədi.

— Biznesmen üçün qadın təşkil etmək polkovnik-leytenanta Arseni və onun vasitəsilə də münasib «nüsxə»ni tapmaq tapşırılır. Həm də bu rol üçün hazırlanan qadın hər yerdə öz dinməz-danışmaz tanışının, gələcək qatilin yanında olur. Kimsə kameranı quraşdırır, çəkilişi hazırlayır və qatili Aleksandr Mixayloviç kimi qrimləyərək, onu uğurla həyata keçirir. Ya da qatilin çiynini qrimləyir, fərqi yoxdur. Lakin işini gördükdən sonra qatil, sadəcə, videokaseti götürərək aradan çıxır. Kameranın özünü isə daha sonra polkovnik-leytenantın tapşırığı ilə Lısakov çıxarır. Buradan nəticə çıxarırıq. Bu cinayətin sifarişçiləri nə boş kameranı çıxarmaq tapşırılan Lısakova, nə baş verənlərin detallarını bildirmədikləri polkovnik-leytenant Krivetsə etibar etmirmişlər. Bəzi faktlara məhz Arsen aydınlıq gətirə bilərdi. Göründüyü kimi, polkovnik-leytenant onu əbəs yerə öldürməmişdir. O anda mən bunun emosional bir reaksiya olduğunu düşünürdüm. Amma indi görürəm ki, bu qətl əvvəlcədən düşünülmüş aksiya idi. Görünür, Arsen təkcə polkovnik-leytenant üçün yox, həm də üçüncü bir tərəfə çalışırmış ki, Krivets də bundan şübhələnirmiş. Qüdrətli Daxili İşlər Nazirliyinə meydan oxumağa cəsarət edən bu üçüncü tərəf kimdir? İndi mənim nə demək istədiyimi başa düşürsən?

— Siz qatilin əks-kəşfiyyatdan olduğundan şübhələnirsiniz? — deyə İlyin çaşqınlıq içində soruşdu.

— Mən bundan demək olar ki, əminəm. Hər şey həddindən artıq peşəkarcasına həyata keçirilib. Həm də ehtiyatla. Mən qətlin özünü nəzərdə tutmuram, nəzarət-yoxlama atəşini əldə bəslənmiş qatil də edə bilər. Amma bu simasız mənzil, mənzil sahibinin daim gələcək qurbanın yanında dolaşması, qətl səhnəsində nöqsansız iştirakı, nəhayət, çıxarıb apardığı o çəkiliş... Adi qatil kameranı da çıxarardı. Lakin əgər bu adam əks-kəşfiyyat əməkdaşı idisə, kameranın hələ lazım olacağını anlayaraq, yalnız kaseti çıxarardı.

— Onda bizim burada bir işimiz yoxdur, — Andrey köks ötürdü, — o, artıq bir daha buralarda görünməz.

— Əksinə, — Dronqo etiraz elədi, — yaxın keçmişdə Moskvada baş verən hadisələrə nəzər salınsa, onu yeni bir tapşırığın icrası üçün mütləq çağıracaqlar. Bu səfər ona ya məni, ya səni, ya da Fedoseyevi aradan qaldırmaq işi tapşırılacaq. Hərçənd bizim belə bir peşəkar üçün həddindən artıq xırda adamlar olduğumuz da istisna deyil.

— Burada pusqu quraq? — deyə İlyin Dronqonun nə demək istədiyini anladı.

— Yox. Biz hamımız burada qalacağıq, — Dronqo izah elədi, — və naməlum Denisi lazım olduğu qədər gözləyəcəyik. Bu, həmin cinayətə aparan yeganə və sonuncu bir ilgəkdir.

# *YEDDİNCİ GÜN*

Həyətə hündürboy bir nəfər gələndə səhər saat beş radələriydi. Maşında Dronqonun yanında əyləşmiş İlyin şirin-şirin gərnəşdi.

— Oyan, — Dronqo dirsəyi ilə onun böyründən itələyib pıçıldadı, — deyəsən gəlib çıxdı.

Andrey dərhal ayılıb binanın blokuna girən ucaboy adamı gördü.

— Vaxtdır, — Dronqo silahını cibindən çıxararaq dedi. Liftin yanında iki nəfər əməkdaş növbə çəkirdi. Binaya daxil olan adam liftə girmək üçün pilləkənlərlə kürsülük mərtəbəyə qalxdı. Elə bu anda liftin yanında iki nəfər gözətçi peyda oldu. Naməlum adamın reaksiyası ani oldu. O, cəld çevrildi və həmin anda Dronqo ilə üzüzə qaldı.

— Salam, — qəfildən onun qarşısına dikilən Dronqo məyusluqla dedi. Naməlum adam başını qaldırıb yuxarıdan Fedoseyevin daha iki nəfər əməkdaşının endiyini gördü. Müqavimət göstərmək mənasız idi. Dar pilləkən meydançasında bu qədər adamın içindən qaçmağı yalnız ağılsız adam düşünə bilərdi. Oğlan çaşıb qalmışdı. Onun cizgiləri həqiqətən də asiyalı adamın cizgiləri, gözləri mənalı və dərin idi. Həm də sanki cansız idi. Sönükmüş, solğun yox, məhz heç bir emosiya ifadə etməyən cansız gözlər idi. Bu cür gözləri Dronqo bəzən peşəkarlarda görmüşdü. O, belə bir baxışın nə demək olduğunu bilirdi. Gözünü Dronqoya dikən naməlum adam da, öz növbəsində, hər şeyi anlamışdı. Özünü həddindən artıq sərbəst və arxayın aparırdı. İndi qatil artıq pusqunun yüksək səviyyədə təşkil olduğuna şübhə etmirdi. O, əlini sağ cibinə saldığı anda təhlükəsizlik xidməti əməkdaşları hamısı birdən onun başına toplaşdı. Heç əllərini belə yuxarı qaldırmağa macal tapmadan qollarını burub tapançasını əlindən aldılar, əllərini də qandalladılar.

Onun səsboğanlı tapançası sahibi haqqında sözsüz də çox şeyi deyə bilərdi.

— Kimsiniz? — deyə əsir xırıltı səslə dilləndi.

— Denis sizsiniz? — Dronqo cavab əvəzinə ondan soruşdu.

— Bəs sən kimsən? — deyə «adaxlı» çəmkirdi.

— Kobudluğa ehtiyac yoxdur — Dronqo tövsiyə etdi, — mən İrina Maksimenko ilə bizim sürücü Leonidi sizin öldürdüyünüzdən əminəm. Bir qatilin qurbanı ilə hesablaşması üçün seçdiyi firma üsulundan istifadə edirsiniz — birinci güllə arxadan, ikincisi qabaqdan, yoxlanış atəş üçün olan güllə isə başdan vurulur — təkrarçılığa yol verirsiniz.

— Boş-boş danışma, — oğlan soyuqqanlılıqla cavab verdi. Bu qədər müdhiş ittihamları eşidən adam üçün özünü həddindən artıq rahat aparırdı. Elə onu ələ verən də belə davranışı idi. «Adaxlı» soyuqqanlılığın o qədər də əlverişli tərz olmadığını və söhbət üçün başqa bir üslub seçməyin məqsədəuyğun olduğunu anlayanda artıq çox gec idi. Dronqo yanılmadıqlarını anladı. Qətiyyətlə Denisə bildirdi:

— Siz bizimlə gedəcəksiniz.

— Bu nə özbaşınalıqdır, — Denis davam edirdi, — buna görə cavab verəcəksiniz. Məni həbs etmək üçün orderiniz var?

— Təbii ki, yoxdur. Amma mən sizin bu kimi rəsmi xırdalıqlarda israrçı olmayacağınızı düşünürəm. Üstündə belə bir tapança gəzdirən adamın bu qədər rəsmiyyətçi olması, sizcə, nə qədər doğrudur? Narahat olmayın, bizim sizi qısa zamanda öldürmək niyyətimiz yoxdur. Çalışarıq ki, firmamızın ofisinə kimi səbir edək, sizinlə orada haqq-hesab çəkib, bəzi məsələlərə aydınlıq gətirəcəyik.

— Nə firmasından danışırsınız? — deyə qatil əsəbi halda soruşdu.

— Həmin firmadan, — Dronqo gülümsəyərək cavab verdi, — prezidentinə bu qədər nifrət bəslədiyiniz firmadan. Hətta həvəskar bir kinoda onun rolunu oynamısınız, yadınıza düşdü?

Əsir susurdu. Onu maşına yaxınlaşdıranda qıvrılıb qaçmağa cəhd etdi. Ayağı və iki əli ilə sağ tərəfə zərbə atdı. Lakin qandallar hərəkət etməsinə mane olurdu. Dronqo yanında dayanmışdı və onu bir zərbə ilə yıxmaq mümkünsüz idi. Denis bir daha iki əlilə Dronqonu vurmağa çalışdı, lakin Dronqo asanlıqla onun əllərini havada tutub zərbəsini özünə qaytardı. Bədbəxt yerində yırğalandı, Dronqonun qüvvətli yumruğu var idi.

— Heç-heçə, — Dronqo bildirdi, — maşına əyləşin.

Təngnəfəs olmuş «adaxlı» «JEEP»ə əyləşdi. Onun sol tərəfindən İlyinlə birlikdə gələn bir yekəpər yerləşdi. Sağında isə İlyinin özü oturdu. Dronqo da maşının qabaq oturacağına keçdi.

— Sür gedək, — o, sürücüyə dedi.

— Mən sizdən şikayət edəcəm, — «adaxlı» vecsiz tonla bildirdi.

— Mütləq edin, — deyə İlyin cavab verdi, — lap istəyirsiniz gedin Xüsusi Təyinatlı Dəstəyə şikayət edin. Cəld ol, gedək, vaxtımız azdır, — deyə o, sürücüyə müraciət elədi.

Əsir yenə də susurdu. Avtomobil ofisa çatana qədər heç dinib-danışmadı. Maşınlar qaraja girəndə də susurdu. Təhlükəsizlik əməkdaşları onu itələyə-itələyə Fedoseyevin kabinetinə aparanda da susurdu. Yalnız yuxarı mərtəbədə, generalın kabinetinə daxil olub Fedoseyevi görəndə birdən-birə sifət ifadəsi dəyişdi və o, irişərək dedi:

— Eşq olsun, Savva Afanasyeviç.

— Salam, — general cavab verdi, — axır ki, görüşdük, Denis. Səhv etmirəmsə, indi ləqəbin Denisdir, deyilmi? Gör, neçə ildən sonra səninlə görüşdük.

— Siz tanışsınız? — deyə kabinetə daxil olan İlyin təəccübləndi.

— Həm də çoxdan tanışıq, — Fedoseyev cavab verdi. — Bu adam Birinci Baş İdarədə çalışırdı. Xaricə qaçmış təhlükəli şahidləri aradan qaldırmaq üzrə ən yaxşı «ləğvedənlərdən» biri sayılırdı. Səncə, bunun neçə yaşı olar?

İlyin stol arxasında əyləşmiş əsirin üzünə baxdı. Çiyinlərini çəkdi.

— Nə bilim, otuz-otuz beş yaşı olar yəqin.

— Bunun qırx dörd yaşı var — deyə general təntənə ilə elan etdi. — Mən onu hələ yetmişinci illərin sonlarından tanıyıram. Bu, polkovnik Kurlayevdir, müxtəlif növ problemlərin həlli sahəsində ən məşhur mütəxəssisdir.

— Adaxlı, — deyə içəri girən Dronqo xatırlatdı.

— Bəli, — Fedoseyev gülümsədi, — mən gəlin olanda o da adaxlı olacaq. Biz çoxdandır bir-birimizi tanıyırıq. Düşünürəm ki, bu yoldaş nə kimi bir «zibilə» düşdüyünü anlayır. Deməli belə, polkovnik, — deyə general üzünü Kurlayevə tutdu, — riyakarlıq etməyək. Biz səninlə bir-birimizi çoxdan və kifayət qədər yaxşı tanıyırıq. Özümüzü ələ salmağa da ehtiyac yoxdur. Sən mənim barəmdə, mən isə sənin barəndə hər şeyi çox yaxşı bilirik. Səni burada saxlamaq axmaqlıqdır, istənilən halda səni bizim əlimizdən alacaqlar. Səni buraxmaq isə daha böyük axmaqlıqdır. Ona görə də özün, xoşluqla, hər şeyi bir-bir bizə danış. Yalnız ondan sonra mən nə edəcəyimizə dair qərar verəcəm.

— Hər halda özünüz başa düşürsünüz, — deyə polkovnik soyuqqanlılıqla cavab verdi, — mən burada sizi görəcəyimi təxmin etmirdim. Mənim öz işim-gücüm var.

— Mənim isə öz işim-gücüm var, — deyə Fedoseyev yumruğunu stola vurdu, — mən hər şeyi bilməliyəm.

Araya uzunmüddətli sükut çökdü. Polkovnikin tərəddüdlər içində olduğu bəlli idi. Dronqo ilə Andrey gözlərini əsirə dikib onun qərarını gözləyirdilər.

— Axı siz özünüz başa düşürsünüz, — deyə Kurlayev təkrarladı, — mən danışsam, öz əlimlə ölüm fərmanımı imzalamış olacam. Sizin heç biriniz o fərmanı təxirə sala, ya da mənə apellyasiya şikayəti irəli sürməyə şərait yarada bilməzsiniz.

— Mən hər şeyi bilirəm, — deyə Fedoseyev cavab verdi, — hətta sən hər şeyi inkar etsən də, sənin o evdə nə

gəzdiyin onsuz da məlumdur. Otel nömrəsindəki qadını kimin öldürdüyü də məlumdur. Ona görə də istər danış, istər danışma — bunun artıq heç bir əhəmiyyəti yoxdur. Sən muzdlu qatilsən və biz də oteldə öldürülən qadını da, öz evində öldürülən keçmiş sürücümüzü də sənin qətlə yetirdiyini sübuta yetirə bilərik.

— Hansı sürücünü? — deyə qatil dartındı.

— Yaxşı görək, — deyə general üz-gözünü turşutdu, — hər şey onsuz da aydındır. Sənə bir şans verirəm: ya mən bu dəqiqə milisə zəng edirəm və onlar gəlib səni həbs edirlər, ya da xoşluqla özün hər şeyi bizə danışırsan. Milisə düşməyinin mənası yoxdur, onsuz da səni yaşatmayacaqlar. Sən ki bizim prinsipimizi bilirsən, Denis: ələ keçdinsə — artıq meyitsən. Heç kim səni xilas edib tərəfini saxlamayacaq. Sənin yeganə şansın gözə görünməməkdir. Sən ələ keçdin, deməli, işi bacarmadın.

— Nəyi bacarmadım? — deyə Kurlayev qımışdı. — Bu adamlar məni tutanda mən sakitcə evimə gedirdim. Mən heç kimi öldürməmişəm, heç kimə atəş açmamışam. Sizin əlinizdə mənə qarşı heç bir sübut yoxdur, Savva Afanasyeviç.

— Bəs sənin tapançan? — deyə general maraqlandı. — Sən onu bazardan almısan? Səsboğanı ilə birlikdə aldın?

— Tapançanı mənim cibimə siz atmısınız, — deyə «ləğvedən» dişlərini ağartdı. — Mənim yeganə səhvim sizinlə görüşməyimdir. Amma səhvi o biri tərəf də düzəldə bilər.

— Hədə-qorxu gəlirsən? — Fedoseyev qəzəbləndi. Üzü qızardı. — Məni hədələyirsən?

— Belə problemlərin bizdə necə həll olunduğunu siz çox yaxşı bilirsiniz. Bizim sizinlə görüşümüz təəssüf ediləcək və acınacaqlı bir yanlış idi, deməli, bu yanlışı aradan

qaldırmaq lazımdır. Necə bilirsiniz, əgər onlar sizinlə mənim aramızda seçim etməli olsalar, ikimizdən hansımıza üstünlük verəcəklər?

Fedoseyev hirsindən qızarıb-bozardı, amma cavab vermədi. Köynəyinin yuxarı düyməsini açdı. Tüklü üzündə ləkələr əmələ gəldi. Səhər saat altıda o, ləğvedənin atmacalarına məntiqli cavab verməkdə çətinlik çəkirdi.

— Əsəbiləşməyin, — deyə Dronqo tövsiyə elədi, — biz başqa cür edərik. Polkovnik-leytenant Krivetslə mayor Lısakova bizə oteldəki qadının və sürücünün öldürdüyünü etiraf edən qatili ələ keçirdiyimizi xəbər verəcəyik. Sonra onu azadlığa buraxa bilərik. Hər iki qurbanı necə öldürdüyünü təfərrüatı ilə söyləyə bilərik. Otel nömrəsində çiynindəki çapığı görünmək üçün biznesmen roluna girdiyini də, Arsenlə birlikdə sürücümüzü necə öldürdüyünü də. Onlar bizə inanacaq. Biz onlara elə xırdalıqları xəbər verəcəyik ki, mütləq inanacaqlar. Bunu isə buraxarıq. Qoy getsin özününkülərə dəvə olmadığını sübut eləsin.

— Alınmaz, — deyə Kurlayev dişlərini ağartdı, — bir şey alınmaz. Mənim adım-sanım hamıya bəllidir. Siz məni təsadüfən, möcüzəvi bir yolla hesablayıb ələ keçirmisiniz. Lakin bundan artığını görməyəcəksiniz. Mən danışmayacam. Axıra qədər susacağam.

— Neyləyək, qoy sussun. Biz də onu prokurorluğa təhvil verərik — bunu İlyin söylədi, — onlar özləri bunun iki cinayət işləməsini aydınlaşdırarlar.

— Təhvil verməyəcəksiniz. Məni prokurorluğa təhvil versəniz, çox yox, bircə saatdan sonra sizin rəisin yataq-da çıxardığı oyunlar və qadının qətli yazılmış video onlara çatdırılacaq. Sizə heç kim inanmayacaq, əlinizdə heç bir dəlil-sübut yoxdur, Arsen isə artıq öldürülüb. Videoya dərhal inanacaqlar. Bundan da əlavə, onu televiziya ilə də

yayımlamaq olar, onda isə artıq kompaniyanızla vidalaşa bilərsiniz.

— Köpək oğlu, mən səni… — deyə İlyin yerindən sıçradı.

— Sakit ol, — Dronqo köks ötürdü, — gəlin bu alçağı bir yerə aparıb, özümüz təkbətək söhbət edək. Amma onun ixtisaslaşdırılmış olduğunu unutmayın. O, asanlıqla sıyrılıb bir dəstə gözətçinin əlindən qaça bilər. Onu bir otağa aparın, yanında da üç nəfər gözətçi qoyun. Gözlərini ondan çəkməsinlər.

— Narahat olmayın, — İlyin dedi, — lazım gələrsə, özüm onun yanında dikilərəm. Bizim əlimizdən qaça bilməz.

İlyinlə əsir kabinetdən çıxanda Dronqo generala baxdı.

— Ondan söz çıxmayacaq, — Fedoseyev bilirdi, — onlar uzun illik təlimdən çıxmış adamlardır. Hətta cürbəcür üsullar tətbiq etsək də, bir kəlmə danışmayacaq…

— Yəni sizin ağlınıza başqa üsullar da gəlirdi? — deyə Dronqo başını buladı, — axı bu, mümkünsüzdür, Savva Afanasyeviç. Yoxsa ştatınızda cəlladlarınızdamı var?

— Mənim cəlladım-filan yoxdur, — Fedoseyev qəzəbləndi, — mən, sadəcə, onun kimi adamların “necə mal” olduğunu yaxşı bildiyimi deyirəm. Ölsə də, bir kəlmə deməz. Bu, əbəs yerə bir çırpıntıdır.

— Aleksandr Mixayloviç nə vaxt gəlir? — deyə Dronqo maraqlandı.

— Bu gün səhər, — general saata baxıb cavab verdi. — Əcəb işdir, vallah, üçüncü sutkadır yuxusuzuq, — deyə o birdən-birə gileyləndi. — Hərçənd siz vəzifənizi yerinə yetirdiniz. Qatili tapdınız. Halbuki bununla bizim işimiz heç də yüngülləşmir. Onsuz da bir şey sübut edə bilmirik.

— Bir şey fikirləşib tapmaq lazımdır, — Dronqo yorğun halda bildirdi. — Sabah axşama, müraciət ərizələrinin müddəti bitənə qədər bizim hələ vaxtımız var. Mütləq bir şey düşünüb tapmaq lazımdır.

— Düşünün, — general razılaşdı, — mənim işim isə Aleksandr Mixayloviçi qarşılayıb, onu sağ-salamat evinə çatdırmaqdır. Çox şükür Allaha ki, Kurlayevi bizə öz etirafnaməsini danışması üçün yola gətirməyə çalışmaq vəzifəsi mənim üzərimdə deyil. Mənim fikrimi bilmək istəyirsinizsə, bu işi yerinə yetirmək onu tapmaqdan daha çətin olacaq. Hətta siz onu tikə-tikə doğramağa başlasanız belə, bir kəlmə də olsun deməyəcək. Ləğvedənlər sarsılmaz psixikalı adamlardır, onları nə qorxutmaq, nə də satın almaq mümkündür.

— Görəcəyik, — Dronqo fikirli-fikirli dedi, — mən bu işi axıra çatdırmalıyam. Bu, artıq prinsipial bir məsələyə çevrilib.

— O halda sizə uğurlar arzulayıram — deyə general Dronqoya diləklərini bildirdi. — Birinə uğur diləyəndə, cavabında «Cəhənnəm ol!» demək adəti var. Əgər bu, sizi yüngülləşdirəcəksə, siz də məni cəhənnəmə göndərə bilərsiniz.

— Ondansa cəhənnəmə bir başqasını göndərib, özüm isə sizinlə birlikdə rəisinizi qarşılamağa gedərəm, — deyə Dronqo gülümsəyərək cavab verdi.

# *YEDDİNCİ GÜN*

Təyyarə hərəkət cədvəlində qeyd olunduğu vaxtda gəlib çıxdı. Qaydalara uyğun olaraq, rəsmi nümayəndələr zalında qeydiyyata düşmüş sərnişini təyyarə vağzalının

nümayəndələrilə o sərnişinin yaxın adamlarından biri elə nərdivanın yanındaca qarşıladılar. Fedoseyev görüş üçün xüsusi razılıq əldə etməyi bacarmışdı. Kompaniya prezidentini qarşılamağa onunla birlikdə Andrey İlyin də yollanmışdı.

Dronqo isə bir neçə nəfər gözətçi və möhkəm axsayaraq aeroporta gəlmiş Vikenti Alekseyeviçlə birlikdə gözləmə zalında qaldılar. Bir neçə dəqiqədən sonra Aleksandr Mixayloviç göründü. Ənənəyə uyğun olaraq, onunla birlikdə Parisdən gəlmiş uzunayaqlı, son dərəcə gözəl, lakin bununla belə qanmaz sifətli şəxsi katibəsi də var idi. Dronqo ilə İlyin bir-birinə baxdılar. Qadın qisminə olan meyli gec və ya tez bu biznesmenin axırına çıxacaqdı.

Aleksandr Mixayloviç həmişəki kimi gülümsəyir, onu qarşılayanlarla salamlaşır və hətta zarafat da edirdi. Lakin sənədləri rəsmiləşdirib otaqdan çıxdıqdan sonra pilləkənlərdə narahat halda Dronqodan soruşdu:

— İşlər necədir?

— Hələlik pis deyil, — Dronqo cavab verdi, — lakin biz sizinlə söhbət etməliyik.

— Siz də mənim maşınıma gəlin, — deyə biznesmen qərar verdi, — siz və Vikenti Alekseyeviç. Qalanları o biri maşınlarla getsinlər. Andrey, sürücünün yerinə sən əyləş.

— Baş üstə, — İlyin razılaşdı.

Lyubomudrov hələ də ağrıyan ayağını qoruyaraq ehtiyatla qabaq oturacaqda, İlyinin yanında əyləşdi, Dronqo isə arxada, Aleksandr Mixayloviçin yanında yerləşdi.

Onların «Mersedes-600» — ü maşın dayanacağından bir neçə avtomobilin müşayiətilə yola düşdükdən sonra biznesmen üzünü Dronqoya tutub soruşdu:

— Qatili tapmısınız?

— Tapmışıq.

— Əladır ki! — deyə biznesmen sevincək Dronqonun əlindən yapışdı. — İndi biz artıq müraciət ərizəsini göndərib hərracda iştirak edə bilərik. Sözün düzü, mən sizin qabiliyyətinizə bir o qədər də ümid bəsləmirdim. Nə yaxşı işi bacarmısınız! Afərin!

— Dayanın, Aleksandr Mixayloviç, — deyə Dronqo bir qədər nəzakətsizcəsinə onun sözünü kəsdi, — işlər siz düşündüyünüz kimi bəsit deyil. Qatili biz həqiqətən də tapa bilmişik, daha doğrusu, hesablayıb ifşa etmişik. Lakin bu, hələ işin tamamlanması demək deyil. Birincisi, o, törətdiyi cinayəti boynuna alıb etiraf etmir...

— Sizin bütün bu faktları təfərrüatı ilə izah etmənizi heç sevmirəm — deyə biznesmen etiraf elədi, — məni daha çox bir cavab maraqlandırır: hə, yoxsa yox? Siz onu tapmısınız?

— Həm hə, həm də yox, — deyə Dronqo cavab verdi. — Biz İrina Maksimenko ilə sizin keçmiş sürücünüzün qətlində birbaşa iştirakçı olduğunu təxmin etdiyimiz adamı tapa bilmişik. Lakin bu adam sadəcə peşəkar bir qatildir, muzdlu qatil, vəssalam...

— Daha yaxşı, — biznesmen Dronqonun sözünü yarıda qoydu, — üzərində çoxlu sayda cinayətlər olduğu üçün, bu cinayəti inkar edə bilməz.

— Bununla biz hələ bir şey sübut edə bilmərik, — Dronqo etiraz elədi, — o törətdiyi qətlləri heç vaxt boynuna almaz. Bu adam bir vaxtlar keçmiş Birinci Baş İdarədə çalışmış peşəkardır. Onun kimi insanlar dinməzlikləri üçün qiymətləndirilirlər. O bizə bir kəlmə də olsun demək istəmir.

— Deyəcək, — deyə Aleksandr Mixayloviç qəzəbindən yumruqlarını sıxdı, — hünəri varsa danışmasın. Mən onu

diri-diri yandıraram. Sifətinə iki yumruq ilişdirəndən sonra quzu kimi danışacaq.

— Danışmayacaq, — Dronqo qəribə bir təəccüblə həmsöhbətinin üzünə baxdı, — bu, siz düşündüyünüz adam deyil.

— Nə olar, onda onu rədd eləyək prokurorluğa, cəhənnəm olsun, — biznesmen mübahisə etməkdən yorulmuş tərzdə razılaşdı.

— O halda onlar da videonu televiziya ilə yayınlayıb, üstəlik, bizi günahsız bir adamı həbs etdiyimizə görə də suçlayacaqlar. Başa düşün, əlimizdə bu mühakimələrdən başqa bir şey yoxdur.

— Mən anlaya bilmirəm, — deyə biznesmen lap hövsələdən çıxdı, — siz kimin tərəfindəsiniz? Mənim, yoxsa qarşı tərəfin? Məndə elə bir hiss yaranır ki, siz hər vəchlə o adamı mühafizə etməyə çalışırsınız.

— Mən sizə real vəziyyəti izah etməyə çalışıram. Bəli, əlimizdə bir kozır var, lakin bu kozır tam qələbə üçün yetərli dəlil deyil. Bizim onlarla uzlaşmamız, ümumi dil tapmamız gərəkdir.

— Onlarla? Onlarla uzlaşmamız?! — deyə Aleksandr Mixayloviç sanki ilan vurmuş adam kimi yerindən sıçradı. — İndi, bu vəziyyətdə, qatil əlimizdə olduğu bir halda mən onlarla sazişə gəlməliyəm? Siz nə danışırsınız?! Mən onları yer üzündən siləcəyəm. Sabah biz hərracda iştirakımızı təsdiqlətdirib, üç gündən sonra da nəinki Rusiyanın, bütün Avropanın ən nəhəng kompaniyası olacağıq.

Mobil telefon zəng çaldı. Aleksandr Mixayloviç əsəbi halda telefona cavab verdi.

— Salaməleyküm, — deyə o, qızğın surətdə kiminləsə salamlaşdı. — Hə, elə bu saat gəlmişəm Parisdən. Hər şey

yaxşıdır. Əlbəttə, yaxşı, çox sağ ol. Çox təşəkkür edirəm, sən həmişə bizə yardım edirsən.

Biznesmen ad çəkdi və Dronqo birdən-birə onun dostcasına ölkənin birinci baş nazirilə söhbət etdiyini anladı.

— Sabah biz hərracda iştirakımızı təsdiqlətdirəcəyik, — Aleksandr Mixayloviç qalibcəsinə Dronqoya baxdı. Dronqo hələlik söhbətə qarışmağın yersiz olduğunu düşünüb dinmədi. — Çox sağ ol, sağ ol. Salam deyən sağ olsun. Hələlik. Sabah görüşərik. — O, telefonu söndürüb Dronqoya baxdı və soruşdu: — Bir etirazınız var idi?

— Bir az tələsirsiniz, — Dronqo qeyd etdi, — hələlik məlum bir şey yoxdur, oyun hələ sona qədər oynanılmayıb.

— Xeyr! — deyə Aleksandr Mixayloviç yekun vurdu. — Siz qatili tapmısınız, indi qoy onlar videoçəkilişi gözlərinə soxsunlar. Bu çəkilişdən narahat ola biləcək yeganə adam mənim arvadımdır. Lakin mən onun da bu xəbəri həzm edə biləcəyinə ümid edirəm. Videoçəkilişləri onlara bu qədər əzizdirsə, neyləyək, qoy olsun. Əsas olan odur ki, indi artıq onlar bu qətli mənim boynuma asa bilməzlər. Vikenti Alekseyeviç, hərracda iştirak paketimiz hazırdırmı?

— Çoxdan hazırdır, — deyə Lyubomudrov üzünü rəisinə çevirdi, — lakin mən bu məsələdə ekspertimizin tövsiyələrinə riayət etməyin daha məqsədəuyğun olduğu fikrindəyəm.

— Bəsdir məsuliyyətdən qaçıb özünüzü təkrar-təkrar sığortaladığınız, — deyə Aleksandr Mixayloviç irəli çəkilib-vəkili çiynindən qucaqlayaraq gülə-gülə bildirdi. — Daha bundan sonra qorxacaq bir şey yoxdur. Biz qalibik.

— Onun etirafını əldə etmək lazımdır, — Dronqo israrla təkrarladı.

— Buyurun, hərəkət edin, canınız sağ olsun, — deyə biznesmen ekspertin bu qeydinə əhəmiyyət vermədi. — İstənilən halda mən sabah hərracda iştirakımızı təsdiqləyən müraciəti edəcəyəm.

— Aleksandr Mixayloviç, zənnimcə siz rəqiblərinizi layiqincə qiymətləndirmirsiniz, — Dronqo xatırlatdı, — üstəlik, onlar özlərinin real imkanlarını nümayiş etdirdikləri bir halda. Bu adamların qarşısını almaq mümkün deyil, onlar gözləri qanla dolmuş yırtıcılardır.

— Eynilə mənim kimi, — deyə biznesmen qətiyyətlə bəyan etdi. — Prokurorluğa zəng edin, qatili onlara təhvil verək. Ondan sonra siz də öz qonorarınızı ala bilərsiniz.

Dronqo köks ötürdü. Fikrindən daşındırılması mümkün olmayan adamlar var. Uğurlu biznesmenləri isə, ümumiyyətlə, fikrindən daşındırmaq mümkün deyil. Ona görə də Dronqo artıq mübahisə etməkdən daşınıb, oturduğu yerdə daha rahat yerləşib Aleksandr Mixayloviçin vəkillə söhbətlərini dinləməyə başladı. Birdən-birə biznesmen yenidən əsas mövzuya qayıtdı.

— O şərəfsiz Leonid isə payını layiqincə aldı, köpək oğlu! — Aleksandr Mixayloviç səsini ucaldaraq bildirdi. — Məni belə asanlıqla barmağına dolaya biləcəyini düşünürdü. Mən həmişə ondan şübhələnirdim, hətta onu rədd etməyi də düşünürdüm, amma elə hey yazığım gəlirdi ona. Amma nahaq yerə, vaxtında onu rədd etməliydim.

— Adamın yazığı gəlir, — Lyubomudrov astaca dedi.

— Ona adamın yazığı gəlir? — deyə Aleksandr Mixayloviç təəccübləndi. — Onun işi-gücü mənə xəyanət etmək imiş, indi sən deyirsən ki, mənim ona yazığım gəlməlidir? Əgər ölməmiş olsaydı, mən o alçağı öz əlimlə boğub öldürərdim. Demə, qoynumda bir ilan bəsləmişəmmiş.

— Müxtəlif sutenyor və dəllallarla həddindən artıq çox ünsiyyət qurmalı olurdu, — Vikenti Alekseyeviç ədəbli tonda qeyd etdi.

— Nə olsun, mən də fahişələrlə çox ünsiyyətdə olmuşam, — biznesmen qəzəblə cavab verdi, — buna rəğmən özüm fahişə olmamışam ki!

«Bu, mübahisəli məsələdir», – deyə Dronqo düşündü, amma mübahisə etməkdən çəkindi.

Mobil telefon yenidən zəng çaldı. Aleksandr Mixayloviç cavab verdi.

— Cənab Stüart, — deyə o, birtəhər ingiliscə «çulunu sudan çıxardı», — narahatlığa bir səbəb yoxdur, sabah biz hərracda iştirakımızı təsdiqlətdirəcəyik. Hər şey qaydasındadır, arxayın olun, — deyə o, ingilis həmkarını inandırdı.

Söhbəti bitirdikdən sonra isə sevincək Lyubomudrova dedi:

— Sabah prokurorluğa gedib mənimlə nə üçün görüşmək istədiklərini öyrənin. Mövzunu da öyrənin. Yeri gəlmişkən, qatil İrina Maksimenkonu tanıyırdı? — deyə o, Dronqodan soruşdu.

— Bəli, — Dronqo cavab verdi, — hətta özünü onun adaxlısı, nişanlısı kimi təqdim edirmiş, halbuki daha çox onun atası yaşında idi, qızdan iyirmi-iyirmi beş yaş böyük idi.

— Bəlkə qızla sevişirmişlər də? — deyə biznesmen qısqanclıqla maraqlandı.

— Bilmirəm, — Dronqo çiyinlərini çəkdi, — bu məni maraqlandırmırdı. Əldə etdiyimiz məlumatlara görə, qız peşəkar olmasına baxmayaraq, pis bir insan deyilmiş.

— Bununla nə demək istəyirsiniz?

— Qız peşəkar bir fahişə idi. Polkovnik-leytenant Krivets özünün köhnə agenti Arsenə sizin üçün bir «kadr» tapmasını tapşırmışdı. O da bu tapşırığı layiqincə icra etmişdi.

— Siz mənim hansısa fahişəni normal bir gənc qadından fərqləndirə bilmədiyimi düşünürsünüz? — biznesmen hövsələdən çıxdı.

— Xeyr, əminəm ki, fərqləndirə bilirsiniz, — deyə Dronqo onu sakitləşdirmək istədi, — yəqin ki, qız hələ yeni başlayan bir peşəkar imiş.

— Bilmirəm, bundan heç əmin deyiləm, — Aleksandr Mixayloviç ötkəmliklə bəyan etdi, — nə isə, bütün bunlar məsələnin əsas məqamı deyil. Baş verənlərdə qız özü günahkardır. Belə bir fırıldağa razılaşmamalıydı. Bir az pul qazanmaq qərarına gəlib, nəticədə öz həyatını itirib.

Bütün maşında olanlar biznesmenlə mübahisəyə cəhd etmədən susurdular.

— Sabah iştirakımızı təsdiqlətdirib üç gündən sonra hərracda qalib gələcəyik, — Aleksandr Mixayloviç yenə də mövzunu dəyişərək qalib ədası ilə bəyan etdi.

Maşınlar sürətlə biznesmenin bağ evinə tərəf irəliləyirdi. Aleksandr Mixayloviç həyatındakı ən əhəmiyyətli qərarlar ərəfəsində şəhər kənarında istirahət etməyə qərar vermişdi.

# *YEDDİNCİ GÜN*

Axşam Dronqo ilə Andrey İlyin kompaniyanın ofisinə qayıtdılar. General Aleksandr Mixayloviçlə birlikdə bağ evində qalmağa qərar verdi, elə təhlükəsizlik xidməti

əməkdaşlarının da böyük qismi ora cəmləşdirilmişdi. Ofisdə binanı qoruyan cəmi bir neçə adam və Kurlayevə göz-qulaq olan üç əməkdaş qalmışdı. Bu bazar günündə burada səkkiz-on nəfərdən artıq adam yox idi. Qalan əməkdaşların hamısı kompaniya prezidentinin bağ evini qorumaq üçün oraya toplaşmış, kompaniyanın maraqlarını təmsil edən idarə heyətilə hüquqşünaslar isə hərracda iştiraklarını təsdiqləyən sənədlərin hazırlanması ilə məşğul idilər.

Binanın əsas kompleksinə qayıdan Dronqo yenidən Kurlayevlə görüşmək qərarına gəldi. Amma əvvəlcə əl-üzünü yumaq istədi. Kişi ayaqyoluna girib üzü ilə boynunu isti suyla yudu və yüngül təravət hiss elədi. Sonra İlyinin kabinetinə qayıtdı.

— Dustağımız necədir? — deyə o, Andreydən soruşdu.

— Hər şey qaydasındadır, — İlyin cavab verdi, — uşaqlar gözlərini ondan çəkmirlər, narahat olmayın. O, mərtəbədəki dəhlizin axırıncı kabinetindədir. Oradan qaçmaq mümkün deyil. Dəhlizdə isə daha bir əməkdaşımız var.

— Lap yaxşı, — Dronqo saata baxdı. — Saat dörddür, nahar etsək pis olmazdı, — deyə o, əlavə elədi və elə bu anda şəhər telefonu zəng çaldı. İlyin təəccüblə Dronqoya baxdı. Bazar günü üçün qəribə bir zəng idi. Əgər İlyin Fedoseyevə və ya Aleksandr Mixayloviçin özünə lazım idisə, onlar mobil telefonla da zəng edə bilərdilər. Andrey stola yaxınlaşıb dəstəyi qaldırdı.

— Hər vaxtınız xeyir olsun! — o, tanımadığı bir səs eşitdi, — sizin kabinetinizdə cənab Dronqo olmalıdır.

— Kim? — deyə İlyin təəccübləndi.

— Sizin ekspertiniz. Onunla tanışlarından biri söhbət etmək istərdi.

— Sizi istəyirlər, — deyə İlyin eksperti onun kabinetinə zəng etməklə kimin soruşa biləcəyini anlamadan dəstəyi Dronqoya uzatdı. Dronqo isə hələ dəstəyi almadan belə onu kimin axtara biləcəyini anlamışdı. Yanılmamışdı da.

— Bravo, cənab Dronqo! — deyə o, ingiliscə özündən razı tonda danışan Hekketin səsini eşitdi, — siz, demək olar ki, mümkünsüz bir iş bacardınız. Hər şeyə rəğmən, axtardığınız adamı tapdınız. Lakin sizin bu uğurunuz xəyali bir qələbədir. Mənimlə görüşmək istəməzdiniz?

— Siz görüşməyin zəruri olduğunu düşünürsünüz? — Dronqo soruşdu.

— Məncə, ən azı dostunuzu yol verməyə hazırlaşdığı böyük bir səhvdən qorumaq xatirinə görüşməyimiz faydalı olar.

— O halda danışdıq. Ümid edirəm ki, məni əsir götürüb, sonra da öz adamınızla dəyişdirmək niyyətində deyilsiniz.

— Təbii ki, deyiləm. Yəni siz mənim bu dərəcədə özümə güvənən bir adam olduğumu düşünürsünüz? Mən sizi çox dəyərləndirirəm. Lakin müştərinizin bu barədə fərqli fikirdə olduğunu düşünürəm. Canını qurtarıb, üzərinə atılan ittihamlar qarşısında özünə bəraət qazandırmaq xatirinə onun üçün bu qədər dəyərli olan bir əsiri heç vaxt — hətta sizinlə belə dəyişdirməz.

— İnsanları heç də pis tanımırsınız, — deyə Dronqo onu təriflədi, — ən azından biznesmenin psixologiyasını kifayət qədər dəqiq hesablayıb müəyyənləşdirə bilmisiniz.

— Elə ona görə də sizinlə görüşüb söhbət etmək istəyirəm. Düzdür, mən Moskvanı sizin Parisi tanıdığınız kimi yaxşı tanımıram, amma sizi «Ampir» restoranına dəvət etmək istəyirəm. Restoran şəhər mərkəzinin özündədir, Mayakovski meydanının yaxınlığında.

— Bilirəm, — Dronqo cavab verdi, — düşünürəm ki, Moskvadakı restoranları da mən sizdən daha yaxşı tanıyıram.

— Ümumiyyətlə, sizin qida sahəsindəki zövqünüzə böyük rəğbət bəsləyirəm, — deyə Hekket etiraf elədi. — Bir saatdan sonra orada ola bilərsiniz?

— Mütləq olacağam. — Dronqo dəstəyi asdı və İlyinə müraciətlə dedi: Son dərəcə ehtiyatlı olun. Əgər ehtiyatda adamlarınız varsa, onları da buraya çağırtdırın. Hekket qoca qurddur. Heç bir işi elə-belə görmür. Əgər o bizim Kurlayevi ələ keçirdiyimizi öyrənə bilibsə, deməli, tədbir görməyə cəhd edəcək. Çox ehtiyatlı olun, Andrey.

— Bütün uşaqlarımız silahlıdır, — deyə İlyin bildirdi, — milis idarəsi də düz yanımızda yerləşir. Lazım gələrsə, iki-üç dəqiqə ərzində buraya gələrlər. İki-üç dəqiqə birtəhər öhdələrindən gələrik. Amma mən yenə də, hər ehtimala qarşı Savva Afanasyeviçə zəng edim...

— Bağ evindəki qorumaların heç birini yerindən tərpətmə, — Dronqo tövsiyə etdi, — ora daha mühüm obyektdir.

— Başa düşürəm. Siz narahat olmayın, biz hər şeyi nəzərə almışıq.

— Hər şeyi nəzərə almaq mümkün deyil, Andrey, — deyə Dronqo qeyd etdi. — Hər şeyi nəzərə almaq mümkün olsaydı, insanlar səhvlərə yol verməzdilər. Amma həyatda belə olmur.

Dronqo yorğun halda yerindən qalxıb dəhlizlə «ev dustaqlığında» saxlanılan Kurlayev olan kabinetə getdi. Dəhlizdə dayanmış əməkdaşla salamlaşıb otağa girdi. Burada təhlükəsizlik xidmətinin daha üç əməkdaşı və Kurlayevin özü var idi. Hamısı televizora baxırdı. Polkovnik — otağın küncündə əyləşmişdi. İçəri girən Dronqonu görüb hırıldadı, amma bir söz demədi.

— İşlər necədir, uşaqlar? — Dronqo soruşdu.

— Hər şey qaydasındadır, — milisin keçmiş baş kapitanı cavab verdi, — siz narahat olmayın, hər şey yaxşıdır.

— Sizi bir dəqiqə olarmı? — deyə Dronqo «Denisə» ötəri bir nəzər salıb kapitana müraciət elədi. Onlar otaqdan çıxanda Dronqo kapitana əsirə suyun şüşə butulkalarda verilməsinin qadağan olduğunu xatırlatdı. — Ancaq stəkanda verin, həm də ya plastik, ya da kağız stəkanlarda. Qətiyyən onun əlinə iti, kəsici, deşici heç bir şey verməyin, məni başa düşürsünüz?

— Hər şeyi başa düşürəm. Narahat olmayın. Mənim işçilərimdən biri keçmiş boksçudur, mükafatları var. İkincisi də idmançıdır. Bizim öhdəmizdən gəlmək o qədər də asan iş deyil.

— Kurlayev peşəkardır, — deyə Dronqo xatırlatdı, — ağlına gələni tuta bilər. İstənilən fırıldağa, hiyləyə əl ata bilər. Hər an gözünüz açıq, qulağınız səsdə olsun.

— Gözümüzü ondan çəkmirik, — deyə gözətçi cavab verdi.

Düz bir saatdan sonra Dronqo Hekketlə görüşməyə sövdələşdiyi restorana daxil oldu. Hekketin əynində ağ rəngli smokinq var idi. Xallı qəhvəyi rəngli qalstuku ilə uyğun rəngdə seçilmiş ayaqqabıları geyimini xüsusilə nəzərə çarpdırırdı. O, gülümsəyərək Dronqonu əyləşməyə dəvət elədi.

— Sizə nə olub, dostum? — deyə Hekket soruşdu. — Əyninizdəki köynəyi bu gün geyinmədiyiniz bəllidir. Tvid pencəyiniz də əzilib. Sizin kimi yüksək zövq və üslub hissinə malik olan bir adamın tvid pencəkdə restorana gəlməsi əsl nəzakətsizlikdir. Yəni bu istintaqa bu qədər güc və enerji sərf etmisiniz? Hələ yaxşı ki, üzünüzü qırxmağa vaxt tapmısınız.

— Doğrudan da dəhşətlidir. — Dronqo gəvəzə həmsöhbətilə üzbəüz əyləşdi. Hər ikisi danışmağı bacarır və sevirdilər. Onların görüşü iki tiranın ziyafətini xatırladırdı — hər iki tərəfdən atmaca və sancmalar atəşi yağdırılırdı.

— Siz mənim qarşıma olduqca müşkül məsələlər qoydunuz, cənab Hekket deyə Dronqo bildirdi, — buna görə hətta evimdən belə çıxıb getməli oldum. Restorana belə bir pencəkdə gəlməyim də məhz bunun nəticəsidir. Zahiri görkəmimin sizə nə qədər toxunduğunu təsəvvür edirəm.

— Nə danışırsınız? — deyə Hekket gülümsədi. — Mən sizi istənilən görkəmdə görməyə şadam.

— Hətta kəfəndə də görməyə şad olardınız, deyilmi?

— Yox, belə deməyin. Siz mənim üçün həddindən artıq dəyərlisiniz. Sizin bacarıqlarınıza, istedadınıza böyük hörmətim var. Mərifətiniz fenomenal və müstəsnadır. Cinayətin üstünü cəmisi bir həftə ərzində açmaq — zarafat deyil. Əla! Bravo! Bravissimo! Fantastikadır!

— Sözünüz bitdimi? — Dronqo soruşdu. — İndi isə deyin görüm, məni buraya nə üçün çağırmısınız? Vəsfnamələr artdıqca daha böyük alçaqlıqlar gözləmək məcburiyyətində oluram.

— Düz eləyirsiniz, — Hekket razılaşdı, — mənim gəlişimin səbəbi də məhz budur.

— Naharımı korlayacağınıza şübhə etmirdim. Yeri gəlmişkən, şərab çox gözəldir. Mənim üçün nə sifariş etmisiniz?

— Menyunu sizin özünüzün tərtib edəcəyinizi düşünürdüm. Mən sizin kimi ağzının dadını bilən adam deyiləm, cənab Dronqo. Mən bir şeyə sadiq qalan adamam. O da mənim işimdir. Özümü bütövlüklə işimə həsr etmişəm.

— Bu saat sizə yardımçı olaram, — deyə Dronqo menyunu əlinə alıb, balıq yeməklərinə üstünlük verərək sifarişini etdi.

— Moskvada balıq haradandır? — deyə Hekket ofisiant onlardan aralandıqdan sonra soruşdu. — Onu Moskva çayından tutub gətirirlər?

— Mən ki sizdən Parisdə balığın haradan olduğunu soruşmurdum. Buradakı balıq da yəqin ki, Sena çayından tutulub gətirilməyib, — deyə Dronqo onun söz zərbəsini özünə qaytardı, — Senada balıq yox, yalnız meyitlər üzər.

— Siz hələ meyitlərdən söz açmağa hünər edirsiniz? — deyə Hekket özündən çıxdı. — Sizin şəxsi səyləriniz nəticədə Moskvada son bir həftə ərzində bir neçə adam öldürülüb. Səhv etmirəmsə, dörd nəfər. Onların ölümündə özünüzü günahkar hesab etmirsiniz? Vicdanınız sızlamır? Bu salatın dadına baxın, çox dadlıdır.

— Təşəkkür edirəm. Lakin o adamların ölümündən daha çox sizin vicdanınız sızlamalıdır, Hekket, — deyə Dronqo etiraz elədi. — Oteldə çalışan xadimə ilə onun tanışını evlərinin həndəvərində görünməmələrinə görə mən xəbərdar eləmişəm. Sürücünü xidmətindən istifadə etdiyiniz dəllal yoldan çıxardı. Sonra da hər ikisini aradan götürdünüz. Mənim vicdanım təmizdir.

— Yəni siz mənim dəllallarla ünsiyyətdə olduğumu düşünürsünüz? — deyə Hekket daha çox gülümsədi. — Bu, mənim səviyyəm deyil. Özünüz bilirsiniz ki, mən tamamilə fərqli bir ictimai təbəqədə çalışıram. Nazirlər, qraflar, hersoqlar...

— Ya da biznesmenlər... — deyə Dronqo əlavə etdi.

— Bəli, ya da biznesmenlər — Hekket təsdiqlədi, — amma sutenyorlar, dəllallar — əsla!

— Lakin sizin istifadə etdiyiniz biznesmen üçün qadın təşkili və bunun ardınca gələn ləkələnmə cəhdləri köhnə bir fənddir.

— Köhnə fənd olsa da, mən onu yeni məzmunla dolğunlaşdırmağı bacardım, — deyə Hekket cavab verdi. — Hər şeyin yüksək səviyyədə təşkil olunduğunu siz də etiraf etməlisiniz. Onun sevgi əylənmələrini əks etdirən kadrlar müasir seksologiyanın əvəzolunmaz dərsliyidir. Orada çox maraqlı məqamlar var. Ümid edirəm ki, videonu zövqlə seyr etdiniz?

— Mən bəyənmədim. Rejissorsuzluq özünü göstərirdi. Qətl səhnəsi isə əksinə, yüksək səviyyədə oynanılmışdı. Qız çarpayıdan qalxdı, pəncərəyə yaxınlaşdı, pəncərəni açdı, günəş şüaları onun üzünə saçdı və bu anda çiynin-də çapıq təsvir olunmuş qatil peyda oldu. Quruluşçuluq qabiliyyətinizə görə namizədliyinizi Oskar mükafatına təqdim etmək lazımdır. Düzdür, filmin sonu yenə də ümidləri doğrultmadı. Kobud, çığırğan və son dərəcə xoşagəlməz bir sonluğu var idi. Hərçənd, sonluğun da kifayət qədər təsirli olduğunu etiraf etməliyəm.

Ofisiant sifariş olunmuş yeməkləri gətirdi.

— Sizinlə söhbət etmək o qədər xoşdur ki! — Cənab Hekket balıq üçün nəzərdə tutulmuş bıçaqla çəngəli əlinə aldı. — Siz arif adamsınız, ağzımı açmadan hər şeyi anlayırsınız. Ümid edirəm ki, sabah hərrac komitəsinə təsdiqlənmə sənədlərini verməyin münasib olmadığını başa düşürsünüz, deyilmi?

— Biz əvvəlcə qatili prokurorluğa, sonra isə təsdiqlənməni komitəyə təhvil verməyə hazırlaşırıq.

— Ağılsız və məqsədəuyğun olmayan bir hərəkətdir, — deyə Hekket ehtiyatla balıqdan bir tikə kəsərək bildirdi, — sizin qatil sandığınız adam artıq uzun illərdir ki, istefa verib

DTK-dan çıxıb. Şahidinizin kim olacağını bir düşünün. DTK kimi dəhşətli bir idarəni təmsil edən adammı? Belə bir demokratik ölkənin hakimlərinin bu qədər mənfur bir şəxsiyyətə inanacaqlarına ümid edirsiniz?

— Zənnimcə, onun heç danışmaq niyyəti yoxdur, — deyə Dronqo yüngülvarı narahatçılıq hissi keçirərək hər ehtimala qarşı həmsöhbətinə bildirdi.

— Görürsünüz?! Hətta onun kimi bir alçaq sizin ədalətsiz oyununuza alət olmaq istəmədi. Qatil Aleksandr — Mixayloviçin özü idi, biz də bunu sübuta yetirməyi düşünürük.

— Hansı yolla? Yenə kimisə öldürüb, günahı bədbəxt biznesmenin üstünə atacaqsınız?

— O, bədbəxt deyil, — Hekket etiraz elədi, — onun var-dövləti bir neçə milyard dollara bərabərdir. Ona hələ bir yazığınız da gəlsin, bədbəxt kasıb da deyin.

— Onun cinayətdə əlinin olduğunu necə sübuta yetirməyi düşünürsünüz? — deyə Dronqo şərab olan qədəhini qaldıraraq soruşdu.

— Sizin sağlığınıza! — deyə Hekket qədəhini onunla toqquşdurdu, — çox sadə bir yolla. Çərşənbə günü axşam ən populyar informasiya verilişində biz videoçəkilişi yayınlayacağıq və münasib şərhini də verəcəyik. Aleksandr Mixayloviç həyatı boyu özünə bəraət qazandıra bilməz. Ən yaxşı halda hər yerdən biabırçılıqla qovulacaqdır. Bütün dost-tanışı, yaxınları, doğmaları ondan üz çevirəcək. Hətta qətli sübuta yetirmək mümkün olmasa belə, bu, onun sonu olacaq. Mənəvi olaraq o, tamamilə məhv olunmuş və cəmiyyət üçün bitmiş bir adama çevriləcək.

— Mən sizin belə bir qəddarlığa qadir olduğunuza inanmıram, — Dronqo qədəhini stola qoyub özünü gülümsəməyə məcbur elədi.

— Bu, qəddarlıq deyil, günahkar adamın itaətsizliyinə görə cəzasıdır. Əgər o, bizim açıq-aşkar işarələrimizi anlamadısa, siz bizim öyüd-nəsihətlərimizi qəbul etmədinizsə, bizim də çərşənbə günü axşam, hərracdan bir gün əvvəl o əşyayi-dəlilimizi yayınlamaqdan başqa əlacımız qalmır. Sizi inandırım ki, cümə axşamı günü Aleksandr Mixayloviç hərracın keçirildiyi binada görünməyə belə cəsarət etməz. Təbii ki, o zamana kimi prokurorluq əməkdaşları onu həbs etməzlərsə.

— Xoşagələn bir perspektivdir.

— Siz bizə seçim qoymadınız. Bu lazımsız axtarışları nə üçün başladınız axı? Sizin səylərinizin nəticəsidir ki, polkovnik-leytenant Krivets istintaq altındadır, ortada da dörd meyit var. Bütün bunların kimə bir faydası oldu? Aleksandr Mixayloviçəmi? Əlbəttə ki, yox. Bəlkə sizə? İnanmıram, siz həmişə insansevərliyinizlə seçilmisiniz. Bizəmi? O da yox. Bir sözlə, hər şeyi necə lazımdırsa korladınız. İndi isə sabahkı — ən həlledici səhv ərəfəsində biz sizə sonuncu dəfə təslim olmağı təklif edirik. Bu, şərəfli bir məğlubiyyətdir. Siz orduları, bayraqları və topları qorumaq şərtilə geriyə çəkilirsiniz. Hətta həbs etdiyiniz qatili, əgər nəyisə sübuta yetirməyi və onu danışdırmağı bacarsanız, zindana da atdıra bilərsiniz. Lakin bundan artığına istənilən halda nail ola bilməyəcəksiniz. Mənim sizi bu görüşə dəvət etməyimin səbəbi də məhz budur.

Ofisiant stoldan istifadə olunmuş boşqabları topladı, yenilərini düzdü və sakitcə müştərilərinin yanından aralandı. Dronqo ilə Hekket bi-birinə o qədər tez-tez gülümsəyirdilər ki, kənardan onların çoxdankı yaxın dost olduqları təsəvvürü yaranırdı.

— Mən onu dilə tutmağı bacarmayacam, — Dronqo səmimi etiraf elədi, — o mənim sözümə baxmayacaq, müraciətini təqdim edəcək.

— Bir də ayılacaq ki, həbsxanadadır, — deyə Hekket davam elədi, — rüsvay və dostları tərəfindən tərk olunmuş vəziyyətdə. Buna can atır?

— Bizim əlimizdə qatil var, — deyə Dronqo xatırlatdı.

— Sizin əlinizdəki qatil yox, şübhəli şəxsdir, — Hekket inkar elədi. — Televiziyadakı şərhin necə olacağını təsəvvür edə bilirsiniz? Zavallı qızı qətlə yetirmiş biznesmen hazırda günahını qanunsuz olaraq həbs edib, yenə də qanunsuz olaraq iki gündür kompaniyanın ofisində saxladığınız əməkdar DTK zabitinin üstünə atmağa çalışır. Nə qədər böyük bir hiddətə səbəb olacağınızı təxmin edirsiniz? Necə iyrənc bir vəziyyətə düşəcəyinizi də həmçinin.

— Görürəm, siz bütün variantları nəzərə almısınız. — Dronqonun gicgahından ağrı tutdu. Lakin o, yenə də özünü söhbətinə davam etdi. Özünü isə əksinə gülümsəməyə məcbur edirdi.

— Bu, mənim üslubumdur, — Hekket xatırlatdı, — mən elə çalışıram ki, əzizim, heç kim, məni anlayarsınız — heç kim mənə mane ola bilməsin. Desert yeyəcəksiniz?

— Deyəsən şirniyyat həddindən artıq çox idi, — Dronqo zarafatla dedi, — bugünkü nahardan sonra şəkər xəstəliyinə tutulacağımdan ehtiyat edirəm.

— Narahat olmayın. Biz sizi İsveçrənin ən yaxşı klinik xəstəxanasına müalicəyə yollayarıq.

— Sizin sifarişçilərdən biri bir neçə gün bundan əvvəl mənə Seyşel və Baham adalarında istirahət təklif edirdi...

— Nahaq razılaşmadınız. Mən hələ bir həftə əvvəl Parisdə bütün cəhdlərinizin əbəs olduğunu sizə anlatmağa çalışdım. Sistem elə şəkildə hazırlanıb ki, onu dağıtmağa heç kimin gücü çatmaz. Hər şey xırdalıqlarına qədər işlənib-hazırlanıb. Bu işdən imtina etməliydiniz. Öz aramızdır, heç

indi də gec deyil. Necə deyərlər, ziyanın yarısından da qayıtmaq faydalıdır. Nə qədər olmasa siz nəyə qadir olduğunuzu nümayiş etdirdiniz. Mümkünsüz bir şeyi etdiniz, şübhəlini tapdınız. Bundan artığını bacarmazsınız. Yoxsa həqiqətənmi qalan iki-üç gün ərzində digər məsələlərin də açılmasına, digər günahkarların tapılmasına ümid edirsiniz? Sizi məyus edəcəm — başqa heç kim yox idi. Onlara heç ehtiyac da yox idi. Başqa icraçı olmayıb. Sağ qalanlar isə, çətin ki, məhkəmədə sizin şahidləriniz qismində çıxış etmək istəyə. Yeganə mümkün olan müttəhim Aleksandr Mixayloviçdir. O, qızla bir nömrədə yaşayıb, onun kimi tanınmış və varlı bir biznesmenin sözündən çıxa bilməyən bədbəxt bir qızı pozğunluğa sürükləyib. Sonra da əyləncəsindən doyaraq onu başından eləmək üçün öldürüb. Ah, təsəvvür edirəm ki, prokuror məhkəmədə nə qədər gözəl bir çıxış edəcək! Onun ürəkdən gələn təsirli nitqini dinləmək üçün mən hətta Moskvada qalmağa belə hazıram.

— Bravo, — Dronqo təzim etdi. — Zənnimcə bugünkü qonaqlığınızla Parisdəki şam yeməyimizi belə ötüb keçdiniz.

Hekket gülümsəyərək cavab verdi:

— Deməli, üçüncüsü də qalır, — həlledici qonaqlıq. Və o qonaqlıq da hərracdan sonrakı axşam baş tutacaq. Cümə axşamı günü. Keçirilmiş hərracdan sonra sizinlə mütləq görüşəcəyimizə ümid edirəm.

— Əlbəttə, — Dronqo təsdiqlədi.

# *SƏKKİZİNCİ GÜN*

Gecəyə yaxın kompaniyanın ofisinə qayıdan Dronqo onun olmadığı müddətdə milis əməkdaşlarının iki dəfə gəlib,

Koptevanın evinin yanındakı atışmanın iştirakçılarını sorğu-sual etməyə çalışdıqlarını öyrəndi. Məlum oldu ki, onlar bura gələrkən iştirakçılardan yalnız Andrey İlyinlə görüşə biliblər. İlyin də onlara atışma vaxtı avtomobilində olduğuna və bir şey görmədiyinə dair ifadə verib.

Gecə səhərə qədər Dronqo İlyinin kabinetinin döşəməsində quraşdırılmış süni yatağında rahatlıq tapmadan Hekketlə söhbətlərini xatırlayaraq analiz etməyə çalışdı. O, qoruma əməkdaşının yerində olduğunu dəqiqləşdirmək üçün üç dəfə dəhlizə çıxıb. Hətta bir dəfə Kurlayevin olduğu otağa qədər gedib qapını dinləmişdi. Sakitlik idi. Dronqo qapını açıb içəri baxdı. Əməkdaşlardan biri yatmışdı, ikisi isə kart oynayırdı. Düzgün eləyirdilər, növbədə yuxu üstün gələ biləcək bir nəfər əməkdaşı saxlamaq olmazdı. Qatilin yerini döşəmədən salmışdılar. O da, sanki heç bir şey baş verməmiş kimi şirin-şirin yatırdı.

Səhərisi gün ofisə çoxlu adamlar, həmçinin Fedoseyevin özü də gəlib çıxdı. Dronqo Aleksandr Mixayloviçi gözləyirdi. Lakin o, son anda məsləhətləşmədən vaz keçərək, Lyubomudrovla birlikdə kompaniyasının hərracda iştirakını təsdiqlətdirmək üçün müraciət ərizəsini Hərrac Komitəsinə aparmağı qərar verib. Dronqo biznesmenlə vəkilinin mobil telefonlarına zəng edib onlarla əlaqə saxlamaq üçün əldən-dildən düşsə də, heç birinin telefonu cavab vermirdi. Görünür, onlar hər ikisi Dövlət Əmlak Komitəsinin binasında mobil telefonlarını söndürmüşdü. Ya da elə yerdəydilər ki, telefonları əhatə dairəsi xaricində idi.

Dronqo Fedoseyevin kabinetə girib elə qapıdanca həyəcanlı tonda belə bir taktikanın böyük yanlış olduğunu bəyan etdi. General təəccübləndi. Dünən o, bütün axşam boyunca rəisinə Dronqonun müstəsna istedadından, əvəzolunmaz məntiqi bacarıqlarından, fövqəladə düşünmə və az qala öncədəngörmə qabiliyyətinin sayəsində mümkünsüz olanı – qatili tapmağından bəhs edib. İndi isə Dronqonun özü onun

kabinetinə gəlib, çığır-bağırla onların qatili ittiham etməsindən danışır, hərracda- iştirakdan imtina etmələrinisə tələb və xahiş edirdi. Fedoseyev hərracda iştiraklarını təxirə salmağı nə bacarmır, nə də istəmirdi. Ona görə də Dronqoya mətləbdən kənar bir cavab verərək onu sakitləşdirməyə çalışdı. Dronqo isə generaldan təcili olaraq kompaniyanın prezidentini tapmasını tələb edərək sakitləşmək bilmirdi.

Nəhayət, günorta saat üçdə xoşbəxt halda Aleksandr Mixayloviç gəlib çıxdı. Dronqonun onun qəbuluna düşmək cəhdlərinin hamısı boşa çıxdı. Qəbul otağında böyük bir növbə düzülmüşdü. Hamının biznesmenlə təcili və təxirəsalınmaz işləri var idi. Dronqo kompaniya prezidentinin kabinetində onun müdhiş bir səhvini müzakirə etmək istəmirdi. Ona görə də kompaniya əməkdaşlarının yanında polemika başlamaqdan çəkinərək qəbul otağından çıxdı. Nəticədə hərracda iştirakdan istənilən anda imtina etmək olar. Lakin Dronqo hər iki tərəfin eyni vaxtda onun üçün nə kimi bir «sürpriz» hazırladığını heç təxmin belə etmirdi.

Axşam saat beşdə kompaniyanın ofisinin qarşısında iki avtomobil saxladı. Gələnlər prokurorluq əməkdaşları idi. Onlar Aleksandr Mixayloviçin qəti və təntənəli surətdə qatil adlandırdığı keçmiş polkovnik Kurlayevin dalınca gəlmişdilər. Bu qədər dəyərli bir əsirin prokurorluğa təhvil verilməsini öyrənən Dronqo icazəsiz-filansız kompaniya prezidentinin kabinetinə daxil oldu. O, katibin köməkçisini itələyərək sürətlə Aleksandr — Mixayloviçin kabinetinə girdi. Orada bir neçə nəfər tanımadığı adamlar əyləşmişdi.

— Siz dəli olmusunuz! — deyə Dronqo elə qapıdan girən kimi uca səslə bəyan elədi. — Kurlayevi niyə onlara verirsiniz? Axı o sizin yeganə ümidinizdir!

— Artıq hər şey həll olunub, — Aleksandr Mixayloviç onun sözlərinə məhəl qoymadan qalib ədası ilə bildirdi. — Biz hərracda iştirakımızı təsdiqləyən müraciətimizi artıq komitəyə təqdim etmişik.

— Tələsdiniz, — Dronqo dedi, — çox tələsdiniz.

— Eybi yoxdur. İndi artıq Kurlayev bizə və başqalarına necə və nə üçün atəş açdığını deyər.

— O, bir kəlmə də olsun deməyəcək. Onu oradan qaçıracaqlar, biz də aldadılmış bir vəziyyətdə qalacağıq. Ümumiyyətlə ondan bəhs etmək belə yanlış idi.

— Heç nə olmaz, — deyə Aleksandr Mixayloviç Dronqonun xəbərdarlıqlarına əhəmiyyət vermədi, — hər şey yaxşı olacaq.

Sanki bu sözlərin təsdiqi kimi bayırdan bir partlayış səsi eşidildi. Pəncərə çərçivələri silkələndi, divarın suvağı töküldü. Aleksandr Mixayloviçin rəngi qaçdı, o, pəncərəyə tərəf atıldı. Binanın qarşısında Kurlayevi aparmağa gələn prokurorluq maşını alışıb yanırdı.

— Onlar onu öldürdülər, — başını itirmiş biznesmen qəbul otağına qaçaraq bağırdı.

Dronqo dodaqaltı söylənib onun dalınca qaçdı. Pilləkənlərlə enib binanın giriş qapısına qədər necə qaçdığını — xatırlamırdı. Küçəyə çıxdığında isə gözünə sataşan ilk səhnə alışıb-yanan avtomobil və asfaltda onun yanında uzanmış Kurlayev idi. Kurlayev acizanə şəkildə zarıyırdı və bombanın məhz onun üçün nəzərdə tutulduğu heç cür ağıla sığmırdı. Kurlayevin bəxti gətirmişdi. O, partlayış anında maşına əyləşirdi. Ona görə də partlayışın gücü onu maşından kənara asfalta tullamışdı. Ya da özü partlayıcının işə düşməsini hiss edib partlayış anında özünü kənara atmışdı.

— Xərəkləri gətirin! — deyə Dronqo bağırırdı. — Tez olun, xərəkləri bura gətirin!

— Hara — xəstəxanaya gedirik? — deyə təhlükəsizlik xidmətinin əməkdaşlarından biri soruşdu.

— Cəld onu binaya aparın, — Dronqo əmr elədi.

Kurlayevi xərəklərə qoyub qaldıranda Dronqo başıalovlu küçəyə çıxan Aleksandr Mixayloviçi gördü.

— Siz işlərin məhz bu şəkildə sonuclanmağını istəyirdiniz? — deyə Dronqo binaya tərəf gedərək əsəbi halda soruşdu. Ağır yaralı olan Kurlayevi I mərtəbənin kabinetlərindən birinə gətirib düz stolun üstünə uzatdılar. İlyin yanında dayanmışdı.

— Onlar məni öldürmək istəyirdilər, — Kurlayev sanki ucadan düşünüb-daşınırdı.

— Bəli-bəli. Onlar səni öldürmək istəyirdilər, — Dronqo onun dediklərini təsdiqlədi. — Hətta bir şey bilməsən də, onsuz da səni yerin altından da olsa tapıb ələ keçirəcəklər. Mənə həqiqəti söyləsən ölmək bir o qədər ağır gəlməz. Həkim çağırın! — deyə Dronqo dəhlizə çıxıb qışqırdı. — Tez həkim tapıb gətirin!

— Yaxşı, — deyə al-qan içində olan Kurlayev hırıldadı, — onsuz da bundan sonra məndən asılı olan bir şey yoxdur. Sizdən də bir şey asılı deyil. Hər şey onlar istədiyi kimi olacaq...

— Onda danış, — deyə Dronqo dəhlizdəki səs-küyə məhəl qoymadan tələb elədi. O, stolun üstündən əyilib təmiz vərəqlər götürdü. Heyif ki, maqnitofon yox idi. Lakin indi onun axtarışına düşmək sadəcə dəyərli saniyələri əldən vermək olardı. Kurlayev can verirdi. Dronqo onun qarnına baxdı. Partlayış zamanı avtomobildən qopan bir detal onun qarnını yarmışdı. Qara ciyəri ciddi şəkildə

zədələnmişdi. Dronqo bu cür yaralı olan adamın çox yaşaya bilməyəcəyini anlamışdı. — Sən heç nədən qorxma — o, dərindən köks ötürərək yaralıya dedi.

— Mən çoxdandır ki, heç kimdən və heç nədən qorxmuram — Kurlayev xırıltı ilə dedi. Yarasının ona dəhşətli iztirablar verdiyi bəlli olurdu. Bəlkə də təkcə qara ciyəri yox, ağ ciyərləri də parçalanmışdı. — Siz özünüz də bunu yaxşı bilirsiniz. Mənim həmişə əmrim olur... Ondan başqa heç bir problem yoxdur. Üç ay bundan əvvəl mənə İrina Maksimenko ilə tanış olmaq əmri verilmişdi... — O, ağrıdan boğulsa da, davam edirdi: Hər yerdə onun yanında olmaq, ta... ta ki o, lazım olan adamla tanış olana qədər. Məni onun adaxlısı kimi qələmə vermişdilər-, halbuki məndən nə adaxlı... Heç vaxt ailəm olmayıb... Həm də onun atası yaşındaydım.

Kurlayev öskürdü, dodağında qan damlaları göründü. Dronqo ilə İlyin bir-birinə baxdılar. Yaralı artıq can verirdi. Amma bununla belə danışmağa davam edirdi. Ona doğru əyilib dinləməkdən, dediklərini diqqətlə dinləməkdən başqa çarə yox idi. Kurlayev xırıldayırdı:

— Mən hətta bir neçə dəfə onu instituta aparıb-gətirmişəm. Qız peşəkar idi, amma təhsil almaq arzusundaydı... O istəyirdi ki... Onun kimiləri olur, ömürləri boyu oxumaq istəyənlər... Kurlayev yenidən öskürdü. İndi artıq qan ağzından daha çox gəlirdi. Tələsik danışırdı, sanki çatdırmayacağından qorxurdu. — Qız mənə çox yaxşı münasibət bəsləyirdi... Mən isə etiraz etmirdim, oxumaq istəyir — oxusun... Sonra İra onunla tanış oldu... Onunla birlikdə oteldə qaldı... Mən onun... mən onların tanış olduğunu anladım. İrina lazım olan adamla görüşmüşdü.

Kurlayev dərindən nəfəs aldı. Sonra birdən ağrıya güc gələrək gülümsəməyə çalışdı. Görünür, xüsusi bir ağrı

həddi var ki, insan ona üstün gəldikdən sonra ağrıya adekvat reaksiya verə bilmir.

— Mən onlara kələk gəldim, — deyə Kurlayev xırıldamağa davam edirdi, — məni öldürmək istədilər... mən isə ölmədim. Biz onunla birlikdə olduq, bir neçə gün... — o, fasilələrini daha da uzadaraq davam edirdi. — Sürücü də hər şeyi bilirdi... Onu aparıb-gətirirdi... Hər şeydən xəbəri var idi...

Kurlayev bir də öskürdü. Ömrünün sonuna lap az, bəlkə də bir neçə dəqiqə qaldığı açıq-aşkar görünürdü və o, bu son anda hər şeyi danışmağa cəhd edirdi.

— Bir neçə gündən sonra mən əmr aldım... Mən onu icra etmək istəmirdim, amma siz bilirsiniz ki, əmrə tabe olmamaq, onu icra etməmək olmaz... Mənə onu sadəcə yığışdırmaq əmr olunmamışdı. Mən bilirdim, oteldə gizlədilmiş kamera barədə bilirdim... Mənə biznesmen gedəndən dərhal sonra otelə gəlmək əmri verilmişdi... bədbəxt qızcığaz, — deyə Kurlayev hıçqırdı, — o, mənə inanırdı... elə inanırdı ki... Hətta məndən qorxmurdu... Mənim çiynimdə onunku, biznesmeninki kimi çapıq düzəltdilər... Mən soyundum... səsboğanlı tapançanı götürdüm və... O, bir qədər ara verib, nəhayət, qüvvəsini toplayıb dedi: Mən... qıza atəş açdım. Videoçəkilişi görmüsünüzsə, orada hər şey aydın şəkildə çəkilib... Sonra mən kaseti oradan götürdüm...

— Sürücünü də sən öldürdün? — Dronqo qışqırdı.
— Leonidi də sən öldürmüsən?

— Onu da... — polkovnik Kurlayev yenə xırıldadı. — Arsen ondan qorxurdu... Onu öldürməyi məndən Arsen istəmişdi... Sürücü Arsen barədə bilirdi. Yalnız o bilirdi... Biz onun evinə gəldik... Arsen özü içəri girmişdi, qapını da mənə o açdı... Mən girən kimi atəş açmaq istəmişdim. O, qaçdı...

Mən də onun dalınca qaçıb yataq otağında yaxaladım. O, pəncərənin yanında dayanmışdı...

Kurlayev gözlərini yumdu. Çətin nəfəs alırdı. Aşağıda yanğın maşınları gələnə qədər yanğını söndürməyə çalışan kompaniya əməkdaşlarının səs-küyü gəlirdi.

Dronqo Kurlayevə daha da yaxınlaşdı. O, hələ nəfəs alırdı. Araya sükut çökdü. İlyin sarsılmış halda Dronqoya baxıb susurdu. Birdən soruşdu:

— İndi nə edək?

— Hələ bilmirəm, — Dronqo cavab verdi. — Sağ qala bilsə, əla olardı.

— Axı o ölür, — deyə İlyin bildirdi.

Elə bu anda polkovnik gözlərini açdı. Görünür, baş verənləri artıq çətinliklə qavrayırdı.

— O mənim xoşuma gəlirdi... — deyə polkovnik pıçıldadı. — Mən istəmirdim...

Bu sözlər onun axırıncı sözləriydi. Polkovnik dünyasını dəyişdi.

— Vəssalam, — deyə İlyin pərt halda yekun vurdu, — indi biz artıq ən mühüm şahidimizi də itirdik.

Otağa sürətlə Aleksandr Mixayloviçlə general Fedoseyev girdilər.

— Özünü necə hiss edir? — deyə general tələsik soruşdu. — «Təcili yardım» maşını bu dəqiqə gələcək.

— Artıq heç nə hiss eləmir — Dronqo cavab verdi, — onun üçün artıq «Təcili yardım»ın gəlib-gəlməməsinin heç bir əhəmiyyəti yoxdur.

— Yox! — deyə Aleksandr Mixayloviç qışqırdı. — Ola bilməz!

— Bilər, — Dronqo acımadan dedi, — ola bilər. Müraciəti nə vaxt göndərmisiniz?

— Bu gün səhər, — deyə vahimə basmış biznesmen tələsik cavab verdi.

— Onu geri götürmək mümkündür?

— Praktiki olaraq yox. Artıq gecdir, çox gec, — deyə Aleksandr Mixayloviç saata baxıb ah çəkdi, — axşam saat altıdır. Bizim müraciətimiz artıq qeydiyyatdan keçib.

— Təbrik edirəm, — Dronqo qaşqabaqlı halda dedi, — mən axı sizdən xahiş eləmişdim ki, məndən xəbərsiz bir iş görməyəsiniz. İndi siz bizim işimizi xeyli çətinləşdirdiniz. Hətta işi tamam məhv etdiniz desəm, daha doğru olar.

Biznesmen ölən Kurlayevə baxdı. Sonra əminliklə dedi:

— Deyəsən, mən onu haradasa görmüşəm.

— Onu harada görə bilərdiniz?

— Biz «Rusiya» restoranına getmişdik, — Aleksandr Mixayloviç izah elədi, — elə mənim buradan getdiyim gündən bir gün əvvəl. Gecə saat üçə kimi orada oturduq. Elə orada mənim gözümə sataşıb. O, cüzamlı xəstələr kimi bir küncə qısılıb oturmuşdu, heç yeyib-içmirdi. Yəqin İrinanı güdürmüş.

— Siz onu dəqiq yadınızda saxlamısınız? — deyə Dronqo soruşdu. — Bir daha diqqətlə baxın.

— Belə birini unutmaq olarmı? — Kompaniya prezidenti dilxor halda soruşdu. — Bizim hətta restorandakı ziyafətimizin videoçəkilişi də var. Kaset var, amma oradakı adamlar artıq həyatda yoxdur.

Ölən qatilin üzündə, demək olar ki, bığ-saqqal yox idi, bu səbəbdən də onun üzü sanki çılpaq kəlləyə nazik dəridən bir maska çəkilmiş kimi görünürdü. Onun sifətinin sərt cizgilərini sanki heç ölüm də dəyişdirə bilməzdi.

— Hansı restoranda dediniz? — Az əvvəl restoranın adını dəqiq eşitməyən Dronqo bir daha dəqiqləşdirdi.

— Onlar dostları ilə birlikdə «Rusiya» restoranına getmişdilər, — deyə Fedoseyev izah elədi, — şəhər kənarına. Orada ad gününü qeyd edirdilər, bəzi tanış-tunuş yığılmışdı. Hətta bu görüşü videoya da çəkmişdilər. Biz hər ehtimala qarşı kaseti çıxarıb götürdük ki, onların həqiqətən də görüşdüklərini heç kim bilməsin.

— Bu, nə vaxt olub?

— Elə qətldən bir gün əvvəl. Səhərisi gün Aleksandr Mixayloviç yola düşməliydi.

— Bəli, — Aleksandr Mixayloviç kədərli halda dedi, — bu da sənə «ürəkdən yeyib-içmək».

— Gəlin buradan gedək, — deyə general təklif elədi, — artıq burada bizlik bir iş qalmadı. Bu saat prokurorluq işçiləri gələcək. Bizi Kurlayevin meyitinin yanında görməsələr yaxşıdır. Siz onun dediklərinin heç olmasa bir qismini maqnitofona yaza bildinizmi? — deyə general İlyindən soruşdu. İlyin başını buladı. Fedoseyev Dronqoya baxdı, lakin ondan da ürəkaçan bir cavab ala bilmədi.

Otağa prokurorluq işçilərilə «Təcili yardım» əməkdaşları daxil olanda onlar otaqdan çıxdılar.

— Tələsməyin, — İlyin onlara məsləhət gördü.

Liftdə Dronqo Aleksandr Mixayloviçin ağır nəfəs alıb-verdiyini gördü. Onun hadisələrin bu şəkildə cərəyan etməsinə qətiyyən hazır olmadığı açıq-aşkar nəzərə

çarpırdı. Kabinetdə hamı kompaniya prezidentinin stolunun ətrafına toplaşdı. Hamıdan sonra otağa Lyubomudrov daxil oldu. O, əlindəki əsaya dirənib nəzərəçarpacaq şəkildə axsayırdı və bu əsa artıq onun zahiri görkəminə, demək olar ki, yaraşırdı.

— Nə edək? — deyə Aleksandr Mixayloviç dilxor halda soruşdu. Qəfil partlayış və bu qədər çətinliklə hesablanıb tapılan şübhəlinin ölümü onu möhkəm sarsıtmışdı. İndi biznesmen artıq ədalətin zəfərinə heç inanmırdı.

— Hələ iki günümüz var, — deyə Dronqo söhbətə başladı. — Bu gün mən sizə hazırkı vəziyyət barədə təfərrüatlı bir izah vermək istəyirdim. Amma sizin qəbulunuza düşmək qeyri-mümkün idi. Dünən mən Uord Hekketlə görüşdüm. O mənə, sizin hərracda iştirak üçün müraciət verəcəyiniz təqdirdə, videoçəkilişi çərşənbə günü axşam onların nəzarəti altında olan televiziya kanalında yayımlanacağını vəd elədi.

— Müraciəti də ki, verdik, — deyə Aleksandr Mixayloviç bəyan elədi. — Bəlkə biz də öz kanalımızda hansısa bir maraqlı detektiv göstərək? Qoy həmin gün hamı o çəkilişi yox, detektivi seyr etsin. Hərçənd, — deyə o, planının — nə dərəcədə xəyali və perspektivsiz olduğunu anlayaraq dərhal əlavə elədi: — heç cəhd etməyə də dəyməz. İstənilən halda camaat «eyş-işrətə» zillənməyə üstünlük verəcək, üstəlik hələ qətllə sonuclanan eyş-işrətə. Heç yaxşı olmadı... bəlkə hərracda iştirakdan imtina etməyimizi bəyan edək? — deyə Aleksandr Mixayloviç titrək səslə soruşdu.

— Bu, sizin haqqınızdır, — Dronqo cavab verdi, — lakin bir halda ki, siz artıq müraciəti göndərmisiniz, indi gəlin düşünək görək nə edə bilərik.

— Biz Kurlayevə bütün tapşırıq və əmrləri verən adamın kim olduğunu elə də öyrənə bilmədik, — deyə general dilxor halda xatırlatdı, — o, elə hey susurdu.

— Siz necə bilirsiniz, Kurlayevə əmrləri kim verirdi? — deyə Vikenti Alekseyeviç maraqlandı.

— Bilmirəm, ehtimallar yürütmək də istəmirəm. Hərçənd, onların Arsenlə tanış olduqları məlum oldu. Mənə elə gəlir ki, kiminsə ilkin hazırladığı plana görə, onların İrinanı öldürmək niyyətləri yox imiş. Biznesmeni nüfuzdan salmaq üçün onun eşqbazlıq macəralarını kasetə çəkib yayınlamaq kifayət edərdi. Amma sonra başqa, daha təkmilləşdirilmiş bir plan meydana çıxıb və onlar bu planın daha təsirli olacağı qənaətinə gəliblər. Elə həmin vaxt İrinanın qətl qərarı da verilib. Məndən bütün bunların arxasında kimlərin durduğunu soruşmanıza ehtiyac yoxdur, onsuz da mən bu sualın cavabını bilmirəm. Kimsə bilə də bilməzdi. Təbii ki, ölən adamlardan — başqa kimsə. Məlum olur ki, Arsen təkcə milisin yox, həm də təhlükəsizlik xidmətinin əməkhaqqılı agenti imiş. Böyük ehtimalla, cinayətin kökləri nəinki Daxili İşlər Nazirliyinə, həm də Dövlət Təhlükəsizlik Xidmətinin bütün strukturlarına gedib çıxır. Necə bilirsiniz, Savva Afanasyeviç?

— Ola bilər, — deyə general təsdiqlədi. — Mən bu kimi təfərrüatlarla maraqlanmamışam. Heç vaxt agentlərlə çalışmamışam. Mənim işlərim, məsuliyyətlərim həmişə daha konkret olub.

— Bu adam qatil idi, — vəkil qəzəbli halda dedi, — siz isə burada oturub arxayın-arxayın bir cəlladın hərəkətlərini müzakirə edirsiniz.

— Bizim qonağımız bir neçə gündür yatmır, — deyə general Fedoseyev şəfqətlə Dronqoya baxıb bildirdi. — Hesab edirəm ki, bizim də hamımızın istirahətə ehtiyacımız var. Mən isə hələ prokurorluqla DİN-də partladılmış avtomobilə bağlı ifadə verməliyəm. Gəlin əvvəl bu işləri yoluna qoyaq, sonra isə, axşam əsas planlarımıza qayıdaq.

— Bizim yalnız bir planımız ola bilər, — deyə Dronqo qeyd etdi, — nə kimi tədbirlər görməyi həll etmək və qərar vermək planı.

Qəbul otağından katibənin səsi eşidildi. Katibə bir nəfər naməlum adamın ikinci dəfə zəng edib, israrla cənab Dronqo ilə danışmaq istədiyini və onun hazırda burada olduğundan əmin olduğunu bildirdiyini xəbər verdi.

— Sizi kim soruşur? — deyə Aleksandr Mixayloviç şübhəli-şübhəli ekspertə baxıb soruşdu.

— Onun kim olduğunu artıq təxmin edirəm. — Dronqo telefonun dəstəyini qaldırdı. O, yanılmamışdı və gözlədiyi kimi Uord Hekketin səsini eşitdi.

— Elə bil siz özünüzün əsas kozırınızdan bəhs edirdiniz? — deyə Hekket soruşdu. — Səhv etmirəmsə, bu kozırdan məhrum oldunuz, deyilmi? Əvvəlki kimi oyunu davam etməkdə israrlısınızmı, yoxsa məğlubiyyətinizi etiraf edəcəksinizmi?

— O maşın prokurorluğun maşınıydı, — deyə Dronqo xatırlatdı, — siz bu partlayışa görə mütləq cavab verəcəksiniz, cənab Hekket.

— Hansı partlayışdan bəhs edirsiniz? — deyə Hekket az qala səmimi şəkildə təəccübləndi. — Mən kart oyunundan bəhs edirdim. Partlayışın söhbətə nə aidiyyəti var?

Etiraz etmək mənasız idi. Dronqonun həmsöhbətinin mövqeyi onlarınkından qat-qat güclü idi. Dronqo nə isə demək istəyirdi, lakin Aleksandr Mixayloviç yenə də hər şeyi korladı. Zəhləsi getdiyi adamın adını eşidən kimi o, Dronqonun əlindən dəstəyi alıb, ingilis dilində birtəhər bütün bildiyi söyüşləri Hekketə yağdırdı. Belə bir söz atəşilə Hekketi sarsıtmaq qeyri-mümkün idi və o, hətta dəstəyi asmadı, əksinə, böyük zövqlə biznesmenin bütün

dediklərini axıra qədər dinlədi və yalnız Aleksandr Mixayloviç sözünü bitirdikdən sonra soruşdu:

— Mənə başqa bir şey demək istəmirsiniz ki?

— Cəhənnəm ol... — deyə Aleksandr Mixayloviç dəstəyi atdı.

— Bu şəkildə biz ona yalnız öz zəifliyimizi nümayiş etdirmiş oluruq, — Dronqo qeyd etdi.

— Deməli, mən müraciətimizi geri çəkməliyəm? — deyə Aleksandr Mixayloviç qəzəbləndi. — Deməli, onlar bizə qalib gəldilər? Deməli vəssalam? Hər şey bitdi?!

O, elə qəzəblənmişdi ki, onunla ciddi danışmaq qeyri-mümkün oldu. Dronqo ayağa qalxdı.

— Yox, bitmədi, — o əlini üzünə çəkib dedi, — mənim düşünmək üçün zamana ehtiyacım var. Siz isə sakitləşin. Bu qədər əsəbiləşməyə dəyməz. Savva Afanasyeviç, sizdə olan video kaseti görə bilərəm?

— Əlbəttə, görə bilərsiniz. Lakin o çəkiliş qətldən bir az əvvəl olub.

— Eybi yoxdur. Bu kaset də bizə lazım ola bilər. Bəzi fikirlərim var.

— Andrey kaseti sizə bizim nümayiş zalımızda göstərər.

Dronqo xudahafizləşməmiş kabinetdən çıxdı. İlyin də onun dalınca çıxdı.

— Bu özündənrazı sarsağı niyə dəvət elədik axı? Gərək bizim bu eksperti daim ötən Hekketə milyon dollar verib işləri həll edəydik. Onlar dünən görüşüblər dedi? — Aleksandr Mixayloviç əsəbi halda soruşdu.

— İlyin dedi ki, bəli, görüşüblər, — deyə general təsdiqlədi. — Hekket bura zəng edib Dronqonu şam

yeməyinə dəvət elədi.

— Yəqin ki, əlbir olublar, — deyə biznesmen dişlərini qıcadı.

— Xeyr, — Vikenti Alekseyeviç inkar elədi, — bu, mümkün deyil. Onlar peşəkarlardır. Onlar üçün nüfuzları dünyanın istənilən pulundan üstündür. Dronqo heç bir halda onunla əlbir olmazdı. Bu mülahizə tamamilə istisnadır.

— Böyük pullar qarşılığında... — Aleksandr Mixayloviç generala baxıb dedi. Amma general da inkar əlaməti olaraq başını buladı. Dronqonun satqınlığına inanmaq qeyri-mümkün idi. O, həddindən artıq tanınmış bir ekspertdir, dünya şöhrətli.

— Nə edəcəyik? — deyə Aleksandr Mixayloviç vəkilindən soruşdu.

— Əgər sabaha kimi bir şey fikirləşib tapmasaq, müraciətimizi geri çəkməliyik, — Lyubomudrov köks ötürdü. — Hekket əks təqdirdə çərşənbə günü axşam, hərrac ərəfəsində videonu yayınlayacaqlarını bildirdi. Əgər biz iştirakdan imtina etməsək...

— Axı biz necə imtina edə bilərik? — Aleksandr Mixayloviç qəzəblə soruşdu. — Mən öz kompaniyamın prezidentiyəm və istədiyimi yalnız burada yürüdə bilərəm. Amma siz ki bizim bu hərracda qələbəmizin nə dərəcədə önəmli olduğunu bilirsiniz. Bu, artıq təkcə mənim şəxsi işim deyil. Əgər imtina eləsəm, məni yaşatmazlar.

— Bəs imtina etməsəniz necə olacaq? Hekket bu işi yarıda buraxmayacaq, — deyə Lyubomudrov xatırlatdı.

— Lənət şeytana! — biznesmen yumruğunu stola çırpdı. — Bir çıxış yolu olmalıdır. Cüzi də olsa, bir ümid yeri olmalıdır.

İşçiləri bir kəlmə demədən ona baxırdılar. Lakin o, generalla vəkilinin gözlərində öz məğlubiyyətini görür və

bu da ona daha çox toxunurdu.

# *DOQQUZUNCU GÜN*

Bu səhər Dronqo öz evinə qayıtdı. İndi artıq Hekket tərəfindən təqib və ya nəzarətdən çəkinməmək olardı. Hər şey sözsüz də aydın idi. Dronqo əynini soyunub paltarlarını ora-bura atdı və vanna otağına keçib, uzun müddət isti duşun altında dayandı. Bununla sanki şəxsi məğlubiyyətini üzərindən təmizləmək istəyirdi.

Mətbəxdə o, elektrik çaydanı işə saldı. Pəncərəyə yaxınlaşdı. Mətbəxlə qonaq otağının pəncərələri küçəyə, yataq otağı ilə kabinetinin isə pəncərələri həyətə baxırdı. Küçədə, evlə üzbəüz bir dükançada portağalla banan satılırdı. Yoldan keçənlər laqeydliklə dükanın yanında ötüb keçirdilər. Bananların burjuaziya cənnətinin rəmzi və böyük defisit olduğu dövrlər artıq çoxdan keçmişdi.

Dronqo poçt qutusundakı qəzetlərə nəzər salmaq üçün stola yaxınlaşdı. Hansısa qarışıq bir fikir onu narahat edirdi, amma o, bu fikri ifadə edib narahatlığının səbəbini aydınlaşdıra bilmirdi. Yenidən pəncərəyə yaxınlaşdı. Dükançanın yanında bayaqkı kimi heç kim yox idi. Dronqo stola tərəf qayıdıb çayını içdi və yataq otağına keçdi.

Əynini dəyişib çarpayısına uzanmağa hazırlaşanda saat on bir idi. O, pəncərəyə yaxınlaşıb pərdəni aralayanda qəfildən bu səhnənin ona tanış olduğunu düşündü. İrina Maksimenko da pəncərəyə yaxınlaşıb pərdələri aralamışdı deyə o, beynində həkk olunmuş səhnəni xatırladı. İrina pərdəni aralayırdı... Bu fikir hələ müəyyən bir şəklə düşməmiş sanki tərpənməyə başladı...

Dronqo mətbəxə qayıtdı. Yenidən meyvə dükançasına baxdı. Sonra zenitdə olan günəşə nəzər saldı. Günortaya az qalırdı. Görəsən axıra qədər götür-qoy etmək istədiyi fikir nə idi? Aleksandr Mixayloviç o vaxt Parisdə ona necə demişdi? O səhərlər bir az artıq yatmağı sevdiyi üçün oteldə adətən qərb tərəfi seçdiyini demişdi. Biznesmen elə Dronqonun özü kimi gecələr yatmayan adamlardan idi. Gecələri yatmayan adam tipinə «bayquş» deyirlər. Bayquş. Bayquş. Səhərlər yatmağı sevirəm. Dronqo sanki öz yaddaşının cəngəlliklərini yarıb keçərək hansı bir həllin doğulduğunu hiss edirdi.

Səhərlər o, artıq yatır – Dronqo yenidən xatırladı. Bütün «bayquşlar» günəş şüaları səhər tezdən onları oyatmasın deyə qərb tərəfə çıxan yataq otaqlarına üstünlük verirlər. Düzdür. Səhər günəşi onları oyatmasın deyə. Birdən-birə Dronqo yerindən sıçrayıb tələsik əynini geyinməyə başladı. Sonra mobil telefonunu tapıb İlyinə zəng elədi.

— Andrey, təcili sənin yardımına ehtiyacım var. Tez mənim evimə gələ bilərsən?

— Nə isə olub? — deyə İlyin narahatlıqla soruşdu.

— Bütün işləri at, evimə gəl. Yardımına ehtiyacım var.

Dronqo əynini geyinə-geyinə tədricən bitkin bir plana çevrilən sxemi düşünürdü. İyirmi dəqiqədən sonra İlyin gəlib çıxdı və Dronqo aşağı enib onun maşınına əyləşən kimi planını ona izah etməyə başladı. İlyin çaşqın halda gözlərini ona dikmişdi.

— Bu, mümkün deyil, — deyə o, dönə-dönə təkrarlayırdı, — mümkün deyil. Lənət şeytana!

Bütün yolu Dronqo planını təkcə öz beynində daşınıb-düşünmürdü, eyni zamanda onu İlyinə izah edirdi. Onun mülahizəsi heyranedici dərəcədə sadə və aydın idi. O qədər bəsit idi ki, hətta əvvəlcə onun reallaşmasının

mümkünlüyünə özünün də inanmağı gəlmirdi. Bu, Hekketin danılmaz yanlışı idi! Həm də hər bir vəziyyətdə peşəkara verilən həmin yeganə şans.

İlyin otelə çatıb maşını arxa həyətdəki dayanacaqda saxladı və onlar tələsik binanın ətrafına dolanmağa başladılar.

— Görəsən, təxminləriniz doğrudur? — deyə İlyin yuxarı baxıb pıçıldadı. — Yəni bu, mümkündür?

— Özün bax, — Dronqo binanı göstərdi.

Andrey özü-özünə inanmadan Dronqonun ardınca gedirdi. Onlar ikinci dəfə otelin ətrafına dövrə vurdular. Dronqonun planı cənab Hekketin hiylələrindən daha dahiyanə görünürdü.

— Öz gözümlə görməsəydim, sizə inanmazdım, — İlyin heyranlıqla bildirdi.

— Ora bax, — Dronqo üçüncü mərtəbənin pəncərələrini göstərdi, — gördünmü, mən haqlı idim. Qərb tərəf. Aleksandr Mixayloviç hələ Parisdə ikən mənə həmişə qərb tərəfi seçdiyini demişdi.

— Hə-ə, — İlyin hələ də heyranlıqdan ayılmamışdı, — buna inanmaq qeyri-mümkündü. Amma siz həqiqətən də haqlısınız. Bəlkə elə bu dəqiqə bunları Alkesandr Mixayloviçə xəbər verim?

— Telefonla olmaz, — deyə Dronqo etiraz elədi, — onun yanına gedək. Üzbəüz görüşüb hər şeyi müzakirə etmək daha yaxşıdır. Bizə hələ onun yardımı da lazım olacaq. Yolüstü mənim evimə də dönək, heç olmasa əynimi dəyişim. Belə ciddi bir firmanın ofisinə qalstuksuz getmək nəzakətsizlik olar.

— Razıyam, — İlyin güldü.

Bütün yolu onlar maraqla Dronqonun planını müzakirə edərək, dönə-dönə onun sadəliyinə və aydınlığına heyranlıq ifadə etdilər. Evə yaxınlaşanda İlyin qəzet köşkünü göstərib dedi:

— Mən qəzet alıb sizi maşında gözləyəcəm.

— Yaxşı. Bir neçə dəqiqəyə qayıdacam, — Dronqo tələsik maşından endi. Bu neçə gün ərzində ilk dəfə idi ki, hər şey ona tam aydın olmuşdu. Elə bu anda o, İlyinin qışqırığını eşitdi:

— Dayan!

Onun reaksiyası həmişəki kimi ani idi. Dronqo düşünüb-daşınmadan yerə, asfaltın üstünə uzandı və elə həmin anda başının üstündən iki güllənin vıyıltı ilə keçdiyini gördü. İlyin ani sürətdə maşından çıxıb ona tərəf qaçırdı.

— Yox! — deyə Dronqo çığırdı və bu yerdə Andrey, sanki görünməyən bir maneəyə ilişib qaldı və çiynindən yaralanaraq yerə yıxıldı.

Uca güllə səsləri yoldan ötənləri təşvişə saldı. Camaat qışqır-bağırla qaçışmağa başladı. Dronqo başını bir az qaldırdı. Tünd rəngli «09» markalı maşın və iki siluet gördü. O, bu maşının kimə məxsus olduğunu bilirdi. Onlar uzun müddət Dronqonun evinin yanında dayanıb onun evə tək gələcəyini gözləmişdilər. Daha bir güllə açıldı. Dronqo öz tapançasını çıxarıb sürünə-sürünə Andreyə tərəf getdi. Sürünmək çətinlik törədir, idman məşğələlərinin yoxluğu və fiziki formanın qaydasında olmaması özünü göstərirdi. Amma çətinliklə də olsa yaralının yanına gəlib çıxdı. İndi onunla qatillərin arasında ağrıdan zarıyan İlyin uzanmışdı. Daha bir atəş açıldı. Asfalta uzanıb yaralının bədənindən sipər kimi istifadə etmək olardı, amma o halda Andrey öləcəkdi. Bunu anlayan Dronqo dişlərini canına sıxıb asta-asta qalxmağa başladı.

Bir dənə də atəş açıldı, amma Dronqo heç aşağı da əyilmədi. Maşında əyləşənlər onun rus ruletkası oynamaq fikrində olduğunu anladılar. Dronqo onların hər ikisini — tanıdı. Sükan arxasında Lısakov, yanında isə ortaqlarından biri var idi. Dronqo yaralının üstündən aşıb keçdi. İndi o, özünü güllələrə sipər edərək ayaq üstə dimdik dayanmışdı. O, köməksiz yoldaşını güllərdən qorumaq üçün kənara çəkilməmək qərarı verdi.

Lısakov maşını işə salıb sürətlə yerindən sıçradı ki, nifrət etdiyi rəqibini əzib keçsin. Dronqonun üzündə ən çətin və sarsıdıcı məqamlarda yaranan bir ifadə əmələ gəldi – soyuqqanlı manyak maskası. Hisslərdən məhrum olmuş bir adam üzünün ifadəsi. O, tapançasını qaldırdı. Maşın sürətlə onun üstünə şütüyürdü. Dronqo silahını avtomobilə tuşlayıb bütün patron darağını boşaltdı. Ona çatmağa bir neçə metr qalmış maşın kəskin şəkildə kənara dönüb qəzet köşkünə çırpıldı və elə həmin anda alışıb yandı.

Dronqo tapançasını aşağı saldı. Sanki üzərindən maskası ilə birlikdə çox ağır bir yükü atan adamlar kimi dərindən ah çəkdi.

— Döz, Andrey, artıq hər şey arxada qaldı, — İlyinə dedi.

— Siz onları güllələdiniz?

— Yox, o biri dünyaya səfərə yolladım. Yaxşılıq yumruqlu olmalıdır, səhv etmirəmsə, atalar misalında belə deyilir. Ona görə də mən yumruqlarımı o şərəfsizlərə göstərdim. Sən tərpənmə. Çoxlu qan itirə bilərsən. Bir az döz, Andrey, bu dəqiqə həkimlər gələcək...

Dronqo cibindən mobil telefonunu çıxarıb, yoldan ötənlərin çaşqın baxışlarına məhəl qoymadan asfaltda, yaralının yanında əyləşdi. Onlardan bir neçə metr aralıda içində iki nəfər hücumçu olan «09» markalı maşın alışıb yanırdı.

Rezin, insan əti və plastmas yanığının kəskin qoxusu ürək bulandırırdı.

# *DOQQUZUNCU GÜN*

Onlar dördü də uzun bir stolun arxasında əyləşmişdi. Qaşqabaqlı və dilxor Fedoseyev. Uzunillik vəkillik təcrübəsinə baxmayaraq, ilk dəfə bu qədər dramatik bir vəziyyətə düşüb sarsılmış Lyubomudrov. Hər şeyə emosional reaksiya verən Aleksandr Mixayloviç və artıq hər şeyə soyuqqanlı yanaşan Dronqo. Yaralı Andreyi xəstəxanaya apardılar, həkimlər onun sağalacağını bildirdilər.

— Müraciət ərizəmizi geri çəkmək lazımdır, — deyə artıq neçənci dəfə idi ki, Lyubomudrov təklif edirdi. — Mən prokurorluqla sövdələşməyə çalışacağam. Kaset olmasa, onların əlində qətli törədən Aleksandr Mixayloviçin olduğuna dair heç bir dəlil-sübut yoxdur.

— Bəs əgər video hərracdan sonra yayımlanarsa? — deyə Dronqo soruşdu. — Yəni siz rəqiblərinizin mübarizə üsullarını bilə-bilə hələ də onlara etibar edə bilirsiniz? Hətta biz müraciətimizi geri çəksək də, onlar o çəkilişi yayınlayacaqlar. Həm də bunu daha böyük bir zövqlə edəcəklər ki, sizin kimi rəqiblərini tamamilə sıradan çıxarsınlar.

— Bunları deməyə də bilərdiniz, — deyə vəkil ümidsizliyə qapılmış kompaniya prezidentini göstərək Dronqoya narazılığını bildirdi. Aleksandr Mixayloviç ümidsiz və ölümə məhkum olmuş xəstə adama bənzəyirdi.

— Həmişə işin pis tərəfini düşünmək lazımdır, — deyə Dronqo köks ötürdü, — amma deyəsən mənim bir planım

var. Zənnimcə, müraciət ərizəsini geri çəkməyə ehtiyac yoxdur.

— Nə? — deyə Aleksandr Mixayloviç eşitdiyinə inanmadı. — Siz dəli olmusunuz?!

— Müraciəti geri çəkmək lazım deyil, — Dronqo onun kobudluğuna əhəmiyyət vermədi. — İndi mən sizə hər şeyi izah edim. Əgər o kaseti bir kanalın informasiya verilişində yayınlasalar, ondan yarım saat sonra digər bir kanalın informasiya verilişində o biri çəkiliş yayımlanmalıdır.

— Hansı o biri çəkiliş? — deyə Aleksandr Mixayloviç az qala qışqıraraq soruşdu. — Hansından bəhs edirsiniz? Haradan alacaqsınız o biri çəkilişi? Siz mənim həbs olunmağımı istəyirsiniz?

— Siz məni sizin problemlərinizi həll etməyim üçün buraya dəvət etmisiniz, — deyə Dronqo soyuq tərzdə qeyd etdi, — ona görə də icazə verin, onları özüm həll edim, özüm qərar verim. Sizin qışqırıqlarınıza ehtiyac yoxdur. Sabah axşam sizin iştirakınızla olan reportaj onların kanalında yayımlanacaq. Yarım saatdan sonra isə digər bir reportaj o biri kanalda yayımlanmalıdır. Əgər hər şey mənim düşündüyüm kimi olarsa, onda siz nəinki qalib çıxacaqsınız, üstəlik mübarizəsiz-filansız hərracda qələbə çalacaqsınız.

Hamı bu qəribə adamın nə demək istədiyini anlamayaraq susurdu.

— Ən əsası isə siz həmişəlik özünüzü o video şantajından xilas etmiş olacaqsınız, çünki artıq sabah axşam o çəkilişin bir qəpiklik dəyəri qalmayacaq.

— Bu, mümkün deyil, — Aleksandr Mixayloviç az qala inildədi, — əgər çəkiliş televiziya ilə yayımlansa, bir əxlaqsız və qatil kimi qələmə veriləcəm və bununla da məhv

olacam. Mənim tikəmi belə qoymazlar qala, zindana basacaqlar.

— Siz həkim çağıranda, öz həyatınızı ona etibar edirsiniz, — Dronqo dedi, — indi də taleyinizi mənə etibar edin. Əgər hər şey yolunda gedərsə, sabah axşam siz artıq bir qalib olacaqsınız.

— Yaxşı. Yaxşı, — deyə Aleksandr Mixayloviç iki əli ilə başını tutdu. — Heç olmasa nə etmək fikrində olduğunuzu izah edin. Həm də bunun üçün sizə nə lazım olacaq?

— «Rusiya» restoranında aparılan videoçəkilişin lenti — Dronqo sadalamağa başladı, — sizin Moskva-Paris biletiniz, həmin gün, yəni qətl günü təyyarənizin dəqiq saat neçədə havaya qalxdığına dair aeroportdan arayış. Yaxşı peşəkar kamera, bacarıqlı operator və başqa bir kanalın teleaparıcısı. Onu da deyim ki, həmin kanalı maraqlandırıb işə cəlb etməniz üçün onlara yaxşı mükafat verməniz lazım olacaq. Hərçənd mən həmin kanalın istənilən halda nadir sensasiyalı materialla maraqlanacağından əminəm.

— İlyin də siz deyən materialla maraqlanıb, nəticədə xəstəxanaya düşdü, — deyə Aleksandr Mixayloviç kinayə ilə xatırlatdı.

— Hücumçular isə meyitxanaya düşdülər, — Dronqo məntiqlə cavab verdi, — sizin mənə etibar etməniz önəmlidir. Əks təqdirdə mən işləyə bilməyəcəm.

— Yaxşı, deyin görək nə kimi plan hazırlamısınız axı? — generalın da səbri tükənirdi.

Bundan sonra Dronqo təfərrüatı ilə hər şeyi izah etməyə başladı. Bütün kabinetdə əyləşənlərin sifəti tədricən dəyişməyə, gözləri təəccübdən böyüməyə başlayırdı. Onlar bu dərəcədə açıq-aşkar həqiqətlərə inana bilmirdilər. Lakin Dronqo hər şeyi o qədər inandırıcı və sadə dildə izah etdi ki, sonunda hamı rahatlıqla köks ötürdü.

— İlahi! — Vikenti Alekseyeviç heyranlığını gizlətmədi. — Afərin sizə!!! Afərin!

Bu da Dronqonun həmin eşitdiyi ən yüksək tərif idi. Hələ də qaşqabaqlı oturan Aleksandr Mixayloviç başını bulayıb birdən-birə artıq təbəssümünü gizlədə bilmədiyini hiss etdi. O, Fedoseyevə baxdı.

— Əla düşünülüb, — deyə general təqdirini bildirdi, — əgər hər şey nəzərdə tutulduğu kimi alınsa...

— Alınmalıdır, — dedi Dronqo, — yeganə alınmaya bilən şey bizim reportajımızın digər kanaldakı nümayişi ilə bağlı ola bilər. Əgər onu başqa vaxta, ya da ümumiyyətlə təxirə salsalar, onda işlər bir az çətinləşəcək. Ona görə də biz ikinci çəkilişin nümayiş olunacağından dəqiq əmin olmalıyıq. Əgər lazım gələrsə, həmin vaxt televiziyada olan aparıcıdan tutmuş montajçıya qədər — bütün işçilərin haqqı ödənilməlidir. Çünki bizim reportaj dərhal birinci reportajın ardınca yayımlanmalıdır.

# *ONUNCU GÜN*

Artıq iki dəfədir televiziyada axşam saat 21:00-da gənc bir qadının qətlilə əlaqədar kriminal süjetin yayımlanacağı elan olunmuşdu. Bu qətldə şübhəli bilinən və günahını inkar edən məşhur bir biznesmenin olduğu da xüsusilə vurğulanırdı. Bütün verilişlər yarıda dayandırıldı. Milyonlarla tamaşaçı qətl səhnəsini seyr etmək üçün səbirsizliklə axşam saat doqquzu gözləyirdi.

Əvvəlcə kadrda siyasi qalmaqallarda ixtisaslaşmış məşhur bir aparıcı göründü. O, söhbətinə dəhşətli cinayətlə ittiham olunan biznesmenin fəaliyyəti barədə bəhs etməkdən başladı. Yağdırdığı yalanlara o qədər qapılmışdı ki, şübhəli

bilinən biznesmeni az qala ölkənin başına gələn Sovet İttifaqının dağılmasından tutmuş MDB ölkələrindəki yerli ixtilaflara qədər – bütün bədbəxtliklərdə günahlandırdı. Danışan özündən çox arxayın idi. O, gah səsini ucaldır, gah mənalı baxışlarla baxır, gah qaşlarını çatır, müəmmalı atmacalar atır və suçlayır... suçlayır... suçlayırdı...

— Bunun səsi nə vaxt batacaq? — deyə Aleksandr Mixayloviç hövsələdən çıxdı, — bundansa elə birbaşa çəkilişi göstərəydilər.

Onlar kompaniya prezidentinin bağ evinin təmtəraqlı qonaq otağında toplaşmışdılar. Ev sahibindən başqa orada olanlar onun ən yaxın adamları idi – Fedoseyev, Lyubomudrov və Dronqo.

— Bu səfeh aparıcı bu verilişi özünün ulduz saatı sanır, — deyə Dronqo qeyd etdi, — bugünkü axşamın nə ilə bitəcəyini bilsəydi, bu qədər canfəşanlıq etməzdi.

— Biz heç özümüz də bilmirik ki, bugünkü axşam nə ilə bitəcək, — biznesmen əsəbi halda dedi.

Lyubomudrov Dronoqoya baxıb barmağını dodağına sıxdı. Belə bir şəraitdə biznesmenlə nəinki mübahisə etmək, ümumiyyətlə, danışmamaq daha məqsədəuyğun idi, vəkil özü bunu çoxdan anlamışdı.

Aparıcı ittihamlarını yağdırmağa davam edirdi. Söhbətində sabaha nəzərdə tutulan hərracdan da bəhs etdi. Amma bunu ötəri elədi, sırf Aleksandr Mixayloviçin kompaniyasının ölkənin iqtisadi və siyasi həyatına təsirinə diqqət çəkmək üçün. Onun çıxışının apofeozu saat ona on beş dəqiqə işləmişdə efirə gedən video çəkiliş oldu. İlk kadrlar yayımlanmağa başlayanda divanda əyləşmiş Dronqo qaşlarını çatdı. Aleksandr Mixayloviç əsəbdən yerində rahat otura bilmirdi. Hətta stulda əyləşmiş Lyubomudrov da narahatlıqla köks ötürdü. Buna qədər Aleksandr Mixayloviç

ünvanına tuşlanan ittihamları yumruqlarını möhkəm sıxıb, gözlərini bir qədər yummuş vəziyyətdə dinləyirdi. Sanki hər deyilən cümlə onu ürəyindən yaralayırdı. Sevgi səhnələri yayımlanmağa başlananda biznesmen zarıdı. Rəisinin vəziyyətini görən Lyubomudrov ayağa qalxıb, axsaya-axsaya bir stəkan su ilə validol gətirməyə getdi.

— Alın, bunu için, Aleksandr Mixayloviç, — deyə o, su ilə dərmanı rəisinə uzatdı, — bu, döyüşün ilk raundudur. Mübarizə hələ bitməyib.

Biznesmen vəkilin əlini geri itələdi. O boğulur, sanki nəfəs almağa havası çatmırdı. Köynəyinin boynundakı üç düyməni açıb qalstukunu qəzəblə kənara tulladı.

— Lənət şeytana! — deyə o, Dronqoya baxmadan xırıldadı. — Həqiqətən də onlarla sazişə gəlməyim lazım idi! Bu görüntülərin nümayişinə yol vermək olmazdı! Olmazdı! Sizə inanmaqla səhv etdim. İndi mən artıq müflis oldum. Bütün bunlar azmış kimi, mən artıq hamının gözündə bir cinayətkaram.

Yataqdakı məharətlərinə baxıb yerində yırğalanırdı.

— Axı sizə necə inana bildim? — deyə o, hələ də Dronqoya baxmadan zarıyırdı.

— Bir az səbirli olun, — Dronqo soyuqqanlıqla qeyd etdi, — bu, hələ başlanğıcdır. Bu veriliş nə qədər ağır olursa-olsun, sizin əks-zərbəniz bir o qədər təsirli olacaq.

— Axı buna indi mənim bütün işçilərim, dostlarım, tanışlarım, yaxınlarım baxır, — deyə Aleksandr Mixayloviç yerindən sıçrayaraq inildəyirdi. — Yoxsa onlar sizi də satın almağı bacarıblar? Siz qəsdən məni Moskvaya gətizdirdiniz, — deyə o, qəzəbdən boğulan səslə əlavə elədi, — indi məni artıq Rusiyadan heç yerə buraxmayacaqlar. Məni elə aeroportdaca həbsə alacaqlar.

Üstəlik arvadım. Ona da çəkilişi göstərəcəklər. İlahi, axı mən niyə taleyimi sizə etibar elədim?!

— Sakit olun! — deyə Dronqo divandan ayağa qalxıb səsini ucaldaraq biznesmeni kresloya tərəf itələdi. — Mən axı sizə dedim ki, bütün məsuliyyəti öz üzərimə götürürəm. Səsinizi kəsin və televizora baxın. Bu, hələ başlanğıcdır. Filmin davamını da görəcəksiniz.

— Nə davamdan danışırsınız? — deyə Aleksandr Mixayloviç taqətsiz halda kresloya əyləşdi, — hər şey bitdi. Mən bir meyitəm. Bir adam mənə əl tutmaz. Müflis oldum. Onlar kompaniyanı da ləğv edəcəklər. Mənim zindana basacaqlar. Mən bu çəkilişin saxta olduğunu sübuta yetirə bilməyəcəm.

— Bəlkə siz baxmasanız yaxşıdır? — deyə Fedoseyev təklif elədi.

— Yox! — Aleksandr Mixayloviç inadkarcasına cavab verdi, — mən axıra kimi oturmalıyam.

O, güclü bir adam idi. Həm də inadkar, tərs. Ona indi artıq Rusiyada da biznes adlanan belə çətin işdə yardımçı olan məhz bu keyfiyyətləri idi. Bütün dünyadan fərqli olaraq, bu məfhuma əvvəllər dələduzluqdan tutmuş qətllərin təşkilinə, vergidənyayınmadan tutmuş yalançı şahidliyə, korrupsiyadan tutmuş satqınlığa kimi – ən müxtəlif mənalar verilirdi. Doxsanıncı illərdə Rusiyada bizneslə yalnız etibarlı dövlət «dayağı», cinayətkar aləmlə yaxşı münasibətləri, sarsılmaz psixikası olan və məqsədə çatmaq üçün əlindən gələni əsirgəməyən adamlar məşğul ola bilərdi. Böyük bizneslə məşğul olmaq isə böyük gəlirlər əldə etmək naminə istənilən sazişə, çirkinliyə və cinayətə hazır olmaq demək idi.

Nəhayət, sevgi səhnələri bitdikdən sonra yenidən kinayəli təbəssümlə ekranda görünən aparıcı bu kimi əxlaqın

Aleksandr Mixayloviçin kompaniyasının təmsil etdiyi ölkənin siyasi elitasına xas olduğunu vurğuladı.

— Lakin indi, — deyə aparıcı davam edirdi, — siz daha dəhşətli bir səhnəyə şahid olacaqsınız. Ən əsası isə bunu məhz bizim reportajımızda görəcəksiniz. Biz bu reportajı sizə pozğun əqidəlilərin üzlərindən maskalarını çıxarmaq xatirinə göstərmirik. Nə də bunu evli, ailəli bir adamın əxlaqsızlığını ifşa etmək üçün etmirik. Biz bu reportajı sizə ədalətin və qanunun qələbəsi naminə göstəririk.

— Çox danışır, — Lyubomudrov saata baxdı, — çatdırmaya bilərik.

— Çatdıracağıq, — deyə Dronqo köks ötürdü, — ehtiyatda hələ səkkiz dəqiqəmiz var.

Dronqo özü-özünə əsəblərinin son dərəcə gərildiyini, səbrinin tükənmək üzrə olduğunu etiraf etməkdən qorxurdu. Özü Aleksandr Mixayloviçdən də artıq həyəcan keçirirdi. Əgər hazırladığı plan baş tutmasaydı, o, nəinki taleyini ona etibar etmiş bir adamı pis vəziyyətdə qoyacaqdı, həm də bununla özünün də ölüm fərmanını öz əli ilə imzalamış olacaqdı. Qarşı tərəfə meydan oxumasını ona bağışlamayacaqdılar. Rəqiblər qısa müddətdə və amansız şəkildə onunla hesablaşacaqdı.

Ekranda son kadrlar yayımlanmağa başladı. Qatilin səciyyəvi çapıq olan çiyni göründü.

— Vəssalam, — deyə Aleksandr Mixayloviç zarıdı, — məhv oldum. İndi artıq hər şey bitdi.

Qız pəncərəyə yaxınlaşdı. Günəş şüaları onun bədəninə və az əvvəl uzandığı çarpayıya saçdı. Naməlum qatil əlini yuxarı qaldırdı. İki güllə açıldı. Qız döşəməyə yıxıldı. Qatil əlini bir daha qaldırdı və üçüncü güllə yerdə uzanıb can verən qızın axırına çıxdı.

— Allahım! — Aleksandr Mixayloviç az qala ağlayırdı.

Nümayiş bitmişdi. Təyin olunmuş vaxta dörd dəqiqə yarım vaxt qalırdı. Ekranda yenidən aparıcı göründü.

— Biz bu qətldə filankəsi suçlayırıq, — deyə o, təntənəli surətdə biznesmenin adını elan etdi. Bu səfeh lap özündən çıxmışdı. Aleksandr Mixayloviçi, sadəcə, bir qətldə suçlamırdı. O bu cinayəti ölkə miqyasında şər, namussuzluq, — korrupsiya, əxlaq çirkinliyi, dağılma rəmzi səviyyəsinə qədər ucaldıb, ölkənin bütün bunlara üstün gələcəyi təqdirdə, böyük bir bəladan xilas oluna biləcəyini bəyan edirdi.

Təyin olunan müddətə üç dəqiqədən az vaxt qalırdı. Aleksandr Mixayloviç növbəti dəfə vəkili tərəfindən təklif olunan validol həbini əlinə alıb mexaniki surətdə onu uddu, dalınca da bir qurtum su içdi. Sonra yenidən gözünü televizorun ekranına dikdi. Bu vaxt qəfildən telefon zəng çaldı. Aleksandr Mixayloviç çevrilib telefona baxdı. Heç ayağa qalmağa da taqəti qalmamışdı. Fedoseyev qalxıb mobil telefonu götürdü. Rəisinin vəziyyətinə acıyaraq zəngə özü cavab vermək qərarına gəldi.

— Eşidirəm, — general dedi.

— Aleksandr Mixayloviç haradadır? — Fedoseyev kiminsə qəzəbli səsini eşitdi. O bu xırıltılı uca səsin kimə məxsus olduğunu yaxşı bilirdi. Danışan adam baş nazirin birinci müavini idi.

— Yoxdur, — general özünü itirmədi.

— Ona deyin ki, — zəng edən qəzəbdən boğularaq sözünə başladı. Lakin Savva Afanasyeviç nəzakətdən kənar surətdə onun sözünü kəsdi.

— Heç nə deməyə ehtiyac yoxdur, — deyə general tövsiyə elədi, — bir neçə dəqiqədən sonra televizorunuzu ikinci

kanala keçirin, özünüz hər şeyi görəcəksiniz.

— Nə köçürmədən danışırsınız, lənət şeytana?! — deyə baş nazir bağırdı, — bu lənətə gəlmiş alçaq hardadır? Ona de ki, mənim gözümə görünməsin! Zəng də eləməsin, köpək oğlu! Mən öz əlimlə onu zindana basdıracağam, şəxsən özüm!

Zəng edən bunları deyib dəstəyi asdı. Fedoseyev biznesmenə baxıb vəkilə işarə elədi. Biznesmen artıq heç bir dəyişikliklərə reaksiya vermədən gözlərini yumub oturmuşdu. Aparıcı nə isə danışmağa davam edirdi. Lyubomudrov saata baxdı. Bir dəqiqə yarım vaxt qalırdı.

— Zəng edən kim idi? — deyə Aleksandr Mixayloviç ah çəkərək soruşdu.

— Yanlış zəng idi, kimsə səhv düşmüşdü, — deyə Lyubomudrov gözünü Dronqodan yayındıraraq Fedoseyevin əvəzinə cavab verdi. Bir anlığına o, ekspertin tətbiq etdiyi bu eksperimentin həddindən artıq qəddar olduğunu düşündü. Dronqo hər ikisinin vəziyyətini anlayaraq diqqətini cəmləyib susurdu.

Mobil telefon bir də zəng çaldı. Dəstəyi əlindən yerə qoymayan Fedoseyev onu cəld vəkilə ötürdü, sanki Aleksandr Mixayloviç telefonu onun əlindən alacağından ehtiyat edirdi.

— Eşidirəm, — Lyubomudrov cavab verdi.

— Sizi Londondan narahat edirlər, — deyə o, səciyyəvi ingilis ləhcəsilə tələffüz olunan rus nitqi eşitdi, — cənab Stüart Aleksandr Mixayloviçlə danışmaq istərdik.

— Səhv nömrə yığmısınız, — deyə Vikenti Alekseyeviç cavab verib, bu səfər, ümumiyyətlə, telefonu söndürdü.

— Yenə səhv düşmüşdülər? — deyə Aleksandr Mixayloviç onların hiyləsini anladığını bildirdi.

— Bəli, yenə səhv düşmüşdülər, — deyə Lyubomudrov təsdiqlədi.

Yarım dəqiqə. Sadəcə, yarım dəqiqə qalırdı. Aparıcı canfəşanlığına davam edirdi.

— Vəssalam! İndi o biri kanala keçirin, — deyə Dronqonun gərgin səsi gəldi.

— Lazım deyil, — Aleksandr Mixayloviç etiraz elədi, — onsuz da artıq heç nəyi dəyişmək olmayacaq.

Distansion idarəetmə pultunu əlinə alan Lyubomudrov bir anlığına tərəddüd elədi.

— Keçirin! — deyə Dronqo səsini ucaltdı və vəkil kanalı keçirdi.

Bu kanalda reklam bitdi və ekranda daha bir məşhur teleaparıcı göründü. Milyonlarla tamaşaçının gözlərinə baxaraq sözünə başladı:

— Bugünkü gün müasir tarixə yazılacaq. Ölkəmizdəki demokratiyanın inkişafının dönüş nöqtəsi, qanunilik və ədalət təntənəsinə çevriləcək. — Lakin dediyi şablon sözlərdən sanki bir anlığına utanaraq gözünü əvvəlcədən hazırlanmış mətndən ayırıb kameraya baxdı. — İndicə qonşu kanalların birində məşhur rusiyalı biznesmeni əxlaq pozuntusunda və hətta qətldə suçlayan bir süjet yayımlanmışdır. Bizim ekranda bu növ süjetlər heç bir zaman nümayiş olunmamışdır. Ona görə də biz belə bir çarxın həmkarlarımızın kanalına necə düşdüyünü, qətl barədə kimlərin əvvəlcədən bilərək belə bir qanlı naturalist filminin montaj olunduğunun təfərrüatlarını öyrənmək istərdik.

Kreslosunda əyləşmiş Aleksandr Mixayloviç ətrafa baxdı. Onun gözləri baş verənlərə adekvat reaksiyaya qadir

olmayan bir adamın gözləri kimi ölgünləşmişdi. Aparıcı isə bu arada davam edirdi:

— Məsələ heç tamamilə bir kənara çəkilmiş əxlaq meyarlarında deyil. Hətta biznesmenin ailəsinə və ölkəmizin hüdudlarından kənarda belə tanınmış kompaniyasına bir zərbə rolu oynamış məsuliyyətsizlikdə də deyil. Burada söhbət heç Qərb kreditorlarının Rusiyanın nəhəng kompaniyalarından birinin inkişafı üçün yatırdığı çoxmilyardlı investisiyalardan da getmir. Məsələ həqiqətin özündədir.

Bu gün biz əminliklə qonşu kanalda yayımlanan qeyri-əxlaqi süjetin nəinki güclü peşəkarlar tərəfindən quraşdırıldığını, həm yüksək peşəkar səviyyədə icra olunduğunu iddia edə bilərik. Televiziyada göstərilən qız doğrudan da qətlə yetirilmiş və qətl həqiqətən də törədilmişdir. Lakin bu qətli törədən heç də Aleksandr Mixayloviç yox, bu cinayətin arxasında dayanan, pulu ilə statist aktyorlar kirayələyən, otel nömrəsinə kamera quraşdıran və şərəfsizcəsinə bizim sadəlövlüyümüzdən sui-istifadə edən ssenarist və rejissorlar özləri olub.

Ekranda Aleksandr Mixayloviçin dostları ilə toplaşdığı ziyafətdəki kadrlar göründü. Bütün ziyafət iştirakçıları stol arxasında əyləşib, deyib-gülür, yeyib-içirdilər. Aleksandr Mixayloviç də təmkinlə ziyafətin səhərisi günü öldürülən qızın yanında oturub gülümsəyirdi.

— Bu çəkiliş qətldən bir gün əvvəl olmuşdur, — deyə aparıcı izah elədi. — Öldürülən qızla Aleksandr Mixayloviç həqiqətən də bir-birilə tanış idilər. Lakin bu, adi bir tanışlıq idi, — deyə aparıcı hiylə işlətdi. — Buyurun, özünüz baxın. Budur, onlar yanaşı oturub bir-birilə dilxoşluqla söhbət edirlər. Bir daha təkrarlayıram — çəkiliş qətldən bir gün əvvəl aparılıb və onlardan savayı ziyafətdə olan iyirmidən

çox adam bu şam yeməyinin adi bir dostluq görüşü olduğunu təsdiqləyə bilər.

Aleksandr Mixayloviç əllərini üzündən çəkib televizora baxmağa başladı.

— Ziyafətin səhərisi günü, — deyə aparıcı davam edirdi, — Aleksandr Mixayloviç Parisə getdi. Budur, üzərində ayın tarixi ilə reysin vaxtının qeyd olunduğu bilet də mənim əlimdədir — o, bileti kameraya yaxınlaşdırdı. — Aleksandr Mixayloviç iki sərhəddən keçib — bizim sərhəddən və Fransa sərhədindən. Və hər iki tərəfdə onun iki ölkənin sərhəd məntəqələrindən keçdiyinə dair pasportuna möhürlər vurulmuşdur. Təyyarə günorta saat 13:30 havaya qalxmışdır. Bu da «Şeremetyev-2» aeroportundan bizim sorğumuza cavab olaraq göndərilən təyyarənin uçuş saatı barədə arayışdır. Təyyarə tam vaxtında havaya — qalxıb, üç saatdan sonra isə Parisdə enmişdir. Beləliklə, günorta saat ikinin yarısından beşin yarısına qədər Aleksandr Mixayloviç Moskva-Paris reysilə uçan təyyarədə olub.

Lyubomudrov telefonu əlindən stola qoymağı unutmuşdu və nədənsə iki əlli ondan yapışıb sinəsinə sıxmışdı. Aleksandr Mixayloviç ikinci lentin nümayişinin nə ilə bitəcəyini gözləyərək həyəcandan yerindən ayağa qalxdı.

— İndi isə diqqətinizi qətl məqamına cəmləşdirin, — deyə aparıcı davam edirdi.

Ekranda yenidən İrina göründü. O, pəncərəyə yaxınlaşdı, pərdəni araladı, günəş şüaları onun üzünü, bədənini və az əvvəl uzandığı çarpayını işıqlandırdı... Bu yerdə kadr dayandırıldı.

— Baxın, — aparıcı dedi, — bu bədbəxt qız pərdəni araladı və günəş düz onun üzünə saçdı. Lakin bu çirkin qondarmanın yaradıcıları bir məqamı nəzərdən

qaçırmışdılar. Qızın öldürüldüyü və Aleksandr Mixayloviçin qətldən əvvəl kirayəlƏdiyi otel nömrəsi binanın qərb qanadında yerləşirdi və günəş oraya yalnız günortadan xeyli keçdikdən sonra düşür. Lakin qıza diqqətlə baxılsa, günəşin özünün yuxarı səviyyəsindən xeyli aşağıda olduğunu və qızın tam üzünə düşdüyünü görmək mümkün olar. Biz şəxsən özümüz həmin otel nömrəsinə baxış keçirmişik.

Ekranda qətl törədilmiş otel nömrəsi göründü. Aparıcı pərdəni çəkdi və günəş şüaları düz onun üzünə saçdı.

Aleksandr Mixayloviç sanki televizorun ekranına hoppanmağa hazır olan adam kimi yerindən sıçradı. Lyubomudrov da nəfəs almadan onun yanında donub qalmışdı.

— Bütün bunları nəzərə alaraq, — deyə təntənəli tonda aparıcı yekun vurdu, — biz qətl səhnəsini əks etdirən bu plyonkanın artıq Aleksandr Mixayloviç getdikdən sonra montaj olunduğunu qətiyyətlə iddia edə bilərik.

Dronqo dişlərinin sızıltısını hiss etdi. Bütün veriliş ərzində o, ağzından bir kəlmə də olsun söz qaçırmaqdan ehtiyat edərək dişlərini bir-birinə sıxıb oturmuşdu.

— Bu çirkin ssenarinin quruluşçuları hər şeyi nəzərə alıblar, — deyə aparıcı sözünə davam edirdi, — onlar hədə-qorxu və ya yaxşı pul qarşılığında bu iyrənc «kinoda» çəkilmək üçün qız axtarıb tapmışlar. Qatil rolunda finalda Aleksandr Mixayloviçin iştirakını qələmə vermək üçün çiynində çapıq təsvir olunmuş bir aktyor dəvət etmişlər. Qeyd edək ki, Aleksandr Mixayloviçin çiynində həqiqədən də belə bir çapıq var. — Kamerada qatilin çiyni göstərildi. — Lakin Aleksandr Mixayloviç heç bir halda nömrədə ola bilməzdi, çünki o, həmin vaxt təyyarə ilə Parisə gedirdi. Bütün bunlardan isə biz yeganə bir nəticə çıxara bilərik: bu videoçəkiliş biznesmenin rəqibləri

tərəfindən işlənib-hazırlanaraq həyata keçirilən müdhiş bir saxtakarlıqdır. Bu kimi çirkin oyunlar...

İndi artıq ikinci aparıcı istehzalar yağdırırdı. O, Aleksandr Mixayloviçin rəqiblərini Adəmlə Həvvadan tutmuş — Rusiyanın maraqlarına xəyanətə qədər bütün bəşəri günahlarda suçlayır, bütün bu saxtakarlıqların tuşlandığı hərracdan, məqsədlərinə çatmaq üçün şantaja, saxtakarlığa və hətta qətlə belə əl atan rəqiblərin çirkin metodlarından bəhs edirdi. Rəqibin yırtıcı siması bütün publisistik parıltısı ilə iri planda nümayiş olundu.

Aleksandr Mixayloviç taqətsiz halda oturduğu kreslosunun arxasına söykəndi. Dərindən ah çəkdi. Dronqoya baxıb əllərini açaraq ona tərəf atıldı.

— Çox sağ olun, çox təşəkkür edirəm, — deyə o, eksperti qucaqlayıb bağrına basaraq təkrarlayırdı, — siz məni xilas etdiniz. Mənim ailəmi xilas etdiniz... Mənim biznesimi... Hər şeyə görə sizə çox minnətdaram. — Gözləri yaşla dolmuşdu. Görünür, həmin anda o, psixi şoka bənzər bir vəziyyətdə idi. Sevinc və səmimi minnətdarlıq şoku. Lyubomudrov əlində sıxıb tutduğu telefonun söndürülmüş olduğunun fərqinə varıb dərhal onu qoşdu. O, çaşqın halda gülümsəyirdi, sanki Dronqonun ona təfərrüatı ilə bəhs etdiyi ikinci plyonkadan xəbərsiz imiş kimi. Lakin Vikenti Alekseyeviç kimi təcrübəli bir vəkil də bu qədər heyranedici effektə ümid etmirdi. İndi o, Dronqonun, mümkün uğursuzluqları belə nəzərə alaraq, ikinci lentin yalnız birinci lent nümayiş olunandan sonra yayımlanmasını tələb etməsinin səbəbini anlayırdı. İkinci lentin nümayişini yubada, ya da, ümumiyyətlə, efirə buraxmaya bilərdilər, o halda bütün planları alt-üst olacaqdı. Lakin belə bir ardıcıllıqda olan təəssürat güclü psixoloji bir şok rolu oynayırdı. Belə bir zərbədən sonra rəqib ölüm nokautunda olmalıydı.

Vikenti Alekseyeviçin uzunillik vəkillik təcrübəsi ona bu saatdan sonra nəinki bütün ittihamların Aleksandr Mixayloviçin üzərindən götürüləcəyindən, hətta yarım saat əvvəl onu parçalamaq istəyən izdihama qurban verməyə hazır olanlar tərəfindən belə şəfqət və anlayış duyacaqlarından bəhs edirdi. Bu anda sanki onun fikirlərinin təsdiqi olaraq telefon zəng çaldı.

— Eşidirəm, — deyə Lyubomudrov bu zəngin ilk uğur siqnalı olduğunu duyaraq təntənə ilə cavab verdi.

— Aleksandr Mixayloviçlə danışmaq olarmı? — deyə birinci baş nazirin səsi eşidildi. Bu səfər onun səsində hətta üzrxahlıq notları da duyulurdu.

— Bu dəqiqə — Lyubomudrov gülümsəyərək telefonu rəisinə uzadırdı.

— Eşidirəm, — deyə hələ də həyəcandan səsi titrəyən Aleksandr Mixayloviç cavab verdi.

— Salam, — deyə dəstəkdən gələn səs Aleksandr Mixayloviçə bir musiqi sədaları kimi səsləndi, — səni təbrik etmək istəyirəm. Şərəfsizlərə yaman zərbə endirdiniz! Bütün ölkə bu gün onların sənə qarşı nə dərəcədə iyrənc davranmaq istədiklərinin şahidi oldu. Bunu sənə demək mənim üçün xüsusilə xoşdur, çünki mən hər zaman sənə axıra qədər və bütün qəlbimlə inanan tək-tük adamlardan biri olmuşam...

Baş nazir danışmağa davam edirdi, Aleksandr Mixayloviç isə kənara çəkilib telefonu yuxarı qaldıraraq vəkilinə göstərirdi. Onlar qalib idilər. Vikenti Alekseyeviç də cavabında gülümsəyirdi.

— İndi biz artıq şübhə etməyə bilərik, — birinci baş nazir davam edirdi, — hərracda qələbə çalacağınızdan əminəm. Bu gün siz bütün Rusiya boyunca milyonlarla müttəfiq və

dost qazandınız. O alçaqların sənin başına nə oyunlar açmaq istədiklərini düşünmək belə qorxuncdur.

— Bəli, — Aleksandr Mixayloviç təsdiqlədi, — doğrudan da qorxuncdur.

Baş nazir hələ bir neçə dəqiqə danışdı. Vikenti Alekseyeviç Dronqoya yaxınlaşdı.

— Siz haqlı çıxdınız, — o, sakitcə bildirdi, — bu, daha effektiv bir variant idi. Lakin həm də ən risklisi idi, — deyə vəkil əlavə elədi. — Sözün doğrusu bu axşam yaşadıqlarımı bir daha yaşamaq istəməzdim. Sarsıdıcı emosional bir şok idi.

— Onların bizə qarşı silah kimi istifadə edə biləcəkləri o videonu onlardan birdəfəlik almaq lazım idi — deyə Dronqo bildirdi. — Əgər biz öz kasetimizi onların nümayişindən əvvəl efirə buraxsaydıq, sonradan «düşmən çəkilişini» qətlin yalnız bir qismində inkar edə biləcəkdik. Mən isə Aleksandr Mixayloviçi o nəhs nömrədə olması ilə bağlı istənilən şantaj cəhdlərindən birdəfəlik xilas etmək istədim. İndi artıq oteldəki eşq macəralarının Aleksandr Mixayloviçin iştirakı ilə çəkildiyinə az adam inanacaq. — Bütün baxanlar yataqda da rol ifa edən statist aktyorun olduğundan əmindirlər. Bu isə Aleksandr Mixayloviçin üzərindən qətl ittihamlarının götürülməsindən az əhəmiyyətli məsələ deyil.

— Siz dahi adamsınız, — Lyubomudrov səmimi heyranlıqla bildirdi, — bütün xırdalıqları hesablayıb ərsəyə gətirmək — valehedici bir şeydir!

Aleksandr Mixayloviç söhbətini bitirib telefonu stola qoydu və yenidən Dronqoya yaxınlaşdı.

— Mənə necə böyük bir yaxşılıq etdiyinizi heç təsəvvür belə edə bilməzsiniz, — o, Dronqonun gözünün içinə baxaraq dedi. — İndi məndən istənilən qonorarı istəməyə haqqınız

var. Mən hətta gəlirimizdən əldə edəcəyimiz faizləri də sizə ödəməyə hazıram.

Şərqdə deyirlər ki, kişi qiymətləşə, yəni bazarlıq edə bilər, – deyə Dronqo gülümsədi, – hətta bir çox xalqlarda belə bir adət də var, amma əgər hansısa bir mübahisə, çəkişmə bitibsə və yekun qiymət deyilibsə, o halda əsl kişi bu qiyməti dəyişə bilməz, heç bir halda. O cür «alverçilərə» nifrət edirlər.

— Həyatımda sizin kimi bir insana rast gəldiyim üçün çox bəxtəvərəm, — deyə Aleksandr Mixayloviç bildirdi.

Telefon yenidən zəng çaldı, zəngə Lyubomudrov cavab verdi.

— Londondandır, — deyə vəkil təntənə ilə xəbər verdi, — cənab Stüart sizinlə danışmaq istəyir.

Dördü də qəhqəhə çəkib güldülər. Televizorun ekranında isə onları qələbəsinə çatdıran aparıcı hələ də uğurlu biznesmen üçün zəruri keyfiyyət sayılan əxlaq normalarından danışmağa davam edirdi.

# *ON BİRİNCİ GÜN*

Ortayaşlı kişi «Şeremetyevo-2» aeroportundakı sərnişin zalında əyləşmişdi. Tərcüməçi monoton səsilə ona səhər-səhər Moskvada nəşrə buraxılmış sensasiyalı qəzet məqalələrinin sərlövhələrini tərcümə edirdi. Bütün nəşrlər dünən axşam iki televiziya kanalında yayımlanan reportajlardan xəbər verirdi və demək olar ki, hamısı cinayətdə ittiham olunan biznesmenin indi artıq nəinki cəmiyyət qarşısında bəraət qazandığını, həm də bu gün səhər başlanan hərracda böyük ehtimalla qalib gələcəyini iddia edirdi. Qərb investorları yolverilməz şantaj

üslublarına məruz qalmış biznesmenin kompaniyasına öz dəstək və rəğbətini bildirmişdi. Bütün qəzetlər müdhiş saxtakarlığa qadir «ikinci tərəfdən» bəhs edirdi. Demək olar ki, hamı sifariş olunmuş və quraşdırılmış bu qətlin məqsədinin biznesmen və onun kompaniyasını uzunmüddətlik, bəlkə də həmişəlik iyrənc şəkildə nüfuzdan salmaq olduğundan əmin idi.

Hekket əsəbi halda tərcüməçinin sözünü kəsdi:

— Yetər. Bütün Rusiya mətbuatının eyni şeylərdən bəhs etdiyini anladım. Elə bil sözləşiblər...

— Dünən bütün Rusiya hər iki reportajı gördü, — deyə tərcüməçi izah elədi, — heç kim bir vaxtda iki sensasiya gözləmirdi.

«Hə, – deyə Hekket təəssüflə fikirləşdi, – heç mən özüm də belə bir dönüşü təxmin etmirdim. Bu günəş məsələsində bu qədər axmaq bir yanlışlığa necə yol verə bildim? İşə bir bax, belə cüzi bir detal kamil düşünülmüş əməliyyatı məhv elədi. Günəşin qərb tərəfdə günortadan sonra çıxdığı kimin ağlına gələrdi?!»

— Cənab Hekket, — deyə o, tərcüməçinin səsini eşitdi, — sizə bir banderol gətirdilər.

— Nə banderolu? — deyə Hekket düşüncələrindən ayrıldı. — Bu nədir?

Tanımadıqları cavan bir oğlan Hekketə onun Paris reysinin nömrəsi yazılmış qalın zərfi uzadırdı. Hekket bağlamanı alıb barmağı ilə zərfi yoxladı.

— Bəlkə içində bomba var? — deyə tərcüməçi təşvişə düşdü.

— Bunu gətirəni geri çağırın, qoyun zərfi özü açsın, — deyə Hekket tərcüməçiyə əmr elədi, — özü də burada yox, başqa bir yerdə açsın.

Tərcüməçi yerindən sıçradı, lakin Hekket əlini qaldırıb onu yerinə oturtdu. Zərf möhürlü deyildi, açıq idi. Hekket içində bir kaset və məktub gördü. Məktubu çıxarıb oxumağa başladı.

«Əzizim Hekket, mən sizə «Rits» otelindəki iki gözəlçəyə görə borclu qaldım. Qeyd edim ki, hədiyyəniz lap yerinə düşdü. İndi mən sizə cavab olaraq öz hədiyyəmi göndərirəm. Bu video çəkiliş mənim iştirakımla hazırlanmışdır. Məhz bu lent milyonlarla tamaşaçıya günəşin qərb tərəfdə nə zaman çıxdığını izah elədi. Ümid edirəm ki, hədiyyə zövqünüzcə olacaq. Hər bir kəsin özünəməxsus firma üslubu var. Hər bir halda, hər vəziyyətdə son sözü demək, nöqtəni qoymaq da mənim üslubumdur. Ümidvaram ki, sizinlə üçüncü dəfə də görüşəcəyik. Unutmayın ki, sizinlə bir yerdə şam etməyi sövdələşmişdik. Daim sizin, Dronqo».

Hekket çaşqınlıqla kasetə baxdı. Sonra bir daha əlində tutduğu məktuba baxıb pərt halda gülümsədi. Həyatında ilk dəfə idi uduzmuşdu. Özündən daha güclü bir rəqibə uduzmuşdu və bu unikal məğlubiyyətin xatirəsi olaraq ona bu kaseti yollamışdılar – daha güclü bir peşəkarın hədiyyəsini.

— Vaxtdır. Bir azdan təyyarə yola düşəcək, buyurun, yerlərinizə keçin, — deyə aviakompaniya işçisi bildirdi.

— Bəli, vaxtdır, — Hekket razılaşdı, — bu kaseti zibil vedrəsinə atın. O, mənə bundan sonra heç vaxt lazım olmayacaq.

# 1

Konqlomerat – müxtəlif şeylərin və hissələrin nizamsız yığını, birləşməsi